AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

FÜZULI BAYAT

# QAÇAQ FOLKLORU SOSİAL-İQTİSADİ Və SİYASİ-MƏDƏNİ KONTEKSTDƏ

BAKI – 2019

**Füzuli Bayat. Qaçaq folkloru sosial-iqtisadi və siyasi-mədəni kontekstdə.** Bakı, Elm və təhsil, 2019, - 304 səh.

folklor.az

B $\frac{4603000000}{\text{N-098-2019}}$ Qrifli nəşr

© Füzuli Bayat, 2019

# İÇİNDƏKİLƏR

**Ön Söz**.........................................................................6

**BİRİNCİ FƏSİL**
**QAÇAQ FOLKLORU: TARİXİ PERSPEKTİV BAXIMINDAN ÖZƏLLİKLƏRİ**
1.1. Dünyada qaçaqçılıq və qaçaqların soyğunçulardan, quldurlardan, həramilərdən fərqi.................................................7
1.2. Folklorun funksionallığı baxımından qaçaqçılıq hərəkatının sosial-iqtisadi mahiyyəti...........................................16
1.3. "Social Bandits" nəzəriyyəsi baxımından qaçaqçılıq hərəkatı.........................................................................24
1.4. İctimai etiraz (protesto) baxımından qaçaqlar və digər sosial etirazçılar.................................................................32

**İKİNCİ FƏSİL**
**XIX YÜZİLDƏ AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ və SİYASİ ŞƏRAİT: KƏNDLİ HƏRƏKATI və QAÇAQÇILIQ**
2.1. Azərbaycanın işğalı və təhkimçilikdən sonrakı kəndli hərəkatı...............................................................................39
2.2. Qaçaqçılığın ortaya çıxmasında kəndli etirazları və üsyanlarının rolu .......................................................................44
2.2.1. İşğala qarşı kəndli üsyanları ................................................44
2.2.2. Kəndli üsyanlarından sonra ortaya çıxan məşhur qaçaqlar.......................................................................49
2.2.3. Yazılı ədəbiyyatda və dövrü mətbuatda qaçaqlar ...............67
2.3. Şifahi və yazılı tarixə görə XIX yüzilin qaçaqları..................81

**ÜÇÜNCÜ FƏSİL**
**DÖVLƏT-XALQ MÜNASİBƏTİ BAXIMINDAN QAÇAQLARIN və DİGƏR SOSIAL ETİRAZÇILARIN İCTİMAİ TƏRKİBİ**
3.1. Dövlət-xalq münasibəti baxımından qaçaqların sosial tərkibi..................................................................... 86

3.2. Qaçaq hekayətlərinə, dastanlarına görə
qaçaq düşmənin səbəbləri ........................................................96
3.3. Qaçaqların bir-biri ilə düşmənçiliyi ....................................105
3.4. İctimai qaçaqların yazılmamış kodeksi...............................112
3.5. Xalq nümayəndələri ilə dövlət adamlarının qarşıdurması....117
3.6. Son söz........................................................................120

**DÖRDÜNCÜ FƏSİL**
**ŞİFAHİ (SÖZLÜ) TARİX BAXIMINDAN**
**QAÇAQ FOLKLORU**

4.1. Giriş ........................................................................ 122
4.2. Azərbaycan qaçaq rəvayətləri, nəğmələri,
deyimləri və nağılları ................................................... 128
4.3. Qaçaq folklorunun mövzu dairəsi ................................ 135
4.3.1. Varlıdan alıb yoxsula vermək .................................... 135
4.3.2. Düşmənə qarşı da mərdlik ......................................... 138
4.3.3. Oğurluq ...................................................................... 142
4.3.4. Öldürülən qaçağın intiqamının alınması ..................... 145
4.3.5. Dini motivlər və batil inanclar .................................. 151
4.4. İctimai-siyasi həqiqətlərin bərpasında şifahi tarix və
memorat janrının rolu.................................................... 156
4.4.1. Sosial davranışa nəzarət............................................. 159
4.4.2. Tarixi həqiqətlər ........................................................ 160
4.4.3. Qaçaqların yardımlaşması .......................................... 162
4.4.4. İftira ........................................................................... 163
4.4.5. Xəyanət....................................................................... 164
4.5. Nəticə........................................................................... 165

**BEŞİNCİ FƏSİL**
**FAKELOR PROBLEMİ BAXIMINDAN**
**QAÇAQ DASTANLARI**

5.1. Sosial-iqtisadi baxımdan qaçaq dastanlarında
Koroğlu ənənəsi ............................................................ 167
5.2. İdeoloji və siyasi fakelorda Qaçaq dastanlarının rolu ...........187
5.3. Qaçaq dastanlarının (mövzu, süjet və filoloji) özəllikləri ....197

5.4. Qaçaq dastanlarının struktur-semantikası və
ədəbi funksiyası ......................................................................213
5.5. Son söz......................................................................................232

**ALTINCI FƏSİL**
**SOVET İDEOLOGİYASININ**
**QAÇAQ HƏRƏKATINA BAXIŞI**
6.1. Məsələnin Qoyuluşu..................................................... 234
6.2. Sovet folklorşünaslığında qaçaqçılıq hərəkatına
ikili ideoloji münasibət..............................................................235
6.3. Qaçaq folkloruna müstəqillikdən sonrakı münasibət.............247
6.4. Sonuc .......................................................................................258

**YEDDİNCİ FƏSİL**
**FOLKLORLAŞAN SOVET REJİM**
**QAÇAQLARI və ya QOLÇOMAQ HƏRƏKATI**
7.1. Sovet dövrü qaçaqçılığının ümumi mənzərəsi.......................260
7.2. İkinci qaçaqçılıq və ya qaçaqaç illəri.....................................263
7.3. Antisovet üsyanları və sürətlə artan narazılıq .......................269
7.4. Müqavimətin və mübarizənin kəndli-qolçomaq forması.....278
7.5. Nəticə.......................................................................................286

**QAYNAQLAR**.........................................................................288

# ÖN SÖZ

Elm və mədəniyyət üçün uc sahələr və marjinl görünən mövzular vardır ki, bunlar sadəcə rəsmi olanların, akademik elmin, ənənəvi mədəniyyətin coğrafiyasından kənarda qalmamış, həm də rəsmi elm nümayəndələri tərəfindən ciddiyə alınmamış, araşdırma sferasından uzaqlaşdırılmışdır. Ancaq paradoksal da olsa düşüncə tarixini bir xeyli irəli götürən də məhz tarixin ucbucağında qalan bu elm sahələri və marjinal mövzulardır. Elm tarixi öz inkişafına görə klassik düşüncə, akademik araşdırmadan daha çox qeyri-səlis məntiqə, aşırı və ya transendental dünyaya enə bilən ezoterik yoruma, elmin üfüqlərini zorlaya bilənlən hipotezlərə borcludur. Fərabi, İbn Ərəbi, İbn Xaldun, Nietzsche, Heidegger, Hobsbawm, Foucault, Derrida... elmin sərhəddini tanımayanlardandır. Elm və düşüncə tarixi hər zaman belə olmuşdur və belə də olacaqdır. Qaçaq folkloru da tarixin (dəliliyin tarixi kimi, protesto mədəniyyəti kimi) sərhəddində, sərhəddin uc nöqtəsində, elmin qırağında qalmış, içəri girə bilməmiş mövzulardandır. Halbuki sosial, siyasi, ideoloji və mədəni dünyamızı dəyişən, iqtidar tarixini, xalqın protesto mədəniyyətini bəsləyən, parametrlərini təyin edən ucda-bucaqda qalan, ilk baxışda əhəmiyyətsiz kimi görünən mövzulardır. Bu mövzular bizim viziyonlarımızı açan, bizi yeni bir düşüncə dünyasına götürən, fəlsəfi kəşflərə sövq edən aşırılılıklarımızdır.

Bu əsər qaçaqçılığın (qaçaq arxetipi/archetype) sosial-iqtisadi, siyasi-mədəni bazasının və eyni zamanda qaçaqların ictimai tərkibinin nə olduğu sualına cavab verəcək, iqtidar-xalq münasibətində qaçaqların rolu və mövqeyini təyin edəcəkdir. Siyasi şərtlərin, ictimai formasiyanın nəticəsi olan qaçaqçılıq bütünüylə folklorun protesto funksiyasını yerinə yetirir, hakimiyyətin, onun nümayəndələrinin protestoya qarşı rolunu müəyyənləşdirir, primitiv də olsa xalqın etiraz, dirəniş fəlsəfəsini formalaşdırır.

Düşünərək oxumaq arzusu ilə müəllifdən.

# BİRİNCİ FƏSİL
# QAÇAQ FOLKLORU: TARİXİ PERSPEKTİV BAXIMINDAN ÖZƏLLİKLƏRİ

## 1.1. Dünyada qaçaqçılıq və qaçaqların soyğunçulardan, quldurlardan, həramilərdən fərqi

Qaçaqçılıq və ya soylu əşkiyalıq fərdi haqq davasıdır, intiqam almağın, zülmə qarşı üsyan etməyin bir şəklidir, yeni bir qanun qoymağın təcrübəsidir. Harada ki, zülm həddini aşmış, harada ki, insanların hüquqları pozulmuş, dövlət də buna laqeyd qalmış, orada qaçaq hərəkatı baş vermişdir. Qaçaqlar fəaliyyətləri ilə artıq işləməz hala gələn qanunu öz bölgələrində yenisi ilə əvəz etməklə yeni bir nizam qurmağa çalışan qorxmaz insanlardır. Rəsmi qanun hər bölgədə fərqli olan, ona tərs düşən yeni bir qanunun olmasına qarşı çıxdığından varlıdan alıb yoxsula verən, üsyan çıxaran bu qrupları qanundan kənar elan etməklə onların dövlətdən qaçaq düşməsinə səbəb olmuşdur. Bunun nəticəsində **tarixə özünəməxsus ədalət qanunları qoyan və uyğulayan insanlar çıxmışdır ki, onlara qaçaq (Türkiyədə əşkiya, Rusiyada pazboynik, İngiltərədə və Fransada bandit) deyilmişdir.** Hər ölkənin, hər çağın özünəməxsus qaçaqları olmuş, onların həyatları, fəaliyyətləri, mübarizələri zamanla əfsanələşmiş, haqlarında nəğmələr oxunmuş, rəvayətlər söylənmiş, əhvalatlar deyilmiş, dastanlar qoşulmuş, bir sözlə tarixi kimlikləri epik qəlibə salınaraq folklorun xalq qəhrəmanı səviyyəsinə qaldırılmışdır.

Ancaq qanundan, cəzadan qaçanların hamısını bir qayda olaraq qaçaq adlandırmaq olmaz. Belə ki, oğurluq, soyğunçuluq, quldurluq etməyə görə hüquq mühafizə orqanlarından və hətta həbs edildikdən sonra həbsxanadan qaçıb təkbaşına və ya iki-üç nəfərlə fərq qoymadan hər kəsi soyan, hər kəsdən

oğurlayan, məzlumlara zülm edən, bir çox halda milli dəyərlərə (namus, kişilk, haqq və s.) hörmətsizlik edənlərə qaçaq demək mümkün deyildir. Bu tip "qaçaqlar" ya unudulmuş, ya da haqlarında mənfi anlamlı folklor materialları yaranmışdır. Ancaq onlar heç bir zaman xalqın müsbət qəhrəmanı olmamışdır.

Hər halda Eric Hobsbawmun intiqamçılar, oğrular, soylu qaçaqlar, haiduklar haqqında verdiyi bölgünün də önəmi vardır. Türkcədə bir neçə fərqli tərcüməsi olan qaçaqlarla bağlı əsərində E.Hobsbawn tərkibinə, fəaliyyət göstərdiyi tarixi kəsimə və ölkəyə görə ibtidai dirənişçi adlandırdığı qaçaqları bir neçə başlıq altında araşdırmışdır[1]. Qaçaq folklorunun ən önəmli tərəflərindən biri xalqın yaxşı və pis qaçaq, qaçaq və quldur adı altında bu sosial hadisəyə münasibətini bildirməsidir. Bu həm də digər xalqlarda qaçaq termininin qarşılığı kimi istifadə edilən anlayışlar arasındakı fərqi də üzə çıxarır. Xüsusən slavyan xalqlarında haqlarında saysız-hesabsız nəğmələr qoşulan quldurlar buna misal ola bilər. Özəlliklə Stepan Razin, Puqaçov kimi başqa xalqları, hətta öz həmkəndlilərini soyan zalım quldurlar daha çox fərqlənirlər.

Burada məşhur dövlət xadimi Nikola Makiavellinin aşağıdakı fikri yada düşür: "Quldurlar əksərən varlıları soyurlar, hökumət isə daha çox yoxsulları soyur, ona bu cinayətdə köməklik göstərən varlıları isə müdafiə edir. Quldurlar öz işlərini görərkən həyatlarını təhlükə qarşısında qoyurlar, hökumət isə demək olar ki heç bir şeylə risk etmir. Quldurlar heç kimi zorla öz dəstələrinə qatmırlar, hökumət isə əsgərlərini çox vaxt zorla orduya alır. Quldurlar əldə etdikləri qənimətin ço-

---

[1] Bax. Hobsbawm Eric J. (1995). Sosyal isyancılar. Çeviren: N.Doğru. İstanbul: Sarmal yayınları; Hobsbawm Eric J. (1990). Haydutlar. Çeviren: F.Taşent. İstanbul: Logos yayınları; Hobsbawm Eric J. (1997). Eşkıyalar. Çeviren: O.Akalın ve N.Hasgül. İstanbul: Avesta yayınları; Hobsbawm Eric J. (2016). İlkel asiler. Çeviren: U.Kasapoğlu. İstanbul: İletişim yayınları

xunu bərabər paylaşırlar, hökumət isə sərvəti qeyri bərabər bölür: yalanda daha çox iştirak edənlərə daha çox sərvət düşür. Quldurlar insanları məqsədli şəkildə yoldan çıxarmır, hökumət isə məqsədinə çatmaq üçün bütöv bir uşaq və böyük nəslini saxta dini vətənpərvərlik təlimi ilə yoldan çıxarır"[2].

Dünyanın bir çox yerində olmasına baxmayaraq qaçaqçılığın fərqli anlamlar qazandığı bir gerçəkdir. Qaçaqları çox vaxt quldurlarla, soyğunçularla, oğrularla eyniləşdirmişlər. Xüsusən, rus və Balkan slavyanlarının həm tarixi sənədlərində, həm də folklorunda başına dəstə yığaraq soyğunçuluq, quldurluq edənlərlər digər xalqların qaçaq adlandırdıqlarının müqabilidr. Quldurluq əslində şəxsi keyfiyyət olub təhdidlə, təzyiq göstərməklə, zor tətbiq etməklə, bəzən də öldürməklə soymaq, talan etmək məqsədi güdən bir qrup insanların fəaliyyətidir. Quldurları, soyğunçuları hərəkətə gətirən əsas qüvvə cəhalətdir, pul, mövqe və s. qazanmaqdır, bəzən də alicənablıqdır. Ona görə də xalq yaddaşında bu insanlar ya qaniçən, acgöz, ya da azadlıq uğrunda savaşan mərd savaşçılar kimi qalmışdır. Təbii ki, rus, ukrayna, serb, bolqar folklorunda quldurlarla, soyğunçularla bərabər kəndli hərəkatı iştirakçıları haqqında olan folklor nümunələri haydut və ya qaydutskiy folklor adı altında öyrənilmişdir.

Rus tarixçiliyində və folklorşünaslığında talan, quldurluq, soyğunçuluq kimi anlayışlar savaşlarla bir yerdə, müharibələrin məntiqi nəticəsi kimi öyrənilmişdir. Rus salnamələrində savaş, talan, qarət sözləri çox vaxt sinonim kimi işlədilmişdir. Məsələn, Vladimir Monamaxın hakimiyyəti zamanı müharibələr dövlət xəzinəsini doldurmaq üçün aparıldığından qarət, yağma yürüşləri kimi öyrənilmişdir. Quldurlar haqqında

---

[2] Макиавелли Николо (1990). Государь. Пер. Г.Муравьева. Москва: Планета, s.84

rus bılinalarında da məlumat verilmişdir ki, bunun ən gözəl örnəyi İlya Muramets və Solavey Razboynik haqqında olanlardır. Mifoloji və epik ünsürlərlə zəngin bu bılinada quldurluğun tipik nümayəndəsi Solovey Razboynikdir ki, mənfi obraz kimi təqdim edilir. Rusiya və Ukraynanın monqol-tatar işğalından sonrakı zamanlarında qaçaq-quldurluq artmağa başladı və qaçaq-quldur basqınları bütün knyazlıqlarda ən böyük problem halına gəldi. Quldur dəstələri kəndləri, şəhərləri, hətta kilsələri qarət edir, insanlara zülm edirdilər. Bunun üçün yaradılan ordu birlikləri də quldurların qarşısını ala bilmədi, hətta bəzi ordu komandirləri əsir düşdülər, öldürüldülər. Və bütün bunlar qaçaq folklorunda (ruslarda quldur mahnıları) əks olunmağa başladı[3]. XV-XVI yüzillərdən başlayaraq qaçaq-quldurluq kazaklıqla birləşərək yeni tip quldur obrazı olan atamanı formalaşdırdı.

Urkayna, serb, macar, xorvat və s. tarixşünaslığında və folklorunda ataman sözü işlədilmədiyindən qayduk/xayduk sözlərinə rast gəlirik. Sözlüklərdə qayduk Balkanlarda, Macarıstanda Osmanlı hakimiyyətinə qarşı üsyan çıxaran partizanlara deyildiyi kimi təhkimçilik Rusiyasında səyyar nökər, ya xidmətçiyə deyilir. Bununla bərabər haydutluq etmək termini də vardır ki, XVIII yüzildə Ukraynada Polşa hökumət adamlarına qarşı mübarizə aparan xalq-azadlıq hərəkatına və Ukraynada vətəndaş müharibəsi zamanı yeni sistemə qarşı savaşan silahlı millətçi qrupa deyilir[4].

---

[3] Сумцов Николай Федорович (1907). “Разбойничьи песни”, Энциклопедический словарь Брокгауза и Ефрона. 86 т. СПб; https://ru.wikipedia.org/wiki/Разбойничьи песни

[4] Ожегов Сергей Иванович, Шведова Наталия Юльевна (2006). Толковый словарь русского языка. Москва: Москва: Российская Академия Наук, Институт русского языка им. В В Виноградова, с.125

Əslində ərəbcə haydut (silahlı soyğunçuluq edən, yol kəsən) sözündən olan qayduk/xayduk terminini qaçaqçılıq edən silahlı kəndli anlamına gələn macarcadakı hayduk, serbcədəki ayduk, bulqarcadakı aydutin sözünə bağlayanlar da vardır. Bu serb, xorvat, boşnak, macar əsilli qaçaqların hamısı Osmanlılara qarşı savaşmamış, bir çoxları Avstriya işğalına, məsələn, Yuray Yanoşik, çoxu isə osmanlılara qarşı, məsələn Velko Petroviç, Bayo Pivlyanin, Hacı Dimitr, Pyotr Petsiya, bəziləri Şandor Roja serblərə qarşı və s. vuruşmuşlardır. Təbii ki, bu quldurların xalqa görə tək müsbət məziyyətləri yoxsullara, əzilənlərə yardım etmələridir. Bunun ən tipik nümayəndəsi meşələrdə gizlənərək serb, bulqar varlılarına, Avstriya hökumət adamlarına qarşı savaşan, varlıları soyub yoxsullara verən Robin Hud tipində olan qaçaqlardır. Balkan qaçaqlarının sosial tərkibi də müxtəlif olmuşdur. Belə ki, onlardan bəziləri orduda xidmət edən əsgər, bəziəri iri torpaq mülkədarları, bəziləri oğru, quldur, bəziləri yoxsullaşmış kəndlilər, bəziləri də türklərə və müsəlmanlara nifrət edən millətçilərdən ibarət idi.

Osmanlı idarəsinə qarşı savaşan silahlı rus və ukrayna, serb və xorvat, macar və boşnak kəndlilər, xüsusən də 1877-1878-ci il rus-türk müharibəsi zamanı Rusiya ordusu tərəfində savaşda iştirak etmiş, Balkanları azad etmək üçün türklərə hər cür zülm etmişlərdir.

Azərbaycanda və Türkiyədə haqqlarında rəvayətlər, mahnılar, bayatılar, dastanlar qoşulan soylu əşkiya və ya qaçaq olanlardır. Ona görə də Hobsbawm bu tip insanları quldurlardan, yolkəsənlərdən fərqləndirmək üçün onları soylu qaçaq adlandırmışdır. Onlar hər nə qədər yerli hakimlərə qarşı mübarizə aparsalar da siyasi gücləri bu idaraəçilərə alternatif güc yaradacaq qədər deyildir. Hobsbawmun da qeyd etdiyi kimi qaçaqlar çox yerdə mövcud siyasi quruluşa qarşı olsalar da

əslində bu idarəçilərin müəyyənləşdirdikləri qanunlar çərçivəsində, əlverişsiz şərtlər və məlum sərhədlər daxilində fəaliyyət göstərməyə məcbur edilmiş narazılar, etirazçılar və intiqamçılar idilər[5].

Ancaq istər Osmanlı və Azərbaycanda, istərsə də ərəb ölkələrində qaçaqçılıq edən yol kəsən, karvanlardan bac alan həramilər də vardı. Həramilər haqqında "Min bir gecə" nağılları içində "Əli Baba və qırx həramilər" nağılı vardır ki, burada hərami sözü "Dastani-Əhməd hərami"də olduğu kimi mənfi mənada işlənmişdir. İstər müsbət, istərsə də mənfi mənada olsun həramilik və onunla bağlı folklor materiallarının mövcudluğu yolkəsənliyin, oğurluğun, quldurluğun da folklor mövzusu olduğundan xəbər verir. Həramilərlə qaçaqları bir-birindən fərqləndirmək üçün Kərəmlə bağlı bir əhvalata nəzər salaq. Qaçaq Kərəm Azərbaycandan İrana, orada da Təbriz bəyini öldürdüyü üçün Türkiyəyə keçib bir ağanın evində mehtərlik edir. "Dediklərinə görə Türkiyədə bir haramı varıymış. Başında da bir dəsdə talançı, ildə bir dəfə gəlif zor güjünə bac-xərac alarmış.

Günnərin birində həmən haramı bu kəndə gəler. Camahat hər tərəfdən meydana yığıler. Kimi tüfənk, kimi xancal, kimi də bir qılınc götürüf, haramıynan vuruşmax üçün meydana gəlellər. Kərəmin ağası Kərəmə atı yəhərrəməyi əmr eller. Ağa qılınc-qalxan götürüf atını meydana tərəf sürör. Kərəm ağasının davıya getdiyini bilif, xanımnan əhvalatı soruşor. Xanım əhvalatı olduğu kimi ona nağıl eller. İyid Kərəmin iyid ürəyi çoşor. Tez gedif toyladan bir at tutor. Bir dənə də qınsız qılınc götürüf, ata çatıdan buruntulux verif, birbaşa ağasının getdiyi tərəfə geder. Gəlif həmən meydana çıxar.

---

[5] Hobsbawm Eric J. (1997). Eşkıyalar. Çeviren: O.Akalın ve N.Hasgül. İstanbul, s.131

Görör kü, haramı başcısı təpəmim üsdə, atın belində əlində qılınc duruf deyer ki, cürəti çatan qabağıma çıxsın”[6].

Qaçaq Kərəm həramini öldürüb kənd camaatını onun zülmündən, özbaşınalığından qurtarır. Soyğunçularla, quldurlarla, bir sözlə həramilərlə mübarizə aparan sadəcə dövlətin güc orqanları deyil, eyni zamanda qaçaqların özləridir. Bəzi qaçaq-quldurlar məşhur olan qaçaqların adlarından (məsələn, Kərəmin, Nəbinin adından) istifadə edərək xalqa zülm edirdilər.

Dünyanın demək olar ki, hər yerində görünən qaçaqçılıq hərəkatına, Azərbaycanın Quzeyində və Güneyində, Anadoluda, Orta Asiyada, İslam dünyasında, Çində, Amerikada, Avropada və hətta Avstraliyada da rast gəlmək mümkündür. Qaçaqçılıq hərəkatı kapitalist və sənayeləşmiş cəmiyyətlərdən əvvəlki iri torpaq mülkiyyətinin mövcud olduğu dövrlərdə fəal olmuş, kapitalizmin güclənməsi ilə yerini fəhlə hərəkatına buraxmışdır. Bu qədər geniş ərazidə, müxtəlif inkişaf pilləsində və müxtəlif ənənələrə sahib olan xalqların arasında yayılan qaçaqlar, Eric Hobsbawmun araşdırmalarına görə, ümumiləşdirilmiş şəkildə hökmdar və ya dövlət tərəfindən qanunu pozan, günahkar, soyğunçu, quldur hesab edilsələr də kəndlilər üçün bunun tam tərsi bir insan hesab edilmişlər. Kəndli qəhrəmanı olan bu insanlar, ədalət, haqq üçün mübarizə edir, məzlumların haqqını qoruyur, zalımın cəzasını kəsir, bir növü azadlıq qəhrəmanı simvoluna çevrilirdilər. Yenə də Erik Hobsbawmun yazdığı kimi bütün bu xüsusiyyətlərə görə bu qəhrəmanlar hər zaman dəstəklənməsi lazım olan qanun qaçağı insanlar kimi şöhrət qazanmışdılar. Bu xüsusiyyətlərinə görə soylu əşkiya, nə boya başa çatdığı yerdə, nə də başqa hər hansı bir kənddə kəndlinin əlindəki məhsulu almaz, ona zərər verməz. Bunu edənlər qaçaq

---

[6] Azərbaycan folkloru antologiyasi (2012). XXI Kitab. Qazax örnəkləri. Toplayan M.Həkimov. Bakı: Elm və təhsil, s.36-37

və ya soylu əşkiya statuslarını itirirdilər[7]. Bu təsbit Azərbaycanda silahlı mübarizə aparan qaçaqlara da aiddir.

Rus tarixşünaslığında və folklorşünaslığında qaçaq-quldurluğa təhkimli kəndlilərin sosial etiraz forması kimi baxıldığından sovetlər vaxtında onu Azərbaycanda olduğu kimi dövlətdən qaçaq düşən bir adamın və ya bir dəstənin fərdi haqq davası kimi öyrənməmişlərdir[8]. Ona görə də Puşkinin, Lermantovun, Qoqolun, Qlinkanın quldurlarla bağlı əsərlərində XIX yüzilin Azərbaycan qaçaqlarından fərqli obrazlarla qarşılaşırıq. Hər şeydən öncə rus tarixşünaslığında, ədəbiyyatında və folklorunda bizim qaçaq dediklərimiz ataman adlanır və bunların məşhurları əsasən Volqaboyu kazaklarıdır. Anlamı türkcədə azad insan olan kazaklar XV yüzildən Volqa, Don və Dnepr çayları yaxınlığında xristianlığı qəbul edərək azad yaşayan və özlərinin qanunları olan, oturaq olmayan hərbi birləşmələrdir. Onların etnik tərkibləri haqqında müxtəlif fikirlər söylənmişdir. Kazakların böyük bir qismini yoxsullaşmış kəndlilər təşkil edirdi (1601-1603 aclığından qaçaraq kazak olanlar). Məşhur kazak üsyançılarından Balovnevi, Balaşı, Bolotnikovu, Razini, Bulavini və Puqaçovu göstərmək olar.

Anadoluda dövlətdən qaçaq düşənlər dərəbəylikdən, yerli hakimiyyət orqanlarından, özbaşına idarəçilikdən razı olmayanlar Osmanlı tarix sənədlərində qaçaq/kaçuk, əşkiya, haydut, sosial üsyançı, xalq etirazçısı və s. adlandırılanlardır. Azərbaycanda, özəlliklə XIX yüzildə tarix səhnəsinə çıxan qaçaqlar Rus dövlət idarəsinə və onların müdafiəçiləri olan yerli idarəçilərə qarşı savaşanlardır. O baxımdan dini, siyasi, iqtisadi motivlər Azərbaycan qaçaq hekayətləri üçün özünə-

---

[7] Hobsbawm Eric J. (1997). Eşkıyalar, s.12-13

[8] Bax. Грибушин И.И. (1976). "Уральская сказочная параллель к стихотворению Ф. Н. Глинки «Услуга от медведей»",Фольклор урала. Сборник статей. Народная проза. Свердловск, Раздел III

məxsus mövzulardır. Dünyanın bir çox yerində olduğu kimi həm Anadoluda, həm də Azərbaycanda xalqın ədalət tərəfdarı olan bu sevimli qəhrəmanları zülmə, haqsızlığa qarşı çıxmaqla, varlıdan alıb yoxsula verməklə, qorxmazlıqları, igitlikləri ilə şöhrət qazanmışlardır.

Qaçaqçılıq və ya "social bandits" adlanan insanların və ya hərəkatın dünyanın hər yerində – Çində, Avstraliyada, Asiyada, Avropada, Amerikada, Afrikada yayıldığı və fəlsəfəsinin, siyasi-ideoloji baxışlarının bir-birinə çox yaxın olduğu anlaşılır. Digər ölkələrdə bu mövzu üzərində çalışan araştırmaçılar Korsikada, Çində, Yunanıstanda, Malayziyada, İtaliyada, Ukraynada, Rusiyada və başqa yerlərdə Hobsbawmun modelinə uyğun gələn bir çox tarixi, ədəbi materiallar əldə etdilər. Üzərində tədqiqatlar aparılmış, bilinən ən tanınmış qaçaqlar Robin Hood, Panço Villa, Salvatore Giuliano, Koroğlu, Jesse James, Billy the Kid, İnce Memed, Giuseppe Musolino, Brezilyalı Lampiao, Wu Sung, Panayot Hitov, Salvator Rosa Sandor Rosza, Francisco Sabaté və başqalarıdır ki, bunların haqqında baladalar, mahnılar, şeirlər, hekayətlər söylənmişdir. Bu folklor materiallarında qaçaqların gerçək həyatı ilə mifləşmiş yaşamları bir-birinə qarışmış, ontoloji olanla romantik qurğu iç-içə keçmişdir.

Folklorun ən böyük qollarından biri olan qaçaq nəğmələri, əhvalatları, hekayətləri, nağılları və dastanları dünya folklorşünaslığında müəyyən qədər öyrənilsə də Azərbaycanda bütöv halda həm də bütün janrları ilə bərabər sosial-iqtisadi, siyasi-mədəni kontekst daxilində öyrənilməmişdir. Halbuki folklorun əsas funksiyalarından biri olan sosial, dini, irqi, iqtisadi, siyasi protestonun bədiiləşmiş, sifahi tarixin ədəbi-estetik şəklə bürünmüş forması olan qaçaq folkloru tarixin ən qədim dövrlərindən son zamanlara qədər varlığını qoruya bilmişdir. Qaçaq (Rusiya, Ukrayna və Balkanlarda quldur, soyğunçu, oğru) hə-

rəkatının bütün dünyada ən yayqın olduğu tarix XIX yüzildir. Ancaq qaçaq folkloruna hər zaman siyasi rejimlərdən, tarixin dönəmlərdən, iqtidar-müxalifət, əzən-əzilən, zalım və məzlum aspektindən baxılmışdır.

## 1.2. Folklorun funksionallığı baxımından qaçaqçılıq hərəkatının sosial-iqtisadi mahiyyəti

Zaman keçdikcə hər şeyin dəyişdiyi, itirilənlərin yerini yenilərinin aldığı, əskilərin də siyasi-ictimai dövrə ayaq uydurduğu, yeni formaya büründüyü xalq mədəniyyəti gerçəkliyində qaçaq folkloru da forma və məzmun dəyişikliyinə uğramışdır. İnkişafın dialektikası, dinamizmi qanunauyğunluğuna görə hər şey dayanmadan dəyişir, başqa bir şeyə dönüşür. Bu şərtlər altında mədəniyyətin digər komponentlərində olduğu kimi folklor anlayışı, onun tutumu, funksionallığı, bir sözlə folklora münasibət də dəyişir. Bu isə xalq ədəbiyyatına və bütünlükdə xalq mədəniyyətinə münasibətin bütün zamanlarda eyni olmadığını göstərir.

Folklorun həm əsas obyekti, həm də əsas predmeti xalqdır. Xalq dedikdə uzun zaman, əsasən oxuyub yaza bilməyən avam kütlə nəzərdə tutulmuş, folklor da kənd yerlərində, qəsəbələrdə yaşayan bu avamların özünüifadə forması hesab edilmişdir. Elm və texnikanın sürətli inkişafı və dəyişməsi ilə bir çox bilim sahəsi də həm qavram, həm daxili tutumu, həm də digər elmlərlə qarşılıqlı əlaqəsi baxımından dəyişdi. Kommunikasiyanın yeni növlərinin yarandığı və informasiyanın hər sahədə əlçatan olduğu və təbii ki, getdikcə kiçilən dünyada (informasiyanın sürəti qarşısında əıçatan olması mənasında) folklor da yeni bir anlam qazandı. XIX yüzilin yarısından XX yüzilin 60-cı illərinə qədər xalq dedikdə sinif fərqliliyi üzərində şəkillənən bir anlayış başa düşülürdü. Xalq oxumuş,

mədəni, seçilmiş bir qrupla eyni tutulmamış oxuma, yazma bilməyən, kəndlərdə, qəsəbələrdə yaşayan, cəmiyyətdəki elit sinifin ortaya çıxmasından öncəki ibtidai dövrlərə aid ünsürləri yaddaşında, şifahi şəkildə qoruyan kənd əhalisi hesab edilmişdir.

Xalq elit sinifin yaşadığı yerlərə yaxın, hətta onların yaxınlığında yaşayan bir qrup olsa da heç bir vaxt onlarla eyni tutulmamışdır. Ona görə də uzun illər həm Avropada, həm Amerikada, həm də Asiyada, o cümlədən Azərbaycanda folklor dedikdə avam insanların söylədikləri ədəbi materiallar nəzərdə tutulmuşdur. Təbii ki, burada Afrika, Avstraliya kimi qitələrdə yaşayan, bütünüylə ibtidai həyat tərzi keçirən və mədəni dünyadan uzaqda qalan qruplar ayrı bir kateqoriyaya aid olanları da unutmamaq lazımdır. Ancaq 60-cı illərdə Amerika folklorçusu A.Dundes xalqa yeni bir tərif verməklə bu anlayışı dəyişdirdi və təbii ki, folklor qavramının da yenilənməsinə səbəb oldu. Bu bilim adamına görə "xalq ən az bir ortaq faktoru paylaşan hər hansı bir insan qrupunu ifadə edir. Bu qrupu bir-birinə bağlayan faktorun – ortaq sənət, dil və ya din ola bilər – nə olduğu önəmli deyildir. Daha önəmli məsələ hər hansı bir səbəbə bağlı olaraq yaranan qrupun qəbul etdiyi özünəməxsus ənənəyə sahib olmasıdır"[9]. Xalq millət qədər böyük, bir ailə qədər də kiçik ola bilər. O baxımdan xalq həm şəhərdə, həm kənddə yaşayan, oxumuş və oxumamış, gənc və yaşlı insan qrupudur.

XX yüzilin sonlarına doğru xalqa və folklora verilən tərif və anlamın dəyişdiyinə görə, savadlı da, şəhərli də, idarə olunan da, idarə edən də xalqın bir fərdi hesab edildi. XXI yüzil dünyanın kürəsəlləşdiyi bir zamanda xalq kültürü də yeni bir mərhələyə girdi. Bugünə qədər araşdırılmamış, xalqın mə-

[9] Dundes Alan (2006). "Halk kimdir?" Çeviren M.Ekici. Halk biliminde kuramlar ve yaklaşımlar 1. Hazırlayanlar M.Ö.Oğuz, M.Ekici, N.Özdemir, G.Ö.Eker, S.Gürçayır. Ankara: Geleneksel yayıncılık, s.19

nəvi kültür mirası hesab edilməyən çox sayıda folklor örnəkləri tədqiqata cəlb edilmiş, folklor materialları yeni bir baxış açısıyla – necə varsa elə də toplanmağa başlanmış, araşdırılan bir çox mövzular ideoloji folklorun və ya fakelorun hakim olduğu zamandan fərqli – necə varsa elə də tədqiq olunmuşdur. Buna baxmayaraq Azərbaycan folklorunun qarşısında duran problemlər hələ də kifayət qədər çoxdur. Folklorun yenidən işlənməsi, inanc turizmi materiallarına çevrilməsi, fakelore problemi, şəhər və köç folkloru da Azərbaycan folklor elminin həll etməsi gərəkən məsələlərdəndir. Bu isə bir işə yenidən başlamaqdan daha çətin və ağırdır.

Müasir dünyada xalqlar arasındakı mədəni, iqtisadi əlaqələrin sürətlə inkişafı və inteqrasiyası sərhəd tanımayan qlobal bir mədəniyyət yaratmaqda mühim rol oynayır. Təbii ki, tarixi keçmişi, milli özünəməxsusluğu öyrənmək və qorumaqla geniş inteqrasiya məkanına daxil olmaq mümkündür. Bu sahədə daşınan, ötürülən və dəyişmələrə məruz qalan klassik və müasir folklorun aparıcı rol oynadığını da qeyd etmək lazımdır.

Çətin və həll edilməsi gərəkən folklor problemlərindən biri də dünyanın əksər xalqlarında var olan qaçaq folkorudur. Təbii ki, işə ilk öncə qaçaq terminini üç mənada işlətdiyimiz barədə məlumat verməklə başlamaq daha doğru olacaqdır.

1. Tarixin bilinən çağlarından Azərbaycan ərazisində baş verən siyasi, iqtisadi mahiyyətli xalq üsyanları, etiraz dalğaları və s. ilk qaçaqçılıq hərəkatının yaranmasına səbəb oldu. O zamanın qaçaqları **(tarixi qaçaq arxetipi)** haqqında yazılı tarixdən, rəsmi dövlət sənədlərindən az da olsa məlumat almaq mümkündür.

2. Azərbaycanın Türkmənçay müqaviləsi ilə torpaqlarının üçdə birinin çar Rusiyası tərəfindən işğalından sonra baş verən silahlı kəndli etirazlarını, yerli idarəçilərin zülmündən qaçıb başına topladığı beş-altı (və ya daha çox) nəfərlik dəstə

ilə mübarizə aparan qaçaqları **qaçaqçılıq hərəkatın başlanğıcı** saymaq olar. O dövrün qaçaqları haqqında çar canişinlərinin rəsmi hesabatlarında, mərkəzlə yazışmalarında, ayrı-ayrı səyahət qeydlərində, məqalələrdə, ən əsası da yaddaşlarda kifayət qədərə məlumat qalmışdır.

3. Sovet rejiminə, xüsusən də kollektivləşməyə qarşı çıxanlar, etiraz edənlər və vuruşanları **rejim qaçaqları** adlandırmaq doğru olacaqdır. Həm də xalq sovet rejiminə tabe olmayan bu adamlara qaçaq adını vermişdi. Onların həqiqi simaları haqqında ancaq yaşlı nəslin xatirələrindən məlumat almaq mümkündür. Rəsmi sovet tarix kitablarında onlar xalq düşməni adlandırılmışdır.

Dövlətdən, yerli idarəetmədən bu və ya digər səbəblərdən qaçaq düşmüş bu sonuncular (çar və sovet rejiminə qarşı vuruşanlar) özləri ilə bərabər yeni bir termin olan qaçaq/qaçaqçılıq hərəkatı anlayışını gətirmiş oldular. Folklorlaşan tarix, şifahi tarix anlayışı dedikdə biz bu sonuncuları nəzərdə tutmuşuq. Yoxsa Sasanilərin Azərbaycandakı zülmündən, ərəblərin Azərbaycana yürüşlərindən, XIII-XV yüzillər Hülakilər, Qaraqoyunlu, Ağqoyunlu zamanlarında baş verən ayaqlanmalardan, Səfəvilər dönəmi çox saylı üsyanlarından, Avşarlar zamanı silahlı mübarizələrdən, xanlıqlar dövründəki qaçaqlardan və onların haqqında olan yazılı və sözlü materiallar bu çalışmada araşdırma predmeti kimi istifadə edilməmişdir. Yalnız yeri gəldikdə klassik qaçaq modeli kimi Koroğlu və dəliləri tədqiqata cəlb edilmişdir. Onu da demək lazımdır ki, bilinən ilk böyük kəndli hərəkatı XVI-XVII yüzillərdə olmuşdur ki, bu da bir qaçaq kimi məşhurlaşan Koroğlu adı ilə bağlıdır. "Azərbaycanda baş verən kəndli hərəkatının əsl mahiyyəti, həmin hərəkata başçılıq edən qəhrəmanların fəaliyyəti o dövr tarixçilərinin əsərlərində öz qiymətini tapa bilmir. Tarixçilər bu hərəkatın zahiri cəhətini göstərirlər. Xalq isə hə-

min hadisə ilə əlaqədar olaraq, öz "tarixini", dünya mədəniyyəti xəzinəsinə qiymətli bir inci kimi daxil olan "Koroğlu" eposunu yaradır"[10]. Təbii ki, şifahi tarixin bizlərə miras qoyduğu qaçaq folklorunun ən böyük qəhrəmanı Koroğlu və onun XIX-XX yüzildəki adı bilinən və bilinməyən silahdaşları idi.

Bir sözlə XVIII yüzilin sonlarından güclü şəkildə ortaya çıxan qaçaq hərəkatı Azərbaycanın 1828-ci ildə Türkmənçay müqaviləsi ilə ikiyə bölünməsi və ölkənin üçdə birinin Rus İmperiyasının idarəsi altına girməsiylə daha da geniş miqyas aldı. Artan zülm, xanlıqların ləğvi, torpaq sahiblərinin, onların tabeçiliyində olan kəndlilərin əməyinə, malına, canına tam sahib olduqları bir içtimai idarəetmə forması kimi tarixə keçən təhkimçilik hərəkatı (rəsmi şəkildə Rusiyada 1649-1861-ci illərdə mövcud olan təhkimçilik hüququ Azərbaycanda 1847-1870-ci illəri əhatə edir), verginin həddən çox olması və s.dən narazı olan kəndliləri etirazlarını bildirməyə və bəzi yerlərdə təhkimçilik hüququna qarşı hərəkətə geçməyə sövq etdi. Öncə fərdi intiqamla başlayan və hökumətin əlinə keçməmək üçün qanunun verəcəyi cəzadan qaçan, sonradan ətrafına toplanan haqqı tapdanmış narazı olanlardan kiçik bir dəstə yaradan bu insanlar yerli idarəçilərə qarşı silahlı müqavimət yolunu tutdular.

XIX yüzildən başlayan qaçaqçılıq hərəkatı Azərbaycanın sovetləşməsindən sonra artan sürətlə davam etdi. Sovet rejim qaçaqlarına qədərki dövrü əhatə edən kəndli hərəkatı bir-birinə bənzəsə də yayıldığı fəaliyyət sahəsinə, böyüklüyünə görə fərqlənirdi. Hər halda bütün **XIX yüzil boyu Quzey Azərbaycanda çar üsul-idarəsinə qarşı aparılan mübarizənin ən çox yayılmış forması qaçaq hərəkatı idi.** XX yüz-

[10] Cəfərov Nizami (1999). Eposdan kitaba. Bakı: Maarif, s.26

ildə sovet rejiminin qurulmasından sonrakı qısa dönəm üsyanlarını nəzərə almasaq, 40-cı illərə qədər davam edən bir qaçaqçılıq hərəkatı vardı. O baxımdan qaçaqları Çarlık Rusiyasının yerlərdəki idarəsinə və totalitar kommunist rejiminə qarşı savaşanlar adı altında iki kateqoriyaya ayırmaq mümkündür. Nəticədə, Azərbaycanın üçdə birinin Rus İmperiyası tərəfindən ilhaq edilməsindən sonra (1828) başlayan qaçaqçılıq hərəkatı, totalitar rejimin dəyişməsindən sonra yuxarıda da deyildiyi kimi İkinci Cahan Savaşına, 1940-cı illərə qədər davam etdi. Savaşın başlaması ilə kommunist dövləti qaçaqları əhv edərək onların bir qismini ön cəbhəyə göndərdi, bir qismindən də arxa cəbhədə istifadə etdi. Beləliə, məqsədi, mübarizə forması bənzər olsa da, qaçaq hərəkatını iki dövrə ayırmaq olar:

1. Rus İmperyasının yerlərdəki idarəçilərinə qarşı çıxanlar
2. Sovet totalitar rejiminə qarşı üsyan edənlər

Yalnız XIX yüzildə dövlətdən, yerli idarəetmədən bu və ya digər səbəblərdən qaçaq düşmüş insanlar özləri ilə bərabər yeni bir termin olan qaçaqçılığı və ona bağlı olaraq da qaçaqçılıq hərəkatını gətirmiş oldular.

Qaçaqçılıq hərəkatına və bu hərəkatın qəhrəmanları olan qaçaqlara hər zaman ikili münasibət olmuş, onlara bu ikili aspektdən qiymət verilmişdir:

1) mövcud iqtidar və

2) xalq tərəfindən verilən qiymətdir ki, burada fikirlərin haçalandığını və onların heç bir vaxt üst-üstə düşmədiyini görürük.

Osmanlı zamanında yerli idarəetməyə qarşı çıxanlar xalqın nəzərində haqqı savunan qəhrəmanlardırsa, iqtidarın gözündə quldur, yol kəsən və ya Səfəvi agentləridir. Səfəvilər və ondan sonrakı xanlıqlar dövründə üsyan çıxaranlar iqtidarlara görə mərkəzi dövlətə asi olanlardırsa, xalqa görə məzlumun haqqını zalımda qoymayan el qəhrəmanlarıdır. Azərbaycanın

üçdə birinin Rusiyanın tərkibinə birləşdirilməsindən sonra həm çar məmurlarına, həm də çardan bəylik, ağalıq almış yerli idarəçilərə qarşı etiraz edənləri, dağlara çəkilib haqqını arayanları çarizmin nümayəndələri yol kəsən, quldur, çapulçu, dövlətə qarşı çıxan asi adlandırdıqları halda, bu insanlar haqqında xalq nəğmələr qoşmuş, dastanlar yaratmışdır. Sovet bolşevik rejimi ilə barışmayanlar, malını-mülkünü kollektiv təsərrüfata vermək istəməyənlər də rejimdən qaçaq düşmüş, hər zaman iqtidar yanlısı olan rəsmi tarix elmi də onları qolçomaq adı ilə damğalamış, haqqlarında yaranmış sözlü ədəbiyyatın öyrənilməsinə yasaq qoymuşdur. Xalqsa uzun zaman sovet qaçaqları haqqında olan əhvalatları canlı tutmuş, sözlü tarix vasitəsilə bugünə qədər çatdıra bilmişdir.

Yazılı qaynaqlarda çar qaçaqları haqqında məlumat sovet qaçaqlarına görə daha çoxdur. Həm də sovet qaçaqları bir qayda olaraq düşmən elan edildiyindən onları unutdurmaq yoluna gedilmişdir. Çar rejiminə qarşı mübarizə aparanlar sinfi baxımdan sovet ideologiyasının ideoloji tələblərinə cavab verdikləri üçün təbliğ olunmuş, sovet rejim qaçaqlarının fəaliyyətinin xatırlanması isə yasaqlanmışdır.

Qaçaqçılıq hərəkatının yaranmasında sosial-iqtisadi və sosial-mədəni amillər böyük rol oynayır. Bir çox ictimai hərəkatın meydana gəlməsi və geniş yayılmasında olduğu kimi qaçaqçılığın da təməlində iqtisadi böhranlar, vergi siyasəti nəticəsində xalqın yoxsullaşması, acınacaqlı vəziyyətə düşməsi durur. Belə bir şəraitdə idarə edənlərin nüfuzunun zəifləməsi də böyük əhəmiyyət kəsb edir. Xalq sosial-iqtisadi böhran nəticəsində əzilməkdə və etirazını müxtəlif yollarla bildirməkdədir. Bunun qarşısını almaq üçün mərkəzdən yerli idarəçilərə verilən əmrlər daha da sərtləşir, yerli idarəçilər də məsələni

həll edə bilmədikləri üçün çarəsiz qalır.[11] Digər tərəfdən kəndli hərəkatının başlamasına yerli idarəçilərin özbaşınalığının səbəb olduğu tarixi faktlarla sübut olunmuşdur. Belə bir şəraitdə kəndli etirazlarının kütləviləşməsinin qarşısını almaq üçün mərkəzi hökumət bəzi güzəştlərə getməyə də hazırlaşır. Məsələn, 1870-ci ilin axırlarında Qazax qəzasında kəndlilər Quşçu kəndinin ağaları olan İsgəndərbəyovların zülmünə qarşı öz etirazlarını kəskin şəkildə bildirdilər. Bəylərə yardıma gələn rus kazakları üsyanı qanlı bir şəkildə yatırtdı. Ancaq kəndlilər narazılıqlarını başqa bir yolla bildirməyə hazırlaşdılar. Belə ki, Tiflisdə oturan çar naibinə şikayət etmək üçün nümayəndə göndərmək istədilər. Rus məmurları və bəylər onların Tiflisə getmələrinə mane oldular. Onların arasından Mürsəlqulu adlı bir kəndli gecə qaçaraq Tiflisə və oradan da çar naibinin yaşadığı Qaçoridəki villasına gəlib çıxa bildi. Amma o, çar naibini heç yerdə tapa bilmədi. Hətta o, çar vəkilinin sarayına belə buraxılmadı. Buna görə Mürsəlqulu bir çarə düşündü. Paltarını neftlə islatdı. Çar vəkilinin sarayına yaxın bir yerdə gözlədi. Çar vəkili sarayından çıxıb arabasına mindiyi zaman Mürsəlqulu əynindəki paltara od vurdu. Bu vəziyyəti görən camaat köməyə gələrək Mürsəlqulunun yanan paltarını söndürdülər. Bunu görən çar vəkili onu yanına çağırdı və nə üçün özünü yandırdığını soruşdu. Mürsəlqulu Qazax qəzasının Quşçu kəndindəki çar məmurlarının zülmündən kəndlilərin təngə gəldikləyindən, ölümə razı olduqlarından danışdı. Beləliklə, alınan tədbirlər nəticəsində Quşçu kəndinin camaatı ağaların zülmündən qurtulmuş oldu[12]. Bu tarixi hadi-

[11] Uzun E. (2006). "Osmanlı örneklemi üzerinden sosial eşkiyalıba bir bakış", TSA, yıl, 10, sayı 3, Aralık, s.33

[12] Azərbaycan tarixi (2007). II cild. Bakı: Elm, səh. 206-207; Qasımov. Qafqazda qaçaqlara qarşı mübarizə, s.18; Caferoğlu Ahmet (1932). Azerî edebiyatında istiklâl mücadelesi. İstanbul: Burhaneddin Matbaası, s.19-33

sə qaçaqçılıq hərəkatının başlamasına təkan verən birinci amilin iqtisadi məsələ olduğunu göstərmiş olur.

Dəyişən siyasi konjonktür, siyasi-ideoloji şərtlərin yeni formasını yaratdı və bu şərtlər daxilində bu gün istər orta çağ qaçaqlarını, istər çarizm dövrü, istərsə də sovet dövrü qaçaqlarını öyrənmək mümkündür. Ancaq **tarixin folklorlaşması sovet metodologiyası ilə folklor və tarix müstəvisində araşdırılacaqsa o zaman dəyişən yalnız siyasi-ideoloji baxış bucağı olacaqdır.** Əslində qaçaq folklorunu şifahi tarix anlayışı metodologiyası və protesto funksiyası ilə öyrənmək problemin doğru həllini şərtləndirəcəkdir. Yoxsa həm zaman baxımından aşınmış, həm də günün şərtləri baxımından siyasi-ideoloji üstquruma uyğunluq saxladığı üçün folklorun və tarixin mövcud araşdırma metodologiyası qaçaqçılıq hərəkatı və qaçaq folkloru prbleminin həlli yolu sayıla bilməz.

Qaçaq folklorunun sosial mahiyyətində fərdi-sosial və fərdi-iqtisadi konsepsiya durur. Qaçaq folklorunun əsasında əzilənlərin, ancaq başını əyməyənlərin, zalıma həddini bildirənlərin, pozulan, unudulan ədaləti bərpa edənlərin, təkbaşına ədalət dağıdanların simvollaşmış obrazı olan qaçaq vardır. Bu primitiv sosial etirazçılar xalqın dəyərlər prizmasından təqdim edilmiş qəhrəmanlardır. Onların mübarizəsi sosial-iqtisadi mahiyyətdədir, tam anlamı ilə siyasi deyildir.

## 1.3. "Social Bandits" nəzəriyyəsi baxımından qaçaqçılıq hərəkatı

Beləliklə, yuxarıda deyilənləri bir yerə toplayıb müəyyən bir nəticəyə bağlamış olsaq qaçaqçılığın sosial-iqtisadi, tarixi-fəlsəfi əsasında sosial ədalətsizliyin, iqtisadi haqsızlığın, intiqam hissinin, qan davasının durduğunu görərik.

“Qaçaq/qaçaqlar dövlətə və onun yerli idarəçilərinə qarşı savaşan, özlərinəməxsus ədalət anlayışları olan, özlərinəməxsus qanunlarla hərəkət edən kəndliyə və kəndlilərə deyilir. Onların yenidən torpağa bağlanmaq, torpaq əldə etmək və normal yaşamaq fürsətləri əllərindən alındığından, qaçaqçılıq geri dönüşü olmayan bir hərəkat şəklini aldı. Bu, üsyan deyildi, bu beş-altı, bəzən də daha çox on-on beş, otuz-qırx adamdan ibarət dəstələrlə dağlarda, meşələrdə gizlənən və/və ya çar rejiminin hökmü işləməyən yerlərə, Osmanlı və ya İran torpaqlarına sığınan, primitiv üsullarla mübarizə aparan qoçaq və mərd insanların zülmə baş qaldırması, bir növü intiqam savaşı idi”[13]. Bu, eyni zamanda müxtəlifliyinə baxmayaraq bütün hallarda iqtisadi mübarizə forması idi.

Qaçaqçılıq hərəkatına elmi-nəzəri aspektdən yanaşan və **“social bandits” nəzəriyyəsinin əsasını qoyan Eric John Ernest Hobsbawm** olmuşdur. Bir ingilis tarixçisi olan Eric Hobsbawm marxsist iqtisadçı və tarixçi kimi tanınmış, XIX yüzil İngiltərəsində ictimai həyatın keyfiyyət və kəmiyyət kateqoriyalarını birlikdə araşdırmqla sosialist tarix anlayışına yeni baxış gətirmişdir. Eric Hobsbawma görə insanlıq tarixini bütöv şəkildə ələ almağın ən doğru yolu marxsizmdir. Tarix anlayışı əsasən 1) inqilablar çağı, 2) sərmayə çağı, 3) imperiyalar dövrü və 4) aşırılıqlar çağı dördləməsi üzərində qurulmuşdur ki, social bandits də bu dövrlərin içində dəyərləndirilir. Dilimizə sosial quldur və ya cinayət işləyən ictimai qiyamçı kimi tərcümə edilən bu termin ilk dəfə 1959-cu ildə tarixçi Eric Hobsbawm tərəfindən “Primitive Rebels”[14] (Primitiv qiyamçı) adlı kitabında işlədilmişdir. O, 1969-cu ildə çı-

---

[13] Bayat Füzuli (2012). Folklor dərsləri. Bakı: Elm və təhsil, s.261- 262

[14] Hobsbawm Eric J. (1959). Primitive Rebels: Studies in archaic forms of social movement in the 19th and 20th centuries. London: Manchester University Press

xan “Bandits”[15] (Qaçaqlar) kitabında isə bu qavramı daha da dəqiqləşdirmiş, dünya tarixindən gətirdiyi örnəklərlə qaçaq adlı yeni tarixi bir arxetip formalaşdırmışdır. Əslində E.Hobsbawm “bandit” termini ilə bildiyimiz quldur, əşkiya, yolkəsən, cinayətkar mənalarını nəzərdə tutmamış, bu söz ilə kapitalizmin ortaya çıxmasından sonra siyasi rol oynayan kəndli hərəkatının liderlərini nəzərdə tutmuşdur. Bundan sonrakı araştırmalarda da söhbət qanundan kənarına sürüklənən qaçaqlardan getdiyindən[16] Hobsbawmun bu nəzəriyyəsi bütün dünyada geniş yayılmışdır.

Təbii ki, qaçaq hərəkatı və onun sosial mahiyyəti haqqında Eric Hobsbawmun elmi-nəzəri görüşləri bəyənilib bəyənilmədiyindən, təriflənib tənqid olunmasından asılı olmayaraq qaçaqçılıq hərəkatının tarixi, etnoqrafik, folklorik aspektlərini ortaya qoymaq baxımından tək örnəkdir. “Social bandits” nəzəriyyəsi baxımından qaçaq folklorunun folklorik və tarixi-siyasi baxımdan araşdırılması həm də sovet dövründə ideoloji folklorun qaçaq hərəkatına münasibətini tərs üzünə çevirməkdə önəmli metodoloji əsasdır. Türkiyədə social bandits soylu əşkiya adı ilə bilinir. Bu mövzunun tədqiqatçısı

---

[15] Hobsbawm Eric J. (1969). Bandits. London: Weidenfeld & Nicolson

[16] Bax. Blok A. (1972). “The peasant and the brigand: Social banditry reconsidered,” Comparative studies in society and history, 14, 4 septembr; O'Malley P. (1979). “Social bandits, modern capitalism and the traditional peasantry: A critique of Hobsbawm,” Journal of peasant studies, 6, 4 july; Slatta R.W. (1991). “Bandits and rural society history: A comment on Joseph,” Latin American research review, 26: 1; Cassia Paul Sant (1993). “Banditry, myth and terror in Cyprus and other Mediterranean societies.” Comparative studies in society and history 35, No.4, October; Barkey Karen (1999). Eşkıyalar ve devlet. Osmanlı tarzı devlet merkizileşmesi, İstanbul: Tarih Vakfı Yurt Yayınları; Yetkin Sabri (2003). Ege’de Eşkıyalar. İstanbul: Tarih Vakfı Yurt Yayınları; Uzun E. (2006). “Osmanlı örneklemi üzerinden sosial eşkiyalıba bir bakış”, TSA, yıl, 10, sayı 3, Aralık; Caferoğlu Ahmet (1932). Azeri edebiyyatında istiklal mücadelesi. İstanbul: Bürhaneddin Matbası; Qasımov. Qafqazda qaçaqlara qarşı mübarizə. Bakı

K.Barkey əşkıyalara belə tərif verir: əşkıyalar əski partimonyal üsullarla, yəni dövlətlə eyniləşmə və mükafatlandırma metodları ilə zərərsizləşdirilən silahlı qruplardı[17].

Ş.Bayrak isə əşkiyalığı aşağıdakı kimi dəyərləndirir: "Əşkiyalıq geniş anlamı ilə bütün qanun dışı hərəkətləri ehtiva etməklə bərabər, hüquqi baxımdan onu sınıflandırma və təsnif etmə çətinliyi vardır. Tarixçilər sosial hadisə kimi qanuna zidd hərəkətləri, ümumi mənası ilə əşkiyalıq kimi qəbul etsələr də, hüquqi baxımdan doğru deyildir. Bu nöqtədə önəmli olan xüsus, əşkiyalıq işinin tətbiq edilən cəzalar baxımından təsnifindən çox, zülm cəzası ilə ayrı tutulmasıdır. Çünki nəzəri olaraq əşkiyalıq rəiyyətin işlədiyi cinayətlər üçün keçərli isə, rəsmi dövlət adamlarının qanunsuz davranışları zülm kimi qəbul edilməkdədir"[18].

Ümumiyyətlə, "social bandits" nəzəriyyəsinin yaradıcısı olan E.Hobsbawm qaçağı daha çox simvol kimi, müəyyən ideyaların təcəssümü kimi öyrənir. Ona görə kraldan, iri torpaq mülkədarından və ya onun pis yönəticilərindən qaçıb dağlara, meşələrə sığınan və sosial ədaləti varlıdan alıb kasıba vermək, əzilənin yanında olmaq şəklində anlayan bu insanlar zamanla xalq arasında yenilməz qəhrəmanlara çevrilmişlər[19]. Eric Hobsbawmun "social bandits" nəzəriyyəsi bütün dünyad geniş yayılmasına baxmayaraq onu tənqid edənlər də az deyildir. Bu nəzəriyyəni qəbul etməyən tarixçi və antropoloqlardan John S.Koliopoulos və Paul Sant Cassia əşkiya termininin Os-

---

[17] Barkey Karen (1999). Eşkıyalar ve devlet. Osmanlı tarzı devlet merkizileşmesi, s.18

[18] Bayrak Şaban (1998). XVIII. Yüzyılın ilk yarısında Anadolu'da eşkiyalık olayları. Malatya: İnönü Üniversitesi sosyal bilimler enstitüsü tarih eğitimi anabilim dalı, 1998 (Yayımlanmamışdoktora tezi), s.14

[19] Bax. Hobsbawm Eric J. (1969). Bandits. London: Weidenfeld & Nicolson; Hobsbawm Eric J. (1995). Sosyal isyancılar. Tercüme eden N.Doğru, İstanbul: Sarmal yayınları

manlı hakimiyyət orqanları tərəfindən mərkəzi dövləti müdafiə etmək üçün narazı və ya üsyankar kəndlilərə verdikləri ad olduğunu qeyd edirlər. Hətta P.Cassia Aralıq dənizi qaçaqlarını romantikləşmiş qəhrəmanlar adlandırır[20]. Əslində Osmanlı dövlətində yoxsul türk kəndlilərinə əziyyət edən, qadınları qaçıran, uşaqları oğurlayan rum, erməni, serb, bulqar quldur dəstələri ilə bərabər yerli paşaların zülmünə qarşı dirənən, yoxsulları qoruyan qanun qaçaqları da vardı. "Social bandits" termini ilə bu axırıncılar nəzərdə tutulur.

E.Hobsbawm toplu xalq hərəkatından daha çox fərdi xalq hərəkatlarını öz araşdırmasının mərkəzinə gətirməklə qaçaqları dörd qrupa ayırır:

1. İctimai qaçaq ( və ya soylu əşkiya),
2. Primitiv müqavimətçilər və ya partizanlar,
3. İntiqmçılar və
4. Quldurlar[21].

Hobsbawm soylu əşkiyanın doqquz özəlliyi ilə onun əsas cəhətlərini vermişdir ki, bu özəllikləri bəzi kiçik fərqlərlə qaçaqlara da aid etmək olar.

İntiqamçılarla qaçaqların intiqam almaq və şiddətə başvurmaqda fərqlilik göstərən iki tip olduqlarını söyləmək mümkündür. İntiqamçılar qaçaqlara görə daha sərt cəza şəkli tətbiq edirlər ve toplum içində qorxu saldıqları üçün qəhrəman kimi görülürlər. Qaçaqlar isə zorakılığa çətin vəziyyətdə qalmadıqca başvurmazlar və toplum içində qorxunc olduqları ilə deyil, toplumun ümui qanunlarına görə hərəkət etdikləri və kəndlilərə dostca yaxınlaşdıqları üçün hörmət duyulan adamlar kimi qəbul edilirlər.

---

[20] Cassia Paul Sant (1993). "Banditry, myth and terror in Cyprus and other Mediterranean societies". Comparative studies in society and history, 35: 4. October, p.774

[21] Hobsbawm Eric J. (1997). Eşkıyalar, s.9

Haiduklar qaçaqlardan fərqli olaraq diqqət çəkən iki yönləri ilə önə çıxmışlar. Bu yönlərdən birincisi E.Hobsbawm tərəfindən "torpaqlarndan qovulan və köləlikdən qaçan insanlar arasından" ifadəsi ilə fərqləndirilmişdir. Qaçaqlar isə hökumətlə anlaşamaynca qaçaq düşməyi seçmək məcburiyyətində qalan insanlardır. Qaçaqlar bütün hallarda həm mərkəzi, həm də yerli idarəçilərlə tərs düşdükləri üçün yurdlarını tərk etməyə və hökumətə, bəylərə, ağalara qarşı mübarizə aparmağa məcbur qalmışlardır. Haidukların isə ortaya çıxmasının əsas səbəbi iqtisadi vəziyyətdir.

Eyni zamanda qaçaqlar quldurlardan da fərqlənirlər. Məsələn, quldurlar sadəcə zənginləri deyil, kəndliləri də soymaqla xalqın nifrətini qazanmış cinayətkarlardır. Qaçaqlar isə heç vaxt kəndliləri və məzlumları soymazlar. Onlar varlıdan alıb yoxsula verirlər. Quldurların və ya oğruların ikinci özəlliyi isə hökumət adamları ilə birlikdə işləyə bilmələridir.

Hobsbawm görə "social bandits"in başqa əşkiyalardan fərqi xalq tərəfindən onların adi cinayətkar kimi görünməmələri və yenə də xalq tərəfindən qəhrəman, intiqam alıcı, ədalət döyüşçüsü kimi vəsfləndirilmələridir. Azadlıqlarının heç bir şəkildə qısıtlanmasını, çərçivələnməsini istəməyən ictimai qaçaqlar heç kimə boyun əyməyən, ictimai ədaləti qoruyan və mərkəzi idarəyə, ədalətsiz iqtidara qarşı ilk etirazçı, ilk siyasi şəxslərdir[22].

Qaçaq mövcud qanunla cəmiyyətdən uzaqlaşdırılmış, rəsmi qanuna tabe olmayan etirazçı kimi tarix boyu bir çox ölkədə baş vermiş kəndli hərəkatının lideridir və o baxımdan qaçaqçılıq geniş yayılmış hadisədir. İctimai qaçaqçılığın dəyişik formaları hələ də mövcuddur. Sonradan sosioloqlar cinayətin daha müasir formalarına bu terminin tətbiq edilə bilmə-

[22] Bax. Hobsbawm Eric J. (1997). Eşkıyalar

sini müzakirə etmişlərdir. Hobsbawmun aparıcı tezisi kənd cəmiyyətlərinin qıraqlarında yaşayan məşhurlaşmış və qəhrəmana çevrilmiş adamların müqavimət hərəkatının qanundan kənar bir forma almasıdır. Hobsbawm qaçaqçılığı təşkilatlanmış fəhlə hərəkatından fərqli olaraq "tarixdən qabaqkı ictimai hərəkat" forması adlandırır[23]. Təbii ki, qaçaqçılıq tarixdə bilinən ən universal sosial hadisədir ki, heç bir ölkədən yan keçməmişdir.

Qaçaqlar haqqında nəşr edilən folklor materialları kənd sözlü kültürünün romantikləşdirilmiş və bir az da ideallaşdırılmış qəhrəmanları haqqındadır. Bu hərəkatın çıxış nöqtəsi demək olar ki, eynidir. Yerli idarəçilər tərəfindən cinayətkar, qanundan kənar adam elan edilən qaçaq, kəndlilərin gözündə haqqı bərpa edən, zalımdan məzlumun haqqını alan, azadlıq mücahidi qəhrəman kimi qəbul edilir. Qaçaq və ya sosial əşkiya heç bir zaman kəndlinin malına göz dikməz, yoxsulu əzməz, əzilənə zülm etməz. Bunu edənlər cəmiyyət tərəfindən qaçaq deyil, quldur adlanır və nifrət obyektinə çevrilir. Təbii ki, bunların haqqında yaranan və söylənən mətnlər də folklorik mahiyyətdədir. Məsələn, Biləsuvar, Salyan və Neftçala rayonlarında quldurluq edən Pışan haqqında deyilir ki "1918-1923-cü illərdə şahsevənlərdən Bejan adlı bir quldur başına dəstə toplayaraq ətraf kəndləri qarət etməklə məşğul idi. Gecələr kəndə soxularaq evlərə girir, qızıl və qiymətli əşyaları yığışdırıb aparırdılar. Əhalinin Pışan adlndırdığı bu dələduzun öhdəsindən heç kəs gələ bilmirdi. Sovet hakimiyyətinin ilk illərində Bejan başının dəstəsi ilə Biləsuvar çöllərində gecələr cövlan edir, gündüzlər qamışlıqlarda gizlənirdi. Qamışlıqlar onu heç kəsə ələ vermirdi. Yaqub Gözəlovun başçılıq etdiyi xüsusi dəstə quldurları izləməyə başladı. 1923-cü ildə onların

---

[23] Bax. en.wikipedia.org/wiki/Social bandits

gizləndiyi qamışlığa od vurub yandırdılar. Atışma başlandı. Bejan və onun quldur yoldaşlarına aman verilmədi. Cəsədlərini arabaya yükləyib kəndbəkənd gəzdirdilər ki, adamlar sakit olsunlar”[24]. Bu quldur haqqında hələ də əhvalatlar söylənməkdədir[25]. Beləliklə, folklor mətnlərinə, şifahi tarixə, rəsmi sənədlərə dayanaraq qaçaqların aşağıdakı özəlliklərini təsbit etmək mümkündür:

a) Qaçaqlar ədalətsizliyə və haqsızlığa dözməzlər, buna görədir ki, əsl davaları ədaləti qorumaqdır.

b) Qaçaqların hər biri bir qrup və ya dəstə halında fəaliyyət göstərirlər.

c) Qaçaqlar yaxşı təşkil olunmuş siyasi mübarizədən uzaq olduqları üçün yalnız sosial-iqtisadi və dini-ictimai mübarizə aparırlar.

d) Qaçaqlar hər zaman yoxsulun, əzilənin yanında, zalımın qarşısındadırlar.

e) Qaçaqlar bir qayda olaraq hakim sinif nümayəndələri, hökumət adamları tərəfindən quldur, soyğunçu, yolkəsən, oğru kimi təqdim edilmələrinə baxmayaraq xalq tərəfindən igid və qəhrəman elan edilirlər.

f) Hər bir qaçaq cəmiyyətin əxlaqi, mənəvi dəyərlərinə hörmət edir və etməyə məcburdur, yoxsa xalq ona lojistik dəstək verməz.

h) Əsl qaçaq lazımsız yerə kimi isə incitməz, kiməsə zərər verməz. Onların zərər verdiyi, öldürdüyü adamlar ilk “hücum” edənlərdir.

---

[24] Nurlu İbrahim (1997). XXI əsrin astanasında Neftçala. I kitab. Bakı: Araz nəşriyyatı, s.108

[25] Söyləyici: Leyla Babayeva, doğum tarixi 1939, təhsili orta, Salyan rayonu Arbatan kəndi; Ədalət Orucov, doğum tarixi 1960, təhsili orta ixtisas, Neftçala rayonu Qaçaqkənd kəndi

g) Qaçaqlar hökumət adamları ilə, rejimlə danışığa girməz, onlarla əlaqə saxlamazlar. Ancaq sovet rejimi ilk qurulduğu zamanlarda aldanaraq hökumətə yaxınlaşan, hətta vəzifəyə gətirilən qaçaqlar da olmuşdur.

Bu qısa yarımfəsli qaçaq hərəkatı verdiyimiz təriflə bitirmək istəyirik. Araşdırmadan da göründüyü kimi **qaçaq əsasən, rəsmi dövlət orqanlarından, o zamanın mövcud ədalətsiz qanunundan qaçan, qaçaq düşməyə məcbur olan, yaşamaq və doğru bildiyini etmək üçün silahlı mübarizə aparmaqdan başqa yolu qalmayan insanlara deyilir.** Bunun əksi olan soğunçu, quldur, hərami bir mənada dövlətdən qaçaq düşsə də bu qaçaq düşmə xalqın lehinə etdikləri əməllərinə görə deyil, varlı kasıb demədən, hər kəsi soyan, bəzən öldürən, kəndləri, karvan yollarını basıb əllərində olanları alan, insanlara zülm edənlərdir. Qaçaq folkloru dedikdə ədalətsizliyə, zülmə qarşı savaşanların haqqında yaranan mahnılardan tutmuş əfsanələrə, lətifələrə və nəhayət, dastanlara qədər xalq söyləmləri nəzərdə tutulmuşdur.

## 1.4. İctimai etiraz (protesto) baxımından qaçaqlar və digər sosial etirazçılar

Sosial-iqtisadi, mənəvi-psixoloji etiraz forması tarixin bütün dövrlərində olmuşdur. Ümumiyyətlə bir şeyi qəbullənməmək, fikir və görüşlərini bildirmək, mövcud şəraitə, iqtidarın icraatlarına, siyasi-iqtisadi vəziyyətə, mənəvi atmosferə etiraz fərdi və ictimai azadlığın başlıca şərtidir. **Haqqı müdafiə etmənin əsas yollarından biri protesto mədəniyyətinin olmasına bağlıdır.** O baxımdan dünya tarixində hərəkətverici güc kimi xarakterizə olunan etiraz, yəni protesto[26] çox vaxt

[26] Protesto sözü Avropa dillerinə, əski fransızcadan, fransızcaya da latınca olan protestari sözündən keçmişdir. Sözün latınca mənası daha çox "açıqça

təsiri əsrlərcə sürən, bəzən məqsədinə çata bilməsə də cəmiyyəti dərindən sarsan, bəzən də qısa bir zamanda unudulan hadisələrdən ibarətdir. Etiraz fərdi və kütləvi olmaqla ikiyə ayrılır və hər zaman cəmiyyətin hərəkətverici dinamikası rolunda olur. İqtidar məhz etiraz, narazılıq hərəkatına, fikrinə görə siyasətini şəkilləndirir. Qaçaqçılıq həm uzun zaman tarixi məşğul edən, həm də geniş təsiri ilə ictimai fikri dəyişən sosial hadisədir. Bu hərəkatın varlığı dünya ictimaiyyətinin qaçaqçılıq hadisəsinin baş verdiyi ölkə haqqındakı fikrini formalaşdırır.

Tarixi hərəkətə gətirən ictimai etiraz və ya protesto formaları içində qaçaqçılıq baxımından bizi maraqlandıran milli azadlıq hərəkatı, kəndli üsyanları, fəhlə hərəkatı və s.dir. Qaçaqçılıq bu etiraz formalarının, xüsusən də kəndli üsyanlarının təməlində yaransa da onlardan bəzi cəhətləri ilə fərqlənir.

Təbii ki, milli azadlıq mübarizəsi sosial etirazın siyasi baxımdan ən şüurlu formasıdır. Təşkilatlanma, məqsəd birliyi, mübarizə forması, kütləviləşmə cəhdləri onu qaçaq hərəkatından ayırır. Bir qaçaq, məmləkətin hər yerində görünə bildiyi, hətta qonşu dövlətlərin sərhəddini keçib başqa bir ölkədə gizlənə bildiyi halda milli azadlıq hərəkatı çox zaman lokal xarakter daşıyır, bir yerdə baş verir, çox vaxt qonşu bölgələrə sirayət etmir. Qafqazda baş verən İmam Şamil hərəkatı tipik milli azadlıq mübarizəsi idi. **Qaçaqçılıq hərəkatı daha sonra yaranan milli-azadlıq mübarizəsinin sövq-təbii ilk qaynağı idisə də onunla eyni məzmun və mündəricədə deyildi. Bunların birində iqtisadi tələb, fərdi intiqam hissi və ya zülmə, özbaşınalığa qarşı ictimailəşmiş qanun qaçağının mübarizəsi vardısa, digərində siyasi məqsəd ön planda idi.** Yəni qaçaqçılığı işğala qarşı sürdürülən milli azadlıq hərəka-

---

elan etmək, bir şey və ya birinin lehinə şahidlik etmək"dir. Bu söz italyanca protesto "deklarasyon" mənasına gəlir.

tından, sənaye şəhərlərində iri sənayeçilərə qarşı başlayan siyasiləşmiş fəhlə hərəkatından və üsyanından ayıran başlıca fərq birinin siyasi-iqtisadi, digərinin isə iqtisadi mübarizə formasına üstünlük verməsi, birinin təşkilatlanması, digərinin kortəbii xarakterdə olması, özü-özlüyündə baş verməsi, birinin vətəni azad etmək, rejimi dəyişdirməklə iqtidar olmaq, digərinin yalnız yaxşı məmur, yaxşı bəy tapmaq problemində idi.

Ancaq bütün hallarda bu və ya digər şəkildə qaçaqlar ictimai etiraz formasının başqa nümayəndələri və təşkilatları ilə əlaqədə idilər və çox vaxt da onlarla birlikdə hərəkət edirdilər. Məsələn, Qaçaq Dəli Alı ermənilərə qarşı mübarizəyə qalxan Gəncə şəhərinin camaatı ilə birləşmiş, onlarla birgə hərəkət etmişdir. Eyni ilə müsavat partiyasının devrildikdən sonrakı ilk dövrlərində sovet patyiya və idarəetmə orqanlarına qarşı üsyanlarında çoxsaylı qaçaq dəsətələri də iştirak etmişdilər və ya əksinə müsavatçılar qaçaq dəstələrində mübarizəni davam etdirmişdilər. Bu da tərkibindən asılı olmayaraq mövcud sosial, iqtisadi, mənəvi vəziyyətlə barışmaq istəməyən, onları protesto edən sosial etirazçıların lazım gəldikdə bir cəbhədə birləşməsinin real sübutudur.

O ki qaldı qaçaqçılıqla təhkimçilikdən sonra baş verən kəndli hərəkatının əlaqəsinə burada durum bir az fərqlidir. Təbii ki, qaçaq hərəkatını kəndli üsyanları ilə birləşdirən əsas cəhət hər ikisinin sosial-iqtisadi mahiyyətli olması və hər iki hərəkatın kənddən çıxmasıdır. Kütləvi kəndli hərəkatı qaçaqların ortaya çıxmasında əsas baza rolunu oynasa da bunların arasında bir çox fərqlər də vardır. Bu fərqlər milli azadlıq və fəhlə hərəkatı ilə olan fərq qədər böyük olmasa da, hər halda müəyyən fərqləndirici nüanslar da yox deyildir.

Kəndli hərəkatı kütləvi, qaçaqçılıq qismən fərdi xarakter daşıyırdı. Kəndli hərəkatı kortəbii olsa da təhkimçiliyə qarşı çevrildiyi halda, qaçaqçılıq hərəkatı daha çox şəxsi motivlərlə

– intiqam almaq, təhqir olunduğu üçün kənxudanı, pristavı, koxanı, bəyi öldürməklə əlaqədardır. Buraya qız, at, xəncər, bir sözlə namus məsələsi üzündən qaçaq olanları da daxil etmək lazımdır. XIX yüzilin 30-cu illərindən başlayan qaçaqçılıq hərəkatı əsrin sonuna qədər yüksələn bir templə inkişaf etməyə başladı. Bu, tipik kənli hərəkatının bir forması idi ki, tarixdə qaçaqçılıq adı ilə məlum və məşhurdur. Ona görə də bəzi tarixçilər bu hərakata partizan hərəkatı, partizan mübarizə forması deyirdilər. Qaçaq hərəkatının və geniş planda baş verən kəndli üsyanlarının başlıca səbəbi milli, dini, iqtisadi, fərdi zülmün artması, dövlət xəzinəsini doldurmaq və eləcə də iri feodalların xeyrinə toplanan ağır vergilər və vergi toplanmasındakı özbaşınalıq, kəndlilərə kölə münasibəti, təhqirlər, çar məmurlarının keyfi idarəçiliyi və rüşvətxorluğu, natural veriginin pul vergisi ilə əvəz olunması və s. idi.

Nəticələndirmiş olursaq XIX əsrin 30-ci illərindən başlayan və Azərbaycanın hər yerini bürüyən kəndli hərəkatı tarixə "Qaçaq hərəkatı" adı ilə daxil oldu. Ancak burada kəndli üsyanları ilə tipik qaçaq hərəkatı arasında incə bir fərq də vardır.

1. Kənli üsyanlarının əsas hərəkətverici qüvvəsi yoxsul kəndlilər idi və məqsəd torpağın üzərində haqq sahibliyi məsələsi idi.

2. Qaçaq hərəkatının da üzvləri kəndlilər idilər, içlərində yoxsullarla bərabər ortabablar, hətta bəylər də vardı.

3. Kəndli üsyanlarının ömrü çox qısa idi. Bu üsyanlar amansızlıqla yatırılırdı.

4. Qaçaq hərəkatı intiqam yönlü, fərdi xarakterli idi və qaçaqların bəziləri 20-30 il çar məmurlarına və yerli idarəçilərə qarşı vuruşa bilirdilər.

5. Sovet dövrü qaçaqları isə rejimlə barışa bilməyən, əllərindən varları alınan, mənəvi təhqirə məruz qalanların pro-

testosu idi. Hətta bəzi qaçaq dəstələri yerli sovet idarəsini devirməklə əski zamanlara qayıtmaq istəyirdilər.

Qaçaqçılıq hərəkatı ortaya çıxdığı zamandan Azərbaycanın hər tərəfini bürüdü. Xalq tapdanmış haqqını çar məmurlarından, daha sonra sovet rejimindən alan qaçaqları həmişə müdafiə edir, onlara lojistik dəstək saxlayır: düşmənlərin əlinə keçməsinə mane olur, gizlədir, ərzaqla, bəzən də silah və patronla təmin edirdi. Ona görə də haqlı olaraq qaçaqları xalq intiqamçıları adlandırırdılar. Xalq arasında məşhur olan və haqlarında mahnılar, rəvayətlər, hətta dastanlar yaranan qaçaqlardan Gəncədə Dəli Alı, Qəmbər; Qarabağda Süleyman, Murtuza; Şuşada Məmməd bəy Kavaler; Zaqatalada Yusif; Zəngəzurda Qaçaq Nəbi; Nuxada Qutqaşenli Kərim Əfəndi oğlu; Qazaxda Qaçaq Kərəm, Tanrıverdi Allahqulu oğlu; Ağbabada Qaçaq Usuf, Borçalıda Qaçaq Mehralı, Qaçaq İsaxan və b. göstərmək mümkündür. Kommunist rejimi dövründə adları unudulan neçə-neçə qaçaq vardır ki, onların şücaətləri haqqında çox az məlumat qalmışdır. Hər halda çar rejiminin gördüyü bütün tədbirlər qaçaqçılıq hərəkatının qarşısını almaqda aciz idi. Qaçaqçılıq hərəkatının qarşısını yalnız sovet rejimi uzun mübarizədən və sərt tədbirlərdən sonra ala bildi.

Çarlıq dövrü Rus arxiv sənədlərində qaçaq, sovet tarixciliyində isə qolçomaq, Osmanlı qaynaqlarında əşkiya, haydut adlandırılan içtimai üsyançılar əslində xalq hərəkatı qəhrəmanları idilər. Osmanlıda sosial xarakterli üsyançıların əşkiya adlandırılması məhkəmə sicillərinə, arxiv sənədlərinə, özəlliklə də Başbakanlık Arxivindəki materiallara görə təsbit edilir. Bütün bu rəsmi sənədlər Osmanlı hökumətinin görüşünü müdafiə etdiyindən, qaçaqçılıq edənlərin sosial tərkibinə baxmayaraq əşkıya adlandırılmışdır. Eyni ilə qaçaqlar da içtimai tərkibləri baxımından müxtəlif quruplardan təşkil edilmişdi. Bunlar yoxsullaşmış kəndlilərdən, torpaqları əlindən alınan

bəylərə, böyük din adamlarına qədər hər təbəqədən ola bilirdi. Əşkıyalar qanundan qaçdıqları üçün Cəlalilər də, Koroğlu da, Qara Yazıcı, Qələndəroğlu, Canbolatoğlu, İncə Memed, Çakırcalı Mehmet Efe, Yörük Əli, Atçalı Kəl Mehmet və başqaları da Osmanlı tarixçilərinin gözündə sadəcə olaraq quldurdan, yolkəsəndən başqa bir şey deyildilər. Qaçaq Nəbi, Qaçaq Kərəm, Qaçaq Tanrıverdi, Molla Nur Çarlıq Rusiyası sənədlərində yolkəsən, ayağı çarıqlı kəndli adlandırılsalar da, xalq onlara igid, ələ geçməz, dəliqanlı mənasna gələn qaçaq adını vermiş, zamanla bu termin rəsmi sənədlərə də geçmişdir.

Qaçaqçılıq hərəkatı bir kəndli müqaviməti, mübarizəsi formasıdır. Haqqı, hüququ əlindən alınan, ağır vergi altında əzilən, torpaqdan məhrum edilən, bəylər tərəfindən malı-mülkü əlindən alınan kəndliləri qorumaq üçün özləri də kəndli olan qaçaqlar sadəcə həmkəndlilərini deyil, bütün obanın, mahalın qoruyucusu oldular. Əslində ölkə daxilində və özəlliklə də ucqarlarda dərəbəyliyin baş alıp getməsi qaçaqların da sosial tərkibinə təsirsiz qalmadı. Belə ki, Azərbaycanda "Bu nədi, dərəbəylik-zatdı bəyəm?" və ya Türkiyədə deyildiyi kimi "Burası dağ başıdır mı?" deyimləri qaçaq-quldurluğun yayqın olduğu və xalqın qanun tanımayan bu əşkiyalara münasibətinin deyimə çevrilmiş formasıdır.

Qaçaqçılıq tipik kəndli hərəkatının başqa bir şəkli olsa da burada əlavə etməyə ehtiyac vardır ki, qoyunçuluqla məşğul olan elat camaatının içindən də qaçaqlar çıxmışdır. Hər halda qonar-köçər tayfalardan tərəkəmələr arasından çıxan az sayıda qaçaqların olmasına baxmayaraq, qaçaq hərəkatı dedikdə daha çox kənddən çıxmış, yoxsul təbəqənin nümayəndəsi olan insan (sovetlər zamanında isə yeni quruluşu qəbul etməyənlər) başa düşülür.

Sosial protestonun təmsilçiləri olan qaçaqlar dərəbəyinə, torpaq ağasına, pristava, varlı kənxudaya qarşı kəndlini qoru-

yan qəhrəmanlar kimi fəaliyyətə başladılar. Təbii ki, kəndli də onlara lojistik dəstək saxlamaqla, qorumaqla, ələ verməməklə, gizlətməklə öz borcunu ödəmiş oldu. Zamanla xalq qaçaqların gücünə, igidliyinə inandığından onların öldüyünə də inanmır, əksinə qaçaqlar haqqında mahnılar qoşur, ağılar söyləyir, əfsanələr anladır, dastanlar yaradırdı. Beləliklə, ortaya zəngin qaçaq folkloru çıxmış oldu. Qaçaqçılıq inkişaf etdikcə onun özünəməxsus yazılmamış qanunları, qaydaları, törələri, adətləri, ənənələri yaranmağa başladı.

Qaçaq folkloruna görə qaçaqların hər kəs tərəfindən qəbul edilən qanunu xalqın sevimli qəhrəmanı Koroğlu tərəfindən qoyulmuşdur:

Hesabiyə dağ da olsam eyilləm
Bədhesaba yaman kinligirəm mən.

Xalqın gözündə harama əl uzatmayan, hesabını bilən, zülmə qarşı susmayan, ədələtdən dönməyən, varlıdan alıb yoxsula verən Koroğluluqdur, qaçaqlıqdır. Koroğlu bir çox tarixi sənəddə əşkiya, hərami adlandırılsa da onun soylu, əlicənab, varlıdan alıb kasıba verən qaçaq olması dastanın həm Azərbaycan, həm də Anadolu variantlarında görünür. O baxımdan Koroğlunu mənfi mənada işlədilən hərami hesab etmək olmaz.

Beləliklə, tarixi hərəkətə gətirən və ən böyük güç olan sosial etirazın bir çox forması vardır ki, XIX yüzil Azərbaycanında baş verən qaçaqçılıq baxımından dəyərləndirdikdə ortaya bir neçə qrup etirazçı çıxır. Milli azadlıq mübarizəsi, kəndli hərəkatı, fəhlə çıxışları, üsyanlar, kütləvi ixtişaşlar kimi sosial protesto formalarının olmasına baxmayaraq qaçaqçılıq ən uzun ömürlü olub, Çarlıq Rusiyasını və sonradan sovet rejimini uzun müddət məşğul etmişdir. Məhz buna görədir ki, xalqın yaddaşında ən çox qalanlar da qaçaqlar olmuşdur.

# İKİNCİ FƏSİL
# XIX YÜZİLDƏ AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ və SİYASİ ŞƏRAİT: KƏNDLİ HƏRƏKATI və QAÇAQÇILIQ

## 2.1. Azərbaycanın işğalı və təhkimçilikdən sonrakı kəndli hərəkatı

Türk dünyasında qaçaqçılıq hərəkatı ilk öncə XVI yüzildə Osmanlı və Səfəvi dövlətində başlasa da, bunun ən böyük və ən məşhur təmsilçisi Koroğlu olsa da, XVII əsrdə Karahaydar oğlu Mehmedlə davam etmiş, Osmanlı dövlətinin zəiflədiyi, Azərbaycanın isə XIX yüzildə işğalı ilə daha geniş vüsət almışdır. Ancaq quldurları, yolkəsənləri, sərhəddən gizli mal qaçıranları, cinayətkarları ictimai qaçaqlarla qarışdırmamaq lazımdır. Bu müxtəlifliyin təməlində iqtisadi amillər dursa da əşkiyalıq və qaçaqçılıq dövləti yıxmağa, rejimi dəyişdirmək üçün deyil, pis yönəticilərə qarşı çevrilmişdir. Ona görə də qaçaqlar hər zaman yoxsulun, əzilənin yanında olmuşlardır. Xalqın onları sevməsinin, haqlarında mahnılar qoşmalarının, dastanlar söyləmələrinin səbəbi də qaçaqların xalqla içiçə olmasıdır. Burada zeybəklər üsyanını, Car-Balakən, Lənkəran və Quba üsyanlarını, Osmanlıda Atçalı Kəl Mehmet, Azərbaycanda Qaçaq Nəbi hərəkatlarını, sonrakı zamanlarda İncə Mehmet üsyanını misal olaraq göstərmək mümkündür. Rəsmi Osmanlı sənədlərində həm birinci, həm də ikinci qrup sosial narazılara fərq qoyulmamışdır. Azərbaycanda isə XVII-XVIII yüzillərin qaçaqları Çar Rusiyasını narahat etməsə də, təhkimçiliyə qarşı başladılan kəndli üsyanları və arxasınca qaçaqçılıq hərəkatı imperiyanın qatı düşmənləri kimi təqib olunmuşlardır. Osmanlı rəsmi sənədlərinin heç birində qaçaqlara

müsbət münasibət gösrərilməmiş, əşkiyalar "din və dövlət düşməni pozğunçular" kimi anılmışlardır[27].

XVIII yüzildə Azərbaycanın xanlıqlara parçalanması və iç çatışmalar mərkəzləşmiş vahid Azərbaycan dövlətinin yaranmasının qarşısında ən böyük əngəl olduğu kimi, milli birlik duyğularının da zəifləməsinə səbəb oldu. Bir-biri ilə mübarizə aparan bu xanlıqlardan bəzilərinin İrana, bəzilərinin isə Rusiyaya meyl göstərməsi, nəticədə Qafqazı işgal siyasəti yürüdən çar rejimini daha da cəsarətləndirdi. Azərbaycanın Rusiya tərəfindən 1801-ci ildən başlayan işğalı nəticəsində, tarixi Azərbaycan torpaqları 1813 və 1828-ci illərdə Rusiya ilə İran arasında baş verən savaşların obyektinə çevrildi və talan olan kəndlər, şəhərlər, yoxsullaşan insanlar bütün ölkəni bürüdü. Bağlanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Çar Rusiyasının idarəsi altında qalan Azərbaycan türkləri həm etnik, həm mədəni və mənəvi, həm də iqtisadi diskriminasiyaya məruz qaldıqlarından ictimai narazılıqlar gedərək güclənməyə başladı. Onu da demək lazımdır ki, çarizmin Qafqaza gəlməsində əsas rolu ermənilər, qismən də gürcülər oynadılar[28]. Ona görə də Qafqazda baş verən azadlıq hərəkatı (Şeyx Mənsur, Qazi Məhəmməd, Həmzət bəy, İmam Şamil üsyanları) Azərbaycanda da rəğbət gördü. Hətta bu üsyanların dini-təsəvvüfü dayağı olan müridizm Azərbaycanda Şeyx İsmail Kürdəmiri tərəfindən qurulmuşdu və Qafqaz üsyanını başladanlar Şeyx İsmail Əfəndinin müridləri və müridlərinin müridləri idilər. Ancaq Azərbaycan və əsasən də Qafqazda müridizm təriqətdən çox ruslara qarşı azadlıq mübarizəsi aparan təşkilat mənasını qazandı. Nəqşbəndi təriqətinin bir qolu olan müridizm Azərbaycana Buxaralı nəqşbəndi şey-

---

[27] Uluçay M. Ç. (1968). Atçalı Kel Mehmed, İstanbul, s.63

[28] Əsədov Firudin, Kərimova Sevil (1993). Çarizmi Azərbaycana gətirənlər. Bakı: Elm

xi tərəfindən gətirilmiş burada İsmail Əfəndi tərəfindən təbliğ edilməyə başlanmışdır. Müridizmin əsas ideyası işğala qarşı qəzavat aparmaq idi. Nəqşbəndiyənin müridizm qolunu İsmail Əfəndinin müridi olan Məhəmməd Yaraqlı 1823-cü ildən sonra Dağıstana gətirmiş, müridi Şeyx Cəmaləddin də Qafqazın ilk imamı olan Qazi Məhəmmədə öyrətmiş, ondan da İmam Şamil təhvil almışdır. Ruslara qarşı savaşan bütün dağıstanlılar, əsasən də kəndlilər müridizm təriqətinin üzvü idilər.

Kəndli hərəkatının başlaması üçün lazım olan sosial "səbəblərdən biri də rus işğalından sonra işğalçı qoşunların ehtiyaclarının azərbaycanlılar tərəfindən təmin olunması idi. 1816-cı ildə A.P.Yermolov Qafqaz qoşunlarının ali baş komandanı təyin olunduqdan sonra Azərbaycanda, xüsusilə Qarabağda erməni məliklərinin göstərişi ilə əhaliyə divan tutmuş, Azərbaycanlıların, əsasən də varlıların mülkləri, var-dövlətləri talan olunmuş, bəylərin və xanların sürgünə göndərilməsi barədə əmrlər verilmişdir. "Qafqazı işğal edən rus qoşunlarının ərzaq, saman və digər ləvazimatla təmin olunması əsasən, azərbaycanlıların hesabına idi. Arxiv sənədlərini araşdırarkən məlum olur ki, 1827-ci ildə ərzaqla dolu 2000 araba rus qoşunlarının təminatını ödəmək üçün tədarük olunmuşdur"[29]. Bu isə onsuz da iqtisadi cəhətdən acınacaqlı durumda olan Azərbaycanlı kəndlilərin daha da müflisləşməsi demək idi.

Azərbaycan torpaqlarının üçdə birinin zorla Rusiya İmperiyasının tərkibinə qatılmasından sonra keçmiş xanlıqlar ləğv edilməklə, xanlıqlar formasında mövcud olan dövlətçilik ənənəsi də unutduruldu və bunun yerinə Bakı, Şəki, Şirvan, Qarabağ, Talış əyalətləri, Yelizavetpol və Car-Balakən dairələri, Qazax və Şəmşəddil distansiyaları yaradıldı. Hər bir əya-

[29] Bax. Fərəcov Ş.F. (2010). "Azərbaycanda partizan hərəkatını doğuran səbəblər və qaçaq hərəkatı", Bakı Universitetinin Xəbərləri, №2, Humanitar Elmlər Seriyası, s.163

lət və dairənin başında xalqın "qoburnat" dediyi komendantlar dururdu. Ona görə də bu sistem tarixdə komendant üsul-idarəsi adlandırılır. Çar işğalından sonra yavaş-yavaş güclənməyə başlayan təhkimçilik siyasəti kəndlilərin torpaqlarını itirməsinə və sürətlə yoxsullaşmasına və kütləvi narazılıqların artmasına səbəb oldu. Bu da komendantlıq üsul-idarəsinin yetərsiz olduğunu sübut etdi.

Bunu hiss edən imperiyanın yerli idarəçiləri islahatlar keçirmək yolunu tutdular. Ən böyük islahat komendantlıq idarə sisteminin ləğvi, bunun yerinə quberniya və vilayət idarələrinin yaradılması oldu. Quberniya və vilayət idarələri qəzalara, qəzalar nahiyələrə bölündü. Bu idarəetmə xalqı daha asan nəzarətdə saxlamağı planlaşdırmışdı. Məsələn, Xəzər vilayətində 7 qəza və 32 nahiyə təşkil olundu. Dərbənd, Quba, Bakı, Şamaxı, Nuxa, Şuşa və Lənkəran qəzaları Xəzər vilayətinə tabe oldu. Azərbaycanın tarixi torpaqlarının böyük bir qismi, məsələn, Qazax, Şəmşəddil nahiyələri və Yelizavetpol (Gəncə) qəzası, Car-Balakən dairəsi, İrəvan və Naxçıvan qəzaları Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı.

Ancaq bu idarə sistemi də özünü doğrultmadı və 1846-cı il dekabrın 14-də çarın fərmanı ilə Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti ləğv edildi. Onların yerinə 4 quberniya – Tiflis, Kutais, Dərbənd və Şamaxı quberniyaları yaradıldı[30]. Daha sonra da Şamaxı və Dərbənd quberniyaları ləğv edilərək Bakı və Yelizavetpol quberniyaları yaradıldı və Bakı yavaş-yavaş sənaye şəhərinə çevrilməyə başladı. 70-80-ci illərdə neft sənayesi inkişafa başladı ki, burada yerli sənayeçilərdən Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Hacı Zeynəlabidin Tağıyevi və b. göstərmək olar. Bu qısa tarixi icmaldan da göründüyü kimi Çar Rusiyası yerli

---

[30] Azərbaycan tarixi (2007). IVC, s.100-136

müsəlman əhalini təzyiq altında saxlamaq üçün onları xristiyan əhalinin içində (Tiflis, Kutais) əritməyə çalışırdı və əsas diqqəti xristiyan dindaşları olan gürcülərə yönəltmişdi.

Buraya qədər deyilənlər yekunlaşdırsaq qaçaqçılıq hərəkatının ortaya çıxma səbəbləri və tarixi şərtlərinin Azərbaycanda yeni bir xalq hərəkatı – kəndli hərəkatının nəticəsində başlamış olduğunu qeyd etmək lazımdır. **Kəndli hərəkatı və üsyanlar özəlliklə 1840-cı ildə çar tərəfindən təhkimçilik rejiminin Azərbaycanda tətbiq edilməsindən (təhkimçilik hüququ Azərbaycanda rəsmən 1847-1870-ci illəri əhatə edir) və buna müqabil bəylərin torpağın tam sahibi olmasından, kəndlilərin isə torpağa bağlı kölə olmasından sonra daha da şiddətlənməyə başladı.** Kəndli hərəkatı ilə paralel və ya ondan ayrı fərdi mübarizə forması olan qaçaqçılıq da başlamış oldu. Kəndli üsyanlarının ömrü az olsa da qaşaqçılıq XX yüzilin 40-cı illərinə qədər davam etdi.

Çar işğalından sonra yavaş-yavaş güclənməyə başlayan təhkimçilik siyasəti[31]kəndlilərin, bəzən də mülkədarların torpaqlarını itirməsinə və sürətlə yoxsullaşmasına səbəb oldu. Azərbaycan dilinin izahlı lüğətində təhkimçilk: "Mülkədarların, onlara məxsus olan kəndlilərin əməyinə, malına, canına tam sahib olduqları ictimai quruluş" kimi tərif edilmişdir. Rusiyada bir neçə yüzil davam edən təhkimçilik Azərbaycanda yalnız Çar Rusiyasının Qafqazı işğal etməsindən sonra başlamışdır. Artan vergilər, yerli idarəçilərin özbaşınalığı xalqı etiraz etməyə, üsyan çıxarmağa məcbursövq etdi.

---

[31] Вах. Литвинов М. А. (1897). История крепостного права в России. Москва: Тип. Вильде, 1897; Данилова Л.В. (1970). "К вопросу о причинах утверждения крепостничества в России", Ежегодник по аграрной истории Восточной Европы за 1965 г. М.; Кавтарадзе Г.А. (1969). "К истории кресстьянского самосознания периода реформы 1861 г.", Вестник Ленинградского ун-та. Серия История, язык, литература, № 14, вып. 3. Ленинград, 1969

## 2.2. Qaçaqçılığın ortaya çıxmasında kəndli etirazları və üsyanlarının rolu

### 2.2.1. İşğala qarşı kəndli üsyanları

Beləliklə, XIX yüzilin başlarından Rusiyanın Qafqazı və Azərbaycanı işğalı dövrü başladı ki, bu proses 1828-ci ilə qədər davam etdi. Ancaq işğalla milli azadlıq hərəkatı və müstəmləkəçiliyə qarşı mübarizənin ən geniş yayılmış forması qaçaqçılıq hərəkatı başlamış oldu. Azərbaycanın müxtəlif bölgələrində öncə milli azadlıq və kəndli üsyanları, arxasınca da 160 ilə yaxın Çar Rusiyasının yerlərdəki məmurlarına müqavimət göstərən qaçaqçılıq hərəkatı fəaliyyətə başladı. Beləliklə, işğal olunmuş Azərbaycanda qaçaq hərəkatının ortaya çıxmasından əvvəl Çar Rusiyasına qarşı Dağıstanda olduğu kimi milli-azadlıq üsyanları başladı. İlk üsyan Car-Balakəndə 1830-cu ilin əvvəllərində oldu və həmin ilin sonuna qədər davam etdi, ancaq üsyan amansızlıqla yatırıldı, arxasınca Lənkəranda xanlığın yenidən bərpası və müstəqillik uğrunda 1831-ci ilin martında başlayan üsyan həmin ilin mayında süquta uğradı. Üsyanın səbəbi Lənkəran xanlığının Gülüstan müqaviləsi ilə (1813) Rusiyaya birləşdirilməsindən sonra 1826-cı ildə ləğv edilməsi oldu. 1831-ci il mart ayının 5-də başlayan Lənkəran üsyanı xanlığın bütün ərazisinə yayıldı və iki ay sürdü. 1837-ci ildə başlayan Quba üsyanında 12 min adamın iştirak etməsinə baxmayaraq bu üsyan da tez bir zamanda məğlub oldu. Üsyanın başçısı edam edildi, qalanları da Sibirə sürgün edildilər. Bunun arxasınca 1838-ci ildə başlayan Şəki üsyanı da amansızlıqla yatırıldı[32]. Qısa bir zaman sonra

[32] Bax. История народов Северного Кавказа конца XVIII в.- 1917 г. (1988). Москва: Наука; Baykara Hüseyn (1992). Azərbaycan istiqlal müba-

1863-cü ilin iyununda Zaqatala yeni bir üsyan dalğası yayıldı. Üsyana bəhanə Balakən kəndində tikilmək istənən kilisə və inqloyların zorla provaslavlaşdırılması oldu. Üsyançılar Zaqatala qalasını almaq istəsələr də buna nail ola bilmədilər. Çar ordusu kütləvi həbslər keçirdi, üsyan başçıları katorqaya göndərildi, dəyən zərər üsyançılara ödətdirildi. Bütün bunlar əyalət səviyyəsində olsa da, müstəqillik uğrunda çar işğalçılarına qarşı başladılan üsyanların heç birinin başarılı olmasa baxmayaraq, bu, hökuməti bəzi islahatlar keçirməyə məcbur etdi. Kəndli üsyanlarının ən böyük xidməti arxasınca qaçaqçılıq hərəkatının ortaya çıxması oldu. Azərbaycanda, bəlkədə ilk qaçaq olan Molla Nurun heç şübhəsiz Quba üsyanları (1826, 1837 və 1877) ilə, özəlliklə də ikinci Quba üsyanı ilə əlaqəsi vardı. Hətta Quba üsyanının ikinci başçısı Yarəli beş adamıyla dağlara çəkilib qaçaqlıq etməyə başladı. Digər üsyanların da bərabərində qaçaqçılıq hərəkatını doğurudğunu demək lazımdır. Şeyx Şamil (və ya İmam Şamil) hərəkatı ilə eyni dövrə düşən ikinci Quba üsyanı 12 mindən çox əhalini və Quba, Dərbənd, Dağıstan kəndlərinin əksəriyyətini əhatə etmişdi. Azərbaycanda baş verən üsyanlara əsasən bəylər və xanlar rəhbərlik edirdilər.

Çox keçmədən çar məmurları əhali ilə daha da sərt rəftar etməyə başladılar. Artan vergilər, yerli idarəçilərin özbaşınalığı xalqı etiraz etməyə, üsyan çıxarmağa sövq etdi. İlk olaraq istismarçı rejimə vergi verməmək, o zamanlar çox yayqın olan biyara getməmək yoluna baş vuruldu ki, bu xalq hərəkatının, xalq dirənişinin qısacası, qaçaqçılığın ilk passiv formada ortaya çıxması idi[33]. Məsələn, 1878-ci ildə İrəvan quberniyasının Novruzlu kəndinin camaatı vergi verməkdən bo-

---

rizəsi tarixi. Bakı: Azərnəşr; Əsədov Firudin, Kərimova Sevil (1993). Çarizmi Azərbaycana gətirənlər. Bakı: Elm

[33] Qasımov. Qafqazda qaçaqlara qarşı mübarizə, s.18

yun qaçırmaqla qalmamış hətta vergi toplayanları dövərək kənddən qovmuşdular. Yavaş-yavaş bu etirazlar daha da böyüyərək bəzi məmurların, kəndxudaların öldürülməsi şəklində qanlı əyləmə çevrildi. Azərbaycan tarixindən məlumdur ki, vergi və töycü toplayan qəddar məmurlara qarşı başlayan bu divan tutma uzun zaman davam etdi. Məsələn, 1878-ci ildə sadəcə Quba qəzasında kəndlilər 120-dən çox kəndxuda, bəy, divanbəyi öldürülmüşdülər. Kəndli üsyanları nəticəsində Nuxa, Yelizavetpol, Şuşa və Cavanşir qəzalarında da çox sayıda çar üsul-idarəsinin yerli məmuru öldürülmüşdü. Kənddən çıxan bu igid insanlar öldürdükləri məmurlara görə cəza çəkməmək, sürgün germəmək, yaxud edam edilməmək üçün dağlarda, daşlarda, meşələrdə məskən tutmaqla, gizlənməklə eldən-obadan qaçaq düşdülər və başlarına dəstə toplamaqla, mübarizəni davam etdirdilər. Qaçaqlar çar üsul-idarəsində quldur adlandırılsalar da, xalqın gözündə qəhrəman idilər. Bunlar bilinən sosial zəminli ilk qaçaqlar idi ki, siyasi tələbləri, sosial planları, mübarizə strategiyaları və taktikaları demək olar ki, yox idi və ya vardısa da çox primitiv şəkildə idi.

Qısa bir zamanda qaçaq hərəkatı o qədər geniş yayıldı ki, XIX əsrin II yarısından etibarən Çar Rusiyası bu hərəkata qarşı xüsusi planlar hazırlamağa məcbur oldu. 1890-cı illərdə Qubaya gələn Qafqaz hərbi qüvvələrinin komandanı və mülki idarənin xüsusi müfəttişi olan general Dondukov-Korçakov qaçaqlara qarşı bir sıra tədbirlər planı həyata keçirməyə başladı. O, qaçaqlara qarşı mübarizə aparmaq üçün yerli idarə rəislərinə geniş səlahiyyət verməklə yanaşı hərbi qüvvələrin də onlara yardım etməsini əmr etdi. Ümumiyyətlə, Qafqaza təyin olunmuş baş komandanlar və canişinlər: P.D.Sisianov (1802-ci il noyabrın 8-də), A.P.Yermolov (1816-cı ildə), İ.F.Paskeviç (1827-ci ildə), A.N.Bayratinski (1856-cı ildə), İ.V.Qudoviç və başqa generallar Azərbaycanda, tarixçilərin partizan

hərəkatı adlandırdıqları, qaçaqların qatı düşmənləri idilər. Qatı düşmənlərin içərisində erməni əsilli generallar: V.Q.Madatov, V.O.Behbudov, İ.Korqanov, İ.Lazarev xüsusilə fərqlənirdilər. Qarabağın erməni məlikləri də rus generallarının azərbaycanlılara qarşı başlatdıqları müharibə və qırğınlarda bilavasitə iştirak edirdilər[34]. Bu qədər sosial, iqtisadi, mənəvi zülmə məruz qalan bir xalqın etiraz etməməsi, tarix meydanına qaçaq adı ilə bilinən savaşçılar çıxarmaması təbii ki, mümkün deyildi.

Tarixi sənədlərdən də göründüyü kimi camaatın sevimli qəhrəmanı olan qaçaqlar hər yerdə xalqın lojistik dəstəyini alır, hətta tutulduqda həbsxanadan qaçır və ya qaçırılırdılar. Bir sözlə xalq hər yerdə onlara kömək edirdi. Aparılan hərbi əməliyyatlar da qaçaqçılıq hərəkatını zəiflədə bilmədi və çar idarəsinin heç bir tədbiri Azərbaycandakı qaçaqçılıq hərəkatının qarşısını ala bilmədi[35]. "1888-ci ildə Quba həbsxanasının dustaqları qapıları sındıraraq bir qaçağın zindandan qaçmasına şərait yaratmışdılar. Bu savaşda iki rus əsgəri öldürülmüş üçü də ağır yaralanmışdı. Bu hadisələr bir daha sübut edir ki, azərbaycanlılar arasında, hətta məhbuslar arasında da qaçaqlara qarşı böyük hörmət var idi. Rus çar idarəsi qaçaqçılıq hərəkatının qarşısını ala bilmirdi"[36]. Bütün bu faktlar XIX yüzilin ortalarına doğru qaçaq hərəkatının gücləndiyini və çarizmə qarşı məşhur mübarizə formalarından biri olduğunu isbat edir. Və XIX yüzilin ortalarından XX yüzilin 20-ci illərinə qədər davam edən birinci mübarizədə ən azından 150-dən çox qaçaq dəstəsinin iştirak etdiyi bilinməkdədir.

---

[34] Fərəcov Ş.F. (2010). "Azərbaycanda partizan hərəkatını doğuran səbəblər və qaçaq hərəkatı", Bakı Universitetinin Xəbərləri, №2, Humanitar Elmlər Seriyası, s.164
[35] Azərbaycan tarixi (2007). II cild, səh. 9
[36] Baykara Hüseyn (1992). Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, s.83

Beləliklə, Azərbaycanda yeni bir xalq hərəkatı – kəndli hərəkatının başlaması ilə qaçaqlar dəstəsi yarandı. Üsyandan sağ qurtulan, həbs olunmaqdan, sürgünə göndərilməkdən canını qurtarmaq istəyənlər dağlara çəkilib qaçaq kimi fəaliyyət göstərdilər. Kəndli üsyanlarından, müqavimət hərəkatından fərqli olaraq kiçik, ancaq çevik dəstələrlə fəaliyyət göstərən qaçaqlar istədikləri anda, istədikləri yerdə ortaya çıxmaqla çar rejiminə zərbə vururdular. Əslində 5-6 və ya 10-15 nəfərlik dəstələrlə vuruşmaq strateji cəhətdən rus əsgərlərini ovlamaq siyasətinin tərkib hissəsi idi.

XIX yüzyilə qayıtmış olursaq kəndli hərəkatı və üsyanlar özəlliklə 1840-cı illərdə çar tərəfindən təhkimçilik rejiminin Azərbaycanda tətbiq edilməsindən və buna müqabil bəylərin torpağın tam sahibi olmasından, kəndlilərin isə torpağa bağlı kölə olmasından sonra daha da şiddətlənməyə başladığını vurğulamaq lazımdır. Öncə passiv xarakter daşıyan hərəkat və fərdi xarakter daşıyan silahlı çıxışlar zamanla təşkilatlanmağa başladı və bir qrup kəndli çar rejiminə və onların yerli təmsilçilərinə qarşı mübarizə və mücadiləni məqsədə çevirmiş oldular. Belə bir mübarizə forması sadəcə Azərbaycanda deyil, digər Qafqaz xalqlarında, hətta rusların arasında da geniş yayıldı. Ancaq işğala qarşı aparılan mübarizə ilə torpağını itirərək qaçaqçılıq yolunu tutan kəndli hərəkatı arasında böyük fərq olduğunu da demək lazımdır.

Hər halda bütün XIX yüzil boyu Quzey Azərbaycanda çar üsul-idarəsinə qarşı aparılan mübarizənin ən çox yayılmış forması qaçaqçılıq hərəkatı idi. Bu hərəkat Azərbaycanın hər tərəfini bürümüşdü.

### 2.2.2. Kəndli üsyanlarından sonra ortaya çıxan məşhur qaçaqlar

Qaçaqçılıq o zaman tarixi dəyşən, ictimai düzənə yön verən qüvvəyə çevrilir ki, o böyük hərəkatlarla, məsələn üsyanlarla, müqavimət hərəkatları ilə birləşmiş olur. Əslində ictimai qaçaqların funksiyası da bundan ibarətdir ki, bu da onları qaçaq-quldurlardan, şəxsi intiqam arxasınca düşənlərdən fərqləndirir. Çarlıq zamanında Qafqazda, Rusiyada, Azərbaycanda kəndli üsyanlarına qoşulan sosial qaçaqlar tarixin axarını dəyişənlərdir. Bunu qaçaqların milli azadlıq hərəkatında, iqtisadi üsyanlarda fəal iştirakı və də onlardan dərhal sonra qaçaqçılığa başlamaları da göstərir.

Qaçaq hərəkatı ölkənin hər tərəfinə yayılmışdı: Qarabağda, Gəncəbasarda, Göyçədə, Borçalıda, Şəki-Zaqatalada, Aran bölgəsində, Muğan olaraq adlandırılan Cənub bölgəsində (Lənkəran, Masallı, Yardımlı, Cəlilabad, Astara, Lerik) və s. Burada Azərbaycanı bürüyən qaçaqçələq hərəkatının öndə gələn nümayəndələri haqqında qısa da olsa bilgi vermək lazımdır. Bunlardan Səməd Ağa (təqribən 1815-ci ildə anadan olmuşdur), Qaçaq Nəbi ((1854-1896)), Qaçaq Adıgözəl, Qaçaq Kərəm (1860-1909), Molla Nur, Qaray Söyün (1850-1925), Qandal Nağı (1864-1917), Qaçaq Səfəralı (1867-), Dəli Alı (1887-1917), Qara Tanrıverdi (1837-1885), Qaçaq Ramazanoğlu Rüstəm və Təhməz qardaşları, Qaçaq Məcid Ağa, Qaçaq Məmmədqasım, Qaçaq Qəmbər Bəhmənli, Sarı Ələkbər İmamquluoğlu, Qaçaq Süleyman (1859-), Qaçaq Rəşid, Qaçaq Hacıağa, Qaçaq Şahverən, Sarı Qafar, Qaçaq Mozu, Qaçaq Usuf (təqribən 1870-1913) və digərləri daha çox şöhrət qazanmışdılar. Ancaq məşhur qaçaqlar və qaçaq dastanları haqqında məlumat verən Vaqif Vəliyev, Paşa Əfəndiyev, Rüstəm Rüstəmzadə, Qara Namazov, Azad Nəbiyev və baş-

qaları qaçaq dedikdə əsasən, Gəncəbasar, Borçalı, Ağbaba, Qarabağ və qismən də Quba bölgələrini nəzərdə tutmuşlardır. Onlar Cənub bölgəsində, özəlliklə Salyan, Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı, Lənkəran və digər rayonların qaçaqlarından söz açmamışlar. Bu isə folklorçuların qismən yanlı münasibətinin, qismən də araşdırma aparmamalarının nəticəsidir. Qaçaqlar, əsasən müstəmləkəçilikdən, təhkimçilik siyasətindən əziyyət çəkən yoxsulların, kəndlilərin hüquqlarını müdafiə edən və milli qaçaqçılığın əsasını qoyanlar idilər. Ancaq bu qaçaqlardan bəziləri haqqında çox az şey məlumdur. Məsələn, Naxçıvan və Təbriz mahallarında qəhrəmanlığı ilə məşhur olan Qaçaq Adıgözəl haqqında çox az məlumat qalmışdır.

Tarixi sənədlərə dayanaraq Səməd Ağanın təqribən 1815-ci ildə indiki Gürcüstanın Borçalı qəzasının Fəxralı kəndində varlı bir ailədə dünyaya gəldiyi bilinir. Deyilənlərə görə icarəyə götürdüyü torpağın vergisini verə bilmədiyi üçün hökumət adamları onu incitməyə başlamışlar. O da qəza milis rəisini öldürərək qaçaq düşmüş, qısa bir müddətdən sonra da yaxalanaraq sürgünə göndərilmişdir. Ancaq Səməd Ağa sürgündən qaçaraq ətrafına topladığı kəndlilərlə birlikdə çar məmurlarına qarşı savaşmağa başlamışdır. O, əsasən Borçalı tərəflərdə, Qazax bölgəsində və Dilican ətrafında qaçaqçılıq etmişdir. Səməd Ağa dəfələrlə çar silahlı dəstəsi ilə mübarizəyə girmiş, nəhayət İrana və Türkiyəyə keçərək orada yaşamışdır[37]. Buna baxmayaraq "Səməd Ağa" dastanında onun qaçaq düşməsi bir az fərqli şəkildə nəql edilir: Səməd Ağa bir gün bir generalla və yaxınları ilə birlikdə yemək yeyirmiş. General da yemək süfrəsində ov itini yedirdirmiş. Səməd Ağa bu

[37] Rüstəmzadə Rüstəm (1984). El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik, s.60-61

durumu özü üçün təhqir hesab edir və cəld bir hərəkətlə itin boğazını kəsib öldürür. Bunu görən general Səməd Ağaya ağır sözlər deyərək onu təhqir edir. Buna dözməyən Səməd Ağa generalı da öldürür. Məhkəmə də onu Sibirə sürgünə göndərir. Səməd Ağa Sibirdən qaçır və ondan sonra qaçaq düşür.

Təbii ki, qaçaq mübarizə formasının ən tipik nümayndəsi Qaçaq Nəbidir. 20 ildən çox çarizmə, yerli mülkədarların zülmünə və erməni tacirlərinə və işbazlarına qarşı mübarizə aparan Qaçaq Nəbi heç şübhəsiz qaçaqçılıq hərəkatının ən yadda qalan qəhrəmanlarından biridir. "Nəbinin qaçaqçılıq həyatı 1875-ci ildən başlayır. Kəndlilərdən ibarət dəstə düzəldib Naxçıvan və Zəngəzur qəzalarında çar rejiminə və zülmkar bəylərə qarşı mübarizəyə başlayır. Nəbinin qaçaqçılıq fəaliyyətinə başlaması sosial ədalətsizliyə qarşı barışmaz münasibətindən irəli gəlsə də, dəfələrlə həbs olunması, rejimə nifrəti daha da artırırdı. Nəbi dəstəsi ilə birgə kəndliləri zalımlardan müdafiə edir və mülkədarların var-dövlətini əllərindən alaraq onlara paylayırdı"[38]. Zəngəzur və Naxçıvanda qorxmadan qaçaqçılıq edən Qaçaq Nəbi Gəncə vilayəti, Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı) anadan olmuşdur. Onun qaçaqçılığa başlamasının əsas səbəbi bəyin Nəbinin atasını döyməsi olmuşdur. Bəyi əzalandıran Nəbi sonradan həbs olunur, ancaq həbsdən qaçaraq özü kimi narazılardan, mülkədarların zülmündən cana gələn kəndlilərdən ibarət silahlı bir dəstə düzəldərək zülmə qarşı ədalət mübarizəsinə başlayır. Və beləliklə, Qaçaq Nəbi gənc yaşlarından çar rejiminə və onun Azərbaycandakı idarəçilərinə qarşı mübarizəyə başlayır. Nəbini məşhurlaşdıran bir amil də arvadı Həcər xanımla baldızı Mehri xanımın da bu mübarizədə yaxından iştirak etməsidir. 1894-cü il iyulun 20-də Nəbinin

---

[38] portal.azertag.az/node/376

qardaşı Mehdi Gürcivan kəndində çar casusları tərəfindən öldürülür. Qaçaq Nəbi qardaşının intiqamını almaq üçün Gürcivan kəndindəki kazakları və çar idarəsində xidmət edən ağaları öldürür, ancaq üzərinə gələn yeni qüvvələrlə savaşmamaq üçün Arazın o tayına İrana keçir. Arvadı Həcər isə Çiçəkli kəndində qalır. Rus idarəsinin məmurları Həcəri bacısı Mehri ilə birlikdə həbs edib Gorus qalasındakı həbsxanaya salırlar. Nəbi 1895-ci il oktyabrın 28-də Gorusun giriş çıxışını tutaraq rus polkovnikindən Həcəri və baldızını buraxmasını tələb edir. Rus polkovniki Nəbinin bu tələbini yerinə yetirməyə məcbur olur. Qaçaq Nəbi dastanında bu əhvalat Həcərin dilindən belə təqdim edilir:

Qazamat istidi yata bilmirəm
Ayaqda qandallar qaça bilmirəm,
Açar urusdadır aça bilmirəm
Mənim bu günümdə gələsən Nəbi,
Qazamat dalını dələsən Nəbi.

Dəfələrlə mühasirəyə düşsə də ələ keçməyən bu xalq qəhrəmanını Kərbəla ziyarətindən dönərkən 1896-cı ildə Türkiyə ilə İran sərhədi arasında olan Larni kəndində erməni və rus casusları pusquya düşürərək öldürürlər. Əsasən Zəngəzur və Naxçıvan qəzalarında mübarizə aparan Nəbi və silahdaşları haqqında mahnı, rəvayət, dastan qoşulmuş, folklor materiallarında Qaçaq Nəbi xalq ədəbiyyatının qorxmaz qəhrəmanı kimi şöhrət qazanmışdır[39].

Qarabağın məşur qaçaqlarından biri də haqqında çox sayıda əhvalat söylənən və 25 ildən çox çarizmə və erməni daşnaqlarına qarşı mübarizə aparan Qaçaq Süleyman idi. Həmyerlisi Qaçaq Nəbi kimi o da bir xəyanət nəticəsində 5 aprel

[39] Behcət Bəhlul. Qaçaq Nəbinin tarixi (Vəsiqə və sənədlər üzrə). Bakı: Çıraq, 2011

1917-ci il Acıdərədə (Güney Azərbaycan) pusquya düşürülərək Rusiya və İran hökumət qoşunlarına qarşı döyüşdə öldürülmüşdür. Ancaq Azərbaycanda Süleyman adı ilə məşhur olan bir neçə qaçaq olmuşdur. Burada haqqında danışılan Süleyman 1872-ci ildə Füzuli rayonunun Əhmədallar kəndində anadan olub. Haqsızlığa dözməyən Süleyman qardaşı Qara Dadaşla çar üsul-idarəsinin məmurlarına qarşı mübarizə aparır. Ancaq Qaçaq Süleyman canişinin göstərişi ilə tutularaq 1891-ci ilin yazında Şuşa qalasına götürülür. Onu gizli yolla Cəbrayılın Çaxırlı və Quycaq kəndlərindən keçmək şərti ilə Şuşaya aparırlar. Cəbrayılın Daşkəsən kəndinin adlı-sanlı zadəganları olan Kərbəlayi Məstalı, Kərbəlayi Şirxan və Kərbəlayi Behbud qardaşları tərəfindən kəndin aşağı hissəsində yerləşən Alı bəyin kəhrizi üstündə dövlət adamlarını tərksilah edərək Süleymanı azad edirlər. Sonra ona silah və at verərək təmtəraqlı şəkildə yola salırlar.

Qaçaqlar 10-15 nəfərdən tutmuş 2000-dən çox adamdan ibarət dəstələrlə çar canişinlərinin və yerli idarəçilərin ən qorxulu düşmənlərinə çevrilmişdilər. XIX əsrin sonlarına doğru Qarabağda Qaçaq Nəbi, Qaçaq Məmməd bəy Kavaler və Qaçaq Süleyman kimi məşhur qaçaqlar vardı. Azad edilən Qaçaq Süleyman qaçaraq Qaçaq Nəbinin yanına gedir. Nəbinin ölümündən sonra Süleyman Cənubi Azərbaycana geçir. Bir müddət orada yaşayır və Qaçaq Nəbidən sonra Qarabağda ən böyük dəstə ilə mübarizə aparan qaçaqlardan biri olur. Bəzi dəqiq olmayan məlumatlara görə Qaçaq Süleyman az bir müddətdə ətrafına 2000-dən çox adam toplaya bilmişdi. O, hətta hər zaman kəndliləri sadəcə olaraq çar çinovniklərindən deyil, həm də quldur və oğrulardan qorumuşdur.

Müstəmləkəçilik siyasətinin yeni forması "Stolipinin aqrar siyasəti" ilə başlayır. Bu isə Azərbaycanda imperiyanın özbaşınalığını daha da sürətləndirdi. XX əsrin əvvəllərində

Azərbaycanın elə bir bölgəsi yox idi ki, bu zülmə qarşı mübarizə aparmasın. Qarabağda da Qaçaq Süleyman mübarizəni daha da gücləndirdi[40]. Onun haqqında çox sayıda rəvayət, şeir (Aşıq Humay tərəfindən yazılmış) vardır. Qarabağlı Qaçaq Süleyman həm Quzey, həm də Güney Azərbaycanda məşhur olub, hətta Səttərxanın rəhbərlik etdiyi Təbriz üsyanında (1906-1909) inqilabçılara kömək etmiş, məşrutə hərəkatının fəal iştirakçısı olmuşdur. Digər qaçaqlardan fərqli olaraq Əhmədallı Süleyman nisbətən siyasiləşmiş qaçaq olub.

Bir başqa Süleyman da Tivilidən olub 1918-ci ilin yayında erməni quldurbaşısı Andranik Ozanyanla danışıq aparmaq, sülh şərtlərini müəyyənləşdirmək adı altında 17 kənd ağsaqqalı ilə birlikdə bir evə toplanır. Silahlarını təhvil verib danışmağa gələnlərin toplaşdığı evi Andranik odladır, kəndi də dağıtdırır. Deyilənə görə, Tivili Süleyman 25 il qaçaq olub. Süleyman adlı bir digər qaçaq da Dərələyəzli Süleyman idi. Sovxoz kəndində yaşayan, yaşı 80-i keçmiş Süleyman Əhmədovun dediklərinə görə "Süleyman Dərələyəzin Qaraqaya, ya da Ayısəsi kəndindən olub. Danzik kəndinin örüşündə – Zərdə dərədə öldürülüb. Aşıqlar bir gecə Süleymannan danışar, oxuyardılar. Yadımda qırıq-sökük bunlar qalıb:

Yorğanım adyaldı, döşəyim həsir,
Bavıska gələndə dizdərim əsir.
Nəçənnik yazır, divan da iş kəsir,
Deyillər, deyillər, ay Qaçaq Süleyman,
Anası özündən qoçaq Süleyman.
Atına minəndə dedilər nazat,
Altına yaraşır bir dənə bozat,
İşlərin mayası binamaz Hürzat,

[40] Xaçınçaylı Qələndər (2011). "Təbriz inqilabına dəstək verən Qaçaq Süleyman", Həftə içi, 16 sentyabr. s.7

Deyillər, deyillər, ay Qaçaq Süleyman,
Anası özündən qoçaq Süleyman"[41].

Dərələyəzli Qaçaq Süleymanı erməni dəlləklə bir başqa erməni birləşərək öldürürlər.

Süleyman adı ilə savaşan Qaçaq Gülsümü də bu siyahıya daxil etsək o zaman dörd-beş Qaçaq Süleyman ortaya çıxmış olur ki, bunların da hər birinin haqqında rəvayətlər, şeir parçaları vardır. Çox güman ki, qaçaq süleymanlar haqqında dastanlar da yaradılmış, ancaq gerçək həyatları əfsanələrə qarışdığı kimi haqlarındakı dastanlar da yazıya alınmadığından unudulub getmişdir.

Qarabağın məşhur qaçaqlarından biri də Məmməd bəy Kavaler idi. Haqqında bəzi ziddiyətli fikirlərin (məsələn, Mir Möhsün Nəvvab onu yanlış tanıtmışdır) olmasına baxmayaraq Qaçaq Məmməd Şuşanın tanınmış bəy ailəsində dünyaya gəlmiş, böyük qardaşı Həsən bəy ruslara qarşı Qarabağda aparılan mübarizədə tutulmuş, ömrünü Bakıda, Şamaxinka adlanan rus həbsxanasında başa vurmuşdur. Taki bəy adlı digər bir qardaşı da 1905-ci ildə Vladiqafqazdan Şuşaya gələrkən Bakıda ermənilər tərəfindən müsəlmanlara qarşı törədilən qırğında öldürülmüşdür. Qaçaq Məmməd bəy Kavaler də Mir Möhsün Nəvvabın verdiyi çox qısa məlumata görə 45 yaşında öldürülmüşdür.

Məmməd bəy Kavalerin mübarizə üzulu digər qaçaqlardan fərqlənirdi. O, inkişaf baxımından geri qalmış Rusiyanın istehsal etdiyi parçaları, şəkəri və başqa məhsulları Azərbaycan, Türkistan, Dağıstan bazarlarına çıxarıb baha qiymətə satan tacirlərə qarşı Cənubi Azərbaycana Fransada, İngiltərədə istehsal olunan yüksək keyfiyyətli, ucuz parça, şəkər, çay və başqa məhsulları gətirən qaçaqmalçılara yardım edirdi. Qaçaq

[41] Şamil Əli (2001). Dastanlaşmış ömürlər. Bakı: Səda nəşriyyatı, s.48-49

Məmməd bəy Kavalerin qaçaqçılıq işi çarın xəzinəsinə böyük zərər vurmaqdan keçirdi. Qaçaq Məmməd bəy Kavaler Araz çayı sahillərindən qaçaqçıların mallarını bu taya, Qarabağa rus kazak və strajniklərinin müdaxiləsindən çəkinmədən keçirə bilmək üçün keçidlər hazırlayır, qaçaqmalçılar isə bu keçidlərdən rahatca keçdikləri üçün ona mallarının bir hissəsini verirdilər. O, payına düşən gəliri silahdaşlarına sərf edirdi. Məmməd bəy qaçaqmalçılara kömək edərkən dəfələrlə rus sərhədçiləri ilə vuruşmalı olmuşdur. Bu isə açıqdan-açığa Rusiyanın xəzinə gəlirini Qarabağ ərazisində gömrük baxımından sabotaj etmək idi. Ancaq çox keçmədən Qaçaq Məmməd bəy Kavaler çar tərəfindən əfv edilmiş, ona kavaler (kapitan) rütbəsi verilmiş və maaş təyin olunmuşdur[42]. Qaçaq Məmməd bəy Kavaler haqqında son dövrlərdə roman da yazılmışdır[43]. Bu əsərdə Məmməd bəy Kavalerin igidliyi, dövrün digər tarixi şəxsləri, məsələn Natəvan, Qaçaq Nəbi və digərləri ilə münasibəti verilmişdir.

Cənub bölgəsində çar məmurlarının özbaşınalığına, zülmünə qarşı qaçaqçılıq hərəkatı Lənkəran üsyanından (5 mart 1831-ci il) və onun yatırılmasından sonra başlamışdır. O zaman 1840-cı ildən 1930-cu ilə kimi mövcud olan və rəsmi olaraq Lənkəran qəzası adlandırılan inzibati bölgü 1841-46 illərdə Kaspi vilayətinin tərkibində, daha sonra 1846-cı ildən Şamaxı quberniyasının tərkibinə və nəhayət, 1859-cu ildən də Bakı quberniyasının tərkibində olmuşdur. Qəzanın mərkəzi Lənkəran şəhəri idi və Lənkəran qəzasına Lənkəran (mərkəzi Lənkəran), Astara (mərkəzi Astara), Zuvand (indiki Yardımlı rayonu da buraya daxil idi, mərkəzi Lerik), Ərkivan (Kalinovka, indiki Viləşkənd daxil idi, mərkəzi Nikolayevka), Sebican

[42] www.xalqcebhesi.az/news.php?id=14961
[43] Hacıyeva Məhbubə (2015). Məhəmməd bəy Kavaler. Bakı: "Uni-Print" nəşriyyatı

(mərkəzi Göytəpə) kimi polis nahiyələri daxil idi. Lənkəran Qəzası Azərbaycan Respublikasının indiki Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarını əhatə etmişdir. Həm arxiv sənədlərində, həm də yaddaşlarda qalan məlumatlara görə Lənkəran qəzasında qaçaqların daha fəal olduğu zaman XIX yüzilin sonları ilə XX yüzilin başları idi. Bu dövr qaçaqçılıq hərəkatının geniş vüsət aldığı zamandır. Müxtəlif səbəblər üzündən qaçaq düşmüş bu insanlar haqqında rəvayətlər, hekayətlər, şeir parçaları, mahnılar hələ də söylənməkdədir. Lənkəran qəzasında fəaliyyət göstərən qaçaqlardan Qaçaq Hacıağa, Qaçaq Yunus, Qaçaq Sənan, Qaçaq Mozu, Qaçaq Xankişi-Cankişi qardaşları, Qaçaq Şahverən, Qaçaq Ataxan, Qaçaq Şahgəldi, Qaçaq Nağdı Mustafa oğlunu və b. göstərmək olar.

Çar üsul-idarəsinə qarşı uzun illər silahlı müqavimət göstərən qaçaqlardan biri də Qaçaq Hacıağadır. O 1878-ci, bəzi məlumatlara görə 1873-cü ildə Lənkəran qəzasının Zuvand nahiyyəsinin Rəzqov kəndində anadan olmuşdur. Hələ kiçik yaşlarında çevikliyi ilə seçilirmiş, sonralar qorxmazlıq, sərtlik xüsusiyyətlərini də özündə cəmləyən Hacıağa ədalətsizliyə, zülmə qarşı baş qaldırır. Ədalətsizliklə barışa bilməyən Hacıağa bir neçə dəfə kəndxudanı döydüyündən çar məmurlarının diqqətini çəkir. Bunun üstündə onun atasını incidirlər və silahlanan Hacıağa qısa bir müddətdə Lənkəran qəzasında tanınmış qaçağa çevrilir və Lənkəran qəzası polis idarəsini narahat etməyə başlayır. Qaçaq Hacıağa daha çox polis idarəsinin özbaşınalığından narazı idi və mübarizəsi də əsasən onlarla idi. Onun bir özəlliyi də yerli rus hakimlərinə və təbii ki, rus hökumətinə qarşı çıxması idi. Arxiv sənədlərində deyilir ki, "Hacıağa tərəfindən döyülən, təhqir olunanlar Lənkəran qəzasının Zuvand pristavına ərizələr, şikayətlər yazırlar. Hətta, Lənkəran qəzasının polis idarəsinə yazanlar da olur. Artıq

Lənkəran qəza polis idarəsi bunlara dözməyib Zuvand pristavlığına əmr məktubu yazır. Zuvandın o zamankı pristavı Saçenko-Sakun Lənkəran qəza polis idarəsinə vəd edir ki, narahatçılığa heç bir səbəb yoxdur və o, qısa bir zamanda Hacıağanı həbs edib onlara təhvil verəcək"[44].

Qaçaq Hacıağa Zuvanda onu tutmağa gələn Lənkəran pristavını öldürür. Zuvand pristavını öldürən Qaçaq Hacıağa Rusiyada da böyük söz-söhbətə səbəb olur. Onu cəzalandırmaq üçün Lənkəran qəzası Cinayət Axtarışı Şöbəsinin rəisi V.Sıss ciddi məşğul olur. İlk olaraq Hacıağanın qardaşı və qohumları həbs olunur. Sonra da Hacıağa ələ keçirilir. Onun məhkəməsi iki ay sürür və sonda məhkəmə ölüm hökmü çıxarır. Ancaq çox keçmədən Qaçaq Hacıağa həbsxanadan qaçır. Buna baxmayaraq Qaçaq Hacıağa 1916-cı ildə Ərdəbil əyalətində rus əsgərləri tərəfindən öldürülür[45]. Dəli Alı haqqında rəvayətlər yaranmış, nəğmələr oxunmuş, dastan qoşulmuşdur. Aşıq Ələsgər onun haqqında:

Dəli Alı bir sədd açır
Şah Abbas dövranı kimi
Yanında yoldaşları var
Azərbaycan xanı kimi.
misralarını söyləmişdir.

Tarixi sənədlərdən və bədii əsərlərdən, oçerklərdən də göründüyü kimi Gəncəbasarın ən məşhur qaçaqlarından biri XIX yüzilin sonu, XX yüzilin başlarında (1898-1913-ci illərdə qaçaqçılıq etmişdir) çar rejiminə və özəlliklə də ermənilərə qarşı savaşan Dəli Alıdır. 1875-ci ildə Şəmkirin Keçili kəndində anadan olan Dəli Alı Məhərrəm oğlunun həyatı sadə çobanlıqdan başlayır. Haqqında söylənənlərə görə Dəi Alı və

---

[44] Mirzəzadə Vüqar (2014). Xasay nəslinin salnaməsi, Bakı: MBM, s.66-67
[45] tolpress.az/.../132-l-nk-ran-g-zasinda-gadzagdzilig-h-r-kati

qardaşı Aslan Qovlarasarı kəndində çobanlıq edirmişlər. Bir gün çar məmuru Alının dədəsi Məhərrəm kişini vergini ödəmədiyi üçün öldürür. Bunu bilən Dəli Alı da çar məmurundan babasının qisasını alır. Təbii ki, hökumət adamını öldürdüyü üçün Alının ailəsinin Keçilidə yaşaması çətinləşir və onlar Goranboyun Qarasuçu kəndinə köçürlər. Goranboyda yaşadıqları zaman Gəncənin Bağmanlar qəsəbəsindən olan İbrahim kişinin sürülərini otarırlar. Təqribən 1898-ci illərdə qoyun sürülərini yay ayında Göyçəyə aparanda erməni əsilli pristav onların qarşısını kəsir və orada atışma başlayır. Atışmada Alı pristavı vurub öldürür. Ancaq uzun müddət müqavimət göstərə bilmədiyindən tutulur və Kəvər qalasına salınır. Çox keçmədən Alı dostu İsanınköməkliyi ilə qaladan qaçır. O gündən Dəli Alının qaçaqlıq həyatı başlayır və onu həbsə atdıran ermənilərin qatı düşməninə çevrilir. Dəli Alı şahidlərin dediyinə görə uca boylu, enlikürək, kəskin baxışlı və çox yaraşıqlı bir gənc imiş[46].

Dəli Alı Gəncəbasar zonasının ən məşhur qaçağı olub digər qaçaqlardan fərqli olaraq bəylərlə, varlı tacirlərlə, ağsaqqallarla yaxşı münasibətdə idi. Onun əsas fəaliyyəti 1905-1906-ci illəri əhatə edir. 1905-1906-cı illərdə erməni-müsəlman davasında müsəlmanlara, türklərə zülm edən millətçi ermənilərə qarşı Dəli Alı hərəkətə keçdi. Dəli Alı kəndlərdən topladığı iki minə yaxın gənclə Gəncə şəhərinə daxil oldu, şəhərin irəli gələnləri ilə görüşdü və belə bir qərar qəbul etdilər ki, qaranlq düşən kimi erməni tərəfinə dağlıq səmitindən hücüm etsinlər və daş-daş üstündə qoymasınlar, hər tərəfi atəşə versinlər. Gəncədə olan minə yaxın gənc də qaçaqlarla birləşərək axşam saat 7-də hücuma başladılar[47]. Nağı bəy Şeyxza-

[46] Refik Selim (1933). "Azeri Halk Edebiyatında "Deli Alı" destanı", Azerbaycan Yurt Bilgisi, İstanbul, yıl 2, sayı 23, s.415
[47] Şeyxzamanlı Nağı bəy (2004). Xatirələr, Bakı: Xan nəşriyyatı, s.15

manlının da yazdığı kimi Dəli Alının silahlı dəstə ilə Gəncəyə daxil olması müsəlmanların tək ümidi, tək dayağı idi. Dəli Alını Allah Gənəcəyə, Gəncəbasara bir xilaskar kimi göndərmişdi. Dəli Alının hərəkətindən Rus idarəsi, Erməni toplumu qorxuya düşmüşdü. Müsəlmanlarla danışıqlara başladılar. General Qubernator 10 müsəlman, 10 erməni olmaq şərti ilə iki xalq arasında barışıq yaratdı[48].

1907-ci ildə Dəli Alı Kərbəla ziyarətində olmuş, oradan qayıtdıqdan sonra Şimali Qafqaza göndərilən xristian osetin alayı tərəfindən mühasirə edilmiş, iki düşmən arasında cərəyan edən şiddətli çarpışma bu dəfə də Alının müvəffəqıyyətiylə nəticələnmişdir[49]. Çar Rusiyasının yerlərdəki məmurları Dəli Alını məhv edə bilmədikdə Rus hökümətı adından onu bağışlamaq qərarına gəldilər. Rus hökuməti bu münasibətlə şahzadə knyaz Qolitsını Petroqraddan Gəncəyə göndərmişdir. Knyaz Qolitsın Zurnabad (indiki Göygöl rayonunun 2 km.də kənd) kəndində Alı ilə bir görüş təyin etmişdir. Alı knyazla qarşılaşınca knyaz ona güləşməyi təklif etmişdir. Alı da cavab olaraq “mən tüfənglə güləşirəm” demişdir. Qolitsın Alıya heyran olmuş və mərkəzə dönər-dönməz onu əfv etdirərək vəziyyəti Yelizavetpol vilayətinə bildirmişdir. Dəli Alı bu bağışlanmanı silah daşımaq səlahiyyətinə malik olması şərtiylə qəbul etmişdir. Silah daşımaq qəti şəkildə yasaqlanmasına baxmayaraq ona silahla dolaşmağa icazə verilmişdir. Bundan sonra, 50-60-dan artıq rus məmuru öldürən Alı Romanovların 300 illiyi münasibətiylə keçirilən mərasimdə iştirak etmək üçün qonaq dəvət edilmiş və Petroqradda Qolitsın tərəfindən çara təqdim edilmişdir[50]. Belə bir qaçaq 1917-ci ildə öz nökə-

[48] Şeyxzamanlı Nağı bəy (2004). Xatirələr, s.15-16
[49] Refik Selim (1933). “Azeri Halk Edebiyatında “Deli Alı” destanı”, s.415
[50] Refik Selim (1933). “Azeri Halk Edebiyatında “Deli Alı” destanı”, s.416

ri tərəfindən öldürüldü. Dəli Alının məzarı İmamzadə məqbərəsi ətrafındakı qəbristanlıqdadır[51].

Sağlığında onun haqqında Aşıq Ələsgər bir dastan bağlamış, xalq qaçağının dövranışını, həyatını, ətraf yerlərdəki şöhrətini bir müxəmməsində Şah Abbas dövranına bənzətmişdir:

İyitliyin səbəbinə ona deyillər Dəli Alı
Şücaətdə qəhrəmandır, Loğmana bənzər kamalı
Barilahim, özün saxla, pozulmasın bu cəlalı
On bir sərkər qoynun güdür, yeddi sərkər qaramalı
Mehtərdə qırx atın gördüm Cəlalın Türkmanı kimi.

Günün günorta vaxtında gəldi Alının dəstəsi
Hər biri bir iyitdi, bir qoşunun sərkərdəsi
Gördüm asmana dayandı "öldürrəm-öldürrəm" səsi
Yaponyadan tüfəng gəlib – yeddi verst vurur gülləsi
Zərbəsindən dağlar titrər bərgi-dirəxtanı kimi[52].

Bu qaçaqları xalqın gözündə hörmətə mindirən şəxsi intiqamları və/və ya qoçaqlıqları deyildi, onların aləmi-ibrət olan davranışları idi. Hətta bəziləri yaşadıqları bölgədən çox-çox uzaqlarda böyük şöhrət qazanmışddılar. Məsələn Qaçaq Nəbi, Qaçaq Kərəm kimi. Azərbaycanın Qərb bölgəsində, indiki Ermənistan ərazisində, Türkiyə və İranda on beş ildən çox fəaliyyət göstərmiş, xalqın haqqını qorumuş qaçaqlardan biri də Kərəmdir. Qaçaq Kərəm qaçaq olan atasının yolunu davam etdirmiş, qərb bölgəsində böyük şöhrət qazanmışdır. Onun atası Molla Zal oğlu İsgəndər də kəndliləri müdafiə etdiyi üçün tutulub Sibirə sürgün edilmiş, ancaq sürgündən qaçaraq dağlarda qaçaqçılıq etmişdir. Ancaq Molla Zal oğlu

---

[51] Nəbi Ceyhun. "Qafqaziyyə şeytanı yox, Qafqaziyyə qartalı Dəli Alı "www.teleqraf.az/index.php/koshe/5810-ali.html

[52] Nəbi Ceyhun. "Qafqaziyyə şeytanı yox, Qafqaziyyə qartalı Dəli Alı "www.teleqraf.az/index.php/koshe/5810-ali.html

İsgəndərin qaçaqçılığı o qədər də uzun sürməmiş, öldürüldükdən sonra yerini oğlu Kərəm almışdır. Qaçaq Kərəm on beş illik qaçaqçılıq dövründə (1860-cı ildə doğulmuş, 1910-cu ildə ölmüşdür) ədaləti, qoçaqlığı ilə xalqın sevgisini qazana bilmişdir. Bu da onun bütün Azrərbaycanda və qonşu ölkələrdə məşhur olmasına səbəb olmuşdur. Ona görə də həm onun adı ilə bağlı toponimlər (məsələn, "Kərəm körpüsü", "Kərəm payası", "Kərəm bazarı"; "Kərəm çalası", "Kərəm yolu", "Kərəm payı", "Kərəm bulağı", "Kərəm meydanı" və s.) və toponimik əfsanələr ortaya çıxmış, həm haqqında çoxlu əhvalatlar yaranmış, həm də qaçaq dastanının qəhrəmanına çevrilmişdir.

Qaçaq Kərəmlə bağlı əhvalatlar Qafqazda və Azərbaycanın hər yerində çox məşhur olmuşdur. Məsələn, Masallının Mahmudavar kəndində bir söyləyici Qaçaq Kərəmlə bağlı bir neçə əhvalat anlatdı ki, bunlardan qaçaqların nədən el arasında sevildiyini öyrənmək mümkündür:

Qaçaqçılıq tipik kəndli hərəkatının başqa bir şəkli idi. Qaçaqların hamısı yoxsulun: nökərin, çobanın, muzdla işləyənin, bir sözlə məzlumun dostu olmuşdur. Onların haqqında söylənənlər də bunu təsdiq edir. Ancaq şəxsiqərəzçilik, oğurluq, intiqamçılıq kimi keyfiyyətlər də çox zaman ön planda olmuşdur. Belə durumda xalq onlara qaçaq deyil quldur, yolkəsən deyirdi və onların xalqdan lojistik dəstək görmədikləri, qaçaqlar tərəfindən tutulub cəzalandırıldıqları haqqında da əhvalatlar vardır. Əgər qaçaqlar varlıları soyurdularsa, onların mal-qarasını oğurlayırdılarsa bu xalqda rəğbət hissi yaradırdı.

Məsələn, məşhur qaçaq Tanrıverdi haqqında söylənənlər bunu təsdiq edir. Belə ki, Gədəbəydə Qaçaq Tanrıverdi ilə Hajı Nəvi arasındakı düşmənlik söylənən əhvalatların əsas məğzini təşkil edir. Həm də bu düşmənçilik hər ikisinin oğurluq edib, sonradan birinin oğuluğu etiraf etməsi üzərinə olmuşdur.

Həm çar, həm də sovet rejimi dövründə qaçaqçılıq edənlərdən biri də Ramazanoğlu Rüstəm idi. Bəzi yazılı qaynaqlara görə Qaçaq Ramazanoğlu Rüstəm sovet dövründə digər qaçaqlar kimi hökumətə təslim olmuş, onlarla işbirliyi içində olmuşdur. Ancaq xalqın anlatdıqlarına görə Ramazanoğlu Rüstəm öldürülənə qədər Kürboyu ərazilərdə qaçaqçılıq etmiş, xalqı müdafiə etməyə çalışmış, bolşeviklərlə savaşmış, sovet milisləri ilə ölüm-qalım mübarizəsinə girmişdir. Xüsusən, Gəncə Qəza Komitəsinin birinci katibi Əliheydər Qarayev qaçaqlara qarşı ciddi mübarizə aparmaqda idi. Sonunda Qaçaq Rüstəm qardaşı ilə pusquya düşürülür və xaincəsinə öldürülür. Daha sonra da qardaşı Təhməz tələyə düşürülərək öldürülür[53].

Azərbaycanda kişilərlə bərabər savaşan qaçaq qadınlar da olmuşdur ki, bunların ən tipik örnəyi Həcərdir. Qaçaq Nəbinin həm xanımı, həm də silah yoldaşı olan Həcər haqqında söylənən əhvalatlar da onun sərrast atıcı, yaxşı at minən, tədbirli qaçaq olduğunu göstərir. Eyni ilə Qubadan olan Qaçaq Molla Nurun arvadı Gülşad da onunla bərabər vuruşur. Hətta Molla Nur bir döyüşdə arvadına deyir ki, mən rusları yubadım, sən qaç. Ancaq Gülşad ərini darda qoyub getməyi qüruruna sığışdırmır və bu döyüşdə hər iki qaçaq əsir düşürlər. Bir digər qadın qaçaq da Qaçaq Qorxmazın arvadı Tellidir. Hətta Qaçaq Qorxmazın qızının söylədiyi bir əhvalatda Tellinin Həcərə bənzədiyi ortaya çıxır. "Bir gün atam Qızıldaşda ov edirmiş. Uzaqdan bir dəstə atlının ona tərəf gəldiyini görüb iri bir qayanın dalına yatır. Onun gizlənməsindən şübhələnən atlılar qayanın hər tərəfini mühasirəyə alır və atama oradan çıxmasını əmr edirlər. Dalbadal atılan güllələrdən sonra kazaklardan bir neçəsi yerə sərilir. Atamın gizləndiyi qayaya güllə dolu kimi yağır. Bir neçə yerdən ağır yaralanmış atamın gülləsi qur-

---

[53] Salmanlı Rəhman (2013). "Ramazan oğulları", Azərbaycan qəzeti. 12 yanvar

tarır. Onun qollarını bağlayır, Keşişkəndə gətirirlər. Bundan xəbər tutan anam iki gündən sonra qaçaqlardan bir neçəsini də götürüb gecə ilə Keşişkəndə gəlir. Anamgil gecə həbsxanaya basqın edib iki gözətçini öldürür, atamı da götürüb Sədərək dağlarına çəkilirlər. Daha bu yerlərdə yaşaya bilməyəcəklərini başa düşür, yoldaşları ilə birlikdə İrana keçirlər"[54].

Ancaq kişi adı ilə müstəqil fəaliyyət göstərən qadın qaçaqlar da olmuşdur. Qaçaq Süleyman adı ilə 200-dən çox qaçağa rəhbərlik edən Gülsüm belələrindəndir. 1861-ci ildə Şəmkir rayonunun Sarxan kəndində anadan olan Gülsüm Stalinlə beş dəfə ki, dördündə üzbəüz görüşüb. İlk görüşlərində inqilabi fəaliyyətinə görə qaçıb Təbrizə sığınan 19 yaşlı Stalin (Soso) Qaçaq Gülsümün dəstəsində altı ay fəaliyyət göstərib. İkinci dəfə onun Stalinlə görüşü 1901-ci ildə onu Zəyəmdə qatardan qaçıranda olub[55]. Sovet hökuməti qurulanda silahı yerə qoyub, ancaq ermənilər onu incitməyə başlayıblar. Nəhayət, 4 erməni milisi gəlib onun hamilə gəlinini zorla işə aparmaq istəyəndə, əlinə silah alan Gülsüm milislərin dördünü də güllələyib. Onu həbs ediblər. O, məhkəmə zamanı Stalinə xəbər göndərilməsini tələb edib. Bu xəbər Bağırova çatanda Stalinə məlumat göndərib ki, bir qadın qətl törədib, ancaq dediyinə görə sizi şəxsən tanıyır. Bunu eşidən Stalin dərhal Bağırova zəng vurur və əmr edir ki, Gülsümü azad etsinlər. Oğlunu da kolxoz sədri qoysunlar. Çünki o qadın onun ən yaxın dostudur. Bəzi məlumatlara görə, Gülsüm 101 yaşında 1962-ci ildə vəfat edib[56]. Qaçaq Kərəmlə yaxın dost olan Gülsümün qadın olduğunu qaçaqçılığı buraxana qədər yalnız ana-

---

[54] Şamil Əli (2001). Dastanlaşan ömürlər, s.63-64

[55] İbrahimoğlu Vilayəddin (2017). Qaçaq Gülüsüm və Stalin. Bakı: Yek production çap evi, s.112

[56] https://ok.ru/cehalet/topic/64819047631632

sı bilmişdir. Qaçaq Gülsüm sovetlərdən sonra evlənmiş altı oğlu, iki qızı olmuşdur[57].

Qaçaq Gülsüm öncə Şəmkir ərazisində qaçaqçılıq edən Çaqqal Səlimin dəstəsinə qoşulur. Ancaq Səlimin həm yoxsulları, həm də varlıları soyduğunu, hətta dostunu öldürüb qızıllarını aldığını gördükdə onun başını kəsir. Sonra Qaçaq Kərəmin dəstəsinə qoşulur. Kərəm də onu dostu Ağ Seyidə tapşırır. Qaçaq Gülsüm çar məmurlarına, bəylərə, pristavlara qarşı deyil, eyni zamanda, yerlərdə əhalini çapıb-talayan yerli məmurlara, həmçinin erməni daşnaklarından formalaşdırılmış azğın quldur dəstələrinə qarşı da amansız mübarizə aparırdı. Onun qaçaq dəstəsinin hətta 200 nəfərə çatdığını da deyirlər. Gah Qaçaq Süleyman, gah da Muxtar bəy kimi tanınan Gülsümün qəhrəmanlıqlarını görən qaçaqlar onu özlərinə başçı seçirlər[58]. Qaçaq Gülsüm Azərbaycanda, İranda, Türkiyədə uzun müddət qaçaqçılıq etmişdir. Haqqında çoxlu rəvayətlər söylənmiş, dastan qoşulmuşdur.

Qadın qaçaqlardan biri də Ə.Axundovun haqqında qısa məlumat verdiyi Xəncərli Tavat, Erkək Tavat adları ilə bilinən Qaçaq Tavatdır. O, məşhur qaçaq Kərbəlayı Məhəmmədin qızıdır. Qaçaq Kərbəlayı Məhəmməd deyilənə görə Qaçaq Nəbinin dostu olmuş, çar hökumətinə qarşı 45 il qaçaqçılıq etdikdən sonra 80 yaşında qaçaqçılıqdan əl çəkmiş, sakit bir həyat sürməyə başlamışdır. Hətta onun oğlanları Həsənlə Həsənalı uzun müddət hökumət adamı kimi (Həsən milis rəisi, Həsənalı da meşəbəyi idi) daşnaklara qarşı mübarizə aparmış Alyanlı kəndlərini daşnakların hücumundan qorumuşlar. Bu iki qardaşın ermənilər tərəfindən öldürülməsindən sonra bacıları Tavat qaçaqçılığa başlayır, öncə qardaşlarının intiqamını alır,

[57] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri. Bakı: Yurd, s.250
[58] https://publika.az/news/qirmizi/114219.html

sonra da İran tərəflərdə, sərhədyanı bölgələrdə başına yığdığı qaçaqlarla fəaliyyət göstərir. Şöhrəti hər tərəfə yayılan Qubadlının Alyanlı kəndlərindən biri olan Haralllı Qaçaq Tavat təqribən on illik qaçaqçılıq həyatından sonra 1930-cu ildə üzə çıxır və hökumətə, daha doğrusu NKVD-yə təslim olur. Ancaq onu həbs etmirlər, əksinə uzun müddət öz kəndlərində sərbəst yaşamağa icazə verirlər[59]. Qaçaq Tavat təqribən 1897/98-ci illərdə anadan olub, daha çox ermənilərə qarşı savaşıb və bu cəhəti ilə digər qaçaqlardan fərqlənib. "Alxaslı kəndinin qəza icrayyə komitəsinin sədri vəzifəsinə təyin edilən Tavat xanım kəndin abadlaşmasında, kolxoz təsərrüfatının təşkilində, ambarların, ictimai tövlələrin, məktəbin tikilməsində, əhali arasında savadsızlığın ləğv edilməsində mühüm xidmətlər göstərib.

Xeyli müddət Kəlbəcər, Ağdam, Laçın rayon qəza icraiyyə komitələrinin sədri vəzifələrində çalışıb. Bir neçə dəfə kənd sovetinə, rayon sovetinə deputat seçilib"[60]. Qaçaq Tavatın fəaliyyəti, əsasən Azərbaycanda sovet hakimiyyətinin qurulması illərinə təsadüf edir.

Qısaca özətləmək gərəkirsə Azərbaycanda 1830-cu ildən başlayan kəndli üsyanlarının məntiqi yekunu kimi kiçik dəstələrlə döyüşən qaçaqlar ortaya çıxdı. Bu üsyanlar qaçaqçılıq hərəkatının başlanğıcı idi. Belə ki kütləvi kəndli üsyanlarından fərqli olaraq qaçaqçılıq hərəkatı lokal xarakter daşısa da uzun ömürlülüyü ilə seçilir. Kiçik, ancaq çevik hərəkət edə bilən qaçaqlar dağlarda, keçilməsi çətin qayalıqlarda, meşələrdə, girilməsi mümkün olmayan qamışlıqda gizlənir, fürsət düşdükcə mahalın idarə edildiyi yerlərə gəlir, yerli ldarəçiləri öldürür, kəndlilərə zülm edən mülkədarların malını-mülkünü talan edib yoxsul kəndlilərin arasında paylaşdırırdılar.

---

[59] Axundov Əhliman (2003). Xatirələrim. Bakı: Azərbaycan milli ensiklopediyası nəşriyyat-poliqrafiya birliyi, s.34-38
[60] https://news.milli.az/society/391776.html

### 2.2.3. Yazılı ədəbiyyatda və dövrü mətbuatda qaçaqlar

*XIX* yüzilin ikinci yarısından başlayan qaçaqçılıq hərəkatı yazılı ədəbiyyatın obyektinə çevrildi. Əski çağların əşkiya mifologiyası qaçaq folklorunun tərkib hissəsinə çevrildikdən sonra bütün dünyada daha çox orta təbəqə yazıçılar tərəfindən şeir, poema, ballada, hekayə, roman şəklində işlənmişdir. E.Hobsbawm da qaçaq folklorunun çətinliklərinin metedoloji və konseptual tərəflərini qeyd edirdi. Sovet dövründə istər Qaçaq Nəbi, istər Qaçaq Kərəm, istər Molla Nur, istərsə də Dəli Alı haqqında hekayə, poema, povest, roman, dram əsərləri yazılmışdır. Müasir ədəbi nəsrdə qaçaqların tarixi kimliyi ilə bərabər ümumiləşdirilmiş obrazları da təsvir edilmişdir. Qaçaq folkloru və mifoloji hekayətlər qaçaqlar haqqında yazılan bədii ədəbiyyatın qaynaqlarından ən mühim olanlarıdır.

Azərbaycanın məşhur qaçaqları haqqında sadəcə Azərbaycan yazıçı və şairləri deyil, həmçinin gürcü, erməni və rus yazıçıları da müxtəlif janrlarda əsərlər yazdılar. Məmməd Səid Ordubadinin “Dilican yolunda”, Səməd Vurğunun “Komsomol poeması”, Osman Sarıvəllinin “O yerlər” adlı şeirləri, Mehdi Hüseynin “Kərəm əfsanəsi” hekayəsi buna misal ola bilər. Qaçaqlar haqqında bədii əsərlərlə yanaşı dövrü mətbuatda oçerk, xatirə və məlumatlar da yazıldı. Yerlərdə öz qanunlarını tətbiq edən qaçaqlar Çar Rusiyasının məmurlarına böyük zərbə vurmaqla, çarizmin yerlərdəki dayaqlarını laxlatmış oldular. Bunlardan bir çoxunun şöhrəti St.Peterburqa qədər gedib çıxmışdı və o zamanın mətbuat orqanlarında ələ keçirilə bilməyən qaçaqlar haqqında məlumatlar da verilmişdi. Azərbaycanda məşhur olan qaçaqlar haqqında XIX və XX yüzillərdə çıxan qəzetlərdə və jurnallarda bir çox siyasi, sosial xəbərlər yer alırdı. Bunlardan başda “Kafkas”, “Kəşkül”, “Narodnaya volya”, “Novoye obozreniye”, “Droeba”,

“İveriya”, “Zaqafkazskaya reç”, “Nijegorodskiy listok”, “Kaspi” adlı qəzetlər və qismən də SMOMPK məcmuəsi başda olmaqla o dövrün qəzet və jurnalları məlumat verirdilər. Ancaq qaçaqlar haqqında sadəcə Qafqazda çıxan qəzet və jurnallarda deyil, Rusiya, İran, Ermənistan və Gürcistanda nəşr olunan dövrü mətbuatda da məlumatlar verilirdi. Haqqlarında dövrü mətbuatda bu qədər çox yazılmaları qaçaqların xalq arasında şöhrətləri ilə bərabər yerli və mərkəzi hakimiyyəti qorxutması idi. Özəlliklə rusdilli mətbuatda, gürcücə çıxan qəzetlərdə XIX yüzilin məşhur qaçaqlarından olan Qaçaq Nəbi, Qaçaq Kərəm, Qaçaq Tanrıverdi, Molla Nur, Qaçaq Dəli Alı və digərləri haqqında müxtəlif məlumatlara rast gəlmək mümkündür. Onu da vurğulamaq lazımdır ki, yazılı ədəbiyyata ən çox mövzu olan Qaçaq Kərəmlə Qaçaq Nəbi idi.

Qaçaq Kərəm haqqında roman, povest, dram əsəri, şeir yazılmışdır. Qaçaq Kərəm haqqında ilk yazan Nəcəf bəy Vəzirov olmuşdur. Onun 1912-ci ildə yazdığı məşhur “Keçmişdə qaçaqlar” pyesi Qaçaq Kərəmin igidlikləri barədədir[61]. Qaçaqların xalq ədəbiyyatındakı hekayətlərini, mahnılarını və dastanlarını araştıran R.Rüstəmzadənin əsərindən[62] göründüyü qədəri ilə onların haqqında roman, hekayə, povest, şeir, dram əsərləri yazılmışdır. Məsələn, Qaçaq Kərəm haqqında ilk roman erməni yazıçısı Hakop Makaşyanın 1930-cı ildə 2 cilt halında nəşr olunan “Qaçaq Kərəm” adlı əsəridir[63]. Hakop Makaşyan Qafqazda, türklər, ermənilər və gürcülərin Qaçaq Kərəmlə bağlı söylədikləri rəvayət, nəğmə və dastanları toplayaraq böyük bir roman yazmışdır. Bundan başqa Fərman Ey-

---

[61] Vəzirov Nəcəf Bəy (2005). Əsərləri. Bakı: Şərq-qərb, s.205-234

[62] Rüstəmzadə Rüstəm (1984). El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik

[63] Rüstəmzadə Rüstəm (1984). El qəhrəmanları xalq ədəbiyyatında, s.

vazlı da “Qaçaq Kərəm” adlı 2 cildlik bir roman yazmışdır[64]. O, arxiv sənədləri ilə yanaşı Qaçaq Kərəmin xalq arasında yaşayan əhvalatlarından da istifadə etmişdir. Vəli Ləmbəlinin “Dağlarda kişnərti”[65] adlı romanı da Qaçaq Kərəm haqqındadır. Romanda Kərəmin İrandakı həyatı, fəaliyyəti onun yaxın qohumlarının söylədiklərinə əsasən əks olunmuşdur. Şəmistan Əsgərovun “Haçadağ” adlı romanı da Qaçaq Kərəm haqqındadır[66]. Romanda əhvalatlar Kərəmin babası Molla Zaldan və atası İsgəndərdən başlayaraq bu nəslin qaçaqçılıq fəaliyyəti işıqlandırılmışdır. Bundan başqa romanda XIX yüzilin sosial-siyasi mənzərəsi də dərindən təhlil edilmişdir. Qaçaq Kərəmlə bağlı yazılan poemanın müəllifi Hüseynbala Orucoğludur[67]. O, “Düşmən qardaşlar” adl poemasında öz həmkəndlisi Kərəmin xatirələrdə qalan qəhrəmanlığını mədh etmiş, İsrafil ağa ilə düşmənliyinin tarixini vermişdir.

Onu da demək lazımdır ki, bədii ədəbiyyatda haqlarında ən çox əsər yazılan Qaçaq Nəbi ilə Qaçaq Kərəmdir ki, bu sonuncu haqqında yazılmış oçerk, povest, dram, qoşma, gəraylı, romanlar sadəcə Azərbaycan yazıçı və şairləri tərəfindən deyil, gürcü, rus, Ukrayna və digər xalqların nümayəndələri tərəfindən yazılmışdır. Buna misal olaraq Gürcü Purtseladzenin “Qaçaq Kərəm” operası, Vano Mçedlişvilinin “Qaçaq Kərəm” dramı, İlya Xonelinin “Qaçaq Kərəm” oçerki, jurnalist Sulikonun Qaçaq Kərəmə həsr etdiyi oçerk və hekayələr, Denis Kozlovskinin “Qaçaq Kərəm” oçerki, polkovnik V.Kazaçkovskinin “Qafqaz qaçaqları”, Maksim Qorkinin “Qafqazda

---

64 Eyvazlı Ferman (1986). Qaçaq Kərəm (Birinci hissə). Bakı: Yazıçı; Eyvazlı Ferman (2000). Qaçaq Kərəm (İkinci hissə). Bakı: Əbilov, Zeynalov və oğullarımətbəəsi

65 Ləmbəli Vəli (1999). Dağlarda kişnərti. Bakı: Yurd

66 Əsgərov Şəmistan. Haçadağ. Bakı: Gənçlik, 1991

67 Orucoğlu Hüseynbala. Düşmən qardaşlar. Poema. Bakı: Şirvannəşr, 2003

qaçaqlar" oçerki, habelə N.B.Vəzirovun "Keçmişdə qaçaqlar" pyesi, Mirzə Camalovun "Qaçaq Kərəm" əsəri, Mehdi Hüseynin "Kərəm əfsanəsi" hekayəsi, Fərman Eyvazlının "Qaçaq Kərəm" romanı və s. Qaçaq Kərəmə həsr olunmişdur[68]. Erməni müəllifi Akop Makaşyan da 1928-1930-cu illərdə "Qaçaq Kərəm" adlı bir oçerk yazmışdır. Qaçaqlarla bağlı Nəcəf Bəy Vəzirovla eyni zamanda Gürcü Vano Yestafyeviç Mçedlişvilinin XX yüzilin başlarında yazdığı "Qaçaq Kərəm" adlı dörd pərdəli dram əsəri də vardır. Gürcü yazarlardan Anton Purtseladze də 1885-ci ildə Kərəmin qaçaqçılıq fəaliyyətindən bəhs edən dört pərdəli "Qaçaq Kərəm" adlı musiqili səhnə əsəri yazmışdır[69].

Qafqazda olmuş M.Qorki də Qaçaq Kərəm haqqında məlumatlar toplamış, bunları "Qafqazda qaçaqlar" adlı əsərində təqdim etmişdir. O, 1896-cı ildə "Nijegorodskiy Listok" adlı rus dilində çıxan qəzetin 309, 314, 324, 325 və 327 sayılarında "Qafqazda qaçaqlar" adlı oçerkini çap etdirmişdir. Bu oçerkində Maksim Qorki Qaçaq Kərəmi kobud adam kimi təqdim etsə də onun igidiyini, kasıblara yardım etdiyini yazır. Həta Qorki, "O, yalnız Zaqafqaziyada deyil, Kuban kazakları arasında da öz mərdliyi və cəsurluğu ilə şöhrət tapmış, əfsanəyə çevrilmiş qaçaq kimi məşhurdur" deyə Qaçaq Kərəmdəm bəhs etmişdir. Eyni əsərdə M.Qorki Dağıstanlı Qara Nəbinin soyğunçuluq etdiyindən, xalqın nifrətini qazandığından da yazır[70]. Qaçaq Kərəmin mərdliyi, ədalətli olması, yoxsullara əl tutması haqqında 1903-cü ildə "Kaspi" qəzetində Denis Kozlovskiynin "Qaçaq Kərəm" adlı bir oçerki nəşr edilmişdir. Bu

---

[68] Rüstəmzadə Rüstəm. Azərbaycan tarixi qəhrəmanlıq dastanları. Bakı: 1998, s.117, 120

[69] Rüstəmzadə Rüstəm. Azərbaycan tarixi qəhrəmanlıq dastanları, s.119-120

[70] Qorki Maksim. "Razboi na Kavkaze", Nijeqorodskiy listok, 8 noyabr 1896, No.309, 314, 324, 325, 327

yazıda müəllif Kərəm haqqında söylənən rəvayət və mahıları qadın və qızların sevə-sevə dinlədiklərini yazır[71]. Bir digər çar məmuru V.Kazaçkovski 1913-cü ildə xatirələrindən ibarət "Qafqazda qaçaqlar" adlı əsər yazmış, orada 17 qaçaqdan bəhs etmişdir ki, bunlardan 11-i azərbaycanlı qaçaqlar haqqındadır[72].

Çar hökuməti zamanı müxtəlif məqsədlərlə Azərbaycana səyahət edən ruslar bu yerlərdə və hətta Gürcüstanda da məşhur olan Qaçaq Kərəm haqqında eşitdiklərini, gördüklərini xatirə formasında qələmə almış, Kərəmin necə bir insan olduğunu rus dilli oxuculara çatdırmışdılar. Məsələn, 1887-ci ildə S.Filippovun çapdan çıxan bir səyahətnaməsində Qaçaq Kərəm haqqında geniş məlumat verilmişdir[73]. D.Poxomov adlı bir rus səyahətçisinin xatirələrində də Qaçaq Kərəmdən bəhs olunmuşdur. D.Poxomovun "Cücərtilər yaxud çarlığın xarabaları" adlı kitabı 1901-ci ildə Petersburqda nəşr olunmuşdur[74].

Məsələn, Qafqazın mərkəzi idarəetmə orqanlarının yerləşdiyi Tiflis mühitində Qaçaq Kərəm haqqında mütəmadi məlumatlarlar verilirdi. Çünki Qaçaq Kərəm öz dəstəsi ilə Çar Rusiyasının Qafqazdakı canişinlik mərkəzi Tiflisə yaxın qəzalarda – Qazaxda, Tovuzda, Borçalıda fəaliyyət göstərirdi. Tiflis rusdilli mətbuatında ardıcıl şəkildə Qaçaq Kərəmin fəaliyyəti haqqında məlumat verilirdi. Bu məlumatlarda o, quldur, yol kəsən, zalım kimi təqdim olunmaqla yanaşı, igid, mərd, yoxsulun dostu kimi də dəyərləndirildiyindən həm Azərbaycan, həm rus, həm də gürcü ədəbiyyatında qaçaq obrazı Qaçaq Nəbinin və Qaçaq Kərəmin prototipi əsasında yaradılırdı.

---

[71] Kozlovskiy Denis. "Kaçak Kerim", Kaspiy, 1903, No.56, 62, 65, 69, 73, 77
[72] Kazaçkovskiy V. Razboy na Kafkaze. Vladikafkaz, 1913
[73] Filippov S. Povoljye. Don i Kafkaz. Moskva, 1887
[74] Namazov Qara. Xalq qəhrəmanının şöhrəti. Bakı: Orxan, 2005, s.47-48

Gürcü dilində çıxan "Droeba", "İveriya" kimi qəzetlərdə Qaçaq Kərəmin fəaliyyəti, harada və kimlərə qarşı vuruşması ilə bağlı yazılar dərc olunurdu. "Droeba" qəzetinin xüsusilə 1885-ci ildə çapdan çıxan bir sıra saylarında Kərəmə geniş yer ayrılmışdı. Rus dilində çıxan "Novoye obozreniye" qəzeti Qaçaq Kərəmi öz oxucularına təqdim edərək yazırdı: "Son vaxtlarda böyük şöhrət qazanmış Kərəm İskəndər oğlu Qazax qəzası Qıraq Kəsəmən kəndinin sakinidir, 21 yaşı var, olduqca vüqarlı və yaraşıqlıdır, son dərəcə qoçaq, məğrur, mütəkəbbir və qisasını yerdə qoymayan adamdır: əla atıcı kimi tanınır"[75].

Hətta qaçaqçılıq hərəkatı xəbərinin mərkəzə qədər ulaşması və mərkəzi hökuməti narahat etməsi Peterburqda nəşr olunan "Narodnaya Volya" qəzetindən də məlumdur. Bu qəzet 1885-ci ildə dövlət məmurlarını, mülk sahibi bəyləri qorxuya salan qaçaqlardan söz açaraq, Qafqazda "Qaçaq Kərəmin məmurları və bəyləri pərişan etdiyindən..." uzun-uzadı şikayət edirdi.

Azərbaycan qaçaqları içində ən şöhrətlilərindən biri olan Qaçaq Nəbi bədii ədəbiyyatın da mövzusu olmuşdur. Belə ki, Maksim Qorkinin xalq ədəbiyyatından istifadə edin tövsiyyəsinə uyan Azərbaycan yazıçı və şairləri digər qaçaqlarla bərabər Qaçaq Nəbi haqqında da əsərlər yazdılar. Süleyman Rüstəm 1940-cı ildə romantik üslubda xalq qəhrəmanı Nəbinin ədalətsizliyə qarşı mübarizəsini təsvir edən "Qaçaq Nəbi" pyesini, Məmməd Rahim də 1940-cı ildə "Qaçaq Nəbi" poemasını, Süleyman Rəhimov da yenə 1940-cı ildə Nəbi ilə Həcərin qəhrəmanlığından bəhs edən "Aynalı" povestini, Cəlal Savadov "Boz Atın belində. Qaçaq Nəbi" romanını yazmış,

[75] Yurdsevər Almaz, "Xalq qəhrəmanı Qaçaq Kərəm haqqında dəyərli mənbə", 525-ci qəzet. 20 fevral 2015

“Atları yəhərləyin” bədii filmi çəkilmiş, Hacı Nərimanoğlu, “Yaddaş”, xatirə yazısını yazmışdır[76] və s.

Qaçaq Nəbi və dəstəsi haqqında o dövrün mətbuatı da çox sayıda tarixi məlumat vermişdir. Rus dilində nəşr olunan “Kafkaz” qəzetində Nəbinin fəaliyyət göstərdiyi bölgə haqqında qiymətli məlumat verilmişdir. Qəzetə görə Qaçaq Nəbi Zəngəzur başda olmaqla Naxçıvan, Şərur, Dərəlyəz, İrəvan, Səlmas, Xoy, Təbriz, Maku qəza və vilayətlərində qaçaqçılıq etmiş hökumət dəstələri ilə savaşmışdır[77]. Yenə eyni qəzet Nəbinin əsir düşmüş Həcəri qurtarmaq üçün Gorusa gedib qəza rəisindən Həcəri azad etməsini tələb etdiyini, əks-təqdirdə o, hökumət nümayəndələrini həbsxananı dağıtmaqla hədələdiyini yazır[78]. Bu məlumatdan göründüyü kimi Qaçaq Nəbinin dəstəsi o qədər güclü imiş ki, qəza rəisi onun tələbini yerin yetirməyə məcbur olur və Həcəri azadlığa buraxır.

Qaçaqlar haqqında SMOMPK-da verilən mahnılardan, toponimik əfsanələrdən onların fəaliyyət sahəsini öyrənmək mümkündür. Məsələn, Qaçaq Nəbi ilə bağlı bir mahnıda bəzi maraqlı məlumatlar verilmişdir. SMOMPK-ın XVIII buraxılışında P.Vostrikovun topladığı Azərbaycan xalq mahnıları içində yeddinci mahnı Nəbi ilə bağlı mətnidir[79]. Bu mahnıdan Qaçaq Nəbinin Zəngəzur və Naxçıvanla yanaşı Gəncəbasarın Ərəş mahalında da qaçaqçılıq etdiyi bildirilir. Yelizavetpol (Gəncə) qəzasına məxsus olan Ərəş bu gün Ermənistan ərazisi

---

[76] Rüstəm Süleyman. Seçilmiş əsərləri. III cild. Bakı: Şərq-qərb, 2005, s.19-162; Rahim Məmməd. Seçilmiş əsərləri. II cild, Bakı: Azərnəşr, 1988, s.7-13; Rəhimov Süleyman. Seçilmiş əsərləri. II cild, Bakı: Şərq-qərb, 2005; Savadov Cəlal. Boz Atın belində. Qaçaq Nəbi. Bakı: Gənclik, 1958; Nərimanoğlu Hacı. “Yaddaş”, Gənclik jurnalı, may 1989

[77] Kafkaz qəzeti, 11 iyun, 1885, No.181

[78] Kafkaz qəzeti, 28 oktyabr, 1885, No.209

[79] Kalaşev A., İoakimov A. “Tатarskiye teкstı. Pesni, zaqadki, poslovitsı”, SMOMPK. XVIII vıp., II otdel, Tiflis, 1894, s.29-31

içində qalmışdır. Digər tərəfdən P.Vostrikov yanlış olaraq Qaçaq Nəbini kürd hesab edir. Bunu onun mahnı haqqındakı qeydi də təsdiq edir: "Bu mahnı Qarabağ kürdləri tərəfindən məşhur quldur, yolkəsən Nəbinin şəninə qoşulmuşdur"[80].

SMOMPK məcmuəsi Çar Rusiyasının quldurlara münasibətinin rəsmi sənədi kimi özünü göstərir. Belə ki P.Vostrikov qaçaqçılığın mənşəyi məsələsinə də bu nöqteyi-nəzərdən yanaşmış, verdiyi yanlış məlumatlarla Qaçaq Nəbini tanıtmağa çalışmışdır: "...kürd qızları ömürlərində heç olmasa bir dəfə oğurluq etməyən, yol kəsməyən, yaxud adam öldürməyən gəncə həqarətlə baxarlar və belə gəncə ərə getməzlər. Belə bir həyata baxış və dünyagörüş indinin özündə də, kürdlər arasında quldurluğa son qoymağa imkan vermir. On iki il bundan qabaq Yelizavetpol quberniyasının Zəngəzur qəzasında Nəbi adlı bir kürdün başçılığı ilə quldur dəstəsi meydana gəldi. Belə danışırlar ki, Nəbi bir məşhur bəyin mehtəri olubdur. Bir dəfə Nəbi öz qonşusunu öldürdüyündən yerli polislər tərəfindən izlənilir. Bir neçə il Nəbi dağlarda, meşələrdə gizlənir, ortaya çıxmır. Özü kimi otuza qədər quldurு başına yığdıqdan sonra o, arazqırağı kəndlər və zəngəzurlular üçün sağalmaz dərdə, bəlaya çevrilir. Məsələn, günün-günorta çağında o istədiyi kəndə basqın edir, əlinə keçən sakinləri qırır, nələri var talayır, mal-qaralarını aparır, hətta adambaşına vergi təyin edib pul tələb edirmiş. Nəbinin Həcər xanım adında arvadı varmış. Onun özü də, Nəbi kimi at minər, silahdan bacarıqla istifadə edə bilirmiş. Ən sürətli atın belində, çaparaq atdığı güllə hədəfindən yayınmazmış. Beləliklə, Həcər xanım Nəbinin əsas, birinci köməkçilərindənmiş. Tezliklə, polislər bu həyasızlaşmış quldur dəstəsinə qarşı ciddi ölçülərə əl atmış, Nə-

[80] Vostrikov P. "Muzıka i pesnya u azerbayjanskix tatar". SMOMPK. XLII vıp., I otdel, Tiflis, 1912, s.37

binin arvadı tutularaq həbs edilmiş, quldur özü isə əldən çıxıb İrana qaçmış, orada isə izsiz-soraqsız itkin düşmüşdür"[81].

Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan tarixində qaçaq hərəkatı" məqaləsində yazır: "Azərbaycanda qaçaq hərəkatı əsasən rus çar rejiminə və yerli zülmkarlara qarşı mübarizə prosesində meydana gəlmişdir. Azər xalqı öz gördükləri işlərlə igidlik və yenilməz qəhrəmanlıq dastanlarını yaradan qaçaqları sevmiş, tərifləmiş və qorumuşdur. Çünki qaçaqlar Azərbaycanın zülmdən qurtarması uğrunda mübarizə aparmışlar. XIX əsrin ikinci yarısında igidlikləri ilə hörmət qazanan qaçaqlardan zəngəzurlu Qaçaq Nəbini əlimizdə olan məlumatlara və eşitdiklərimizə əsaslanaraq anlatmaq istəyirik. Zəngəzur və Naxçıvanda qorxmadan partizan müharibəsi aparan Qaçaq Nəbi Gəncə vilayəti, Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı) anadan olmuşdu. Yeddi nəfərdən ibarət ailəni atası çətinliklə dolandırırdı. Günlərin birində 16 yaşlı Nəbinin atasını bəy döyür. Bunu görən Nəbi bəyin üzərinə atılaraq onunla savaşır. Bəyin şikayətinə əsasən Nəbi həbs olunur. O, həbsdən qaçaraq həmfikirlərini ətrafına toplayır. Rus çar rejiminə və onun Azərbaycandakı əlaltıları olan bəylərə qarşı mübarizəyə başlayır. Nəbinin arvadı Həcər xanımla yanaşı baldızı Mehri xanım da bu mübarizədə yaxından iştirak edir. Nəbi həbsxanadan qaçdıqdan sonra çar idarəsinin Azərbaycandakı əlaltıları olan mülkiyyət sahibi xan və bəylərin zülmündən cana gələn kəndlilərdən əli silah tutan bir hissəsi onun ətrafına toplanır. Nəbinin əsas düşmənləri çar rejimi, xanlar və bəylər idi. O, bu mübarizədə kasıbları və onların hüquqlarını müdafiə edirdi. Nəbinin mübarizə apardığı ərazi Zəngəzur və Naxçıvan vilayətləri idi. Nəbinin müasirləri

---

[81] Vostrikov P. "Muzıka i pesnya u azerbayjanskix tatar". SMOMPK. XLII vıp., I otdel, Tiflis, 1912, s.37-39

də Azərbaycanın başqa vilayətlərində qaçaqlıq hərəkatını davam etdirirdilər. İstismarçı imperializmə və rus çar rejiminə qarşı mübarizə aparan qaçaqlara xalq yaxından köməklik edir, onlarla fəxr edirdi. Xalq onları ərzaqla təmin edir, yeri gəldikdə gizlədirdi. Nəbi uzun müddət rus kazakları ilə vuruşur, sıxışdırıldığı zaman İrana və Türkiyəyə sığınırdı. Çar idarəsi bu hərəkatı yatırtmaq üçün bütün vasitələrə əl atırdı. 1894-cü il iyulun 20-də Nəbinin qardaşı Mehdi Gürcivan kəndində çar casusları tərəfindən öldürülür. Bu hadisədən sonra Nəbi Gürcivan kəndinə gələrək kazaklarla döyüşə girir, rus çar idarəsində xidmət edən ağaları öldürür və Arazı adlayaraq İrana keçir. Arvadı Həcər xanım Çiçəkli kəndində qalır. Rus idarəsinin casusları Həcərin Çiçəkli kəndində olduğunu xəbər tuturlar və Həcər bacısı Mehri ilə birlikdə həbs olunur. Gorusdakı qalada saxlanılır. Nəbi 1895-ci il oktyabrın 28-də Gorus qəsəbəsini öz dəstəsiylə əhatəyə alır, rus polkovnikindən Həcəri və baldızını tələb edir. Rus polkovniki Nəbinin bu tələbini yerinə yetirməyə məcbur olur. Nəbi günlərin birində dəstəsilə mühasirəyə düşür. Buna baxmayaraq o, yoldaşlarını döyüşə cəsarətləndirir, mühasirəni yararaq qurtulurlar”[82].

Xalqın böyük sevgisi ilə Qaçaq Nəbiyə həsr etdiyi şeirlərdən, qoşduğu dastandan xeyli nümunələr gətirən M.Ə.Rəsulzadə yazır: “Bu dastanın əsas mövzusu rus imperializminə qarşı aparılan azadlıq mübarizəsindən ibarətdir. Dastanda “Nəbi urusları burda qoymadı” misrası olduqca çox işlədilir. 1896-cı ilin mart ayında Nəbi Kərbəladan dönərkən Türkiyə ilə İran sərhəddi arasında olan Larni kəndində rus casusları tərəfindən əvvəlcədən hazırlanmış pusqunun qurbanı olur. Nə-

[82] www.rasulzade.org, s.284-286

binin xatirəsi indi də Azərlərin qəlbində yaşayır. Onun qəhrəmanlığını əks etdirən dastanlar söylənilir”[83].

Azərbaycan mühacirət ədəbiyyatında (H.Bayqara, Ə.Cəfəroğlu, M.Ə.Rəsulzadə və b.) Nəbinin qəhrəmanlığını ruslara qarşı mücadilə kontekstində qiymətləndirirlər. Qaçaq Nəbinin ruslara qarşı qəhrəmancasına mübarizəsi dastanın əsas siqlətini və epik ruhunu ifadə edir.

Ona görə də ruslarla qəhrəmancasına döyüşən Qaçaq Nəbi həm də milli qəhrəman səviyyəsinə qalxır. Sadə bir çoban xalq qəhrəmanı kimi yaddaşlarda qalır.

“Nəbinin düşmənliyi çarlıq rejiminə, xan və bəylərə qarşı idi. Nəbi bu mücadilədə fəqir kəndlini və onların haqlarını qoruyurdu. Nəbinin bölgəsi Zəngəzur və Naxçıvan vilayətləri idi. Azərbaycanın başqa vilayətlərində Nəbinin çağdaşları da başqa qaçaq dəstələri ilə hərəkatlarını sürdürürdülər. İmperialist mütəmləkəçi və öldürücü rus çarlıq rejiminə qarşı çıxan bu qaçaqlara, sırası gəldiyində, xalq həm də yardım edir, həm də onları öyərək qəhrəmanlaşdırırdı”[84].

Ə.Cəfəroğlu Qaçaq Nəbini Azərbaycan xalqının ruslara qarşı istiqlal mücadiləsinin qəhrəmanı kimi təqdim edir: “Azəri xalq ədəbiyyatında ruslara qarşı yürüdülən istiqlal mücadiləsi, xüsusən qaçaqlar haqqında yazılan dastanvari şeirlərlə xalq ədəbiyyatında özünə inikas bulmuşdur. Geniş xalq təbəqəsi yabancı istilanın əzici xatiratını və hürriyyət həyatının təsəvvürlərini daha çox qaçaqlar ətrafında ağızdan-ağıza dolaşan və tərənnüm edilən şeirlər vasitəsilə ifadəni müvafiq bulmuşdur. Bu gün Azərbaycanın hər bir guşəsi bu qəbil dastanlarla öz istiqlal mücadiləsini əks edirsə də, bunların içərisində

---

[83] bax: www.rasulzade.org, s.284-286

[84] Baykara Hüseyin. Azerbaycan İstiklal Mücadelesi Tarihi. İstanbul, 1975, s.91

ən çox yayılan və ümumiyyətlə ən çox rəğbət görəni "Qaçaq Nəbi"yə aid olanıdır[85].

Qaçaq Alı ilə bağlı da ədəbi əsərlər yazılmışdır. Bunlardan biri Əli Qurban Dastançının 2003-cü ildə nəşr olunan "Dəli Alı dastanı" kitabıdır. Əli Qurban Dastançı kitabında Qaçaq Dəli Alı haqqında xalq arasında gəzən əhvalatları bir yerə toplayaraq bir poema yazmışdır. Kitabda müəllif önsözdə Dəli Alı haqqında məlumat vermiş, hətta qaçağın oğullarından Cahangir və Məhəmməddən də bəhs etmişdir. Poemada Aşıq Ələsgərlə Dəli Alı arasında keçən dialoq, Dəli Alı ilə yenə də onun qədər məşhur olan Qaçaq Qandal Nağı ilə əlaqəsi açıqlanmışdır. Əli Qurban poemada daha çox "Aşıq Ələsgərlə Dəli Alı" dastanında baş verən hadisələri araşdırmış, Qandal Nağıya aid olan şeirlərdən hansının Dəli Alının adına dəyişdirildiyini göstərməyə çalışmışdır[86].

Çarizmin son dönəmlərində qaçaqçılığa başlayan, xüsusən də bu hərəkatı milli zəmində yürüdənlər sovet rejimi zamanı da təqib edilərək düşmən elan edildilər və ya bir-birilərinin üzərinə salınmağa çalışıldılar. "Difai" qəzetinin 16-31 yanvar 2013-cü il № 1 (48) sayında XX yüzilin məşhur qaçaqlarından olan Qaçaq Aslan haqqında məlumat bunu göstərməkdədir.

"O dövrdə Goranboyun Xoylu kəndində olan ermənilər ilə kəndin müsəlman əhalisi arasında dava-dalaş düşür. Qarşıdurma vaxtı ermənilər Qara Tağını güllə ilə vurub öldürürlər. Bu xəbəri eşidən Qara Aslan həmin gündən atasının qatillərindən bir-bir öc alaraq qaçaqlığa başlayır. Xəyanətkar ermənilərlə heç zaman barışmayan Qara Aslan həm atasının ölümündən, həm də ermənilərin müsəlman əhaliyə qarşı törətdik-

---

[85] Caferoğlu Ahmet. Azeri Edebiyyatında İstiklal Mücadelesi. İstanbul: Bürhaneddin Matbası, 1932, s.30

[86] Dastançı Əli Qurban. Dəli Alı dastanı. Bakı: İsmayıl nəşriyyat-poligrafiya müəssisəsi, 2003

ləri qırğınlardan bərk sarsılır. Gənc yaşlarında qaçaqçılıq hərəkatına qoşulan Qara Aslanın sorağı qısa bir zamanda bütün Gəncəbasar bölgəsinə və Göyçə mahalına yayılır. Eyni zamanda Qara Aslanın Göyçədə məskən salan qohumlarından Qaçaq Cəmil də bu dövrdə qaçaqçılıqda heç də ondan geri qalmırdı. Qaçaq Cəmilin erməni zabit və generallarına qan uddurması bütün Göyçəyə səs salmışdır. Qara Aslanın bu dövrdə yaxın dostları Ramazanoğlu Rüstəm, Gəncəli Dəli Alı, Qapannılı Məşədi Bayram-Əli və Qanaqçı oğlu Aslan olub. Qaçaq Qara Aslan 1920-ci ildən sonra Gəncəbasar və Göyçədə bolşevik hökumətinə qarşı baş verən silahlı qiyamlarda iştirak edib"[87]. Qaçaqçılığa erməni problemi ilə başladığından bolşeviklər də onunla barışmaq istəmirdilər. Buna baxmayaraq sovet dövründə Əliheydər Qarayev Qaçaq Qara Aslana Samuxlu qaçaq Ramazanoğlu Rüstəmi tutmağı əmr etməklə bir qaçaqla digərini məhv etməyi düşünürdü.

Rus yazıçılarının Azərbaycan qaçaqlarına həsr etdikləri, hekayə, povest bir tərəfdən qaçaqların daha da məşhurlaşmasına, digər tərəfdən də onların haqlı mübarizəsini, çar idarəsinin çürüklüyünü göstərmək baxımından yararlı idi. Məsələn, dekabrist yazıçı Bestujev-Marlinski Qubada eşitdiyi əhvalatlar və şəxsən 1834-cü ildə Molla Nurla görüşüb söhbət etdiklərinə əsaslanaraq "Molla Nur" adlı povest yazmışıdr. O, öncə burada ictimai ədalətsizliyə, istismara qarşı çıxış edən Molla Nur barədə eşitdiklərini gündəliyinə qeyd etmiş, sonradan bunların əsasında "Molla Nur" povestini yazmışdır.

İstər çar mətbuatında və ədəbiyyatında, istərsə də mühacirət ədəbiyyatında çar rejimi qaçaqları haqqında bəzən qısa, bəzən də geniş bilgi verilmişdir ki, bunlara əsaslanaraq onla-

[87] ganca.org/index.php?option...id...qacaq...aslan

rın fəaliyyətlərini, xalqın arasındakı mövqelərini və ən əsası da qaçaqçılığın sosial-iqtisadi səbəblərini öyrənmək mümkündür.

Azərbaycanda xalq arasında məşhur olan qaçaqlar haqqında yazılmış hekayə, şeir, poema, povest, roman, oçerk, xatirə və s. nümunələri müasir Azərbaycan ədəbiyyatında qaçaq mövzusunun inkişafından xəbər verir. Ancaq tələm-tələsik, yerliçilik əndişəsi ilə yazılan çox sayıda qaçaq bədii ədəbiyyatı bəhs olunan qaçaqların həyatlarnı, özəlliklərini, qəhrəmanlıqlarını, qaçaq düşdükdən sonra göstərdikləri fəaliyyətləri və xalqın qaçaqlara münasibətini əks etdirməkdən irəli getməmişdir. Bədii tərəfləri də zəif olan bu əsərlərdən çoxu ədəbiyyata qaçaq mövzusundan başqa yeni bir şey gətirməmişdir. Bununla bərabər yazılı ədəbiyyatda qaçaqlarla bağlı çox oxunan, bədii tərəfləri yüksək olan əsərlər də vardır. Təbii ki, bədii əsərlərdən daha öncə qaçaqlar haqqında əvvəlcə rus, qismən gürcü və erməni mətbuatında və rus, erməni, gürçü yazıçıları, sonra da Azərbaycan türkcəsində nəşr olunan dövrü mətbuatdakı yazılar çıxmışdır.

XIX yüzilin məşhur qaçaqlarından Qara Tanrıverdi, Qaçaq Süleyman, Qaçaq Hacıağa və digərləri haqqında bədii əsər, oçerk yazılmamış, onların həyatı və fəaliyyətləri yazılı ədəbiyyata gətirilməmişdir. Ən acınacaqlı hal ömrünü sovet rejiminə qarşı mübarizədə keçirən XX yüzil qaçaqları haqqında çox az və ya heç bir şeyin deyilməməsidir. Müstəqillikdən sonra aparılan bir çox araşdırmalar bəzi qaçaq hərəkatını aydınlatsa da qaşaqlar ümumilikdə bədii ədəbiyyatın mövzusu ola bilmədi. Hər halda onların elmi müstəvidə araşdırılması da qənaətbəxş sayıla bilməz.

## 2.3. Şifahi və yazılı tarixə görə XIX yüzilin qaçaqları

Beləliklə, 1850-ci illərdən etibarən artıq çar rejiminin düşməninə çevrilmiş, torpağını itirmiş bir qrup kəndli hökumətdən qaçaq düşməklə tarixdə yeni bir etiraz formasını – qaçaqçılıq hərəkatını başlatmış oldular. Azərbaycanda qaçaq hərəkatının iştirakçıları xalq yaradıcılığında əfsanələşmiş, əhvalatları rəvayətlərə, memoratlara dönüşmüş, haqlarında qəhrəmanlıq nəğmələri qoşulmuş, hətta bu nəğmələrin çoxu sonradan yaranan qaçaq dastanlarının əsasını təşkil etmişdir. Təbii ki, əzilən və istismar edilən xalq bir növü zülmə qarşı mübarizə aparan qaçaqları sevmiş, varlılardan alıb kasıblara paylayan ideal qəvhrəman tipi yaratmağa çalışmış, onları qorumuş, onlara yardım etmişdir. Qaçaqlar sadəcə bağlı olduqları bölgədə deyil, Azərbaycanın hər yerində ümumxalq məhəbbəti ilə əhatə olunmuşdur. Qaçaqların bəziləri dağlarda, bəziləri kəndlərdə, bəziləri də şəhərlərdə mübarizə aparmış, bəylərə, kəndxudalara və rus kazaklarına qarşı savaşmışlardır. Təbii ki, onların həm yazılı, həm də şifahi tarixdə dəyərləndirilməsi eyni olmamışdır.

160 ilə yaxın sürən qaçaqçılıq hərəkatı həm Azərbaycanın, həm də geniş mənada Qafqazın tarixində mühim rol oynadı. Yazılanların tam tərsinə qaçaqçılıq hərəkatı dövlətə qarşı çevrilməmişdi. Belə olsaydı bu hərəkat siyasi xarakter alardı. Hətta bəzi məşhur qaçaqların çar tərəfindən əhf edilməsi, bəzilərinə hərbi rütbə verilməsi də qaçaqçılığın lokal xarakter daşıdığını, siyasi məqsəddən yoxsun olduğunu təsdiqləyir. Belə ki, Gəncəbasar qəzasında XIX əsrin 90-cı və XX yüzilin başlarında məşhur olan Qaçaq Dəli Alını hökumət bağışlamış, hətta Peterburqa Romanovların 300 illik yubileyinə dəvət etmişdir. Bir digər məşhur Qaçaq Məmməd bəy Qarabağda XIX yüzilin ikinci yarısında fəaliyyət göstərmiş, dəfələrlə

yerli idarəçilərə, ruslara, ruslarla işbirliyində olan ermənilərə qarşı mübarizə aparmışdır. Çar III Aleksandr da onu əhf etmiş, hətta Qaçaq Məmmədə kavaler (kapitan) rütbəsi vermişdir. Bütün bunlar imperiya siyasətinin qaçaqlardan istifadə etmək cəhdi idi[88]. Yerlərdə sözü keçən qaçaqlardan istifadə etmək bütün dövrlərdə və bir çox ölkələrdə olmuşdur. Osmanlı imperiyası bunun canlı örnəyidir.

Təhkimçilik rejiminin gücləndiyi XIX yüzilin ikinci yarısından etibarən paralel şəkildə qaçaqçılıq hərəkatı da güclənməyə başladı. Tarixi qeydlərə görə 1850 sonrası məşhur qaçaqlar Zəngəzurlu Qaçaq Nəbi, Gəncəli Dəli Alı, Qənbər, Qarabağlı Süleyman, Murtuza, Şuşalı Məmməd bəy Kavaler, Zaqatalalı Nəbi, Qutqaşenli Kərim Əfəndi oğlu, Qazaxlı Qaçaq Kərəm, Masallıdan Qaçaq İbad və b. idi. Qaçaqçılıq hərəkatı bütün XIX yüzil boyu və XX yüzilin başlarında davam etdi, bəzən ermənilərin zülmünə qarşı kəndliləri qoruyan siyasi xarakter də aldı. Azərbaycan kəndlilərinə divan tutulmasında erməni əsilli generallara, rus generallarının azərbaycanlılara qarşı apardığı müharibə və qırğınlarda bilavasitə iştirak edən Qarabağın erməni məliklərinə qarşı qaçaqların müqaviməti hər halda rəsmi çar və sovet tarix elminin onlara yaxşı münasibət bəsmədiyinə səbəb olmuşdur. Sovet tarix elmi ən yaxşı halda qaçaqların xalqlar dostluğuna zərər verəcək tutumlarına (ermənilərə qarşı mübarizə) yer verməməyə çalışırdılar. XIX yüzilin 70-90-cı illərində güclənən qaçaqçılıq hərəkatının yenə də ən böyük düşməni rus və erməni əsilli generallar, onların özbaşına hərəkətləri, yerli bəy və mülkədarlar idi. Erməni mülkədarları həm ruslarla, həm də yerli bəylərlə əlaqəyə girərək azərbaycan türklərinin torpaqlarını müxtəlif üsullarla mənimsəyir, yeri gəldikcə etnik təmizləmə yoluna

---

[88] https://az.wikipedia.org/wiki/Azərbaycanda_qaçaq_hərəkatı

gedir, zorla Azərbaycan kəndlilərini doğma yerlərindən qovurdular. Qaçaqçılıq hərəkatınının tarix qarşısında ən böyük xidmətlərindən biri də ermənilərə qarşı mübarizə idi. Xüsusən, 1905-1907-ci illərdə erməni qırğınının qarşısını almaqda qaçaqların böyük rolu oldu. Ancaq həm o zamankı rəsmi tarix, həm də sovet tarix elmi bunu uzun zaman xalqdan gizlətdi. Şifahi tarix isə bu hadisələri bu günə qədər çatdırmaqla böyük iş gördü.

Görülən bütün tədbirlər də qaçaqçılıq hərəktının qarşısını almaqda acız idi. Şifahi tarixdən öyrəndiklərimizə görə Azərbaycan-erməni müharibəsində qaçaqlar da fəal iştirak etmişlərdir. Burada çar məmurları tərəfindən Qafqaziyyənin şeytanı adlandırılan Qaçaq Dəli Alının xalqı sadəcə carizmin zülmündən deyil, həm də erməni qətliamından qoruduğu bir misalla sübut etmək mümkündür. O, Qazandağda, Qarasuçuda, Hazırəhmədlidə, Samuxda, Zincirlidə, Burunqovaqda, Qırxbulaqda, Çaldaşda, Naltökəndə, Malboyunu və başqa yerlərdə rus milisləri, yerli idarəçilərlə döyüşə girmiş, ermənilərə divan tutmuşdur: "Qaçaq Dəli Alı 1898-cı ildə 22 yaşında silahlanaraq dağlara çəkilib düşmənlərə qarşı mübarizə aparmışdır. 1898-1913-cü illər ərzində ruslarla dəfələrlə qanlı döyüşlərə girərək onları ağır məğlubiyyətə uğratmışdır. Gəncənin Qarasuçu kəndindən olan Dəli Alı uca boylu, enlikürək, kəskin baxışlı, cəld, yaraşıqlı bir gənc idi. Onun əsas hədəfi rus çar rejimi, onların Azərbaycandakı nökərləri olan erməni millətçiləri, yerli xanlar və bəylər olmuşdur. 1905-ci ildə rus inqilabı dövründə Azərbaycanı bürüyən erməni-müsəlman qırğınları başlananda Dəli Alı dəstələrini dağlarda, kəndlərdə etibarlı bir şəkildə gizlətmiş, lazım olduqda dəstə üzvlərini toplayıb ermənilərə qarşı mərdliklə vuruşaraq onları məhv etmişdir. Belə ki, 1905-ci ildə çarın yüksək rütbəli məmurları erməniləri silahlandıraraq azərbaycanlılara qarşı hücuma təh-

rik etdilər. Ermənilər azərbaycanlıların yaşadığı ərazilərə hücum edərək qırğınlar törətdilər. Bunu görən Dəli Alı başına topladığı dəstəsilə Gəncənin böyük erməni kəndləri olan Bayan, Çardaqlı, Çaykənd və digər kəndləri işğal edərək qadınlara, uşaqlara, qocalara toxunmadan əli silah tutan ermənilərin hamısını məhv etdi. Dəli Alı dəfələrlə rus jandarm və kazakları ilə döyüşə girmişdir"[89].

Azərbaycanda və ümumiləkdə Qafqazda çox təsirli olan qaçaqçılıq hərəkatı XIX yüzilin ikinci yarısında həm yerli idarəçiləri, həm də çar idarəsini qorxuya salacaq dərəcədə artmışdı. 1882, 1885 və 1890-cı illərdən sonra da bu hərəkat artan xətlə davam etmişdi. O illərdə Qubaya gələn Qafqaz hərbi qüvvələrinin komandanı və mülki idarənin xüsusi müfəttişi general Dondukov-Korsakov qaçaqlara qarşı mübarizə aparmaq üçün yerli idarə rəislərinə geniş səlahiyyət verməklə yanaşı, hərbi qüvvələrin də onlara yardım etməsini əmr etmişdi.

O dövrdə onların haqqında çox sayıda sözlü ədəbiyyat ürünləri yaranmışdı. Hər halda 1850-ci illərdən sonra başlayan qaçaqçılıq hərəkatının zamanla muqavimət hərəkatına dönüşdüyünü də etiraf etmək lazımdır. İstər ilk qaçaqlar, istərsə də bolşevik sovet quruluşuna qədərki qaçaqlar haqqında çox sayıda şifahi tarix materialları hələ də yaddaşlarda qalmaqdadır. Bu folklor materialları zamanında yazıya alınmadığından qaçaqlar haqqında yaddaşlarda çox az şey qalmışdır.

Sadə xalq da həmişə öz qəhrəmanının arxasında durur, onun satqınlardan, düşmənlərdən qoruyurdu. Bunu tarixi sənədlər də təsdiq edir. "Qaçaq hərəkatının sosial xarakter daşımasını, kəndlilərin əsarət və istismara qarşı fəal etirazının bu hərəkatda ifadəsini tapdığını sübut edən ən inandırıcı dəlillərdən biri qaçaqların ümumxalq yardımına arxalanması idi. Çar

---

[89] Fərəcov Ş.F., Göst. əsəri, s.166

hakimiyyət orqanlarının özü belə bunu etiraf etməyə məcbur olurdu. Çoxsaylı rəsmi sənədlərdə qaçaqların xalqın ən geniş yardımına arxalandıqları qeyd edilir"[90].

Beləliklə, qaçaqlar və qaçaqçılıq hərəkatı haqqında rəsmi tarix elmindən ala bilmədiyimiz məlumatları bizə şifahi tarix çatdırır. Şifahi tarixin rəsmi olmayan məlumatları ilə Azərbaycanda qaçaqçılıq hərəkatının rəsmi tərəflərini və həqiqi tarixi bərpa etmək mümkündür.

---

[90] Azərbaycan tarixi (2007). IV c. Bakı: Elm, s.309

# ÜÇÜNCÜ FƏSİL
# DÖVLƏT-XALQ MÜNASİBƏTİ BAXIMINDAN QAÇAQLARIN və DİGƏR SOSİAL ETİRAZÇILARIN İCTİMAİ TƏRKİBİ

## 3.1. Dövlət-xalq münasibəti baxımından qaçaqların sosial tərkibi

Həm Osmanlı, həm də Rus arxiv sənədlərindən göründüyü kimi qaçaqların sosial tərkibi yekcins olmamışdır. "Social bandits" nəzəriyyəsinin yaradıcısı olan Eric Hobsbawm da qaçaqları müxtəlif kateqoriyalara ayıraraq tədqiq edir. Ancaq onun bu bölgüdə nəzərdə tutduğu sadə əşkiyalarla sosial üsyançılar dediyi qrup xalqın haqqını müdafiə edən, siyasiləşmiş qaçaqlardır. Təbii ki, elmi baxımdan yanaşdıqda ortaya E.Hobsbawmun da üstündə durduğu sosial üsyançı, soylu quldur, intiqamçı, başabəla dəstələr, qoçular, haydamaklar ya da başı pozuklar və ictimailəşdirilən, tərkibi yekcins olmayan digər dəstələr çıxmaqdadır. Bütün bu qaçaq qruplarının müxtəlifliyinin əsas səbəbi onların hansı şərtlərdə fəaliyyətə keçmələri, iqtisadi və sosial şərait və sairdir[91]. Buradan göründüyü kimi tədqiqatçı qaçaq (bandit) adı altında bizim anladığımızdan daha geniş bir məvhumu nəzərdə tutmuşdur. E.Hobsbawnun da yazdığı kimi kollektiv bir etirazın (protesto) ifadəsi olaraq qaçaqçılıq, tarixi baxımdan çox yayqın rast gəlinən bir fenomen olmuşdur[92]. Məsələn, orta çağ türk dövlətləri xalqı nəzarətdə saxlamaq üçün hər şeyi etdi, ancaq bunu bütün bölgələrdə eyni anda yerinə yetirə bilmədi və qaçaqçılığın, həra-

---

[91] Bax. Hobsbawm Eric J. Haydutlar. Çeviren F.Taşkent. İstanbul: Logos Yayıncılık, 1990

[92] Hobsbawm Eric J. Eşkiyalar. Çeviren O.Akınhay. İstanbul: Agorakitaplığı, 2011, s.10

miliyin, quldurluğun, qoçuluğun baş alıb getdiyi bir zamanda, cəmiyyət də qarışıqlıq içinə girdi.

Yaxarıda da deyildiyi kimi türk dövlətlərində qanundan qaçaq düşənlərin tərkibi eyni deyildi. Osmanlı dövlətində qaçaq adı ilə baş qaldıranlar, əsasən ordudan tərxis edilən pullu əsgərlər, zülmə uğramış kəndlilər, inancı üzündən təqib edilən və rəsmi məzhəb tərəfindən heterodoks adlandırılan marjinal qruplar və s. idi. Azərbaycanda qaçaqların sosial tərkibi əsasən müflisləşmiş kəndlilər, intiqam almaq üçün hökumətdən qaçanlar, üsyana qoşulub sağ qalanlar, varlanmaq üçün qaçaqmalçılıqla, həramiliklə məşğul olanlar və sair idi.

Eric J.Hobsbawm bütün bunları nəzərə alaraq qaçaq termini adı altında daha geniş bir çərçivə çizmiş olur: "Sosial əşkiyaların diqqət çəkiləcək tərəfi, lordun/bəyin və dövlətin onları günahkar hesab etdiyi üçün qanun qaçaqları olmaları, ancaq həmkəndlilərinin içində qalmaları və xalqlarının onları qəhrəman kimi görmələri, ədalət qoruyucuları, ədalət üçün intiqam alan savaşçılar hesab etmələri, hətta bəlkə də azadlıq liderləri səviyyəsinə qaldırılmaları, yəni hər nə olursa olsun özlərinə heyranlıq duyulası, yardım ediləsi və dəstəklənəsi insanlar kimi davranılmasıdır"[93].

Tarixi qədimlərə gedib çıxan qaçaqçılıq daha çox Osmanlı və Səfəvi dövlətlərində və sonrakı xanlıqlar dövründə qeydə alınmışdır. Xüsusən, dövlət-xalq münasibətlərinin gərginləşdiyi Yavuz Sultan Səlim və Qanuni Sultan Süleyman dönəmlərində dini, iqtisadi basqılara məruz qalan qonar-köçər türkmənlərin üsyanları rəsmi sarayın dövlətin əsl ünsürü olan türklərə qarşı münasibətini, dini-mənəvi naqisliyini, iqtisadi bərabərsizliyi açıq şəkildə ortaya qoymuşdur. Osmanlı zamanında yerli idarəetməyə qarşı çıxanlar xalqın nəzərində haqqı

[93] Hobsbawm Eric J.2011: s.25-26

savunan qəhrəmanlar kimi şöhrət qazandıqları halda, iqtidarın gözündə quldur, yol kəsən və ya Səfəvi agentləri adlandırılaraq məhv edilmişdir.

Osmanlı dövlətində olduğu kimi Səfəvilər dövlətində də zəifləyən dövlət iqtidarının, pozulan idarəetmənin təbii olaraq doğurduğu nəticələrdən biri də qaçaqların gedərək artması olmuşdur. Özəlliklə Əfşarlar hakimiyyətinin (Nadir Şah dövlətinin) süqutundan sonrakı xanlıqlar dövründə üsyan çıxaranlar iqtidarlara görə mərkəzi dövlətə asi olanlardırsa, xalqa görə məzlumun haqqını zalımda qoymayan el qəhrəmanlarıdır. Ancaq o dövrün qaçaqları, dərəbəyləri, quldurları haqqında rəsmi tarix susduğuna və sözlü tarix də unudulduğuna görə elə bir ciddi məlumat ala bilmirik.

Əslində dövlət-xalq münasibətinin Osmanlı İmperiyasında pisləşməyə doğru getdiyi XVI yüzilin sonlarından etibarən mərkəzi hakimiyyətin bu və ya digər səbəbdən (dini, məzhəb, sosial və s. cəhətdən bölünmələr) xalqın haqqını qoruya bilməməsi, uc bəylərinin dərəbəyliyi, üləma və idarəedici sinfin xalqdan qopması və s. üzündən yaranan boşluq, ədalətsizlik, bəzi insanların haqq axtarmalarına gətirib çıxartdı. O baxımdan S.Yetkinin də işarə etdiyi kimi mərkəzi hakimiyyətin zəyif olduğu, qanunların arxa plana keçirilib haqsızlıqların böyüdüyü dönəmlərdə bir növ haqq arama kimi qaçaqçılıq adı ilə bilinən qəhrəmanlıq dönəmi ortaya çıxdı[94]. Həm Anadolu və Rumelində, həm də Azərbaycanda XVI yüzildən mərkəzləşməyə başlayan hakimiyyətə qarşı kiçik qaçaq qrupları yanında Mehdilik adı ilə ortaya çıxan böyük xalq hərəkatı da başlamış oldu. Şahqulu, Nur Ali Ata, Bozoklu Cəlal (Şah Vəli), Şah Qələndər üsyanları heterodoks adlandırılan təriqət şeyxlərinin sosial-iqtisadi və dini-mədəni səbəblərdən ötrü başlatdıqları xalq hə-

---

[94] Yetkin Sabri (2003). Ege'de eşkıyalar. İstanbul: Tarih Vakfi Yurt yayınları, s.8

rəkatı idi. Bu hərəkatın arxasınca XVII yüzildən etibarən həm Osmanlıda, həm də Azərbaycanda hərami adlanan adamlar ortaya çıxdı ki, onlara ümumi şəkildə cəlalilər adı verildi.

XVII yüzildə Osmanlı dövlətinin məruz qaldığı ən önəmli təhdid qaçaqçılıq olduğu kimi Avropada da, Rusiyada da şərait qaçaqçılıq üçün əlverişli idi. Rusiyada Stepan Razinlərin, Yemelyan Puqaçovların çıxdığı yüzillərin arxasınca XIX əsrin ikinci yarısından etibarən zülmə məruz qalan, yağma edilən, təhqir edilən digər xalqlarda, eyni zamanda Azərbaycan türklərində də qaçaqçılıq hərəkatı baş verdi. Stepan Razin, Yemelyan Puqaçov həqiqətən də quldur, soyğunçu idilər və fərq qoymadan varlıları soyduqları kimi, kəndliləri də incidir və onları yardım etməyə məcbur edirdilər. Hətta Razin, Puqaçov rus olmayan digər xalqlara zülm etməyi sevirdilər. Bunun əksinə Dağıstanda, Azərbaycanda və Orta Asiyada qaçaqçılıq Rus istibdadına, yerli idarəçilərə qarşı etirazdan doğmuşdu. Səbəbi, mübarizə metodu dövlətlə münasibət baxımından fərqli səviyyələrdə yer almasına baxmayaraq qaçaqçılıq bir növü haqq axtarma kimi tərif edilə bilir. Təbii ki, haqqı, ədaləti bərpa etmə adı altında cinayət işləyib həbsə düşmək istəməyənlər, haqsızlığa uğradığı hökmə qarşı çıxaraq qaçaq həyatına başlayanlar, doğrudan doğruya zülmə məruz qalanlar, intiqam almaq istəyində olanlar, haqqını ala bilməyənlər və daha neçələri qaçaq adı altında dağlara, meşələrə çəkilərək dövlətin güclərinə qarşı ya təkbaşına, ya da ətraflarına topladıqları insanlarla birlikdə savaş başlatmış oldular. Dövlətə qarşı başladılan üsyanlardan, fərdi haqq axtarmağa qədər qaçaqların sosial tərkibinə görə dəyişiklik göstərən bir hərəkat ortaya çıxdı. Belə ki, Qaçaq Nəbi ilə Molla Nur sosial baxımdan fərqli tərəflərdə yer alsalar da hər ikisini birləşdirən məqam haqsızlığa məruz qalmaları və öz düşüncələrinə görə ədalət divanı qurmalarıdır. Bunu eyni ilə Qaçaq Dəli Alı ilə

Kərim Əfəndi oğlunun ayrı-ayrı ictimai mövqelərdə durmalarında da görmək mümkündür.

Osmanlı tarixində Cəlali adını almış və Koroğlunun da içində olduğu bəzi tarixi bəlgələrlə sübut edilməyə çalışılan bu müqavimətin tərkibi edamlıq insanlardan tutmuş zülmü durdurmağa çalışanlara qədər müxtəliflik göstərməkdədir. İqtisadi şərtlər, işsizlik, məzhəb və inanc ayrı-seçkiliyi və buna görə baş göstərən basqılar Cəlali hərəkatının və ümumiyyətlə qaçaqçılığın və quldurluğun yayılmasına səbəb olub onun ortaya çıxmasında təsirli olmuşdur[95]. Qaçaqların sosial tərkibindən söz açdıqda savaş üçün yetişdirilmiş təcrübəli qrupların, işsizlik və hədəfsizlik ucundan qaçaq qruplarına qoşulması və ya qaçağa çevrilməsini də qeyd etmək lazımdır[96]. Qaçaqçılıq XVII-XVIII yüzillərdə böyüyən bir xətlə artış göstərməyə başladı. Bunun əsas səbəbi mərkəzi dövlətin öz hakimiyyətini mərkəzdən uzaqda qalan yerlərə kifayət qədər göstərə bilməməsidir.

XVII-XVIII yüzillərdə qaçaqçılığın güclənməsinə səbəb olan bir başqa qrup da dəlilər adlanan Osmanlı əsgəri təşkilatı idi. Tarixdə ilk dəfə Rumelidə görünməyə başlayan dəli əsgəri dəstələri XV yüzilin sonlarına doğru "Dəli Ocağı" adı altında əsgəri bir dəstə qurmuş oldular. "Rumelində ilk dəfə təşkil olunan yüngül silahlı suvari əsgəri dəstəsinə verilən ad" olan dəlilər heç bir şeydən qorxmayan və hər təhlükəyə tərəddüd etmədən atılan, dəlilcəsinə bir cəsarətə malik olmalarından bu adı almışdılar"[97]. Dəli Ocağı əsgərlərinin XV-XVI əsrlərdə böyük xidmətləri olmasına baxmayaraq müəyyən müddətdən sonra

---

[95] Akdağ Mustafa (2009). Türk halkının dirlik ve düzenlik kavgası: Celali isyanları. İstanbul: Yapı Kredi yayınları, s.95-96

[96] Bax. Grsiworld J. William (2002). Anadolu'da büyük isyan 1591-1611. İstanbul: Tarih Vakfı Yurt yayınları

[97] Pakalın Mehmet Zeki (1993). Osmanlı tarih deyimleri ve terimleri sözlüğü. Cilt 1, İstanbul: MEB yayınları, s.420

gözdən düşdülər və dövlətdən yardım ala bilmədiklərindən başıboş qaldılar, yolkəsənlik, quldurluq etməyə başladılar və XVII yüzildən başlayaraq pozulmağa doğru üz tutdular. Evə buraxılan, ancaq savaşmaqdan başqa heç bir işləri olmayan və nə edəcəklərini bilməyən əski dəli dəstəsinin əsgərləri qaçaqçılıq etməyə, kəndlərə hücum etməyə, xalqdan "gəl-geç akçasi" almağa başladılar. Dəli dəstəsi əsgərlərindən bir çoxu Cəlali üsyanlarına qarışdıqlarından Cəlali adlanmağa başladılar. M.Z.Pakalın "Cevdət Paşa tarixi"nə, "Lutfi Əfəndi tarixi"nə və digər tarixi sənədlərə dayanaraq dəlilərin vəziyyətini aşağıdakı şəkildə xarakterizə edir: "Tabeliyində olduqları vəzirin vəzifəsindən azad ediləndən və ya maaşları kəsiləndən sonra evə buraxılan, ancaq qapısız qalaraq başqa bir vəzirin xidmətinə girənə qədər əyalət daxilində dolaşaraq özlərini və heyvanlarını pulsuz bəslədirlər, axşamdan yeyəmədikləri artıq qalan yeməkləri qalpaklarının içinə qoyub götürür, qənaət etməyəndə isə diş kirası adı ilə ev sahibini soyub soğana çevirirdilər"[98].

Tarixi məlumatlarda Karayazıcının qardaşı olan və öldürülən böyük qardaşının intiqamını almaq üçün quldur dəstəsi quran və Ankara, Kütahya, Afyonkarahisarda Osmanlı ordularına qalib gələn Dəli Həsən, Dəlilər Ocağının əsgəri idi. Onun həm özü, həm də silah yoldaşları xarici görünüşləri baxımından dəliyə bənzəyirdilər. K.Barkeyin də yazdığı kimi "Onun uzun saçlı, üstlərində nəzərlik olan əsgərləri vardı"[99]. Osmanlı tarixçiləri heç bir fərq qoymadan yerli məmurların özbaşına, keyfi idarəciliyinə qarşı üsyan çıxaranlara da, dəstə qurub quldurluq, yolkəsənlik edənlərə də quldur anlamında Cəlali deyirdilər. XVII yüzildə məşhur Cəlalibaşlarından Karayazıcının qardaşı Dəli Həsən, Dağlar Dəlisi və onun

---

[98] Pakalın Mehmet Zeki (1993), s.421
[99] Barkey Karen (1999), s.188

qardaşı oğlu Dəli İlahi Batı və Orta Anadoluda, XVIII yüzildə isə Dəli Oğlan İzmir yaxınlarında xalqı canından bezdirmiş quldurlar idi. XIX yüzilin ilk yarısında Dəlibaşı İncə Ərəb və adamları Lüleburqaz tərəflərində böyük zülmlər törətmişdilər[100]. Koroğluya Cəlali Koroğlu deyilməsinin bir səbəbi də onun dəlilərdən olub soylu əşkiya olmasından və Dəli Ocağının XVI yüzildən etibarən Cəlalilərlə sıx əlaqəsinə görədir. Dastanın həm Azərbaycan, həm də Anadolu variantlarında Koroğlunun gəlib geçənlərdən yol bacı alması dəlilərin "gəl-geç akçası" toplamalarının dastani oxunuşudur. "XVI əsrin sonu – XVII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın, eləcə də Şərqi Anadolunun müxtəlif regionlarında "dəli" ləqəbi ilə məşhur qiyamçılar, qaçaqlar, qisasçılar olmuşlar, "Koroğlu"ya da həmin ləqəb məhz buradan – ictimai həyatdan gəlmişdir. Xüsusilə Dəli Həsən adına XVII əsrin tarixi mənbələrində daha çox təsadüf edilir"[101].

XVI yüzildə gücünün zirvə nöqtəsinə çatan Osmanlı Dövləti zamanla həm iqtisadi, həm də siyasi geriləmə yaşadı. Onun ən çətin zamanı XIX yüzildən başalayaraq I Cahan Savaşına qədərki dönəmi idi. XVIII yüzildən başlayaraq Osmanlı girdiyi bütün savaşlarda həmən həmən məğlub olmuş, idarəsi altında olan torpaqları bir-bir itirməyə başlamışdır. Savaşın və ardınca iqtisadi həyatın ağırlığı cəmiyyətdə bir çox problemlər yaratdı. XIX yüzildə bu vəziyyətdən yararlanaraq bir çox dərəbəylərin, başıboşların ortaya çıxdığını görürük. Bir də Osmanlı idarəsində olan Balkanlarda, ərəb ölkələrində qeyri-türklərin müsəlman türklərə qarşı təşkil etdiyi qaçaq-quldur dəstələri vardı. Ancaq onların qaçaqçılığı Osmanlı türklərini qətl etmək-

[100] Özcan Abdülkadir (1994). "Deli", Türkiye Diyanet Vakfi İslam ansiklopedisi, Cilt 9. İstanbul: Diyanet Vakfi neşriyat pazarlama ve ticaret A.S., s.134
[101] Abbaslı İsrafil, Cəfərov Nizami (2004). "Koroğlu" dastanı", Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Elm, s.655

dən ibarət olmuşdur. Bir sözlə, yaşanan bu ədalətsizlik qarşısında haqq arayan yerli üsyançılardan ibarət bir qrub ortaya çıxdı ki, Osmanlı qaynaqları bunlara əşkiya (qaçaq-quldur) adını verdi. Eyni tarixi dönəmdə işğala məruz qalan Azərbaycanda, Orta Asiya türklərində və Qafqaz müsəlmanlarında Çar Rusiyası rejiminə qarşı üsyan, qəzavat, savaş və az da olsa milli azadlıq mübarizəsi başlamışdı. Siyasiləşən bütün bu mübarizə fomaları, daha sonra qaçaqçılıq hərəkatının təməllərini formalaşdırdı. Özəlliklə kəndli üsyanlarından sonra ortaya çıxan qaçaqlar sosial həyatda qaçaqçılığın mühim rol oynadığını vurğulamaq baxımından önəmlidir. Funksional baxımdan eyni dönəm Osmanlı qaçaqçılığıyla Azərbaycan, Qafqaz və Orta Asiya qaçaqçılığı arasındakı fərq işğal olunanlarla, öz vətənində haqq-ədalət istəyənlərin mübarizəsi fərqi nisbətindədir.

Rəsmi qaynaqlarda əşkiya qanun tanımayan, quldur, sərsəri, oğru mənalarına gəlsə də xalq haqq-ədalət istəyən bu insanları qanundan qaçan igidlər kimi dəyərləndirirdi. Hər nə olursa olsun dövlətdən qaçaq düşənlərin ən önəmli səbəbi iqtisadi sıxıntı, dövlət adamlarının özbaşınalığı, xalqla istədikləri kimi davranmaları idi. Eric J. Hobsbawm isə toplumsal qaçaqları "əşkiyalar, lord və dövlət tərəfindən suçlu sayılan ancaq kəndli cəmiyyəti içində varlığını sürdürən və kəndlilər tərəfindən qəhrəman, yenilməz, intiqam alan, ədalət üçün döyüşən, bəlkə də azadlığın lideri kimi görünən və hər şəraitdə hörmət görən, yardım edilən və dəstəklənən firari kəndlilərdir"[102] şəklində tərif edər.

E.Hobsbawmun qaçaqların sosial tərkibi ilə əlaqədar verdiyi məşhur bölgü ilə bərabər bir də rəsmi dairələrin qaçaqların kimlər olduğu haqqında görüşləri vardır. Rəsmi sənədlərdə onlar

[102] Hobsbawm Eric J. (1990). "Toplumsal eşkiyalık nedir?". Çevirenler: O.Akalın, A.K.Saysel. Folklora doğru, dans-müzik-kültür-çeviri-araştırma dergisi. S.59, s.33

asi, haydut, yol kəsən, oğru, qanun qaçağı, qatil kimi dəyərləndirilir[103]. Hakim təbəqədən, bəy və ya mülkədar ailəsindən çıxmayan, çoxu yoxsulluqla, nökərçiliklə, çoban olmaqla böyüyən, zülmü, işgəncəni gözləri ilə görən[104] insanlar qaçaqların sosial tərkibini təşkil edir. Bununla bərabər ortabab ailədən çıxan nökərçilik etməyən, din adamı olan qaçaqlar da vardır. Fəth dönəminin sona çatması, padşahların savaşa qatılmadığı XIX yüzildə "İstanbulda sarayların dörd divarı arasında ömür sürən, məmləkəti qəfəs arxasından idarə edən, durma və geriləmə dövrü padşahlarının"[105] idarəsi ölkədə haqq uğrunda mübarizə aparan qaçaqların artmasına səbəb oldu. Siyasi hava digər türk yurdlarında daha açınacaqlı idi. İşğal, dinə və dilə, adət-ənənəyə hörmətsizlik, təhkimçilik, bəyliklərin, xanlıqların ləğvi, yoxsulluğun üst səviyyəyə çıxması və s. qaçaqçılıq hərəkatını zərurət halına gətirmişdi. Bir sözlə qaçaqçılıq pozulan dövlər-xalq əlaqəsinin canlı yekun sənədi idi.

E.Hobsbawmun "Sosial əşkıyalar, xalqları üçün Napolyon ya da Bismarcktan daha önəmliydilər və haqlarında istək və qürur dolu mahnılar söyləndi." deməsinə baxmayaraq onların içində yolkəsən, yoxsula-füqəraya zülm edən hər cür qoçuluq, zorbalıq edənlər, sərhəddi keçərək qaçaqmalçılıqla məşğul olanlar da vardı. Onları idealizə edilmiş qəhrəman səviyyəsinə qaldıran xalqdır, xalqın arzusudur. **Qaçaqlar haqqında yaranan mahnılar, əfsanələr, rəvayətlər, dastanlar da xalqın gördükləri qaçaqlar haqqında deyil, görmək istədikləri qaçaqlar haqqındadır.**

---

[103] Bayrak Mehmet (1994). "Eşkiyalık ve türküleri", Folklor/edebiyat, S.27, Aralık, s.67-68
[104] Rüstəmzadə Rüstəm (1998). Azərbaycan tarixi qəhrəmanlıq dastanları. Gəncə: Azərbaycan Respublikası Nəşriyyat poligrafiya birliyi yayınları, s.34
[105] Uluçay Çağatay M. (1958). "Üç eşkiya türküsü", TM, XIII, s.88

O baxımdan məşhur qaçaq Koroğlunun nəvələri heç də homojen tərkibdə yaxşı və ya pis deyillərdir. Bu mövzu tarixçilərin işi olub folklor elminin predmeti xaricindədir. Xalq, kimi qəhrəman olaraq görürsə, folklorçu üçün də qəhrəman odur. Ancaq xalqın yaddaşında, şifahi tarix materiallarında, mahnılarda, əhvalatlarda da ikili bir münasibət vardır. Bu da folklor araşdırmaçısının işini asanlaşdırır. Təriflənən və pislənən qaçaqlar artıq xalqın düşüncəsində bir-birindən ayrılmışdır. Belə ki, əfəlik, zeybəklik daha çox sosial üsyançı tipinə uyğun düşməkdə, əzilənin yanında olması, məzlumun haqqını axtarması və igidlikləri ilə seçilməkdədirlər[106].

Eyni şəkildə Azərbaycanda rus işğalçılarına yardım edən, bolşevik güclərinin Azərbaycana girməsinə çalışan, kommunist əqidəli Qatır Məmməd kimi qaçaqlar olsa da xalq onları hər zaman öz xalqına arxa çevirmiş pis qaçaq kimi xatırlamaqdadır. Buna baxmayaraq bir zamanlar Qatır Məmməd də sovet aşıqlarının mahnılarında təriflənmiş, haqqında süni şəkildə dastan da yaradılmışdır.

Qaçaqların sosial tərkibi əsasən kənddən çıxmış, müəyyən səbəbdən qaçaq düşməyə məcbur olmuş yoxsul, ortabab və varlı kəndlilər idi. İctimai quruluşun doğurduğu qaçaqçılıq hərəkatı qaçaqların sosial tərkibini də müəyyənləşdirmişdir. Çarlıq zamanındakı qaçaqların böyük əksəriyyətini yoxsul kəndlilər təşkil edirdisə, sovet dövründə qolçomaq adı verilən bu qaçaqlar əsasən ortabab, az-çox mal-mülkü olan kəndlilər idi. Buraya az da olsa din nümayəndələrinin, bəylərin də qaçaqçılığını əlavə etmiş olsaq o zaman sosial tərkibi baxımından qaçaqçılığın rəngarəng olduğunu görərik. Digər tərəfdən yolkəsənlik, soyğunçuluq, oğurluq, quldurluq bir sözlə həra-

[106] Bax. Avcı Ali Haydar (2004). Zeybeklik ve zeybekler tarihi. İstanbul: E Yayınları

milik edən başıpozukları da nəzərə almaq lazımdır, çünki xalq onların da haqqında hekayətlər, əhvalatlar yaratmışdır.

Osmanlı İmperiyasında kəndli və ya elit üsyanların olmadığını, ancaq qaçaqçılığın mövcud olduğunu yazan K.Barkey "Osmanlı Dövləti qaçaqlarla bazarlıq edərək onları öz vəziyyətini yaxşılaşdırmaqda və xalqın üzərindəki hakimiyyətini davam etdirməkdə istifadə etdi." kimi dəyərləndirmə irəli sürərərk, Avropalılar müxalifəti bərtəraf etdi, Osmanlı isə müxalifəti "evcilləşdirdi", deyir[107]. Bu dəyərləndirmənin ən zəif tərəfi Osmanlı hakimiyyətinin sosial-iqtisadi şərtləri yumşaldan tədbirləri almadığı, əksinə daima təqib və basqılar etdiyi haqda Osmanlı arxiv sənədləri ilə təsdiq edilənləri[108] nəzərə almamasıdır.

## 3.2. Qaçaq hekayətlərinə, dastanlarına görə qaçaq düşmənin səbəbləri

Qaçaqçılıq və ya Avropada deyildiyi kimi alicənab əşkiyalıq ümumi mənada fərdi haqq-ədalət davasının başlandığı gündən tarix səhnəsinə çıxmışdır. Konkret olaraq qaçaqçılıq daha çox mərkəzi hökumətin zəiflədiyi və dövlətin dərəbəyliklər zamanında zühur etmişdir[109]. Dövlətdən bir neçə səbəbdən qaçaq düşülmüşdür. Məsələn, XIX yüzilin məşhur qaçağı Qaçaq Kərəmin qaçaq düşməsi, bir yerdə papaq əhvalatına, bir yerdə at məsələsinə, bir yerdə ədalətsizliyə qarşı çıxmağa və s. bağlanır. Məsələn, iki anlatıda papaq məsələsi üzündən baş verən düşmənçilik və qaçaqçılıq həyatı anlatılır: "Qaçax Kərəm döylətdən qaçıf. Belədi ki, o vaxtı varrı da oğurruğ eleerdi, kasıf da eleerdi. Qaçax Kərəmin atası İsgəndər kişi

---

[107] Barkey Karen (1999), s.2
[108] Başbakanlık Osmanlı Arşivi Mühimme Defteri No.6, No.27, No.30
[109] Hobsbawm Eric J. (1997). Eşkıyalar, s.12

oluf. Bir də İsrəfil ağanın atası olufdu. Bular cavan oluflar. Olar Ceyrançölünnən gedif at oğurruyuf gətirellər, ilxı gətirellər. Onatan buların qavağını gürcülər kəser. Güllə-baran eliyillər, bular qaçer. Qaçanda İsrəfil ağanın atasının – adı yadımda döy – papağı tüşüf qaler. Papağ itirməh də özünü itirməy kimi bir şeyiydi. Bə nağayrax bunu? Getməy olmaz-filan. Kərəm də uşaxdı. Deer ki, icaza versəniz, mən gedif papağı gətirərəm. Oğlu gedə bilmer. Kərəm geder papağı gətirer. Papağı gətirənnən sonra deer, Kərəmə bax, mənim oğlum İsrəfilə bax. İsrəfil bajarmadı, Kərəm getdi gətirdi. Gələcəkdə ola kı, bu mənim oğlumnan da daha yaxşı olajax. Bu paxıllıx insanda var. Onnan sonra İsgəndər kişiynən İsrəfil ağanın dədəsinin arasında tüşmançalıx yaraner, bular olor biri-birinnən tüşman. Kərəm qaçaxdı. İndi İsrəfil ağa isteer ki, Kərəmi aradan götüsün, Kərəm isdiyir İsrəfili aradan götüsün. Qışın günüdü, deer, boran vuror, qar yağer. İsrəfil eşiyə çıxer. Kərəm də İsrəfil ağıyı öldürməyə gəler dəsdəsinnən. Elə vaxt gəler ki, görör İsrəfil ağa öz-özünə deer ki:

– Can-can, a Kərəm, görən bu boranda nə cür dolaner, nə cür dözör?

Bunu Kərəm eşider. Kərəm ordan atəş açmer, geri qayıder”[110].

Dövlətdən başqa səbəblərə görə də qaçaq düşülür ki, bunlardan biri də namus məsələsidir. Xüsusən, qız-gəlinə, arvad-uşağa pis gözlə baxmaq qaçaqçılıqda qəbul edilməz davranışlardan biridir. Belə qaçaqlar xalqın nifrətini qazandıqları kimi, bu cür hərəkətlərə qarşı çıxanlar da xalqın etibarını və hörmətini qazanır. Məsələn, Yardımlıda Güdələr adı ilə bilinən Xankişi-Cankişi qardaşlarının dövlətdən qaçaq düşməsi

---

[110] Söyləyici: Bəşir Həsənov, doğum tarixi 1927, təhsili yoxdur, Mor-mor kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı. Eyni əhvalatı Abbas Həsənov da anlatmışdır.

namus məsələsi üzündən olur: “Xankişi, Cankişi qardaşdarı olubdu, yetim uşağlar olublar. Dayıları saxlıyıb buları. Soradan dayılarının da 3 oğlu varmış, bılar da iki qardaş imişdər də. İki dənə evi varmış dayının da. İrannan çoxlu qaçağ-quldur gələr bir gün. Kişi bılarçün qoyun zad kəsir, uşağlar da heyvana gediblər də dağ adamıdılar. Bu İran qaçaqları kişiyə bir axmağ təklif eliyillər ki, bizçün bir qızdan gəlinnən arvaddan tap də. Kişi deyir ki:

– A bala siz nə danışırsuz? Kənd yeridi bura.

Deyillər:

– Bəs bı gəlin qız nədi burda belə?

Deyir:

– Bəs mənim öz gəlinnərim qızdarımdı da.

Kişi görür ki, bılar çox pəzəvəngiliy eliyillər, deyir ki, axşam uşağlar gəlsün, başa salaram, deyərəm olara sizin istəylərivüzü. Axşam gəlir, bıların da cəmisi iki dənə tüfəngləri var imiş. İki dənə beşatılan beş nəfərə. Hə, qaçağlar da 5 nəfər imişdər. 3-ünü o evdə yatızdırır, 2-sini də bı evdə ki, indi uşağlarım gələr sizçün tapallar o dediylərivüzdən. Nəisə, o uzun söbətdi, bı Xankişi girir vırır o üçünü də o beşatılannan. Özdə deyir ki:

– Mən orda atanda, siz də bırda atun.

Bılar itirillər özdərini ata bilmillər, oları vırır, düşür gəlir pilləkənnən bıların birin vurur, biri qaçır. O gündən bılar qaçağçılığ eliyillər”[111].

Namus üzündən qaçaq düşmə “Qaçaq Tanrıverdi” dastanında da var. Dastanın Aşıq Hüseyn Bozalqanlı variantında Tanrıverdinin qaçaqlarından biri olan Dövlətxanın qaçaq düş-

[111] Söyləyici: Maarif Əliyev, doğum tarixi 1949, təhsili natamam-ali, Masallı rayonu Qəriblər kəndi. Toplayan: Füzuli Bayat 2013

məsi kənd koxasını öldürməsinə[112] bağlanırsa, Aşıq Qədirin "Qara Tanrıverdi" variantında isə bəyin Dövlətxanın nişanlısına sataşmaq istədiyinə görə öldürülməsindən sonra qaçaq düşməsi bildirilir[113]. Tanrıverdi də hər fürsətdə onu döyən, incidən ağasını balta ilə öldürdüyü üçün qaçaq düşür.

Bir başqa hekayətdə Qandal Nağının necə qaçaq düşdüyü haqsızlığa qarşı özünəməxsus şəkildə dirənməsinə bağlanır. "Sovet hökümətinnən bir az qavax vaxdarda Nağı addı çox qoçax, gözəl bir oğlan oluf. Bu, bəyin qapısında çovanıymış. Bəy bu Nağıya qoyun otardıf, çovannığ elətdirif, munun hakqını vermiyif. Bu vaxdı Nağı bəyin pütün qoyununu dəsinnən içində olan ulağı, iti-zadı pütün satıf, qızıl pula verif götürüf qaçax tüşüf. Bu qaçax tüşənnən sonrasınnan munu tutuflar, buna qandal vuruflar, sürgün eliyiflər. O vaxdın maşınına mindiriflər ki, poyezə mindirsinnər. Bu, qandalda oluf, ama o qədir qoçağ adam oluf ku, qandalı əlində ola-ola maşınnan hopbanıf, ölmüyüf. İncəfara, dəmir yolunun qırağına tüşüf. Bunnan sonrasına nəysə, gedən-gələn bunu tapıf, bu qandalı qırıf. Nağı qayıdıf öz yerimizə. Burda qaçaxlıx eliyif. Qaçaxlıx eliyən vaxdı Nağının bir neçə yoldaşı oluf – Əmir Əhməd, Seyid Rüstəm, bir neçə başqa adam[114]. Eyni əhvalat "Qandal Nağı" dastanında cüzi fərqlə (iki il sürgündə qaldıqdan sonra qaçması, atadan-anadan yetim olması qardaşı Nəbi ilə kiçik yaşlarından işləmələri və s.) verilmişdir[115].

Qaçaqçılığa başlama Qaçaq Nəbidə, Qaçaq Süleymanda, Dəli Alıda özünəməxsus formada baş vermiş, səbəb bütün

---

[112] Azərbaycan dastanları (1972). V cild. Tərtib edən: Ə.Axundov. Bakı: Elm nəşriyyatı, s.404

[113] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri. Bakı: Yurd, s.104

[114] Söyləyici: Əziz Nağıyev, doğum tarixi 1928, təhsilsiz, Arabaçı kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı

[115]Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.238-241

hallarda ədalətsizliyə, ictimai davranış qaydalarına, milli psixologiyaya tərs düşən məsələlər üzərinə gətirilmişdir. Qubadlı bəyləri Mollu kəndinin yataqlarını öz aralarında bölmək istədikdə Nəbi kəndlilərlə birlikdə bəylərə qarşı çıxır. Kəndlilər bəyləri qovurlar. Mollu kəndinin yaxınlığında digər kənddən olan bir nəfəri Qubadlı bəylərindən birinin qardaşı öldürür. Bunu Nəbinin üzərinə atırlar və tutuqlanan, daha sonra da qaçan Nəbi ətrafına adamlar toplayaraq qaçaqçılığa başlayır. Dastanın başqa bir variantına görə Qubadlı rayonunun Aşağı Mollu kəndindən olan Nəbi Molluların kovxası Mahmud bəyin atasını vurmasını görüb özünü yetirir və kovxanı döyməklə yerli idarəçiyə baş qaldırır. Bundan sonra kənddə qala bilməyən Nəbi dağlara çəkilərək qaçaq düşür.

"Qaçaq Nəbi" dastanının Z.Makas nəşrində Nəbi Nevruz Bayramından qabaq boğa döyüşdürmək yarışına qatılır. Nəbinin boğası bir erməninin boğasına qalib gəlir, bundan hirslənən erməni Nəbinin boğasını öldürür, daha sonra da Nəbini söyüb onu da öldürmək istəyir, ancaq Nəbi daha cəld tərpənərək ermənini öldürür və qaçaq düşür.

Qaçaq Süleyman o dövrün varlılarından biri olan Kərbəlayi Ağahüseynin oğludur. Füzuli rayonunun Əhmədallar kəndindən olan Süleymanın Qafqaz Canişininin hiyləsi nəticəsində ata mülki müsadirə edilir. Bu haqsızlığa dözməyən Süleyman qardaşı Qara Dadaşla çar üsul-idarəsinə qarşı qaçaq mübarizəsin başlayır. Öncə Qaçaq Nəbinin dəstəsinə qatılır, sonra Nəbinin ölümündən sonra müstəqil qaçaqbaşı olur.

Qara Tanrıverdini ağası Süleyman bəylə aralarında yaşanan gərgin münasibəti, Qandal Nağını ağası Hacı İsaxanla olan qanlı ədavəti qaçaq salır.

Bu və ya digər səbəbdən dağlara, meşələrə çəkilən, qanunun verəcəyi cəzadan qaçan, varlıların, çar məmurlarının qənimi

olan qaçaqların fəaliyyəti qısa bir zamanda folklorlaşır, yeni dövrün "Koroğlu" qəhrəmanları, dəliləri kimi təzahür edir.

Qaçaqların böyük əksəriyyəti çarın yerlərdəki məmurunu – pristavı, naçalniki, vergi toplayanı/toplayanları, kənxudanı, bəyi və s. öldürdüyünə görə qaçaq düşməyə məcbur olur. Şəmkirdən olan Dəli Alı atasını vergi ödəmədiyinə görə qətlə yetirən çar məmurundan qisasını alır. Oradan qaçaraq Göyçəyə getmək istəyir. Yolda erməni pristavı onların qarşısını kəsir və atışma başlayır, Alı pristavı öldürür. Bundan sonra onun qaçaqçılıq həyatı başlayır.

Ancaq başqa bir toplama materialına görə Dəli Alının qaçaq düşməsi bir az fərqli şəkildə təhkiyə edilir. "Alı cavan vaxtlarında çobanlıq eləyirdi. Bir gün xərc üstündə yüzbaşı bunların ailəsini incitdi. Alı axşam evə gələndə məsələni eşitdi. Gəlib xəncərlə yüzbaşını öldürdü, qaçdı. Hökumət Alının qohumlarına bu işin üstündə çox əzab-əziyyət verdi. Bunların da çoxu qaçıb, Alının dəstəsinə qoşuldu. Az bir zamanda Alının dəstəsi böyüdü. Hökumət neçə dəfələrlə Alının üstünə silahlı adamlar göndərdi ki, onu tutsun, bacarmadı; Alı gələnlərin hamısını qırdı. Qazan dağında, Acıbulaqda, Qarasuçuda, Samıxda, Zincirlidə olan vuruşmalarda Alının dəstəsi yüzlərlə adam qırmışdı, sel kimi qan axıtmışdı. İyidliyinə görə xalq ona "Alı" yox, "Dəli Alı" deyirdi.

Dəli Alı 25 il idi ki, qaçaq idi[116].

Digər tərəfdən Qaçaq Süleyman adı ilə bilinən Gülsüm qaynar samovarı atası Əmirqulu kişinin kürəyinə sarıtdırmış pristavı və kəndxudanı öldürəndən sonra qaçaq düşür. Azərbaycanda böyük bir qaçaq dəstəsinə başçılıq edən gah Süleyman, gah da Muxtar bəy adı ilə fəaliyyət göstərən Gülsümün qaçaq düşməsi toplama materialında da atasının intiqamını al-

[116] https://az.wikisource.org/wiki/Aşıq_Ələsgərlə_Dəli_Alı

mağa bağlanır. Əmirqulu kişi üç il vergi verə bimədiyi üçün pristav və kəndxuda onun evinə gələrək ailəsinin qarşısında təhqir edir, qaynar samovarı kürəyinə sarıyıb zülm edirlər. Evi axtarmağa girən iki əlisilahlının birinin tüfəngini götürən Gülsüm pəncərədən güllə ilə pristavı və kənxudanı vurub öldürür. Sonra qardaşlarından birinin paltarını geyinib meşəyə qaçır[117].

Qaçaq Tavat da erməni daşnakları tətəfindən xaincəsinə, vəhşiliklə öldürülən (öncə kürəklərinə qaynar samavar bağlanır, bişmiş ətini özlərinə yedirtmək istəyirlər, buna nail olmadıqda tikə-tikə doğramaqla qətlə yetirirlər) iki qardaşının intiqamını aldıqdan sonra kənddə qala bilməyib atası ilə bərabər Araz boyu gah İran, gah da Qarabağ ərazisində qaçaqçılığa başlayır[118].

Lənkəran qəzasının Orand kəndində Nağdı Mustafa oğlu pristavı camaatı incitdiyinə, pis əməllər törətdiyinə görə güllə ilə vurub öldürür və qaçaq düşür. Qaçaq Nağdı Mustafa uzun müddət çar məmurlarına, yerli bəylərə, koxalara qarşı savaşır.

"Qaçaq Kərəm" dastanının Qəmli Hüseyn variantında Kərəmdən qabaq qaçaqçılıq edən İncəli Qaçaq İsmayıl haqqını ala bilmədiyi ağanı öldürür və tək-tənha dağlara, meşələrə çəkilib qaçaq olur[119].

"Mehralı bəy" dastanında qaçaq düşmə bir az siyasi motivlərlə izah edilmişdir. Dastanın nəşr olunan variantında aşıq süni şəkildə bir neçə yerdə Qafqazın bir çox yerində camaat uruslara qarşı üsyan edirdi, deyir və belə bir üsyan zamanı Mehralının atası Məmli kişi öldürülür. Qazaqlar onun ölüsünü bir xristian qəbiristanlığında dəfn edirlər. Oğlu Mehralı yuxuda atasını görüp məzarı qoruyan iki rus əsgərini öldürür və atasını

---

[117] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri. Bakı: Yurd, s.134-135

[118] Axundov Əhliman. Xatirələrim. Bakı: Azərbaycan milli ensiklopediyası nəşriyyat-poliqrafiya birliyi, 2003, s.34-38

[119] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.60-61

müsəlman məzarlığında dəfn edir, ertəsi gün kəndi mühasirə edən ruslardan qaçaraq meşələrə çəkilir və qaçaq olur[120].

Qaçaq dastanlarının çoxunda qaçaq düşmənin səbəbi yuxarıda da deyildiyi kimi qəhrəmanın hökumət nümayəndəsini və ya yerli ağaları, bəyi, qoçunu öldürməsi göstərilir. Məsələn “Qaray Söyün” dastanında qəhrəmanın qardaşı acgöz koxanı öldürdüyü üçün Sibirə sürgün edilir, oradan qaçaraq dağlara çəkilir, Qaray Söyün də qardaşının qaçaq düşməsinə görə pristav tərəfindən əli-qolu bağlı götürülərkən yenə də qardaşının pristavı və adamlarını öldürməsi üzündən qaçaq düşür[121]. Eyni ilə “Hacı Tağı” dastanında da Tağı Nadir bəyin iki adamını əmisini döydüklərinə görə güllə ilə vurub öldürdükdən sonra qaçaq düşür[122].

XIX yüzildə Quzey Azərbaycanda baş verən qaçaqçılıq hərəkatı və ya Avropalıların soylu əşkiyalıq (soscial bandit) dedikləri insanların yerli idarəçiliyə qarşı silahlı etiraz forması, müqavimət və onların ətrafında yaranan folklor materialları çox az araşdırılmış, araşdırılanlar da ideoloji folklor çərçivəsində qalmışdır. Azərbaycanda sosializm quruculuğuna qədərki qaçaqçılıq bir tərəfdən məlum marksizm-leninizm konsepsiyasına uyğun şəkildə bir kəndli etirazı görünümü almışsa, digər tərəfdən də Azərbaycanın işğal durumunda olması səbəbindən qismən də olsa milli-azadlıq hərəkatının inkişafına vəsilə olmuşdur. Beləliklə, **aşağıların yuxarılara qarşı sosial etirazının bu silahlı formasına ümumi şəkildə qaçaqçılıq hərəkatı demək daha doğru olacaqdır.**

Buna baxmayaraq bəzi qaçaqlar çar məmurlarına, varlılara qarşı deyil, daha çox ruslara və ermənilərə qarşı mübarizə

---

[120] Borçalı folklor örnəkləri (2013). II Kitab (dastanlar). Tərtib edən E.Məmmədli. Bakı: Elm və təhsil, s.282-284

[121] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.205-211

[122] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.167-172

apardıqlarından onların haqqında lazımi araşdırmalar aparılmamış, haqlarında ağızlarda dolaşan nəğmələr, rəvayətlər qalmışdır ki, bunlar da demək olar ki, toplanmamışdır. Belə qaçaqlardan biri olan Səfəralının (Füzuli rayonu) qaçaq düşməsinə səbəb ayrı-ayrı şəxslərə qarşı olması, intiqam hissi deyil, ümumilikdə yerlərdə özbaşınalıq edən ruslara qarşı mübarizəsidir. "Qaçaq Səfəralı 18 yaşında olarkən rusların əhaliyə etdikləri pislikləri görərək xalqa edilən haqsızlığa biganə qalmır, başına dəstə yığaraq onlara qarşı mübarizə aparmağa başlayır. Harada rus görsə, onları cəzalandırır. Səfəralının bu hərəkətindən təngə gələn Çar hökuməti onun başına pul kəsir. Lakin onu ələ keçirmək mümkün olmur. O, 6 il qaçaqlıq edir, həmin müddət ərzində çar hökumətinə qarşı çıxışlar edir, gündən-günə genişlənməkdə olan milli-azadlıq hərəkatının yerli dəstələrinə başçılığı öz üzərinə götürərək mübarizə aparır, çox haqsızlığın qarşısını alır, insanları müdafiə edir, el arasında xalq qəhrəmanına çevrilir"[123].

Qaçaq Səfəralının ən kiçik qardaşı və əsl adı Murad olan, ancaq olduqca qoçaq, qorxmaz, qeyrətli olduğundan el içində "Rəşid" adlanan qaçaq qardaşı onu tutmaq istəyən çar məmurlarını öldürüb qaçaq olmuşdu. O, Qaçaq Süleymanın dəstəsinə qoşulmuş, dəstəbaşının sağ əlinə çevrilmişdi. Onunla bağlı el içində xeyli əhvalat var[124].

Bu yarımbaşlığı ümumiləşdirmiş olursaq qaçaq düşmənin səbəblərini aşağıdakı kimi gösətrmək mümkündür:

1. Azərbaycanın Çar Rusiyasının işğalı altında olduğu XVIII və XIX yüzillərdə ölkədə baş verən bəzi siyasi, sosial və iqtisadi hadisələr nəticəsində çar hökumətinin yerli idarəetməsinə, onun məmurlarına, yerli bəy, ağa və mülk sahiblərinə

---

[123] modern.az/az/news/18447/

[124] https://az.wikipedia.org/wiki/Qaçaq_Rəşid

qarşı fərdi dirəniş göstərərək, onları öldürdüklərinə, bəzən də ruslara qarşı üsyan edib yurdlarından ayrılaraq dağlarda və meşələrdə gizlənən, dövlət qanunlarına uymayaraq, zülm edənlərə qarşı silahlı mübarizə edən igid və cəsur insanların qaçaq olması;

2. Qaçaqlar özlərinə, yaxud da yaxınlarına edilən bir haqsızlıqdan ötrü qaçaq düşmüş, daha sonra bu mübarizəni sosiallaşdıraraq haqsızlığa məruz qalan bütün insanların müdafiəçisi olmuş insanlardır;

3. Qaçaq düşmənin bir səbəbi də namus məsələsidir. Qadına, qıza pis gözlə baxanlara qarşı qaçaqlar amansızdırlar. Məsələn, Qaçaq İsmayıl qardaşının namusuna göz dikdiyi üçün kəndin ağasını öldürüb qaçaq düşür.

### 3.3. Qaçaqların bir-biri ilə düşmənçiliyi

Dövlət xalq münasibətində hökumətin qaçaqlardan istifadə etdiyi məsələsi də önəmlidir. Belə ki, bəzi qaçaqların dövlət tərəfindən təşviq edildiyi, bu qrupları bir-birinə qarşı tarazlıq ünsürü kimi silahlandırdığı və ya onlardan doğrudan istifadə edərək bunları düşmən qruplara qarşı bir cür kontrgerilla elementi kimi səhnəyə çıxartdığı bilinməkdədir[125]. Vəziyyət söyləndiyi kimi olsa da bu, dövlətin öz vətəndaşına qurduğu tələdir. Azərbaycan kəndlərinin etibarını qazana bilməyən Rus İmperiyası da bəzi qaçaqları ələ almaqla, onları bir-birinin üstünə salmaqla daha barışmaz və təhlükəli olanlarını ortadan qaldırmaq yolunu dəfələrlə sınaqdan çıxartmışdır. Çar Rusiyasının Qafqazdakı məmurları bir qaçağı başqa birinin əli ilə öldürmək üçün bəzi tədbirlər də görürdülər. Ələ aldıqları qaçaqlara bağışlanma, vəzifə, pul və s. təklif edirdilər.

---

125 Armağan Mustafa (2004). Osmanlı: İnsanlığın son adası. İstanbul: Ufuk Kitap, s.204

Məsələn, Gəncəbasar bölgəsinin iki qoçaq qaçağını bir-birinin üstünə saldırmaqla onları məhv etmək istəməsini söyləyici uzun-uzadı bir əhvalatla anlatdı. Məsələn, qubernatorun adamı Tovuzun Bozalqanlı kəndindən olan Qaçaq Tanrıverdini (Qara Tanrıverdi, Bozalqanlı Tanrıverdi də deyilir) öldürmək üçün o dövrün məşhur qaçağı Qaçaq Kərəmə təklif götürür. "Bozalqanlı Tanrıverdini məhv etməkdən ötrü qubernator (Nakaşidze) hətta Qaçaq Kərəmin bağışlanmasına da razı idi. Buna görə qubernator Nakaşidze Allahyar bəy Zülqədərovun vasitəsiylə Bozalqanlı Tanrıverdini məhv etməyi Kərəmin yerinə yetirməsini istəyir. Burada bu hekayəni qısaldaraq örnək kimi veririk. Allahyar bəy Zülqədərov Kərəmin yanına gedib onu bu işə razı salır. Ancaq Kərəm şərt qoyur ki, gecə öz dəstəsi ilə qubernatorun evinə gəlib məsələni danışacaqdır.

Kərəm dediyi kimi gecə saat 12-də qubernatorun evinə gəlir. Qubernator onu qəbul edib söz verir ki, əgər Tanrıverdini öldürsə ona mükafat verəcəkdir. Kərəm razı olur və deyir ki, əvəzində iki tüfəng və 200 patron alacaq. Özü də Tanrıverdini yaxın zamanda öldürəcəyinə söz verir. İstədiyini alan Kərəm getmək istəyəndə Allahyar bəy ona deyir: "Gərək qubernatoru aldatmayasan, Tanrıverdinin başını gətirəsən".

Kərəm cavabında belə deyir: "Allahyar bəy, mən köpək oğullarını tanıyırdım, ancaq sənin kimisini heç görməmişdim. Sən bilməlisən ki, Tanrıverdi mənim atamın dostudur və mən heç vaxt ona ziyan vermərəm. Mənə tüfəng və patron lazım idi ki, onları da aldım. İndi sənin qubernatorun, straşniklərin Tanrıverdini qoy özləri tutsunlar"[126].

Qaçaq hərəkatının bir özəlliyi də dövlətin qaçaqları bir-birinə öldürtməsidir. Qaçaqlar həm dövlət tərəfində bir-birinə

---

[126] Гусейнов Рагим (1926). Очерки революционного движения в азербайджане. Баку: Издание Общества Обследования и Изучения Азербайджана, s.42

düşmən edilir, həm də öz aralarındakı anlaşılmazlıqdan ötrü düşmənlik edirdilər. Böyük ehtimalla onların bir-birinə qarşı çıxmalarında dövlətin də əli vardır. "Deellər ki, Touzun Bozalğannı kəndində Hajı Nəviynən Qaçax Tanrıverdi vaxdıyla oğurrux yoldaşı oluflar. Olar gediflər də Qarağoyunnu kəndinnən yetmiş camışı birdəfiyə oğurruyuflar. Kürnən izi tüşməsin deeni axıda-axıda gəliflər... Gəncənin tuş baravarında camışdarı Kürdən çıxardıf, aparıf qəssabxanıya satıflar. Qayıdıf gəliflər... Bozalğannı kəndində bir koxa oluf, adı da oluf Sarı Paşa. Sarı Paşa bu işi bilif. Oları çağırtdırıf. Çağırtdıranda... Tanrıverdiynən Hajı Nəvi danışıflar kı, Paşa nə desə, boynuna alma haa. Olmuya deəsən ki, biz camışı oğurramışıx. Gələn kimi Hajı Nəvidən qavax Tanrıverdiyi çağırıf. Deef:

– Ayə, Tanrıverdi, siz deellər yüz camış oğurruyuf gətirifsiniz.

Tanrıverdi deer:

– Yox, Paşa kişi, heş bizim elə işimiz olmuyuf.

Deer:

– Denən ki, a Paşa, o başın üçün, siz oğurrux eliyif yüz camış gətimiyifsiniz.

Deer:

– O başın üçün yalan söypətdi.

Tanrıverdi geder, Hajı Nəviyi çağırer içəri... deer:

– Ayə, əmoğlu, bilerəm, mərd adamsan... neyləsən, heş vədə danmazsan. İndi sana bir şey dəyjəm.. Deer:

– Siz yüz camışı oğurruyuf gətirifsiniz?

...Hajı Nəvi gülüf deer:

– A Paşa, yüz olmuyuf, ancax yetmiş oluf.

Paşa kişi Tanrıverdini çağırır yanına.

– Həəə, deer Tanrıverdi, gəl içəri!

Gələn kimi deer:

– Ayə, sənin elən elə olsun, belən də belə olsun! Ona söyör. Sənin başına o işi gətirəjəm ki… Mənim başıma yalannan and içersən?!

… Deən kimi ta Tanrıverdi görüf kü, bunun çıxış yolu yoxdu. Tez çağırer o vaxdın divanını, Tanrıverdiyi tutsun. Tanrıverdi qaçer. Bura Tanrıverdi, ora Tanrıverdi, Tanrıverdi ələ tüşmör kü, tüşmör. Paşa çağırer, deer:

– Ayə, a Hajı Nəvi, Tarıverdiyi tut, isdiyirsən öldür…

Hajı Nəvi tüşör Tanrıverdinin arxasınca"[127].

Bu hekayətin başqa bir varuantı isə belədir:

"Hajı Nəvi Qaçax Tanrıverdiynən dosdular. Bir gün bular Qaraçaydan bir camış oğurruyuf gətirellər. Buranın bəyi Nəsif Usuf bəy, oranın bəyi də Alı bəy olor. Alı bəy Nəsif Usuf bəyə dil-ağız eliyir kin, camışın oğrusunu tafsın. Nəsif Usuf bəy də tüşünör-taşıner, axırda da deer kin, bu oğru ancax Qaçax Tanrıverdiynən Hajı Nəvi ola bilər. Qaçaxlar da camışı oğurruyanda sözü bir yerə qoyollar kın, bu oğurruğu heş kimə deməsinnər. Ancax kın, Hajı Nəvi vədinə əməl eləmer. Usuf Nəsif Tanrıverdidən soruşanda kı, bu oğurrux səninmi işindi? Qaçax Tanrıverdi boynunnan ater, daner elədiyini. Nəsif Usuf bəy bərk hirsdəner, deer:

– Yaxşı, sən get, Hajı Nəviyi burya çağır.

Hajı Nəvi gəler Nəsif Usufun yanına. Nəsif Usuf soruşor kun, Hajı Nəvi, məni biyavır eləməynən, kişi elədiyini boynunnan atmaz. İşdi, şayət, sən eləmisənsə, boynuna al, yox, əyər eləmiyifsənsə, onda eliyəni bilersənsə, deynən kimin elədiyini. Hajı Nəvi görör kün, Nəsif Usuf bunu yaman yerdə haxlıyıf, qıryatına sığışdırammer, axır boynuna aler kı, hə, Nəsif

---

[127] Söyləyici: Firudin Nəbiyev, doğum tarixi 1932, təhsili natamam orta, Arabaçı kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı

Usuf, o camışı Qaçax Tanrıverdiynən mən oğurramışam. Qaçax Tanrıverdi bunnan da Hajı Nəviyə düşmən kəsiler”[128].

Dövlət qaçaqları öz tərəfinə çəkmək və onların üzərindəki nəzarət sahəsini genişləndirmək üçün çarələr tapmağa məcbur oldu[129]. XIX yüzildə Tovuz rayonunda qaçaqçılıq edən, varlıların mal-qarasını oğurlayan iki qaçağın necə düşmən olduqlarından danışan söyləyicilər bunu bir az şəxsi keyfiyyətə bağlasalar da bəzi işarələrdən bu hadisədə dövlətin əlinin olduğunu təxmin etmək olar:

“Savet hökümətinnən bir az qavax vaxdarda Nağı addı çox qoçax, gözəl bir oğlan oluf. Bu, bəyin qapısında çovanıymış. Bəy bu Nağıya qoyun otardıf, çovannığ elətdirif, munun hakqını vermiyif. Nağı da bəyin pütün qoyununu, ulağını, itizadı pütün satıf, qızıl pula verif götürüf qaçax tüşüf... Munu tutuflar, buna qandal vuruflar, sürgün eliyiflər. O vaxdın maşınına mindiriflər ki, poyezə mindirsinnər... Bu qandalı əlində ola-ola maşınnan hopbanıf, ölmüyüf... Nağı qayıdıf öz yerimizə. Burda qaçaxlıx eliyif... Bu qaçax olan vaxdı Dəli Alının da bir dəst qaçağı oluf. Dəli Alıgildi, üş-dört nəfər də Qandal Nağıgildi. Hər ikisi birrəşer, əmə buların içində birəz böyüh kimi seçilən Dəli Alı oluf. Gejələrin birində bax bu Krasnoselski deyilən rayonda Qandal Nağı prisdavın özünü vuruf öldürüf, atını ələ keçirer. At çox qiymatdı at oluf... Dəli Alı yoldaşdarına deef kin, dəsdəmizin böyüyü, gösdəriş verəni kimdi? Deellər:

– Alı dayı, sənsən.

Deer:

– Bə mindiyimiz atdarın içində ən qabiliyyətdisi hasıdı?

Deellər:

---

[128] Söyləyici: Firudin Nəbiyev, Gədəbəy

[129] Barkey Karen. Eşkiyalar ve devlet. Osmanlı tarzı devlet merkezileşmesi. İstanbul: Tarih Vakfı Yurt Yayınları, 1999, s.17

– Nağının atı bu atdarın içində hamısınnan üsdün atdı.

– Di onda atı mən minməliyəm.

Nağı deer:

– Yox, mən prisdavı öldürüf atı ələ keçirmişəm. Mən atı niyə sana verməliyəm?"

At üstündə Qandal Nağının Dəli Alı ilə narazılığı "Qandal Nağı" dastanında da vardır. Dastanda bu narazılıq düşmənçiliklə bitmir, iki qaçağın ayrılması ilə nəticələnir[130]. Həm də dastandakı Qandal Nağı ilə Dəli Alı əhvalatı epizodikdir və dastanın ümumi məzmunu ilə uyuşmur. Ola bilsin ki, toplayıcı Dəli Alı-Qandal Nağı hekayəsinin düşmənçilik olan hissəsini dastandan çıxartmışdır, çünki dastanın dili də aşıq təhkiyəsindən çox yazılı mətn dilini əks etdirir. Qaçaqların çox vaxt sadə bir məsələ üzündən ayrıldıqları, hətta bir-birinə düşmən olduqlarını izah edən bu hekayətin davamında söyləyici olanları belə anlatdı:

"Eləmi-belə, beləmi-elə. Burda söypət uzaner. Bu atın üsdündə aralarında ziddiyyət tüşör.. Nağı öz üş-dört nəfərinnən bir olur, Alı da öz dəsdəsinnən bir olur. Az keçmiş Alı qaçaxlıx eləməh isdəmiyif. Üzə çıxer kı, cəzam nədi, hökmət versin. Mən büyünnən sonra qaçaxlıxdan əl çəkirəm. O vaxdın höküməti deer:

– Dəli Alı, sən ki belə iyitdih, belə kişiliynən təslim olorsan, qarşında bircə məsələ qoyajıyıx... Nağıyı ya öldürəjəhsən, ya diri tutajaxsan, bizə verəjəhsən.

Alı deer ki, Nağıyı tutmax hasat məsələ döy. Nağı qədər qoçax adam ağlınıza gəlməsin.

Deellər:

– Sana böyüh bir ordu verəjiih. Təki sən Nağıyı tuta biləsən.

[130] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.241

Belə də olor. Dəli Alının rəhbərliyi altında yekə bir qoşunnan bular Nağıya qarşı düzəler.

A qızım, bunu mana o dövrdə döyüşdə işdirak eliyən Laylabaşov Vəli addı o vaxdın strajniki işdəmiş adam danışıf Qazaxda.

Bu halatda Dəli Alı özünnən gələn pütün bəylərə yalvarer ki, a bəylər, gəlif bu əjdahıyı tapbışıx, bu da elə bir əjdaha oğlandı, igid oğlandı, munun gülləsi boşa keçmer, bizim də çoxumuzu qırajax. Gəlin burdan sağ vədə çəkiləh, hökmətə də deəh ki, Nağını tapa bilməmişih, görməmişih. Canımız salamat qalsın. Pütün bəylər deer:

– Ayə, nə danışersan? Bu qoşunun yarısını Nağı qırsın, qalan yarısınnan kı, onu ələ keçirəjiyih.

…İşıxlaşar-işıxlaşmaz döyüş başdanır. Elə bil deer, ağajdan yarpax tökülör. Nağının dəsdəsi qırdığını qırır. Nağı yoldaşına deer:

– Ayə, ay Rüsdəm, gəlsən, bu Alıda bir nişan qoyam?!

Deer:

– Alı, sənnən çörəh kəsmişəm, səni öldürmüyəjəm, ama sana bir nişan qoymalıyam.

Elə bir sərrast güllə ater kı, Alının davanı qırılan kimi başını əyer, Alının qulağının divini apartdırer.

Laylabaşov and içer ki, qoşunun az hissəsi qalmışdı, bir vasiteynən canımızı götdüh qaşdıx. O yerin adı hələ də Qannı qanoydu[131].

Hətta hökumət qaçaqla yerli bəyin bir-birini öldürməsinə, tayfaların bir-birinə silah çəkməsinə göz yummaqla, qaçaqçılığı əsgərlərini öldürtdürmədən həll etmək istəyir. "Qaçaq Kərəm" dastanında pristav aralarında qan düşmənçiliyi

---

[131] Söyləyici: Əziz Nağıyev, doğum tarixi 1928, təhsilsiz, Arabaçı kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı

olmasına baxmayaraq bir-birindən şikayətçi olmayan Kərəmlə İsrəfil ağanın arasında daha çox qan töküləcəyindən qorxaraq məsələni yuxarıya bildirir. Yuxarıdan cavab gəlir ki, onlarla işiniz olmasın. Qoy elə bir-birlərini qırsınlar[132].

Çar məmurları bəzi igid bəyləri də qaçaqlarla mübarizəyə səfərbər edirdi. Bunlardan biri Dərələyəzin Canılı kəndindən olan Cəlal bəydir ki, onu Qaçaq Nəbini tutmaq üçün vəzifələndirirlər. Qubernator onu Bazarçayla Sarıyer arasında göndərir ki, Nəbini tutsun. Cəlal bəyin adamları ilə Nəbinin dəstəsi deyilən yerdə vuruşurlar. Nəbi sərrast atəş açan, igid bir adamın onunla vuruşmasının səbəbini öyrəndikdən sonra yük atlarından ikisini orada qoyaraq çıxıb gedirlər. Cəlal bəy də oraya gəlib çıxan qubernatorun dəstəsinə deyir ki, nə üçün mənim köməyimə gəlmədiniz. Onlar bizdən çox idilər, göz açmağa imkan vermirdilər. Mən onları xeyli qovdum, yüklü atları çəkib aparmağa imkan vermədim, deyəsən, yaralıları da oldu. Ancaq nə edim, gücüm çatmadı. Ancaq kazaklar Calal bəydən şübhələnirlər. Hətta el içində onlara nəğmə də qoşulub:

Qayalardan gəlir Nəbinin səsi
Calal bəylə gedən cəngi, nərəsi
Aşıq qəhrəmanın xoş zəngulәsi
Söylənir payız, yaz Dərələyəzdə[133].

## 3.4. İctimai qaçaqların yazılmamış kodeksi

Tarixi çox əskilərə dayansa da qaçaq dedikdə daha çox XIX-XX yüzillərdə baş verən fərdi, bəzən də ictimailəşmiş müqavimət hərəkatı, partizanvari silahlı mübarizə forması nəzərdə tutulur. Ona görə də qaçaqçılıq mövzusunu nəzəri ba-

---

[132] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.58

[133] Azərbaycan folkloru antologiyası (2006). XV Kitab. Dərələyəz folkloru. Toplayanlar: H.Mirzəyev, H.İmayılov, Ə.Ələkbərli. Bakı: Səda, s.344-346

xımdan tədqiq edən E.J.Hobsbawm da kitablarında və məqalələrində daha çox dünyada baş verən sənaye inqilabları dövrü olan XIX yüzildən danışır, qaçaqçılığın tipik bir kəndli hərəkatı olduğu üzərində durur.

Qaçaqları ayrı-ayrı kateqoriyalara ayıran, mübarizələrini fərdi haqq davası adlandırsa da onların tarixdə oynadığı rolu yüksək qiymətləndirən Eric J.Hobsbawm qaçaqçılığın şərti kimi xarakterizə etdiyi özəllikləri maddələr halında sıralayır. Hobsbawmun təqdim etdiyi və qaçaqçılığın (soylu əşkiya) kodeksi kimi dəyərləndirə biləcəyimiz bu doqquz özəllik aşağıdakılardır:

Birincisi, "qaçağın qanundışı fəaliyyətinə hər hansı bir cinayəti işləyərək deyil, haqsızlığın qurbanı olaraq ya da xalqın deyil, yönəticilərin günahkar saydığı bir hərəkətə görə zülmə uğraması ilə başlamasıdır."

İkincisi, "soylu əşkiyanın haksızlıqları düzəltməsi, yoluna qoymasıdır."

Üçüncüsü, qaçaqların varlıdan alıb yoxsula vermələridir.

Dördüncüsü, "özünü müdafiə etmək və ya haklı yerə intiqam almağın dışında heç bir zaman öldürməməməsidir."

Beşincisi, "əgər qocalırsa şərəfli bir vətəndaş və cəmiyyətin üzvü kimi xalqın içinə geri dönür. Əslində qaçaqlar xalqı heç vaxt tərk etməzlər."

Altıncısı, "xalq ona heyranlıq duyur və yardım edir."

Yedincisi, "topluluğun heç bir hörmətli üzvü ona qarşı hökumətlə işbirliyinə girməz, onun ölümü və ya həbsə düşməsi ancaq xəyanət sonunda olur."

Səkkizincisi, "ən azından nəzəri də olsa onu heç kim görə bilməz və ona güllə işləməz."

Doqquzuncusu, qaçaqlar və ya soylu əşkiyalar "ədalətin təmsilçisi olan kral ya da hökmdarın deyil, yerli məmurların, ya da başqa idarəçilərin düşməni"dirlər[134].

Azərbaycan şəraiti diqqətə alındıqda bu nəzəri müddəalara bəzi düzəlişlər etmək lazımdır. Azərbaycan türklərinin özünəməxsus təfəkkür tərzi, psixologiyası, yaşam özəlliyi və qaçaqçılıq hərəkatının başladığı siyasi-iqtisadi sistem E.Hobsbawmun bütün müddəalarının qəbul edirliyini imkansız edir. Məsələn, Hobsbawmun nəzəriyyəsinə görə sosial əşkiyaların çoxu əsgərlikdən evə dönmüş, kənd həyatına və işinə alışa bilməyən insanlardır ki, nəticədə çıxış yolunu qaçaqçılıqda görürlər. Azərbaycanda qaçaqlar kənddən çıxmış, muzdla işləyən, ağır vergi verməkdən yoxsullaşmış və ya yoxsulluğa səbəb olan şəraitlə barışa bilməyən adamlardır. Ancaq müddəaların böyük bir qismi həmən-həmən bütün xalqlarda eynidir.

E.Hobsbawmun yazdığı varlıdan alıb yoxsula vermək qaçaqların yazılmamış qanunudur. Ən çox söylənən qaçaq hekayətləri, dastanları da bu barədədir.

Xəyanət nəticəsində öldürülən və ya həbsə atılan qaçağın (Hobsbawmda yeddinci özəllik) intiqamını almaq da Azərbaycan qaçaq folklorunda yayqın hekayətlərdən biridir. Sovetlərə qarşı vuruşan Ayrımlı Qaçaq Əmirastanın intiqamını dəstəsinin alması buna misal ola bilər:

"Əmirastana yaxın düşə bilmir Savet. Ə, bunu nağayrax? Bu Göyəllidə bir sarsax nəsil oluf. O sarsax nəsillə əlaqəyə giriflər ki, bunu görün nağayrersınız. Bu erməninin qurğusu hər yerdə keçer. Bizim Haçadan anrı Kığlı deellər. Erməni orda dəyə tikif, mal saxleerdı. Əmirastan da bunun birinnən dost oluf. Bunun yanına gedif, həməşə buna çörəy verirmiş. İndi savetin çekistləri deer ki, ə, köpöyoğlu, başın ya fərmandadı, ya Əmi-

[134] Hobsbawm Eric J. (1997). Eşkıyalar, s.34-35

rastanı öldüröjöhsən. Əmirastan gəler bunun yanına, heyvan kəsiler, kavaf gəler. Gətirer bu erməni behişdər tökör kavava. Əmirastan yatanda Əmirastanı bax orda öldüröllər.

Quləm mənə söylədi. Mənim indi səhsən yaşım var, Quləm mənə yetmiş il bundan qavax söylüyüf. O vaxdı Qazağa tabeymiş bura. Həmən Əmirastanı öldürtdürən adamları aparellar o yal dağa. Deer, bildih ki, düşmənimiz kimdi, Əmirastanı öldürtdürən kimdi. Gəldih deer, oları allatdığ ki, sizi Qazağa çağırellar, iclas var. Apardığ deer, Budal var, orya aparanda, deer, da artıx gördülər ki, ədə, bu xına o xınadan döy. Deer:

– Bilerəm məni öldüröjəhsiniz, məni qavağnan öldürün. Mənim uşaxlarımı gözümün qavağında öldürmən.

Tutduğu əməli bilmerdinmi? Bilmerdinmi Əmirastan kimi adamı qavağa verəndə axırın nolajax. Bax Əmirastanın adamı da onu elə öldürdü, oları elə qırdı”[135].

Eric Hobsbawmun təsbitlərindən fərqli olaraq Berna Moran əşkıyalıqla bağlı yazdığı məqaləsində dörd ümumi özəllik göstərir:

Birincisi, “qəhrəmanın uşaqlıq illərini əhatə edən və ayağa qalxmasına səbəb olan hadisədən öncəki vəziyyətin anladıldığı ilk ana bölümdə acımasız ağaların, ya da bəylərin idarəsi altında zülm görən kəndlinin vəziyyətinin sərgilənməsidir”.

İkincisi, “qəhrəmanın özünə, ya da anası, atası, həyat yoldaşı kimi sevdiyi hər hansı bir yaxınına qarşı ağanın (bəyin) etdiyi böyük bir pisliyin yer alması və bunun nəticəsində qəhrəmanın dağa çıxıb əşkıya olmasıdır”.

Üçüncüsü, “qaçaqlıq dönəminə ayrılan üçüncü bölümdə qəhrəmanın soylu əşkıya kimi yoxsul kənliyə etdiyi yaxşılıqlar, zalımlara verdiyi cəzalar və öz intiqamını alması nəql olunur”.

---

[135] Hüseyn Əhmədov, doğum tarixi 1933, təhsili yoxdur, Şınıx kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı 2017

Dördüncüsü, "dördüncü bölümdə qəhrəmanın sonunu oxuyuruq. Qaçaq qəhrəman ya xalqın içinə geri qayıdar və onlar da qəhrəmana sahib çıxarlar, ya da ortadan yox olub gedər"[136].

Özü-özlüyündə, təkbaşına kütləvi bir hərəkat formalaşdıra bilməyən qaçaqları Eric Hobsbawmun yekun olaraq əsl əşkiya, ibtidai müqavimət savaşçısı, ya da quldurlar, ətraflarına dəhşət saçan intiqamçılar olmaqla üç qrupa ayırır[137]. Alicənab və ya əsl qaçağı başqa qaçaq-quldur, qaçaqmalçı qruplarından fərqləndirən "cəmiyyətin gözündə adi cani kimi qəbul edilməmələri" və "xalq tərəfindən qəhrəman, intiqam alan, ədalət savaşcısı" kimi dəyərləndirilmələridir[138]. O baxımdan bütün zamanların ən şöhrətli qaçağı olan Koroğlu və davamçılarının xalq qəhrəmanı səviyyəsinə qaldırılmasının səbəbi dövlətin onlara olan münasibətinin tam tərsinə, xalqın qaçaqlara yüklədiyi anlam olmasındadır. Eyni ilə Dəli Həsən, Qaçaq Nəbi, Qaçaq Kərəm, Qara Tanrıverdi, Molla Nur da dövlət-xalq münasibəti baxımından tərs qütblərdə yer almışlardır və yerli hökumət nümayəndələri onları məhv etmək və ya neytrallaşdırmaq üçün müxtəlif tədbirlərə (buraya qaçaq dəstələrini bir-birinin üzərinə salmaq, xəyanət, tələ qurmaq, xalqın çuğul dediyi xəbərçilərdən istifadə etmək, qaçaqları ələ almaq üçün onlara vədlər vermək və s. daxildir) əl atmışdır.

---

[136] Moran Berna (2011). "İnce Memed ve eşkıya öykülerinin yapısı". Türk tomanına eleştirel bir bakış 2, İstanbul: İletişim yayınları, s.83-84

[137] Hobsbawm Eric J. (2011). Eşkiyalar. Çeviren O.Akınhay. İstanbul: Agora kitaplığı, s.29

[138] Hobsbawm Eric J. (1990 b). Haydutlar. Çeviren: F.Taşkent. İstanbul: Logos yayınları, s.9

## 3.5. Xalq nümayəndələri ilə dövlət adamlarının qarşıdurması

Dövlət xalq münasibəti fonunda bir tərəfdə xalqın təmsilçisi qaçaqlar, digər tərəfdə istər çar, istərsə də sovet rejiminin nümayəndələri olan yüksək rütbəli məmurlar – qubernatorlar (canişinlər), pristavlar, yerli istismarçılar – bəylər, kənxudalar, polis işçiləri, din adamları; kommunist partiyasının yerli nümayəndələri – partiya işçiləri, fəallar, kolxoz sədrləri, çekistlər, milislər və s. vardır.

Xalqın haqqını qoruyan, həyatlarını ədalətsiz yönətimə qarşı mübarizəyə həsr edən, bunun üçün evindən, yurdundan qaçaq düşmüş bu insanlar yoxsulluğun zirvəyə çatdığı, hörmətsizliyin, təhqirin baş alıb getdiyi bir-birindən fərqli iki sistemin yetirmələridir. Çarlıq dönəmi qaçaqları sosial yoxsulluğun tipikləşdirilmiş nümayəndəsidirsə, sovet rejim qaçaqları da bolşevik ağalığına dirənənlərin təmsilçiləridir.

Qaçaqları qaçaq olmağa, evlərindən didərgin düşüb dağlarda, meşələrdə gizlənməyə məcbur edən yaşadıqları rejimin basqısı, idarəetmə forması, hökumət adamlarından, ağalardan, bəylərdən, kənxudalardan, polis işçilərindən gördükləri zülmdür. Ona görə də toplanan folklor materiallarında çarlıq dönəmi qaçaqlarının hamısının kasıb kəndli olduğu, ağaların, bəylərin yanında çobanlıq, rəncbərlik, nökərçilik etdiyi, əməklərinin haqqını ala bilmədikləri, yaxud ailə üzvlərindən birinə və ya bir neçəsinə dövlət məmurlarının, bəylərin, ağaların və kənxudaların əziyyət verdiyi, bəzən öldürdüyü, nişanlılarının, yaxınlarının namusuna sataşdıqları da qaçaqçılığın başlıca səbəbləridir. Məsələn, Borçalının Qasımlıkəndindən olan Səməd Ağa generalın itini, sonra da onu ağır təhqir edən generalın özünü öldürdüyü üçün 12 il Sibirə sürgünə məhkum edilmişdir. Ancaq o, sürgündən qaçıb yurduna dönmüş və qaçaqçılığa başlamışdır.

Çarlıq Rusiyasının məmurlarına, yerli ağalara qarşı mübarizə aparan qaçaqların bir qismi Azərbaycanda sovet rejiminin qurulmasından sonra silahı yerə qoyub (xalq buna üzə çıxmaq deyir) kolxoz quruculuğunda iştirak etmişlərdir. Məsələn, Qaçaq Dəli Alı hətta Çar Rusiyasının son dövrlərində hökumət tərəfindən bağışlanılmış və qaçaqçılıqdan əl çəkmişdir. Qaçaq Gülsüm, Qaçaq Qaray Söyün, Qaçaq Tavat sovetlərin qurulmasından sonra silahı yerə qoyub fəhlə-kəndli hökuməti ilə əməkdaşlıq edirlər. Hətta onların bəziləri kənd və rayon icraiyyə orqanında işləyir, kommunist partiyasının üzvü olurlar. Məsələn, Qaçaq Tavat haqqında belə deyilir: "Şübhəsiz ki, qəhrəmanlığı iIə ad çıxarmış qadının işgüzar və vətənpərvərliyi də dövlət tərəfindən yüksək qiymətləndirilib. Tavat Hümbətova bir neçə dəfə orden və medallarla, fəxri-fərmanlarla təltif olunub. Azərbaycan Kommunist Partiyasının üzvü olmuş qadın sonralar dövlət qulluqçusu təqaüdünü alıb"[139]. Hətta Qaçaq Gülsüm erməni daşnaklarını öldürdüyünə görə 1932-ci ildə həbs olunarkən Stalinlə dost olduğunu deyir və dərhal həbsdən azad edilir, (Qaçaq Gülsümün xatirələrini yazana inansaq) oğlanlarından Ədili də kolxoz sədri qoyurlar. Oğlu buna etiraz edib "Ay ana, məni niyə zülmə salıbsan?" deyəndə Gülsüm ona belə deyir: "Başını salarsan aşağı, hökumətə qulluq edərsən, çoban olmaqdan baş çoban olmaq yaxşıdır. Yoxsa ortandan bircə güllə keçirərəm, ağlın başına gələr. Elə bilərəm 6 yox, 5 oğlum olub. İndi bizim zəmanəmiz gəlib çatıb"[140].

Sovet dövrü qaçaqları isə qolçomaq adlandırılan ortabab kəndlilərdir ki, dövlətin kollektivləşdirmə siyasətinə qarşı çıxmaları, torpaqlarını kolxozda birləşdirmək istəməmələri, xalqın adətinə, dininə qarşı çıxan kommunist düşüncəsini qəbul

---

[139] https://news.milli.az/society/391776.html
[140] İbrahimoğlu Vilayəddin (2017). Qaçaq Gülüsüm və Stalin. Bakı: Yek prodустion çap evi, s.35

etməmələri, bir çox halda əski düzəni, yəni musavat hakimiyyətini geri qaytarmağı planlamaları ilə seçilən insanlardır. Onların mübarizəsi rejimə etiraz baxımından az da olsa siyasidir. Təbii ki, sovetləşməyə, kollektivləşməyə qarşı üsyan çıxaran bəyləri, musavat zabitlərini, din adamlarını bu siyahıdan kənarda tutmaq lazımdır, çünki onların mübarizəsi onsuz da siyasidir. Burada söhbət sovetlər zamanında qaçaqçılıq edən qolçomaqlardan gedir.

Qaçaqların ən böyük sosial funksiyası yoxsul kəndlilərin haqqını qorumaq, onların maddi vəziyyətini yaxşılaşdırmaq, acları doydurmaq, çılpaqları geyindirmək olduğundan əsas işləri varlıdan alıb kasıba verməklə sosial ədalətsizliyi, ictimai bərabərsizliyi öz düşüncələri və tətbiq etdikləri qanunlar əsasında yoluna qoymaqdır.

Dövlətin nümayəndəsi kimi qaçaqların önündə duran əsas qüvvə istər Çar Rusiyası zamanında, istərsə də Sovetlər İttifaqında dövlət məmurları və onların yerlərdəki icraçılarıdır. Onların əsas vəzifəsi dövlətin mənafeyini qorumaqdır. Bunun üçün qaçaqların haqlı olduqlarını bilsələr də dövlətdən və onun bütün imkanlarından faydalanan bu məmurlar və bir çox din nümayəndələri sona qədər qarşı cəbhədə yer almaqdadırlar.

Beləliklə, qaçaq folklorunun bir-birinə zidd, barışmaz iki qütbü vardır ki, mübarizə dövlət və xalq baxımından dəyərləndirildikdə xalqın həm XIX, həm də XX yüzildə birinin digərinin varisi olduğu işğalçı dövlətin qeyri-qanuni, ədalətsiz hökmlərinə boyun əymək istəmədiyi açıqca görünür. **Dövlətin vəzifəsi xalqın maddi və mənəfi rifahını yaxşılaşdırmaq olmadıqda, ədaləti idarəetmənin təməli etmədikləri müddətcə ədaləti qoruyan, xalqın xilaskar olaraq gördüyü qaçaqlar və qaçaqçılıq olacaqdır.**

## 3.6. Son söz

Osmanlı dövlətində XVII yüzidən bütün ölkəni bürüyən əşkiyalıq dövlət-xalq münasibətinin çat verdiyi məqamda ortaya çıxdı. Təqribən eyni dövrdə Səfəvi dövlətində də bəzi sosial-iqtisadi və mədəni problemlər görünməyə başladı. Bunun əsas səbəblərindən biri Səfəvi dövlətini quran qızılbaşların mərkəzdən uzaqlaşdırılması, idarəedici mövqedən idarə olunan vəziyyətə gətirilməsi oldu. Bu isə üsyanların baş verməsini hazırladı. Osmanlı dövləti, əşkiyalığı sosial üsyana dönüşdürməmək üçün qaçaqların bir qismindən yararlandı, bir qismini ələ aldı, bir qismini də məhv etdi. Səfəvi dövlətinin baş verən qaçaqçılıq hərəkatını necə bastırğı haqqında tarixi qeydlərdən göründüyü kimi məhv etmək siyasəti önə çıxmışdır. Üsyana səbəb ola biləcək qüvvələr isə mərkəzdən ucqarlara sürgün edilir və ya farsların kompakt yaşadıqları bölgələrə yerləşdirilirdi. Buna baxmayaraq XVIII yüzildə Nadir Şah dövlətindəki və ondan sonrakı xanlıqlar zamanında qaçaqçılıq hərəkatının vəziyyəti haqqında yetərli bilgi saxlanmamışdır. XIX yüzildə Osmanlı parçalanma durumuna gəldikdə qaçaqlarla bərabər yunan, erməni, boşnak, ərəb quldurlarının da sayı xeyli artdı. Azərbaycanın üçdə birinin Çarlıq Rusiyası tərəfindən işğalı nəticəsində torpaqlarından məhrum olan kəndlilər üsyan çıxardılar. Xanlıqların bərhası üçün başladılan savaşın və kəndli üsyanlarının məntiqi yekunu kimi qaçaqçılıq dalğası bütün ölkəni bürüdü.

Nəticə etibarı ilə çar dövründəki qaçaqçılıq hərəkatının başlanma səbəbi təhkimçiliyə qarşı artan etiraz və üsyan dalğasının Azərbaycanın bir çox yerini bürüməsi oldu. İlk öncə amansızlıqla basdırılan bu hərəkatdan sağ qalanların dağlara, meşələrə və çar rejiminin hökmü yetməyən qonşu ölkələrə sığınmaqla mübarizəni davam etdirmələri tarix meydanına yeni bir sosial etiraz forması olan qaçaqçılıq hərəkatını çıxartdı. Qaçaqların bir

qismi kəndli hərəkatı ilə əlaqəsi olmayan, ancaq bu və ya digər səbəbdən (şəxsi, sosial, iqtisadi və s.) qanundan qaçmağa məcbur olan adamlar idi. Onlar özləri kimi qanun qaçaqlarını başlarına toplayaraq beş-altı (bəzən çox, bəzən az) nəfərdən ibarər dəstə ilə öz ədalət qanunlarını tətbiq edən qoçaq, dəliqanlı insanlar idi. Həm birinci, həm də ikinci tip qaçaqlar haqqında yaranan əhvalatlar, mahnılar, şeirlər, deyimlər, rəvayətlər və nəhayət, dastanlar qaçaq folkloru dediyimiz yeni bir folklor sahəsini yaratmış oldu. Yaxın tarix qısa bir zaman içində folklorlaşdı, xalqın istəkləri fonunda yeni bir ömür yaşamağa başladı.

# DÖRDÜNCÜ FƏSİL
# ŞİFAHİ (SÖZLÜ) TARİX BAXIMINDAN QAÇAQ FOLKLORU

## 4.1. Giriş

Qaçaq folkloru dedikdə dövlətdən qaçaq düşən tarixi şəxsiyyətlər haqqında yaranan atalar sözləri və zərb-məsəllər, nəğmələr və bayatılar, əfsanə və rəvayətlər, hekayətlər, nağıllar və dastanların nəzərdə tutulduğunu bir daha xatırlatmaq lazımdır. Təəssüflə qeyd etmək lazımdır ki, qaçaq fokloru bütün tərəfləri ilə, siyasi və ideoloji yanaşmadan uzaq, obyektiv, "social bandits" nəzəriyyəsi, şifahi tarix və memorat janrları baxımından araşdırılmamışdır. Qaçaq folklorunun qəhrəmanları ilk öncə yaxın tarixdə yaşamış və əksəriyyətlə yoxsul insanlar olub əziyyətlə böyümüş, zülmə, haqsızlığa qarşı çıxmış və son nəfəslərinə qədər ədalətsizliklə vuruşan şəxslər olmuşdur. 1813, daha sonra isə 1828-ci ildən Azərbaycanın təqribən üçdə birinin Rusiyanın tərkibinə birləşdirilməsi ilə təhkimçilik deyilən siyasi-iqtisadi üstqurumun nəticəsində sosial-mənəvi şəraitin pisləşməsi ilə yekunlaşan yeni bir dövr başlamış oldu. İşğala qarşı baş verən kəndli üsyanları, dini etirazlar, sonradan fərdi intiqam hissi ilə yoğrulan və həm xalqın leksikonunda, həm də rəsmi sənədlərdə qaçaqçılıq adlanan hərəkatın ortaya çıxmasına səbəb oldu.

Qaçaqçılıq özü özlüyündə müstəqil hekayətlərdən, memoratlardan, rəvayətlərdən, mahnılardan və qəhrəmanlıq dastanlarından ibarət müstəqil bir folklordur. Nəzərə alsaq ki, qaçaqçılıq dedikdə, əsasən XIX-XX yüzillərdə baş verən hadisələr nəzərdə tutulur qaçaq folklorunun şifahi yaşının o qədər də qədim olmadığı ortaya çıxar. Qaçaq folkloruna daxil olan janrlar klassik folklor janrlarından tarixilik baxımdan fərqlənir.

Bundan başqa qaçaq folklorunun mətnləri ədəbi-estetik baxımdan da təkmilləşmə dövrü yaşayır. Qaçaq folklorunun bütün materialları şifahi tarixin içindən çıxdığından yaxın tarixi əks etdirmək baxımından da önəmlidir. Belə ki, bu materialları toplayıb araşdırmaqla rəsmi tarix elminin diqqətdən kənarda saxladığı, xalqdan gizlətdiyi bəzi məqamlarının tədqiqi ilə önəmli bir siyasi-iqtisadi və sosial-mədəni dövr öyrənilmiş olacaqdır. Qaçaq folkloru mətnlərini toplamaq, kitablaşdırmaq, öyrənmək, tədqiq etmək məsələnin bir tərəfidir. Məsələnin ikinci tərəfi bu folklorun yarandığı siyasi-iqtisadi, ictimai-mədəni kontekst baxımından mətnlərə mədəniyyət hadisəsi kimi baxmaq, tarixin, sosiologiyanın, antropologiyanın, iqtisadiyyatın, ilahiyyatın araşdırma metodları ilə birlikdə yanaşmaqdır. Kontekstsiz mətn araşdırması bizə istənilən nəticəni çıxarmağa imkan tanımadığından qaçaqçılıq hərəkatının ortaya çıxdığı ictimai-siyasi, iqtisadi-mədəni mühiti daha öncəki fəsillərdə öyrənməklə işin əsas qismini görmüş olduq. İndi sıra bu tarixi-sosial şəraitdə yaranan mətnlərin öyrənilməsinə gəlmişdir.

XIX yüzilin ortalarından başlayan qaçaqçılıq çar üsul idarəsini dəyişdirməkdən uzaq olsa da iqtisadi və sosial xarakter daşıdığından yerli idarəçiliyə böyük zərbə vurdu. Bu hərəkatın öncülləri göstərdikləri şücaətlə kəndlilərin gözündə qəhrəmana çevrildilər, həyatları əfsanələrə, mübarizələri nəğmələrə, ölümləri ağılara, fəaliyyətləri dastana dönüşdü. Beləliklə, qaçaq folkloru adı altında yeni bir şifahi ədəbiyyat növü yarandı. Bu folklorun zəngin mahnı və bayatı repertuarı, rəngarəng rəvayət və əfsanələri, hekayətləri, memoratları, dar aşıq mühitində olsa da icra edilən dastanları yarandı.

Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə başlayan ideoloji hərəkat 1930-cu illərin sonunda sosializm ideyasını qüvvətləndirmək və ona ideoloji baza yaratmaq üçün sifarişlə yeni folklor janrları və nümunələri yaradıldı. Sovet reji-

minə qarşı dirənən qaçaqların əksinə olaraq fəhlə-kəndli hökumətinin ideya-siyasi dayağı kimi çarizmə qarşı vuruşan qaçaqlar haqqında mövcud olan xalq ədəbiyyatı nümunələri təbliğ və təşviq edildi. Hətta qaçaq folklorunun təməlində aşıqlara yeni qəhrəmanlıq dastanları yaratmaq sifarişi verildi. "Hətta Qaçaq Nəbi dastanını ilk dəfə ifa edən Aşıq Yusif bir daha sazı əlinə almayıb və bu dastanı bağlayandan sonra "... Nəbiyə dastan bağladım, zorla məcbur etdilər"[141] demişdir. Folklorun ən böyük janrı olan qaçaq dastanları belə bir tarixi zamində ortaya çıxdı. Bunun bir səbəbi də çar qaçaqlarının sovet dönəmində inqilabçı qəhrəmanlar kimi təqdim edilməsi idi.

Ancaq XIX yüzilin ortalarından başlayaraq 1920-ci illərə qədər davam edən tipik kəndli hərəkatı olan qaçaqçılığa münasibət bütün hallarda eyni olmamışdır. Belə ki, 1918-1920-ci illərdə erməni quldur dəstələrinin rus silahlı qrupları ilə Azərbaycanda törətdikləri qətliamlar, qırğınlar xalqın yaddaşında qaçaqaç dönəmi kimi qalmışdır. Bu dövrdə qaçaqların fəaliyyət, göstərdikləri şücaət haqqında yaranan şifahi ədəbiyyat nümunələri toplanmadığı kimi araşdırma mövzusu da olmadı. Rəsmi tarix susduğu kimi şifahi tarixə də danışmağı qadağan etdilər. 1920-ci ildən 1940-cı illərin sonlarına qədər fəaliyyətləri davam edən sovet qaçaqlarını bütünlükdə xalq düşmənləri elan edərək haqlarında yaranan folklor nümunələrinin toplanılıb öyrənilməsini yasaqladılar.

Təbii ki, sürətlə əfsanələşən, haqlarında müxtəlif mahnılar qoşulan, hekayətlər yaradılan, hətta mifik bir örtüyə bürünən qaçaqlar və onların silah yoldaşları ilk öncə sosial oppozisiyanın qarşı tərəfində duran geniş xalq kütləsinin sevgi mənbəyinə çevrildilər. Çar rejiminin dini və irqi ayrı seçkilik

[141] www.qafqazinfo.az/.../serdar-celalogludan-bir-daha-semed-v.. və https://idrisheyderli.livejournal.com/53398.html götürülmüşdür

siyasəti zamanla bu sosial oppozisiyanı dini və irqi faktorlarla zənginləşdirdi və qarşıdurma siyasi-ideoloji, dini-əxlaqi, sosial-mədəni platform üzərinə keçirildi. **Qaçaqçılıq sadəcə dirəniş, xalq hərəkatı kimi deyil, həm də sosial-iqtisadi hadisə kimi tarix səhnəsinə çıxdı.** Ancaq qaçaqçılıq rejimi dəyişmək istəyən və siyasi mübarizə aparan fəhlə hərəkatından fərqli olduğu üçün burada bütün reforma planları yalnız və yalnız yerli idarəetmə sahəsindən kənara çıxa bilməmişdir.

Avropa xalqlarının şifahi ədəbiyyatında da geniş yayılan qaçaq folkloru daha çox qaçaq nəğmələri ilə təmsil olunmuşdur. Qaçaq nəğmələrinin geniş yayıldığı bölgə əsasən xalqlar zindanına çevrilmiş Çarlıq Rusiyasında, Bolqarıstanda, Serbistanda, Finlandiya və Belarusiyada, İngiltərədə, Almaniyada və Fransada görülür. Xüsusən, digər xalqalra qarşı talançılıq, yağmaçılıq müharibələri rus çarlarının XIII yüzildən başladıqları və sonrakı dönəmlərdə talançılığın, qaçaqçılıqla əzilən, istismar olunan təbəqənin protesto formasına çevrilməsi ilə yeni bir forma qazandı və bu dəfə talançı rus çarları haqlarını tələb edən xalq nümayəndlərini dövlət canisi adlandırmağa başladılar. Rus qaçaqlarının böyük qismi bir soyğunçu və talançı olmuşdur ki, bunları sovet dövründə kəndli hərəkatının nümayəndələri kimi təqdim edib, haqlarında yaranan folklor materiallarını topladılar. Məsələn, Yermak, Puqaçov, Kudeyar, Vanka-Kain, Vasili Çurkin və başqaları haqqında öncəki fəsildə verilən tarixi-sosial bilgiləri təkrarlamadan burada slavyan xalqlarının quldurları haqqında yaranan xalq yaradıcılığı nümunələrini ümumi şəkildə olsa da dəyərləndirək. Slavyan qaçaq folklorunun nümayəndələrinin bəziləri soyğunçu, bəziləri oğru, bəziləri də saxta pul kəsən olmuşdur. Haqqında nəğmələr qoşulan, hekayətlər söylənən XVI yüzilin kazak atamanı Yermak öncə Volqaboyunda tacirləri, tatar xanlarını,

kəndliləri soymaqla ad qazanmış daha sonra çarın xidmətinə girərək Sibir xanlığını işğal etmişdir.

XVII yüzilin Don kazaklarının atamanı Stepan Razin acımasızlığı ilə bilinən və üsyan çıxararaq çar yönətiminə qarşı vuruşan soğunçulardan biri idi. Onun dövründə Don ətrafındakı kəndlilər yoxsullaşaraq kazaklığa yazılırdılar və varlıları soymaqla məşğul idilər. Xalq ədəbiyyatında bu quldurun fəaliyyətləri barədə bir-birindən fərqli müxtəlif məlumatlar verilmişdir. Əsl kəndli hərəkatı lideri XVIII yüzilin Don kazakı Yemelyan Puqaçovdur ki, təhkimçiliyə qarşı ətrafına topladığı kazak, başqırd, tatar kəndliləri ilə üsyan çıxartmışdır. Üsyan yatırıldıqdan sonra sağ qalanlar qaçaq dəstələri yaradıb mübarizəni davam etdirdilər. Bir folklor obrazı olan XVI yüzilin əfsanəvi qaçağı Kudeyar varlıları soymaqla çoxlu sərvət qazanmışdır. O da digərləri kimi ataman adlanmış, haqqında nəğmələr söylənmiş, hekayətlər anlatılmışdır.

Hər cür zülmə məruz qalan və mülkədarların ağır vergiləri, haqsızlıqları qarşısında əzilən rus kəndliləri hakim təbəqəyə qarşı çıxan, hətta kəndliləri müdafiə etmək, haqq uğrunda vuruşmaq kimi idealları olmayan quldurları da qəhrəman kimi görür onların haqqında mahnı qoşur, rəvayətlər söyləyirdilər. Rusiyada, Ukraynada mülkədarlara, kəndlilərə, knyazlara qarşı savaşanlar, Balkanlarda isə Osmanlılara qarşı savaşan qaçaq-quldurlar haqqında folklor belə yaranmağa başladı. XVII yüzildən etibarən qaydut/xaydut mahnıları geniş yayılmağa başladı. Məsələn, XVI əsrin sonlarından Yermak, XVII-XVIII yüzillərdə isə Razin, Puqaçov haqqında çoxsaylı mahnılar yarandı. Mahnılarda bu quldurlar ideallaşdırılsa da onların tarixi kimlikləri də önə çıxarıldı. Hətta I Pyotrun qaçaq-quldurlara qarşı sərt mübarizəsi dövründə də yeni-yeni mahnılar yaranırdı. Ancaq bu mahnılarda əvvəlkilərdən fərqli ola-

raq qaçaq-quldurları idealizə etmək yox idi[142]. Tarixi faktların geniş yer aldığı qaçaq mahnıları sadəcə Rusiya, Ukrayna, Serbiya və Xorvatiyada deyil, Osmanlı və Azərbaycanda da mühüm əhəmiyyət kəsb edir. Bu mahnılar rəsmi tarixin üzərindən sükutla keçdiyi, yaxud da unutduğu bir çox hadisənin dəqiqləşdirilməsində əsas fakt rolunu oynayır.

Qaçaq mahnılarının xarakteri folklorik və özəlliklə də tarixi dəyəri haqqında salnamələr və xalq hərəkatı tarixçisi, folklorçu N.Aristovun 1875-ci ildə çapdan çıxan monoqrafiyası qiymətli bilgilər verir[143].

Bulqarıstanda və Serbiyada qaçaq-quldur mahnıları daha çox epik janra aid olub qaydukların (haydut) Osmanlı işğalına qarşı mübarizəsini əks etdirir. Rus qaçaq mahnılarından fərqli olaraq Balkan slavyanlarının mahnılarında qaydukarın müsəlmanlarla sərt rəftarı, onlara zülm etmələri, digər tərəfdən azadlıq mübarizəsi aparmaları ideallaşdırılır və "mələk savaşçılar" adlandırılır. Bu mahnılar XVI-XVII yüzüllərdən formalaşmağa başlamış XVIII əsrin ikinci yarısında isə özünün zirvə nöqtəsinə çatmışdır. Balkan slavyanlarının qayduk mahnılarının və dastanlarının əsas mövzularından biri də qaçaq-quldurların sosial ədalətsizliyə qarşı savaşmasıdır ki, bu mənada onları Azərbaycan qaçaq mahnıları ilə müqayisə etmək olar. Balkan slavyanlarının qayduk mahnıları həm yetərincə toplanmış, həm də araşdırılmışdır[144].

---

142 Сумцов Николай Федорович (1907). "Разбойничьи песни", Энциклопедический словарь Брокгауза и Ефрона. 86 т. СПб.

143 Аристов Николай Яковлевич (1875). Об историческом значении русских разбойничьих песен. Воронеж: Типография Н.Д.Гольдштейна

144 Болгарская народная поэзия (1953). Избранные произведения. Перевод с болгарского. А.Зобкович. Москва; Сербский эпос (1933). Редaktor и комментарии Н.Кравцова, Moskva-Ленинград; Шептунов И. М. (1951). "Болгарские хайдутские песни", Славянский фольклор. Материалы и

## 4.2. Azərbaycan qaçaq rəvayətləri, nəğmələri, deyimləri və nağılları

Sözlü və ya şifahi tarix keçmiş hadisələrin insan yaddaşına əsaslanan söyləmi olub şifahi şəkildə nəsildən nəslə ötürülən və sonradan yazıya alınaraq tarixi qaynaq kimi istifadə edilən yeni bir elm növü, konkretləşmiş variantda isə folklorun bir janrıdır. Hər nə qədər tarix elmi şifahi tarixin yazıya keçirilməsi ilə başlasa da bir elm növü kimi şifahi tarixin konseptual tərəflərinin öyrənilməsi son 50-60 ilin məhsuludur. Şifahi tarix rəsmi tarix anlayışını yenidən quran, xalqın qəhrəmanlarını yalnız liderlər arasından deyil, cəmiyyətin əksəriyyətini təmsil edən və o ana qədər bilinməyən insanlar arasından seçilən sadə adamların əhvalatları və hadisələrinin təhkiyəsidir. Tarix şüuru şifahi şəkildə cəmiyyətin iç dinamiklərini hərəkətə keçirir, rəsmi olanı cəmiyyətdən uzaqlaşdırır, rəsmi olmayanı isə özünküləşdirir. **Şifahi tarix zamanla miflərə, dastanlara, qəhrəmanlıq şeirlərinə, türkülərə, hekayətlərə, mənkabələrə, lətifələrə və atalar sözlərinə, əfsanələrə, ağılara mövzu olur, hətta rəsmi şəcərələrin yaranmasına qaynaqlıq edir**[145]. Qaçaq folklorunun yaranması da bilavasitə şifahi tarixlə bağlıdır.

Digər tərəfdən dünyanın hər yerində qaçaq folkloru tarixi həqiqətləri əks etdirən şifahi materiallardır. Qaçaq mahnılarına, rəvayətlərinə, dastanlarına, hətta nağıllarına baxaraq dövrün siyasi tarixini, sosial vəziyyəti, mənəvi-dini problemləri, milli oyanışı və s. öyrənmək mümkündür. Məsələn, Qaçaq Nəbi haqqında şifahi tarixin folklorlaşması misalında dövrün sosial-iqtisadi vəziyyətini öyrənmək mümkündür.

---

исследования по исторической народной поэзии славян. Москва: Акад. наук СССР. Труды Ин-та этнографии им. Миклухи-Маклая

[145] Bayat Füzuli (2010). Folklor haqqında yazılar (Nəzəri məsələlər), Bakı: Elm ve təhsil, s.171-172

Təbii ki, Qaçaq Nəbi haqqında bayatı, şeir, mahnı, nağıl və başqa materiallar XIX əsrin sonlarından toplanmağa başlanmış və bu tarixi, folklorik materiallar "Kafkaz" qəzetiində, XX əsrdə isə "Azərbaycanı öyrənmə yolu" məcmuəsində, sovet hakimiyyətinin qurulmasından sonra "Revolyusiya və kultura" jurnalında, "Ədəbiyyat qəzeti", "Azərbaycan kolxozçusu" kimi mətbuat orqanlarında çap olunmuşdur. Bu folklor materiallarının hamısında tarixi hadisələr əks olunmuş, yaxın tarix folklorlaşma prosesi keçirmişdir.

Şifahi tarixin materialları aradan keçən zaman içində rəvayətlərə dönüşür. Qaçaqlar haqqında yaranan rəvayətlərin ömrü dastanların ömründən daha uzundur. Belə ki, rəvayətlər yalnız qaçaqların fəaliyyət göstərdiyi bölglərdə deyil, daha geniş sahədə yayılmaq imkanına malikdir. Qaçaqlarla bağlı mahnılar isə daha çox qaçaqların doğub boya-başa çatdığı və mübarizə apardığı bölgələrdə yayılmışdı. Bunların böyük əksəriyyəti anonim olmaqla bərabər, söyləyiciləri məlum olanları da vardır. Məsələn, Naxçıvanda XIX yüzilin sonlarında qaçaqçılıq etmiş Mirzalı haqqında qəhrəmanın öz dilindən anonim mahnılar qoşulmuşdur. Bunlardan ən məşhuru onun ölümü ilə bağlı olan qoşmadır.

Çərşənbə günündə çıxdım səfərə,
İçdiyim şərbətim döndü zəhərə,
Qəfil güllərn dəydi Molla Cəfərə,
Deməyin meydannan qaşdı Mirzalı,
On arşın divarı aşdı Mirzalı.

Ağa qardaş qollarımı bağladı,
Şəmi vurdu, Şəmşimalı doğradı,
Nəsir ağa başa döydü, ağladı,

Deməyin meydannan qaşdı Mirzalı,
On arşın divarı aşdı Mirzalı[146].

Yenə Naxçıvan qaçaqlarından olan Sədərəkli Qaçaq Qorxmaz haqqında rəvayətlərlə, xatirələrlə, hekayətlərlə yanaşı şeir-nəğmələr də qalmışdır ki, bunlardan birini Ə.Cəfərzadə bir yazısında vermişdir:

Dalımca yeridi pristav, kazak,
Yoxdu bir kimsəmiz ərizə yazaq,
Qohumdan, qardaşdan biz düşdük uzaq,
Ağla Tellim, ayrılırsan elindən.
Tasma kəmər asılıbdır belindən.

Vermədi haqqımı İbrahim ağa,
Divanda üz gördü Aleksan dığa,
Çəkdilər sinəmi düyünlü dağa,
Ağla Tellim, ayrılırsan elindən.
Tasma kəmər asılıbdır belindən[147].

Əslində qaçaqlar haqqında söylənən nəğmələrin bir qismini el şairləri, bir qismini məşhur aşıqlar (məsələn, Aşıq Ələsgər) yaratmışlardır. Məsələn, Qarabağda Qaçaq Səfəralının qardaşı Qaçaq Rəşid haqqında o bölgədə məşhur olan şair və söz ustası Lotu Kərim və başqaları onun şəninə dastanlar, nəğmələr, şeirlər qoşub. Belə şerlərdən biri son dövrlərə qədər Yağlıvənd camaatının hafizəsindən silinməyib:

Bir yanım Arazdır, bir yanım ada
Rəşid dəstəsilə olub bəyzadə
Belə bir qəhrəman varmı dünyada
Qoy sənə desinlər, ay Qaçaq Rəşid
Səfəralı özündən ay qoçaq Rəşid

[146] Şamil Əli (2001). Dastanlaşmış ömürlər, s.9-10
[147] Cəfərzadə Əzizə (1970). "Aşıq şeri tərzində ictimai motivlər". Azərbaycan jurnalı, № 8, s.196

Rəşid deyir: Tərpənməyin, oturun
Çay içmirəm, samovarı götürün
Hadrut nəçənniyin söyün, ötürün
Qoy sənə desinlər, ay Qaçaq Rəşid
Səfəralı özündən ay qoçaq Rəşid[148]

Qaçaqlar haqqında məşhur aşıqlar da şeir demişlərdir. Məsələn, Dəli Alı haqqında yaranan şeiri Aşıq Ələsgərin söylədiyi hekayət edilir:

Gün kimi aləmi tutubdu adı,
İyidlər sultanı, xanı Dəli Alı.
Pirim – Şahi-Mərdan verib muradı,
Artırıb şövkəti, şanı Dəli Alı.

Götürüb süzəni, minəndə ata
Fələk əhsən deyir boya, büsata.
Nərə çəkib, təpinəndə saldata
Sel kimi axıdır qanı Dəli Alı

Namərdlər əlindən çəkirlər haşa
Namuslu iyidsən, səni yüz yaşa
Tüfəngin gülləsi işləyir daşa
Tək qaytarır yüz düşmanı Dəli Alı.

Dərs alıbdı o, Əliyyi-əladan
Xof eyləmir Xeybər kimi qaladan.
Gəzən zəlzələdən, yaman bəladan
Hifz eyləsin kərəmkanı, Dəli Alı

Məclisində duran canlar sağ olsun
Həmişə məclisdə bu damaq olsun
Sərdar bağışlasın, üzün ağ olsun
Sən sürəsən bu dövranı, Dəli Alı [149].

[148] modern.az/az/news/18577

Kəndli hərəkatının siyasi mübarizənin forması kimi sunulduğu bir zamanda qaçaqların çoxu haqqında sifarişlə dastanlar qoşuldu. Ona görə də qaçaq dastanları Azərbaycan folklorunda qaçaq rəvayətləri, mahnıları, bayatıları kimi geniş yayıla bilmədi. Hətta bəzi qaçaqlar haqqında 1920-30-cu illərin kitablarında məlumat qalmışdır. Salman Mümtazın "El şairləri" kitabında Qaçaq Yusif (xalq variantında Qaçaq Usuf) haqqında dastan olduğunu tədqiqatçının "Öysüzlü Qaçaq Yusifin dastanı"ndan verdiyi bir şeirdən öyrənirik:

Nahaq yerə bizi yazdılar qaçaq
Dağların başında biz olduq naçaq
Ad mənim adlanır, yoldaşım qoçaq
Yoxdur mənim bir imdadım, ağlaram.

Qismət buydu bizə, dağlarda gəzək
Zülümkar divana ərzələr yazaq
Bir iyidə insafdımı yüz kazaq
Yoxdu mənim bir imdadım, ağlaram.

Biz də endik dağdan, getdik Öysüzə
Quzu kəsib hörmət etdilər bizə
Çuğul getdi Hamasada kinyaza
Yoxdu mənim bir imdadım, ağlaram.

Öysüzün ətrafı çayırdı, çöldü
Usuf gəldiyini kafır nə bildi
Aslan qardaş getdi, yoldaşım öldü
Yoxdu mənim bir imdadım, ağlaram[150].

Bu nəğmə görünür sovetlərin ilk illərində xalq arasında oxunduğundan və məşhur olduğundan S.Mümtazın da diqqətini çəkmişdir.

---

[149] Aşıq Ələsgər (2004). Əsərləri, s.92
[150] Mümtaz Salman (1936). El şairləri. II c. Bakı: Azərnəşr, s.75

Yenə XIX yüzilin 80-ci illərindən qaçaqçılığa başlayan və nəinki Azərbaycanda hətta İranda, Rusiyada, Ermənistanda, Gürcüstanda məşhur olan Qaçaq Kərəm haqqında da çox sayıda nəğmə qoşulmuşdur. Bunlardan birini Həmid Araslı kitabında vermişdir:

**Kərəm:**

Mən ki, gəldim bu dünyaya
Aləmi saldım ah-vaya
Səfərim var Kərbəlaya
İncitmə məni, Zalı xan.

**Zalı xan:**

Namərd igiddə ar olmaz
Qabaq söyüddə bar olmaz
Bu libasda zəvvar olmaz
Söyləyirsən yalan, Kərəm[151].

Bütün bunlara baxmayaraq çoxu süni də olsa qaçaq dastanları şifahi tarix və rəvayətlər əsasında formalaşmışdır. Ortaya sovetlərə qarşı savaşan yeni qaçaq dəstəsinin girməsiylə də vəziyyət daha da ağırlaşdı. Buna baxmayaraq qaçaqların yaxın qohumları, həmkəndliləri onların əhvalatlarını günümüzə qədər qoruya bildilər. Ancaq bütün bu əhvalatlar zamanla anoxronizmə uğramış, bir çoxları bir-birinə qarışmışdır. Məsələn, Yardımlıda XX yüzilin başlarından 30-cu illərə kimi qaçaqçılıq edən Xankişi, Cankişi qardaşdarı Masallı qaçaqları, Güdələr isə Yardımlı qaçaqları kimi iki ayrı dəstə, iki ayrı insan kimi təhkiyə edilmişdir.

Əslində Xankişi, Cankişi qardaşları məşhur Yardımlı qaçaqlarından olub, boyları qısa olduqları için Güdələr adı ilə məşhur olmuşlar. Onlar Yardımlının Hanuba kəndindən olub bir qan davası nəticəsində Çar Rusiyası zamanında qaçaq dü-

---

[151] Araslı Həmid (1960). Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, s.91

şüblər və Azərbaycanda sovet hökuməti qurulanda qaçaqçılıqdan əl çəkməyiblər. Bəzi məlumatlara görə 1928-ci ildə Çanaxbulaq kəndində gedən döyüşdə məğlub olaraq o zamanın digər məşhur qaçağı olan Qaçaq Həsənlə bərabər İrana keçiblər. Qaçaq Cankişi və Qaçaq Həsən 1950-ci illərə qədər İranda yaşayıb orada da ölüblər[152]. Bu faktları Yolucaq kəndindən olan söyləyicilər ki, onlardan ikisi Xankişi-Cankişi qardaşlarının bacısı ilə evlənmiş Yoluçaqlı ağsaqqal Cəbi və Kamil (Cəbi öldüktən sonra onun əmisi oğlu Kamil Xankişi-Cankişi qardaşlarının bacısı ilə evlənmişdir.) kişinin qohumlarıdır, təsdiq etdilər. Buna baxmayaraq Masallının Qəriblər kəndindən bir söyləyici[153] qaçaqlarla bağlı əhvalat danışarkən qarşdıraraq Xankişi ilə Cankişini Masallı qaçaqları, Güdələri isə Yardımlı qaçaqları kimi təqdim etmişdi, ancaq iki gündən sonra təkrar eyni əhvalatı yazıya aldıqda xatırlayaraq bunların eyni adamlar olduğunu bildirdi və mətni yenidən danışdı.

Bəzi qaçaq əhvalatlarını süjet xəttinin macəravari olmasına, personajların tipikləşməsinə və motivlərin çoxluğuna görə nağıl adlandırmaq mümkündür. Məsələn, Qaçaq Məmmədlə bağlı bu nağılda İrandan Qarabağa iş tapmaq üçün gələn bir kasıbın macəraları, sonradan Məmmədin ona verdiyi pulla ailəsinin yanına qayıtması, Qaçaq Məmmədin də uzun müddət Qarabağda Nikolaya qarşı vuruşması, ancaq çarın ordusunun onun dəstəsini dağıtması və Məmmədin İrana getməyə məcbur olması nağıl edilir. Onun arvad-uşağı da bundan xəbərsiz İrana keçir. Məmməd İranda çox kasıb güzəran keçirir. Tikan yığıb satmaqla məşğul olur. Sonradan tacirin onun arvadını sahibindən alıb yanına gətirməsi, ona oğlunu verməsi, böyük bir ev tikdirməsi, Qaçaq Məmmədi də tapıb arvad-uşağına qovuşdur-

---

[152] Səlimzadə Əkrəm, Nurəliyev Rzabala (1989). İz itmir. Bakı: Yazıçı

[153] Söyləyici: Maarif Əliyev, doğum tarixi 1949, təhsili natamam-ali, Masallı rayonu Qəriblər kəndi. Toplayan: Füzuli Bayat 2013

ması şəklində davam edən nağıldan aydın olur ki, tacir bir vaxtlar Qaçaq Məmmədin yanında qalmış kasıb İranlı imiş. Nağıl xoşbəxt sonluqla bitir[154].

Qaçaq rəvyətləri, memoratları, nağılları mövzusuna görə aşağıdakı kimidir.

## 4.3. Qaçaq folklorunun mövzu dairəsi

### 4.3.1. Varlıdan alıb yoxsula vermək

Burada qeyd etmək lazımdır ki, qaçaq hekayətlərinin iki-üç başlıca mövzusundan biri onların igidliklərini öyən, ədalətindən danışan, varlılardan alıb və ya oğurlayıb xalqa verən əhvalatlarla bərabər biri də qaçaqların namus məsələsində çox həssas olmalarıdır. Varlılara qənim kəsilən qaçaqlar bir qayda olaraq özləri də ya nökərçilik etmiş, ya da muzdla varlının tarlasında işləyən kəndlilər idi. Neftçalanın Xolqaraqaşlı kəndindən toplanmış, ancaq toplayıcı tərəfindən dili bədiləşdirilmiş, yersiz əlavələr edilmiş, təbiət təsvirləri verilmiş bir qaçaq əhvalatında deyilir ki: “Mən sizə babamın danışdığı əhvalatdardan birini danışacam. Babam diyərdi ki, bu əhvalatı ona da atası danışmışmış. Diyilənnərə görə, bu yerlərdə Qaçağ Səfər adında qoçaq bir adam varmış. Qaçağ Səfərin adı gələndə beşiydəki körpələr də tir-tir əsərmişlər.

Muğan elatının hampaları Qaçağ Səfərin əlinnən göz açıb gün görə bilmirdilər. Günün günorta çağı Səfər qoyun sürülərini yarılayır, davarları qoolayıb aparar, Arazı o taya addıyardı. Ö, qənimətini Arazın o tayında xırıd eliyib geri qayıdar, qazandığını özü kimi yoxsulların arasında bölərdi. Səfərnən hökumət adamları da bacara bilməzdilər. Çünki ətrafdakı

[154] Azərbaycan folkloru antologiyası (1994). Naxçıvan folkloru. I Kitab. Tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı. Bakı: Sabah, s.89-91

yoxsullar Səfəri qoruyar, bərk ayağda gizlədərdilər. Bir sözlə, Qaçağ Səfər Muğan elatının varlılarına qənim kəsilmişdi. Əgər oların diliynən desək, "Allah-taala Səfəri onlara bəla göndərmişdi". Qaçağ Səfərin heç kimnən çəkər-pekəri yox iydi".

Xalqın hörmətini qazanmış haqlarında nəğmələr qoşulmuş, rəvayətlər söylənmiş, nağıllar danışılmış Azərbaycan qaçaqları, əsasən varlıları talan edən aşağı sinif nümayəndələridir. Bu o varlılardır ki, hökumətlə əlbir olub öz həmkəndlisini incidir, işlədiyinin haqqını vermir, hətta yoxsul kəndlilərin canlarına da qəsd edirdilər. Masallıda Xoççobanlı və ya bəzən də Təklə kəndindən olduğu söylənən Qaçaq Mozu varlıdan alıb yoxsula verən qaçaqların tipik örnəyidir.

"Qaçaq Mozu yoxsullarin pənahı olub, varrıların düşməni, yəni olarnan işi olmıyıb. Nəsrullah uşağı olub burda, iki qardaş. Olar bəy olublar, varlı olublar. Qaçaq Mozu da onnaların mallarını oğurrayıb yoxsullara dağıdırmış. Bəylər də hampalar da ona bir şey deyəmmirmişdər.

Qaçaq Mozunun bir xüsusiyyəti vardı. O qədər cəsur oğlan olub o. Atın yalmanına yatırdı. At sürətnən gedəndə, o da o sürətnən gedirmiş, çox çevikmiş. Rəşid dayim var idi, qozdəstələrinnən biri idi. Dayım deyirdi bizi o tayda tutdular. Cənubi Azərbaycanda. Tutdular dəyiş düyüş elədilər, bu tayda tutulan yolkəsənlərlə. Mən də Mozunun dəstəsindəydim. Bizi gətirəndə o zaman camaat yığışmışdı ki, görək bu Mozu nə cür adamdı?

Bu Lənkəranda gəmi gəlib dayanıb portda. Camaat da yığışıb nə qədər, baxsınnar ki, Mozu nə təər adamdı. Orda biz düşəndə baxıb elə biliblər ki, Mozu mənəm. Cüssəli, gollu güvvəli olduğuma görə. Mozu da qayıdır ki, ay camaat elə bilirsiz ki, Mozu budu? Mozu mənəm eeee. Deer qamçıya bən-

zər bi adam idi, ariğ, cüssəsiz, sütül bi oğlan idi Mozu. Bunu onun qoçularınnan biri danışıb mənə”[155].

Naxçıvanda fəaliyyət göstərmiş qaçaqlar haqqında Ə.Şamilin “Dastanlaşan ömürlər” adlı kitabında çox sayıda rəvayətlər, şeir parçaları verilmişdir. Unudulan və unudulmaqda olan qaçaqlar haqqında məlumat verən bu kitabda Qaçaq Qorxmaz adı ilə məşhur olan Sədərəkli bir qaçağın Koroğlunun bac almasına bənzər bir iş gördüyü məlum olur. Qaçaq Qorxmazın kimliyi haqqında yazılan bir yazını “Dastanlaşan ömürlər” kitabından alaraq veririk: “Qorxmaz elə bir igid idi ki, gördüyünüz dağlara onun qorxusundan quş da səkə bilməzdi. O, illərlə bu dağlarda yaşadı, kasıblara əl tutdu, varlılara qan uddurdu. Ayrı-ayrı yerlərdən Naxçıvana, Ordubada, Şərura və Dərələyəzə gəlib keçən xan, bəy və tacir karvanlarının qabağını kəsir, əldə etdiyi qəniməti yaxınlıqdakı Azərbaycan və erməni kəndlərinin yoxsullarına, məzlumlarına paylayırdı. Yadıma gələni azı on dəfə Şərur pristavı onun üstünə atlı kazaklar göndərdi. Hər dəfə Qorxmaz qalib gəldi, ələ keçmədi. Az müddətdə bu igid qaçaq özünə yaxşı dostlar tapmışdı. Sədərəkli Keçəl Rəsul, Məşədi və Qara onun sınanmış silahdaşları idilər”[156].

Varlıdan alıb kasıblara vermək qaçaqçılığın başlıca xüsusiyyətidir ki, daha çox qaçaq dastanlarında rast gəlinir. Məsələn, həm “Tanrıverdi”, həm də “Qara Tanrıverdi” variantlarında mövcud olan dastanda qəhrəmanın əsas vəsfi ağanın, bəyin, koxanın mal-mülkünü alıb yoxsullar arasında paylaşdırmaqdır. Eyni ilə Molla Nur da çar məmurlarının, bəylərin topladığı vergiləri alıb yenidən kəndlilərə qaytarır, kəndliləri talan edən ağaların mallarını alıb bərabər şəkildə kəndlilərin

---

[155] Söyləyici: Vasif Alışov, doğum tarixi 1953, təhsili orta, Həsənli kəndi Masallı rayonu. Toplayan: Füzuli Bayat 2013

[156] Şamil Əli (2001). Dastanlaşan ömürlər, s.62

arasında bölür. Varlılardan alıb kasıblara vermək Qaçaq Nəbidə, Qaçaq Kərəmdə də var.

### 4.3.2. Düşmənə qarşı da mərdlik

Neftçalanın Xolqaraqaşlı kəndindən olan Qaçaq Səfərin uzun hekayətinin davamında Qaçaq Səfərin ən qatı düşməni olan bir bəyi namərdliklə öldürmək istəyənlərdən qurtarması təsvir olunmuşdur. Söyləyicinin dediklərinə görə Qaçaq Səfər Çöl Xırmandalı əhli Muxtar bəyin yeganə oğlu Səyəvuş bəydən çəkinərmiş. Bir atışmada Səyəvuş bəy tərəfindən yaralanan Qaçaq Səfər ondan intiqam almaq üçün fürsət gözləyir. Hekayətin davamını qısaldaraq veririk: "Qaçağ Səfər Biləsuardakı çobannardan Səyavuş haqqında məlumat öyrənmişdi. Atını çobannardan birinə tapşırıb, "Üç məzar"a tərəf piyada yola başladı... Qaçağ Səfər "Üç məzar"a çatanda artığ hava qaralmışdı. O, əvvəlcə Biləsuardakı çobannardan öyrəndiyi kimi Səyavuşun çadırına tam etinasız halda yaxınnaşdı. Çadıra az qalmış sürünə-sürünə hündür otların arasında gizzəndi və pusmağa başladı. Çox keçmədi ki, Səyavuş bəy... qayıdıb gəldi. Atdan endi...atın buxovladı. Buxovun açarın çadırın sol tərəfindəki ətəyin qaldırıb içəri qoydu. Çadırın ətrafına bir neçə dəfə uzun nəzər salıb, çadıra daxil oldu. O, bir də bayıra çıxmadı. Qaçağ Səfər bir sahata qədər gözzədi. Səyavuşun çadırdan çıxmadığın görüb, ağır-ağır çadıra tərəf süründü. O, fikirrəşirdi ki, açarı götürüb atın buxovun aşsın, atı götürüb qaşsın. İmkan tapsa, Səyavuşu öldürsün. Səfər bu fikirlə çadırın lap yanına süründü... Siyavuşun açarı qoyduğu yerdən çadırın ətəyini qaldırdı. Həmin hissədə yatacağ paltarı – məfrəş yığılmışdı. O, məfrəşin arxasında gizzəndi. Əlini sürtə-sürtə buxovun açarın tapdı. Əvvəlcə çıxıb atı açıb aparmağ istədi. Lakin marağ onu çadırın içinə baxmağa məcbur elədi... Çadı-

rın tavanınnan ağ nöyüt lampası asılmışdı. Ortada Səyavuşun arvadı oturmuşdu. Səyavuş çox yorulduğunnan başını arvadının dizi üssünə qoyub yatmışdı...

Səfər ehtiyatnan çadırın ətəyin qaldırıb, bayıra sürünməy istiyəndə... çadırın qapısındakı xalı aralandı. Naməlum bir əl uzun ciyəni çadırın ortasına atdı. Bir ucun ilgəy qayırdı... Səyavuşun arvadı həmin ciyəni tez götürüb Səyavuşun boğazına keçirtdi. Ciyənin o biri ucun çadırdan qırağa tullayıb dartmağ işarəsi verdi. Ciyə dartıldı. Səyavuşun gözzəri kəlləsinə çıxmışdı... Bu hadisə... Səyavuşdan intiqam almağ isdəyən Səfərin vijdanın alovlandırdı. O, alıcı quş kimi çadırın ortasına atıldı, kəmərindəki xəncəri çəkdi, tarımlanmış ciyəni kəsdi. Sol əliynən Səyavuşun boğazın sıxan ilməyi boşaltdı. Bir azdan Səyavuş gözün aşdı, başının üssündə düşməni Qaçağ Səfəri gördü. Səyavuş arxasıüssə uzanmış halda minnətdarlığnan Səfərə baxırdı... Bir az əvvələ qədər düşmən olan adamlar indi doğma və əziz dost kimi bir-birinə baxırdı...

Siyavuşun arvadı qorxusunnan tir-tir əsir, yerinnən tərpənmirdi. Səfər gördüylərinin hamısın Siyavuş bəyə danışdı”[157].

Qaçaq əhvalatlarının əksəriyyəti şəxsiyyətin bütövlüyü məsələsinin qabardılmasına həsr olunub. Xalq üçün qaçağın namuslu, vicdanlı, ədalətli, gözü tox olması əsas şərtdir. Bir qaçağı xalqın gözündə ucaldan da onun elin qız-gəlininə yan baxmamasıdır. Türk millətinə xas olan əxlaqi keyfiyyət qaçaq hekayətlərində də dəyərləndirilən keyfiyyətdir. Məsələn, Masallı rayonunun Xırmandalı kəndindən olan sovet qaçağı Paşa kişi haqqında deyilənlər onun əxlaqi özəlliyinin yüksək olmasını göstərir. Baxmayaraq ki, Paşa kişi kolxozun anbarının damını söküb oradan buğda oğurlayır, qumar oynayır, ancaq in-

[157] Söyləyici: Qüdrət Əzizov, doğum tarixi 1925, təhsili alı, Xolqaraqaşlı kəndi, Neftçala rayonu. Toplayan: Təbiət Abdullayeva

sanların malına-mülkünə toxunmur, düzlüyü sevməsi, namuslu, ədalətli olması ilə seçilir. İkinci Cahan savaşı başlayanda hökumət Paşa kişini əhv edir, hətta ona beşatlan verərək, müharibədən qaçanları tutmağı tapşırır. O, bu vəzifəni yaxşı yerinə yetirdiyi üçün təltif də edilir. Söyləyici bununla bağlı anlatdığı bir əhvalatda Paşa kişinin arvadı hamilə olan və Allahdan başqa heç kimi olmayan bir əsgər qaçağını tutmadığını bildirərək hekayəsinə belə davam etdi: "Nəisə üssünnən dörd-beş gün keçdi, səhər-səhərdi, atı minmişəm. Hələ hava tam işıxlaşmıyıb. Gedirəm deer. Yer də deer əl naziklikdə buzdu. Atı sürdüm bizdə cay var Adıgözəldi adı, ora. Helə ora az qalmışdım, gördüm bi dənə atlı qabağında bi arvad gətirir. Arvad da buracağ tumanının ətəyini, tutub əlində gəlir. Yer buz, deməynən üçüncü gündü azad olubmuş. Mən də deer ayrı yerə getmişəm qacağ tutmağa. Bılardan xəbərim yoxdu. Hə bi də gördüm atın qabağında Mirzə.

– Ayə bu nədi, dedim.

Ağlım başımnan çıxdı. Ayə bı nağayrır? Gəl ha gəl, gəl ha gəl gördüm əəəəə bu həmin qadındı. Suyu keçdim.

Dedim:

– Əəəə bu kişilikdəndi? Bu arvadı neynirsən, sənə deyiblər kişini tut, bu arvadı neynirsən.

Deer dedi:

– Əmi belə başaa dönüm, ayağıın altında ölum sən də məni bağışda üç gündü azad olmuşam.

Dedim:

– Ə sən nə təhər adamsan.

Bunu deer hərbələdim. Qolumun pencəyini belə elədim ki, əli əlimə dəyməsin. Bala Allahın da yanında üzüm ağdı, bəndənin də, pencəyimi belə elədim, dedim bala yapış mənim əlimnən. Yapışdı burdan deer götdüm atdım atın tərkinə. Ata bi qırmanc, aman şəkmədi ki, hazır olduğ bunnarın haya-

tında. Hey deyərdi bala, o uşaxların səsi mənim qulağımnan getmir. Biri üç yaşında, biri üç gündü doğulub. İkisi də nətəri ağlaşır, mələşir. Uşağın səsi beynimə girdi.

Dedim:

– Tfuuu nəhlət olsun sənə, sən nə yava adamsan.

Bala, düş atdan, bıni düşürtdüm.

Mirzə bunu görəndə:

– Paşa, səni tutduracam dedi.

Getdim deer Masallıya rayona, gördüm ordadı. Gördüm oturub mənnən döşüyur. Mən əhvalatı olduğu kimi də danışdım böyügümüzə. Danışan kimi naçannik qalxdı yerinnən, hax-tfuu üzünə. Hec ölürsən? O nədi əəəə iki körpənin sən anasını gətirirsən mənə təhvil verməyə, salaq türməyə, o iki körpəyə kim baxacaq?”[158].

Şifahi tarixin qaçaqlarla bağlı yaratdığı hekayətlər yeni bir janrdır. Bu, yazılı ədəbiyyatın hekayə anlayışından fərqli olaraq qaçaqlar haqqında məhrəm bir mühitdə, sosial baxımdan bir-birinə yaxın insanlar və ya qruplar arasımda danışılan şifahi hekayədir. Ona görə də onlara hekayə deyil, hekayət dedik. Qaçaq hekayətləri əslində bu hərəkatın başlandığı andan yaranmağa başlamışdır. Hər yerdə danışılması mümkün olmayan bu hekayətlərdə qaçaqların qəhrəmanlıqları folklorlaşdırılaraq təhkiyə obyektinə çevrilir. Beləliklə, bədii-estetik dəyərli yeni şifahi hekayə janrı yaranmış olur. Belə hekayətlər bir zamanlar Bakıda geniş yayılan qoçular haqqında da söylənirdi. Bəzi iri yaşayış yerlərində məhəllənin namusunu qoruyan, özünəməxsus məhəllə qanunları qoyan gənc dəliqanlılar haqqında anlatılan hekayətlər də vardı. Buraya məşhur xalq pəhləvanları haqqında yaranan hekayətləri də əlavə etmək

---

[158]Söyləyici: Mədinə Həsənova, doğum tarixi 1941, təhsili natamam orta, Masallı rayonu Xırmandalı kəndi. Toplayan: Füzuli Bayat 2013

olar. Təəssüf ki, şifahi hekayə janrı heç vaxt Azərbaycan folklor elminin predmeti olmamışdır. Ancaq təhkiyənin hekayəçilik ənənəsi bizim folklorda ən azından iki yüz ilə yaxındır ki, mövcuddur.

### 4.3.3. Oğurluq

Qaçaq hekayətləri çar üsul-idarəsinin sovet rejiminə dəyişməsi ilə zəifləmə dönəminə girdi. Çünki qaçaqlar adı altında həm də mövcud sovet rejiminə qarşı dirənənlər də anlaşıldığından ümumən bu hekayətləri hətta çar rejiminə qarşı olsa da daha dar ortamda söyləməyə başladılar. Dar ortamda söylənə-söylənə bu günə qədər gəlib çatan qaçaq əhvalatlarından öyrənirik ki, hekayə qəhrəmanlarının bir çoxu yoxsullaşmış kəndlilər deyil. Çünki çar rejiminə qarşı çıxan yoxsul kəndlilərdən fərqli olaraq sovet qaçaqlarının çoxu varlı, mülkü əlindən alınmış bəylər, ortabab kənlilər idi. Buna baxmayaraq istər Çar Rusiyası qaçaqları, istərsə də sovet qaçaqları olsun, istər yoxsul olsun, istərsə də ortabab olsun onların haqqında xalqın anlatdığı ən tipik hekayət hər birinin məşhur oğru olmasıdır. Oğrular dövlət qanunlarına paralel, fərqli prinsiplərlə yaşayan, fərqli prinsiplər uğrunda mübarizə aparan şəxslərdir. Dövlətin qoyduğu qanunları tanımır, daha çox özlərinin tərtib etdikləri qanunlara istinad edir, onlarla hökm verir, onlara görə yaşayırdılar. Qaçaqlar bu günkü mənada qanuni oğru (və ya qanun oğrusu) olmayıb, onların oğurluğu varlılardan qan tökmədən xərac alma üsuludur ki, XIX-XX yüzillər qaçaqçılığında geniş yayılmışdı. Məsələn, Gəncəbasar bölgəsində Qaçaq Tanrıverdi, Hacı Nağı, Masallıda Qaçaq Mozu, Qaçaq İbad, Qaçaq Paşa, Yardımlıda Güdələr və b. varlıdan və ya dövlətdən oğurlayan məşhur qaçaqlardır. Masallıda həm Qa-

çaq Mozu, həm Qaçaq İbad haqqında hətta həbisxanada yata-yata oğurluq etdikləri haqqında hekayətlər nəql edilir.

"Sizə deyim Qacax Mozudan. O bizim Təklə kəndi var, orda yaşıyıb. Çox qoçaq, məşhur qaçaq olub bizim zonada. Deməy bu pristavlar-zaddar bunun əlinnən zara gəliblərmiş. Hətta buları həbsxanıya da salanda, geceynən həbsxanadan qaçıb, gedib oğurruğ eliyiblərmiş, sora genə gəlib içəri girə biliblərmiş. Səhər deyəndə ki, nəçənnik, Mozu gəldi bizi taladı, deyərmişdər ki, a kişi nə danışırsan Mozu ode icəridədi. Bizim sərəncamımızdadı. Axı onu burdan heç yana bıraxmamışığ, siz deyirsiz Mozu oğurruğ eleyep. Bax, Mozu elə Mozuymuş"[159].

Buna bənzər bir əhvalatı da Masallının Hacıtəpə kəndindən olan Qaçaq İbad haqqında danışırlar. Qaçaq İbad çar zamanında, daha dəqiq XIX yüzilin sonlarından XX yüzilin 30-cu illərinə qədər, Masallının Muğan tərəflərində fəaliyyət göstərmiş məşhur qaçaqlardan biri olub: "Belə nağıl edirlər ki, bir gün Çar hökumətinin Malağan (indiki Kalinovka) kəndində oturan polis naçalniki Qaçaq İbadı tutub salır dama. Onun haqqında şikayətdən bezən naçalnik deyir ki, damda onun yanında özüm oturacağam. Görüm necə oğurluq edəcək bu sizin İbad. Bəli, kişini dama salıb oturur özü də keçik çəkməyə. O vaxt elektrik işığı da yox idi, ona görə də günəş batan kimi hər tərəf olur zülmət qaranlıq.

Sən demə qoçağım İbadı tutub bura gətirəndə yolda bir neçə at görür və öz-özünə deyir ki, gərək o atları aparam. Atlar da kimin ola, Qızılağac camaatının.

Bəli, Qaçaq İbad damda yatır, fikri isə atların yanında. Necə eləsin, necə eləməsin, buradan çıxsın. Əlqərəz kişi necə eləyir, kimi aldadır, kimi qorxuzur, heç kəs bilmir, amma gecə-

[159] Ağababa Abbasov, doğum tarixi 1926, təhsili orta, Təklə kəndi Masallı rayonu. Toplayan: Füzuli Bayat 2014

nin bir vaxtı damdan çıxıb üz qoyur həmin atları gördüyü yerə. Od kimi atları tutub üz qoyur Ərkivan tərəfə. Orada adamları varmış, atları onlara verib ki, ötürsünlər İran səmtə. Kimlə gəlir, nə ilə gəlir, yenə heç kəs bilmir, gəlib oturur damda.

Səhər naçalnik tezdən durub görür ki, Qaçaq İbad dəstəmaz alır, namaz qılmağa hazırlaşır. Sakit olur ki, şükür olsun, İbad bir ziyanlıq eləməyib. Az keçmir Qızılağac kəndindən bir neçə adam gəlib naçalnikə şikayət edirlər ki, İbad bizim atları oğurlayib. Naçalnik bu şikayətçilərə qəzəblənərək İbadın bu axşam damda, onun nəzarəti altında qaldığını deyir. Beləliklə, Qaçaq İbadın oğru olmamasını yəqinləşdirərək qapını açaraq onu azad edir”[160].

Qaçaq folklorunun epik janrları hər nə qədər mövcud ənənəvi folklor modeli üzərində formalaşsa da burada E.Hobsbawmun “social bandits” nəzəriyyəsi üçün təsbit etdiyi doqquz özəllikdən[161] ən azından yeddi-səkkizinin mövcud olduğunu görmək mümkündür ki, bunu toplanan materiallar da sübut edir.

İctimai qaçaqların bəziləri xalqın təxəyyülündə zamanla romantikləşərək məşhurlaşmışlar. Burada cinayət işləyən, zorakılıqla mal-mülk əldə edən və quldurluğu qazanc mənbəyi kimi görən qaçaqlardan söhbət getmir. Söhbət xalq kütləsinin maraqlarını müdafiə edən, hakim dairələrə qarşı savaş açan namuslu qaçaqlardan gedir. Folklor mətnlərinin qəhrəmanları da bu ikincilərdir. Qaçaqlar oğurluq etsələr də bu işdə onlara kömək edənləri ələ vermirlər. “Mirzalı və 2 nəfər qeyri-şəxslər gedirlər Kucazur kəndinə və orada kilisəni yarıb, şeylərini götürür, bir yerdə basdırırlar bunu. Öz qonşularından görüb, divana məlum edirlər. Bu halda, bunları tutub aparırlar Naxçıvana.

---

[160] Baxış Əlizaman (2010). Hacıtəpə. Keçmişdə və indi, Bakı, s.191-192
[161] Hobsbawm Eric J. (1997). Eşkıyalar, s.34-35

Burada Mirzalı deyir yoldaşlarına ki, siz boynunuza almayın. Siz yazıxsız, külfət sahibisiniz, mən özüm boynuma alacağam.

Silistçi sual edəndə Mirzalı boynuna alır. Onu salırlar Naxçıvan qəzəmətinə. Bir neçə müddətdən sonra, bu, fürsət tapıb, sıçrayır barının üstünə və oradan yerə. Bu cürətə görə, əhli Naxçıvan ona "Quş Mirzalı" ismi verir"[162].

Zamanla "social bandits" nəzəriyyəsi daha da genişlənərək dəniz quldurlarını (korsanları), yol kəsənləri də içinə aldı. Folklorda bu yeni baxış açısı bütün dünyada sevilərək anlatılan korsan hekayətlərindən tutmuş, qaçaqlara qədər geniş bir sahəni əhatə etdi. Folklorun araşdırma sahəsi genişlədi və XIX əsrdən başlayaraq çar üsul-idarəsini məşğul edən qaçaqçılıq hərəkatı ətrafında yaranan şifahi kültür məhsullarının təbiətini öyrənməyə yardım etdi. Miflər itirilən mənəvi dəyərlərin, ədalətin mühakiməsinin, hakimlərin saxtakarlığının sona erdiyini, bunlarla mübarizə aparan yeni sosial qəhrəmanın tarix səhnəsinə çıxdığına şahid oldu. "Social bandits" qavramı milli mücadilə aparan, inqilabçı liderləri də əhatə etməyə başladı. Ancaq Azərbaycan şəraitində qaçaqçılıq dedikdə, hökumətdən, onların qanunlarından qaçaraq dağlara çıxan ədalət savaşçısı nəzərdə tutulur. Bu tarixi şəxsiyyətlərin çoxu haqqında yaranan mahnılar, rəvayətlər zamanla dastana dönüşdü. Bir çoxları rəvayət, mahnı, şifahi tarix şəklində də qaldı.

### 4.3.4. Öldürülən qaçağın intiqamının alınması

Qaçaqçılığın şərtlərindən biri də silahsız düşməni öldürməmək, ölən başçılarının və ya yoldaşlarının intiqamını almaqdır. Qaçaq rəvayətləri içində qaçaqların mərdliyi, kişiliyi ilə bağlı əhvalatlar da xüsusi yer tutur. Bunlardan birində silahsız

[162] Azərbaycan Folkloru Antologiyası (2009). XIX Kitab. Zəngəzur Folkloru. II cild. Tərtib edənlər: H.İsmayılov, R.Təhməzoğlu, Ə.Ələkbərli. Bakı: Nurlan, s.356

düşməni öldürməməklə bərabər, onu namərdliklə öldürən yoldaşını dahi acımamaq kimi hadisələr üzərində qurulmuşdur:

“O vaxtı qərbi Azərbaycanda Qaçax Kərəm olub. Bu da çox addı sannı və cəsarətli bir adam olub. Bunun bir Bağır bəy adlı düşməni varmış. Qan düşməni imişlər. Bir-birlərini axtarırmışdar ki, kim kimin əlinə birinci düşsə o, onu vuracağ. O yerə qədər düşmən imişlər. Bir günnərim bu 70 nəfər dəlisiynən gedirmiş. Bu qabağda atnan gedər, o 70 nəfər də bunun dalısıycan. Gəlib çıxır bi yerə, Qaçaq Kərəm, görür ki, aaa Bağır bəy dəsmalın çıxarıb bağlıyıb başına, ağ köynəyini də belinə bağlıyıb, əlində çin, biçin biçir. Tüfəngi çıxardır buna atsın deyir yoox, bu kişiligdən döör. Mənim əlimdə tüfəng var, onun əlində çin var. Bunu burda vursam, nakişiligdi. Gəlir deyir Bağır bəy salam əleyküm. O da bunu görən kimi bir həyəcan keçirir ki, indi bunu vuracağ. Bu da heç özünü biruzə də vermir. Deer:

– Əleyküm salam.

Deer:

– Bərəkətdi olsun.

Atın sürür gedir, bu 70 nəfər də bunun ardınca. Bu qaçaxların içində bir dənə Tat Əhməd varmış. Lap axırdaymış Tat Əhməd, dalda gəlirmiş. Gəlir görür aa Bağır bəy burda biçin biçir. Yəğin ki, qoçu bunu görmüyüb. Çıxardır tüfəngini tarapp bi güllə buna. Bu da 70 atlıynan hardasa bir 700-800 metrə o yana uzağlaşıbmış. Həmən güllə səsinə qayıdır. Qovur atı, görür ki, Bağır bəy qan içindədi. Tez gəlir bunu qucağlıyır, deer:

– Ə bunu kim vurdu belə?

Tat Əhməd deyir:

– Qoçu, mən vurdum.

Deer:

– Ə, namərd, adam da adamı çörəy üstə vurar? Çıxardır mozerini bi güllə ona. Əhmədi oldürür. Bağır bəy də görür ki, məni vuranı öldürdü. Sora götürür onu qucağına deyir:

– Bağır bəy, mən səni nə Tiflisə çatdıra bilərəm, nə də Gəncəyə, bə neyniyim?

Bağır bəy deyir:

– Mən sənin mərdliyüvü gördüm, sən mənə orda Allah qüvvət vürsin deyib getdün. Məni öldürəni də gözümün qabağında öldürdün. Sən çıxart o mozeri bi dənə də, mənə vur. Qoy mən Tat Əhmədin gülləsiynən ölmiyim. Qoy desinnər ki, Qocu Kərəmin gülləsiynən öldü. Kişi gülləsiynən öldü.

O da çıxardır bi güllə vurur bina”[163].

Qaçaqlar öz liderlərinin intiqamını heç vaxt yerdə qoymurlar. Namərdliklə öldürülən qaçaqbaşınnı intiqamını almaq qaçaqçılığın yazılmamış qanunudur. Bu əhvalata aşağıda bir örnəklə toxunmaq istəyirik:

“Əmirastana yaxın düşə bilmir Savet. Ə, bunu nağayrax? Bu Göyəllidə bir sarsax nəsil oluf. O sarsax nəsillə əlaqəyə giriflər ki, bunu görün nağayrersınız. Bu ermənin qurğusu hər yerdə keçer. Bizim Haçadan anrı Kığlı deellər. Erməni orda dəyə tikif, mal saxleerdı. Əmirastan da bunun birinnən dost oluf. Bunun yanına gedif, həməşə buna çörəy verirmiş. İndi savetin çekistləri deer ki, ə, köpöyoğlu, başın ya fərmandadı, ya Əmirastanı öldüröjöhsən. Əmirastan gəler bu ermənin yanına, heyvan kəsiler, kavaf gəler. Gətirer bu erməni behişdər tökör kavava. Əmirastan yatanda Əmirastanı bax orda öldüröllər.

Quləm mənə söylədi. Mənim indi səhsən yaşım var, Quləm mənə yetmiş il bundan qavax söylüyüf. O vaxdı Qazağa tabeymiş bura. Həmən Əmirastanı öldürtdürən adamları aparel-

---

[163] Şirvan Əbilov, doğum tarixi 1932, təhsili ali, Masallı rayonu Mahmudavar kəndi. Toplayan: Füzuli Bayat 2013

lar o yal dağa. Deer, bildih ki, düşmənimiz kimdi, Əmirastanı öldürtdürən kimdi. Gəldih deer, oları allatdığ ki, sizi Qazağa çağırellar, iclas var. Apardığ deer, Budal var, orya aparanda, deer, da artıx gördülər ki, ədə, bu xına o xınadan döy. Deer:

– Bilerəm məni öldüröjəhsiniz, məni qavağnan öldürün. Mənim uşaxlarımı gözümün qavağında öldürmən.

Əmirastanın adamları deelər:

– Tutduğu əməli bilmerdinmi? Bilmerdinmi Əmirastan kimi adamı qavağa verəndə axırın nolajax.

Bax Əmirastanın adamları da onu elə öldürdü, oları elə qırdı”[164].

Haqlarında dastan qoşulmayan və ya qoşulması sifariş verilməyən qaçaqlar olsa da, haqqında rəvayət söylənməyən, mahnı qoşulmayan və deyim deyilməyən qaçaq tapmaq mümkün deyildir. O baxımdan qaçaq folkloru daha çox rəvayətlərlə, mahnılarla, deyimlərlə zəngindir. Qaçaqların bir çoxu ölərkən də hörmətlə yad edilir, yaxud ölümü də hörmət doğurur: “Şınıx dədə-bavadan qaçax yurdu olufdu. Qaçaxlar hökümətdən qaçanda, gizdənəndə Şınığa gəlermiş. Telli Əsətnən Kalvayı Əsət də bu qaçaxlardanıymış. Bular ikisi də qohum olor, həm də bəy imişdər. Bu savet hökuməti qurulanda bular hökümətə qarşı çıxer da, qaçax tüşöllər. Bular Toyuzun Bozalqannı kəndində olollarmış. Bular yaylağa Şınığa gəlellərmiş, Keçəl dağda hələ də oların yurt yerrəri duror. Bizim bu Mormorruların da qohumudular, oların xalasıuşağıdılar.

Telli Əsət erməni dilini təmiz bilermiş, uzun sarı sakqalı varıymış. Kürün qırağında meşələrdə yaşıyırmış. Bir gün bu ajınnan ölör, təntiyir, gəler Toyuzun Bozalqannı kəndinə. Burda çörəhdən-mörəydən yaxşıca yiyir, Kürün qırağına me-

---

[164] Söyləyici: Hüseyn Əhmədov, doğum tarixi 1933, təhsili natamam orta, Şınıx kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı

şiyə qayıder. Bu da çəntəsinə azıx qoyor ku, yolda yiərəm. Bu gedənnən sonra kənd savetinnən uçaskovu soruşor ku, ayə, o kimiydi? Bunun kim olduğunu demellər. Bular da fikirrəşellər ki, bu olsa-olsa, qaçax olajaxdı. Bunun dalınca geder Kürün qırağında bulara çatellar. Bunnan soruşollar kı, burda nağayrersan? Telli Əsət də ləhcəsini dəyişer. Erməni kimi danışıf deer ki, nağayrasıyam? Donuz gəzerəm, donuz itirmişəm. Kürün qırağında da o vaxtdar yarı erməni, yarı musurman yaşıyırmış. Bunnan daqumentini isdiyillər. Bu da deer:

– Ayə, nə daqument, nə zad?

Bular əl çəhmiyəndə ələci kəsiler, qoynunnan daqument çıxartmax adınnan silahını çıxardıf ikisini də tarak-tarak vuror. Bular burda uzaner. Bu da qaçer, meşiyə geder. Ceyrançöldə çovan dosdu varıymış, gəler onun yanına. Deer:

– Ayə, mən onsuz da ölörəm. Mən ölməmiş ya məni vur, ya da hökuməti çağır gəlsin.

Çovanın da əli gəlif vurmor bunu. Qıryatına sığışdırıf höküməti də çağırmer. Axır Telli Əsətin özü ölör. Sonra çovan nə fikirrəşersə, özü bunu güllüynən vuruf öldürör. Toyuzun ləçənniyinə-zada xavar verer ki, mən flankəsi öldürmüşəm. Bular da sübut eliyir ki sən qaçax saxlıyıfsan. Təzdənnən çovanı götürüf aparellar. O vaxdı qaçağı saxlamax yaman bərk cəzaymış. O vaxdı qorxulu vaxtdarıymış”[165].

“XIX əsrdə meydana gələn ictimai-siyasi şəraitlə əlaqədar olaraq, Azərbaycan xalq qəhrəmanları haqqında bir sıra nəğmə, mahnı, dastan və el havaları yaranmağa başlayır. Xalq ədəbiyyatının bu nümunələrinin qəhrəmanları o zaman Azərbaycanda fəaliyyət göstərən kəndli hərəkatının fəal iştirakçıları idi. XIX əsrdə Azərbaycan xalqı həm yerli zülmkarlar, həm

---

[165] Söyləyici: İman Quliyev, doğum tarixi 1947, təhsili orta, Arabaçı kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı

də rus çarizminin nümayəndələri tərəfindən istismar olunurdu. Xüsusilə kəndli kütlələrinin vəziyyəti ağır idi. Həddindən artıq vergilər, özbaşınalıq, zorakılıq, ehtiyac onları təngə gətirmişdi. Ona görə də kəndlilərin çar məmurları ilə birləşən yerli bəylər əleyhinə kütləvi çıxış və üsyanları çoxalırdı. Bütün XIX əsr boyu ölkədə, onun xaricində də ad çıxaran məşhur qəhrəmanlar fəaliyyət göstərmişlər. Həmin üsyan başçılarından Molla Nur, Yarəli, Hacı Məhəmməd, Şəkili Məhəmməd Cavad oğlu, Adıgözəl, Dəli Alı, Qaçaq Kərəm, Qaçaq Tanrıverdi, Qandal Nağı, Qaçaq Nəbi və başqalarının adlarını çəkə bilərik. Qaçaqlar xalqın içərisindən çıxmış, xalqı müdafiə etmiş, ona kömək əlini uzatmışlar. Bütün bu xalq qəhrəmanları haqqında saysız-hesabsız folklor nümunələri yaranmış və hələ də yaranmaqdadır. Həmin nümunələrdə bu igidlər qorxmaz, cəsur, mərd, ədalət sevən, humanist, düşmənə qarşı amansız, yoxsulların tərəfdarı kimi təsvir olunmuşlar. Bu nümunələr folklorumuza "qaçaq nəğmələri" adı ilə daxil olmuşdur"[166].

Təbii ki, bugün Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orada xalqın dilində və könlündə hələ də yaşamayan qaçaq olmasın. Bunların çoxu rəsmi tarix tərəfindən qeyd edilməyən, ancaq şifahi tarixdə hələ də yaşamağa davam edən qaçaqlardır ki, bəziləri sovet dövründə kollektivləşməyə qoşulmayan və dövlətdən qaçaq düşən, fərdi mübarizə üsulunu seçən insanlardır. Sovet qaçaqları nə qədər xalqın tərəfində olurdularsa onların haqqında anti təbliğat bir o qədər güclü aparılırdı. Anti qaçaq təbliğatı sovet dövründə rejimə qarşı çıxanlara aid idi. Bu insanları çox zaman oğru, quldur, yolkəsən kimi qələmə vermək ideolojik sovet folklorşünaslığının başlıca vəzifəsi idi.

---

[166] Əfəndiyev Paşa (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, s.365

### 4.3.5. Namus məsələsi

Qaçaq əhvalatlarının sevilən anlatılarından biri də namus məsələsində həssaslıqdır. Məsələn, "Qara Tanrıverdi" dastanında Tanrıverdinin qaçaqlarından biri olan Dövlətxanın nişanlısına bəy sataşmaq istəyir. Dövlətxan da bəyi öldürürür və bundan sonra qaçaq düşür[167].

Qaçaqçılıqda namus məsələsi birinci yerlərdən birini tutur. Qaçaq hekayətlərinin çoxu namus məsələsi üzərində qurulub. Qaçaqların bir çoxu namus məsələsinə görə qaçaq düşdüyü kimi, bəziləri də namussuzluq edən koxanı, bəyi öldürərək elin canını onlardan qurtarır. Məsələn, Qaçaq Kərəmlə bağlı əhvalatlardan onun İncəli İsmayılla və İsfəndiyarla dostluğu nağıl edilir. Həm İncəli İsmayıl, həm də İsfəndiyar namus məsələsi üçündən, biri onun nişanlısını əlindən alan bəylə oğlunu öldürdüyü, digəri də arvadını qaçıran koxanı kəndin ortasında xəncərlə doğradığına görə divan-dərədən qaçaq düşürlər[168].

Qaçaq Kərəm bütün Azərbaycanda məşhur olduğundan Masallıda onun haqqında söylənən bir hekayətdə namus məsələsi ön plana çəkilmişdir. "Bir günləri də Qaçax Kərəmə deyillər ki, bəs Rusiyadan bir general gəlir, imenni səni tutmağa. Gəlib Tiflisdədi, ordan da gəlib səni tutacax. Bu Qaçax Kərəmin də arvadı hamilə olur. Deyillər ki, sən bu gecə çıxmalısan, qaçmalısan İrana. O rus generalı Tiflisdədi, saba burda olacax. Bu təxminən Qazax, Akstafa, Tovuz, Şəmkir bu aralarda olub bu Qaçax Kərəm. Oralarda at sürürdü. Bu görür ki, arvadı da hamilədi, mən hara gedim, bu qadını necə apara bilərəm? Gedər yolda bunun halı çönər, filan, yağış da bərk yağır. Kimə tapşırım gedim mən bunu? Arvadı qoyur atın tərgi-

---

167 Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri. Bakı: Yurd, s.104

168 Azərbaycan folkloru antologiyası (2012). XXI Kitab. Qazax rnəkləri. Toplayan: M.Həkimov. Bakı: Elm və təhsil, s.44-45

nə, fikirrəşir ki, məsələn, Məmməd mənim dostum var, deer öz-özünə ki, yox ona arvad tapşırmağ olmaz. Deer qohumum var, məsəlçün, filankəs, yox ona da ümid eləmək olmaz. Nə-bilim kim var, kim yox. Sayır hamısın ürəyində, deer, mənim bir düşmənim var İbrahim bəy. Düşməndi o mənnən, amma baxma düşməndi, ona arvadı tapşırmağ olar. Atın sürür onun qapısına. İbrahim, İbrahim. O da səsinnən bilir ki, bu Qaçax Kərəmdi. Deer həəə bu məni öldürməyə gəlib. Bu da tüfəngin götürür, çıxır çölə.

Deer İbrahim, tüfəngsiz zadsız çıx çölə, mən sənin qapı-na düşmən kimi gəlməmişəm. Mən gedirəm bu gecə İrana, Rusiyadan general gəlib məni tutmağa. Mən yoldaşımı apara bilmərəm, o hamilədi. Bu gün sabahdı, bəlkə yolda doğar. Mən arvadımı istiyirəm sənə tapşıram gedəm. Çünki bütün qohumlarımı, dostdarımı gözdən keçirtdim, olara arvad etibar eləməy olmaz. Nə deyirsən mənə? Hələ bir-birini görmüllər eeee, səsin eşidillər. İbrahim bəy deyir:

– Mənim balamdı gətir bıra. Aparır arvadı verir bına, özü atın çapır gedir.

Bir müddət orda qalır, bu arvad da burda azad olur, uşa-ğı olur.

Bax belə kişilər olub həyatda. Hətta düşmənin halalına belə pis göznən baxmıyıblar”[169].

Qaçaqların xalq içərisində sevilməsinə səbəb də onların namus məsələsində həssas olmalarına görədir. Naxçıvanda hər nə qədər qoçaq, igid olsa da zorbalıq etdiyinə, qız-gəlinə pis gözlə baxdığına görə Qaçaq Zevan xalqın hörmətini və lo-jistik dəstəyindən məhrum olur.

[169] Söyləyici: Şirvan Əbilov, doğum tarix 1932, təhsili ali, Masallı rayonu Mahmudavar kəndi. Toplayan: Füzuli Bayat 2012

### 4.3.6. Dini motivlər və batil inanclar

Xüsusən, 1917-ci il bolşevik inqilabına qədər qaçaqçılıq edən məşhur qaçaqlar haqqında yaranan rəvayətlərin çoxundan demonoloji miflərdən tutmuş tarixi hadisələrə qədər, əfsanələşmiş insan portretindən tutmuş real bioqrafik məlumatlara qədər geniş məlumat almaq mümkündür. Məsələn, Qaçaq Kərəm haqqında mövcud rəvayətlərdən onun kiçik yaşlarından qorxmazlığı, namus anlayışının yüksək tutlması, ailə manefeyini şəxsi mənfedən üstün tutmaq, övlad dərdindən əriyib getmək kimi mövzular vardır. Qaçaq Kərəmlə bağlı rəvayətlərdən körpələrin bələyinə qurudulmuş narın torpağın ələkdən keçirildikdən sonra sapılcada qızdıraraq isti torpağı bələyə töküb uşağı ona bələrmişlər ki rahat yatsın[170] kimi etnoqrafik inancları da öyrənmiş oluruq. Hətta bu rəvayətlərin birində Kərəmin hər gecə cinlərin yığnağının olduğu otaqda yatırılması, Kərəmin onu rahatsız edən cinlərdən əvvəlcə bismillah deməklə qurtulması, sonradan yorğanının ətrafını murdarlaması və rahat şəkildə yatması, xanın heç bir qonağın sağ çıxmdığı o otaqdan Kərəmin sağ çıxdığını gördükdən sonra onun kim olmasını öyrənmək istəməsi[171] memorat tipli hadisələrin varlığından xəbər verir. Əslində qaçaqlar haqqında söylənənlər geniş mənada memorat janrına aiddir. Sadəcə bunlar demonik səciyyəli memorat olmayıb yaxın keçmişdə baş vermiş şifahi tarix, xatirə janrıdır.

Bir başqa qaçaq əhvalatında da bəzi batil inanclara rast gəlirik. Məsələn, Nağçıvanda məşhur qaçaqlardan olan Mirzalı haqqında deyilənlərdən onun öldürülməsi hadisəsi cadıya bağlanır:

---

[170] Bax. Cəfərova X. (2010). Nənəmin nağılları, Bakı, s.96-97

[171] Cəfərova X. (2010). Nənəmin nağılları, s.95-96

“... Mirzalının tutulmasına isə Molla Cəfər səbəb olur. Molla Cəfər bir cadu yazır. Onun təsirindən Qarabağda qaçaqlıq edən Mirzalı oradan bir günə Kolanıya gəlir. Tozanaq qar yağdığından Mirzalının izindən kəndə gəldiyindən xəbər tuturlar. Hökumət adamları onu tutmaq üçün kəndə gəlirlər. Atışma olur. Mirzalının atdığı güllə Molla Cəfərə dəyir, onu öldürür. Deyirlər qubernat da Mirzalının qoçaqlığından çox eşidibmiş. Ona görə İrəvandan Əşrəf ağa və başqalarını Naxçıvana göndəribmiş. Tapşırıbbış Mirzalını vurmağa qoymasınnar, onu diri tutsunnar. Mirzalının gizləndiyi evə heç kim yaxın düşə bilmir. Qardaşı Ağanı dilə tutur, yarızor, yarıxoş Mirzalının yanına göndərirlər. Onunla danışıb, qollarını bağlayıb bayıra çıxarmağı tapşırırlar. Ağa deyilənlərə inanıb içəri girir. Qardaşının qollarını bağlayıb bayıra çıxaranda Molla Cəfərin qohumları Şəmi və Şəmşimalı xəncərlə onu doğruyur”[172].

Qaçaq folklorunda qarşımıza çıxan dini-mifoloji inamlar, müqəddəslərin işə qarışması, İslama dəvət və s. kimi motivlərə də rast gəlmək olur. Bunlardan biri də Abbasqulu Şadlinski haqqında söylənən Vedi uğrundakı döyüşdür. “Daşnakların qoşunu Vediyə hücuma keçəcəkmiş. Qoşun başçısının arvadı yuxuda Həzrət Abbası görür. Görür Həzrət Abbas erməni qoşununu tamam qılıncdan keçirdi. Onun ərinə çatanda qılıncını saxlayıb dedi: “Səni təmiz qəlbli, pak imanlı arvadına bağışladım”... Arvad ürəyində müsəlmançılığı qəbul etsə də, ətrafındakıların qorxusundan dilinə gətirmirmiş... Ərinə deyir müharibədən əl çəksin. Müsəlmanların qanını axıtmasın. Görür yox, əri fikrindən dönən deyil. Deyir səni yolundan döndərəmmədim. Qoy bir məktub yazım cibinə qoy... Döyüş başdıyır... Ermənilərin topu, topxanası... ölən ölüb, qız-gəlin əsir-yesir düşüb... Sağ qalanın bir qismi yığılıb Vediyə... Gö-

---

[172] Şamil Əli (2001). Dastanlaşmış ömürlər, s.9

yün üzünə balaca qara bulud gəlir. Bu qara bulud böyüyür. Oradan çəpinə – ermənilərin üzünə tərəf bir yağış çırpır, gəl görəsən. Yağışın göz açmağa imkan vermədiyini görən müsəlmanlar səngərlərdən çıxıb hücuma keçirlər. Yağış onnarı arxadan vurduğundan güllə atmalarına əngəl olmur. Ermənilər görürlər ki, budu ha, müsəlmanlar gəlib çatdılar. Üz qoyullar qaçmağa. Ölən ölür, sağ qalan qaçıb canını qurtarır. Qoşun böyüyünü... tuturlar. Üstünü yoxlayanda bir kağız çıxır. Baxırlar, kağızda bir şer yazılıb:

Vedinin dağları batıbdı yasa
Daşnaqlar istəyir Vedini basa
Bir kağız yazaram ağam Abbasa
Millət sənə qurban, bəy Abbasqulu
Var olsun, gül olsun, bəy Abbasqulu.

Vedinin dağları dönübdü qana
Qağtağan cəmdəyin verib yan-yana
Bir kağız yazaram Şahi-Mərdana
Millət sənə qurban, bəy Abbasqulu
Var olsun, gül olsun, bəy Abbasqulu[173].

Qaçaq hekayətlərinin, əhvalatlarının və dastanlarının heç birində qəhrəmanın doğumu təsvir olunmur. Ancaq "Molla Nur" dastanının 1976-cı il Aşıq Məhəmməddən Dəvəçi (indiki Şabran) rayonunda yazıya alınmış variantında qəhrəmanın özünün deyil, sevgilisinin möcüzəli doğuluşu hekayəsi verilmişdir. Dərbənd bəyi Mahmud bəy dərvişin ona verdiyi almanın yarısını özü, yarısını da xanımına yedirir və bundan sonra qızı Aysoltan dünyaya gəlir. Almanın puçalasından da Fərcan adlı at doğulur[174]. Möcüzəli doğuluş motivinə dastanın daha

[173] Şamil Əli (2001). Dastanlaşan ömürlər, s.76-77
[174] Azərbaycan dastanları (1977). Toplayıb tərtib edən: A.Nəbiyev. Bakı: Gənclik, s.148

sonra Qubanın Rəngidar kəndindən Aşıq Haşım Balasıyevdən toplanıb nəşr olunan şeirli variantında da rast gəlirik[175].

Batil inanc olmasa da Qaçaq Kərəmlə bağlı bir hekayətdə onun adından istifadə edən birinin cəzalandırılmasından söhbət gedir. Hekayətdə bir qarının inyəni əlindən alan quldurun Kərəmin adından istifadə etdiyi görünür. Yaşlı qadın Kərəmin onların kəndinə gəldiyini eşidib onun yanına gedir və Kərəmin quldura oxşamadığını görür. Kərəm də o yerlərdə quldurluq edən Vəlini tutub qadının yanına gətirir və qulağını kəsir ki, bundan sonra bizi dəyişik salmasınlar mənə Qaçaq Kərəm, sənə də Kərə Kərəm desinlər[176].

## 4.4. İctimai-siyasi həqiqətlərin bərpasında şifahi tarix və memorat janrının rolu

Qaçaq rəvayətlərində qaçaqların sosial-siyasi, hüquqi fəaliyyətlərindən danışılmaz, burada daha çox fərdi qoçaqlıq, igidlik, kişilik səhnələri təqdim edilir. Belə ki, bu rəvayət və hekayətlərdə mərdlik, kişilk, düzlük, ədalətlilik kimi sosial keyfiyyətlər və o dövr üçün məqbul sayılan varlılardan oğurlamaq ön plana çıxır.

Daha böyük dəstələrlə hərəkət edən və rejim üçün təhlükə yaradan bəzi qaçaqlar və üsyançılar haqqında antitəbliğat məqsədi ilə məlumatlar verilmişdir. Məsələn, Qubadlı qəzasında baş verən üsyan Əfəndilər üsyanı adlanırdi və ona məşhur din alimi, tarixçi Bəhlul Behcət başçılıq edirdi. Rəsmi olaraq üsyan 1922-ci ilin oktyabr ayında başladı. Bu üsyanı yatırmaq üçün bolşeviklərlə bərabər daşnaklar da fəal iştirak

---

[175] Mirzə Ağalar (2004). Şirvana minə gələm. Bakı: Borçalınəşriyyat-poliqrafiya müəssisəsi, s.140-155

[176] Azərbaycan folkloru antologiyası (2002). VII Kitab. Qaraqoyunlu folkloru. Toplayanlar: H.İsmayılov, Q.Süleymanov. Bakı: Səda, s.70-72

etdilər. Buna baxmayaraq Əfəndilər üsyanı bir çox yerdə kommunist rejimini devirməyi bacardı. Bəhlul əfəndi qısa bir zaman İranda qaldıqdan sonra 1923-cü ildə Arazdan bu taya keçərkən yaxalanaraq 10 il müddətinə həbs cəzasına məhkum edildi[177]. Qarabağda Bəhlul əfəndi, Naxçıvanda Qaçaq Qorxmaz, Qaçaq Süleyman, Qaçaq Mirzalı, Lənkəranda Qaçaq Hacıağa və digər bölgələrdə üsyan çıxaran, sonradan qaçağa çevrilən Mayıl Ağa və başqa qaçaqlar haqqında şifahi tarixin verdiyi məlumatlar Azərbaycan rəsmi tarixinin bərpasında əsas qaynaqdır. Hətta bir zamanlar məşhur olan bəzi qaçaqlar aradan keçən yüzil-yüz otuz il içində unudulmuşdur. Qaçaq hərəkatının ən öndə gedən isimlərindən biri də Qarabağda haqq-ədalət uğrunda apardığı mübarizədə şan-şöhrət qazanmış Qaçaq Səfəralı olub. Təəssüflər olsun ki, bu günə qədər xalq qəhrəmanı Qaçaq Səfəralı haqqında mətbuatda heç bir məlumat dərc edilməyib, onun qaçaq hərəkatında oynadığı mühüm rol zaman keçdikcə xalqın yaddaşından silinib. Çar hökumətinə, eləcə də yerli zümrələrə qarşı çıxan qaçaqların bir qismi Sovet hökuməti qurulduqdan sonra fəaliyyətləri bolşeviklər tərəfindən qiymətləndirilib. Onlar haqqında şeirlər, romanlar yazıldı, filmlər çəkildi. Lakin bir qism qaçaq isə vaxt keçdikcə unudulmağa başladı[178].

Dünyanın bir çox xalqlarında alicənab və ya sosial qaçaq adı ilə bilinən hərəkat, əsasən XVIII yüzilin sonundan başlayaraq geniş vüsət almışdır. Əşkiya folkloru adı ilə bilinən yeni şifahi ədəbiyyat nümunələri Yuqoslaviyada (Yenoşik), Rumuniyada, Çexoslavakiyada, Bolqarıstanda, Moldaviyada (Ataman Kodr), Ukraynada (Dovbuş və Karmelyuk), Türkiyədə (İncə Mehmet, Eje Çakıcı) və b. yerlərdə yaranma-

[177] Bax. Axundov Əhliman (2003). Xatirələrim, s.27-30
[178] modern.az/az/news/18447/

sına baxmayaraq mövzu və ideya-bədii bənzərliyi bu xalqların sosial ədalətsizliyə və yadelli işgalçılara qarşı mübarizələrinin bənzərliyi ilə xarakterizə edilir[179]. Bunlardan bir çoxu mifləşmiş (məsələn, Koroğlu, Robin Hood, Rob Roy, Jesse James, Francisco "Pancho" Villa və b.) və bütün dünyada əşkiyalığın simvoluna çevrilmişdir. Koroğlu və ya Robin Hood tipli bu qəhrəmanlar əslində qeyri-rəsmi də olsa bölgəsəl yönəticilər statusuna gətirilmiş qaçaqlardır. Azərbaycanda da qaçaqlar hər nə qədər rus işgalçılarından qaçıb dağlara çıxsalar da bölgə onların nüfuz dairəsi altında olmuş və bütün sosial-hüquqi, sosial-iqtisadi məsələlərin həlli onların nəzarətində yerinə yetirilmişdir. Bütün bunları təbii ki, şifahi tarix vasitəsi ilə öyrənmiş oluruq. Qaçaqçılıqla bağlı yaranan atalar sözü, bayatılar, mahnılar, əfsanə və rəvayətlər, hətta nağıllar tarixi həqiqətlərin bərpasında, xalqın tarix düşüncəsinin formalaşmasında qiymətli məxəzlərdir. Məsələn, "Qaçağı el saxlar" atalar sözündən xalqın qaçaqlara lojistik dəstək saxladığını öyrənmək mümkündür. Şifahi tarix xalqın şifahi şəkildə yaşatdığı, gerçəkləri folklor yaddaşında qoruduğu və gələcək nəsillərə ötürdüyü materiallardır. O baxımdan rəsmi tarixin yerinə yetirə bilmədiyi bir çox funksiyaları şifahi tarix öz üzərinə almış olur.

Milli təfəkkür baxımından ağsaqqallıq qurumunun xalq məsələlərində rolu, ağsaqalların nüfuzu, hakimlik rolu oynamaları da şifahi tarix materialları ilə aşkarlanır. Qaçaqların zamanla el ağsaqqalına çevrilmələri, mübahisəli məsələləri həll etmələri, hakim rolunu üzərlərinə almaları folklorda qaçaqlara verilən dəyərlə bağlıdır. Belə bir hakimlik rolunu Qaçaq Kərəm, Qandal Nağı, Molla Nur, Qara Paşa və b. Oyna-

---

179 Bax. Шептунов И.М. (1976). "Историзм хайдутского фольклора народов восточной Европы". Фольклор и историческая действительность (Тезисы докладов). Махачкала, s.37

mış, sosial ədaləti tarazlamaq üçün daha yaxşı məhsul götürən kəndlilərdən aldıqları töycüləri yoxsul kəndlilər arasında paylamaları, qan davalarını yatırmaları, zülmə uğrayanların intiqamını almaları və s. göstərə bilərik. Qaçaqların çoxu öz bölgələrinin bütün sosial davranışlarına nəzarəti öz üzərlərinə almış insanlardır.

### 4.4.1. Sosial davranışa nəzarət

"Mənim bacımın yoldaşının qardaşı olub, Qoçu Məhərrəm. Qoçu Məhərrəm şura hökumətinə qarşı vuruşub. Palajeniyəyə bı baxırmış bıralarda. Kim kiminsə malını oğurrasun, kimsə kiminsə gəlininə, uşağına sataşsun, ola bilməzdi. Bı Məhərrəm qoçu imiş də, atın üstində, beşatılan çiynində. Əlin salırmış cibinnən abasını çıxardıb atırmış göyə, beşatılanı götürüb şart vururmuş onu, göydə deşirmiş. Elə cəld adam olub o. Ümumiyyətlə, bizim tərəfdəki qoçular quldur olmuyublar. Qaçağçılığ eliyəni vardı, dövlətin əleyhinə, camaatnan elə də işdəri olmazdı. Bu qaçağların elədiyi kişiliydən, mərtdiydən danışacam sizə bi dənə, görəcəksüz ki, necə kişilər olub"[180].

Qaçaq folklorunun yaranması zərurətdən irəli gəlirdi. Bütün zamanlarda sosial ədaləti, pozulan nizamı bərpa edəcək, qarışıqlığı nizama salacaq birinə ehtiyac var. Mifoloji dönəmdə əgər bu qurtarıcı qəhrəmandırsa, epik çağda yenilməz alp, qaçaq folklorunda isə soylu, alicənab qaçaqdır. Təbii ki, zamanla mifikləşmiş qurtarıcı obrazları yeni qaçaqların yaranmasına səbəb olur. Xalq missiyasını başa vurmuş mifik qəhrəmanların yerinə Qaçaq Nəbilərin, Qaçaq Kərəmlərin, Qandal Nağıların, Qara Tanrıverdilərin, Qaray Söyünlərin, Xankişi-

---

[180] Söyləyici: Yavər Əkbərov, doğum tarixi 1940, təhsili ali, Masallı rayonu Sığdaş kəndi. Toplayan: Nuridə Muxtarzadə 2013

Cankişi qardaşlarının, Qaçaq Mozunun haqsızlığa, zülmə qarşı çıxacağını, zalimin cəzasını verəcəyini gözləyir.

Həm Qaçaq Nəbi, həm Qaçaq Kərəm, həm Qandal Nağı, həm Qaçaq Tağı, həm Qaçaq Tanrıverdi, həm Qaçaq İbad, həm Qaçaq Mozu, həm də digər qaçaqlar haqqındakı dastanlarda şifahi tarix materialları az bilinən və rəsmi tarixdə az yer alan bir çox tarixi hadisələri aydınlatmaqda əlavə material kimi qimətli mənbə rolunu oynayır. Kəndli hərəkatı qəhrəmanlarının mübarizəsi şifahi tarixin ən geniş örnəkləridir. Bu isə Azərbaycanın müxtəlif əyalətlərində yönəticilərin özbaşına idarəçiliyinə, talançılıqlarına, əlavə vergi toplamaqla onsuz da yoxsul olan xalqı dilənçi vəziyyətinə salmalarına qarşı başladılan qaçaqçılıq hərəkatının daha geniş vüsət almasına şərait yaratmışdır.

### 4.4.2. Tarixi həqiqətlər

Bəzi tarixi həqiqətlər qaçaqlar haqqında yaranan dastanlarda da qorunmuşdur. Daha öncə də dediyimiz kimi həm qaçaq folklorunun müxtəlif janrlarında, həm də qaçaq dastanlarında adları çəkilən adamlar tarixi şəxslərdir. Qaçaqların silah yoldaşları, düşmənləri, hətta epizodik surətlər də bu və ya digər şəkildə tarixilik daşıyır. Qaçaqların silahdaşlarından bəzilərinin sonradan məşhur qaçaqlar olduğunu da görmək mümkündür. Məsələn, Qaçaq Nəbi dastanında epizodik surət kimi keçən Telli Qara beləlәrindən biridir. Bunu Qandal Nağı, Qaçaq Süleyman, Qaçaq Kərəm dastanları haqqında da demək mümkündür. Hətta söyləyicilər xalq arasında Telli Qaranın Nəbidən də məşhur olduğunu, ancaq erkən öldüyü üçün Nəbinin daha çox tanındığını bildirirlər[181].

---

[181] Şamil Əli (2001). Dastanlaşan ömürlər, s.29

Nəticədə, ortaya mifoloji ünsürlərlə təchiz edilmiş və qismən mifikləşmiş yeni qəhrəmanlar çıxır. Hətta passiv görünən xalq kütləsi qaçaqların fəaliyyəti ilə canlanır, hətta qaçaqları evində gizlədir, onları canları bahasına da olsa ruslara və ya yerli yönəticilərə təslim etmirdi. Xalqın qaçaqdan gözlədiyi onun tərəflər arasındakı hakimliyi, ədaləti bərpa etməsi, haqsızlığa son qoymasıdır. Xalq sosial düzənin dəyişməsini istəyir, onun siyasi hakimiyyəti dəyişmək kimi bir düşüncəsi yoxdur və qaçaqların da missiyasında siyasi dəyişiklik, sistem düzəlişi deyil, iqtisadi və hüquqi məsələlər vardır. Bütün bunları təbii ki, şifahi tarixdən öyrənmiş oluruq. Rəsmi tarix bütün hallarda iqtidara xidmət etməyən qaçaqlara, sosial etirazçılara, müxalifət qüvvələrinə mənfi münasibəti ilə seçilir. Siyasi sistem dəyişdikdən sonra isə qaçaqlara inqilabçı, üsyan başçıları kimi baxılır, qaçaqçılıq ideallaşdırılır. Şifahi tarix baxımından çox əhəmiyyətli olan bu faktlar geniş kəndli hərəkatınıın xarakterini açmaqda mühüm amillərdən biridir. Xalqla bütünləşmə (tam şəkildə olmasa da) qaçaqçılıq hərəkatının struktur-semantikasını təyin edir. Rəsmi tarix hadisələrdən epikləşmiş, mifləşmiş ünsürləri təmizləməklə bu hərəkatın bilinməyən tərəflərini öyrənmiş olur, ancaq hər zaman ideoloji bir yanaşma onun metodologiyasına hakimdir.

Qaçaqlar haqqındakı anlatılan əhvalatlardan onların lazım gəldikdə bərabər fəaliyyət göstərdiklərini, ümumi düşmənə qarşı birləşdiklərini öyrənmək mümkündür. Belə ki, sovet rejiminə qarşı savaşan iki qaçaq dəstəsinin arasındakı qan düşmənçiliyinə baxmayaraq onların bir-birinin köməyinə gəldiklərini söylənən hekayətdən də görmək mümkündür:

Buna baxmayaraq qaçaqlar haqqında söylənənlər, özəlliklə də oxunan mahnılar, iri həcmli dastanlar tarixcilər üçün əsaslı qaynaqdır. Yaxın tarixdə – XIX yüzilin sonları ilə XX yüzilin qaçaqçılıq hərəkatı şifahi tarixin ən mühim materialı-

dır. Bu şifahi tarix nümunələrində qaçaqların fəaliyyət sahələri, kimlikləri, yaşadıqları yüzil, sosial mənşələri, tərkibləri, fəaliyyət göstərdiklər coğrafiya və s. haqqında bilgi vardır. O baxımdan sosial tarixin yazılması üçün qaçaq folkloru qiymətli materiallar toplusudur.

### 4.4.3. Qaçaqların yardımlaşması

"Hə Yardımlda bı Güdələr deyilən Xankişi-Cankişi qardaşdarının Masallıdan olan başqa bir qaçağ dəstəsi ilə nəisə qan düşmənçiliyləri varmış. Amma ikisi də qaçağ dəstəsidi, ikisi də hökümətə qarşıdılar. Təxminən belə 1930-cu, 40-cı illərdə zadda, müharibə hələ başdamamış bu Masallılı qaçaq dəstəsi bı Yardımlı yolunda düşüllər mühasiriyə. Kimsə uje məlumat veribmiş hökumətə bılar haqqında. Bılar gizdənillər qayaların zadın dibində, gecə düşür, atışa bilmillər. Bı rusdar da qalıllar. Bılar da qalıllar mühasirədə səhərəcən. Səhərə yoxun elə xoruzun ikinci banında, görüllər ki, tappatarap atışma başdadı. Bını görən qaçağ dəstəsi deyillər ki, ə, bı kimdi, nə baş verir? Bılar da heç hələ daşın altınnan baş çıxarda bilmillər bayıra. Bir azdan sora atışma kəsilir. Bir müddətdən sora görüllər ə heç kəs yoxdu. Masallı qaçaqları gəlir, ə hamısı bu rusdarın meyiddəri bı daşdarın aralarındadı. Təxminən bir 50-yə qədər meyid var bı daşdarın üstündə. Əyə bıları kim bu hala salar? Bu kim olar bıları vıran? Görüllər aaa ode o cığıra yolnan bir dəstə atdı gedir. Deyir:

– Əyə, əyə, a kişilər, ay atlılar siz kimsüz belə? Bılar soruşullar.

Olar da deyillər ki:

– Əyə bizüy, Xankişi, Cankişi qardaşdarı, ə Güdələr də yəni. O rusdarı biz öldürdüy. Amma elə bilmiyün ki, siznən barış-

duğ ha. Düşmənçiliyimiz elə düşmənçiliyimizdi. Olarsa həm sizin, həm də bizim düşmənnərimizdi. Ona görə oları öldürdüy”[182].

Əksər şifahi tarix materialları bu gün son dərəcə sürüşkən, unutmağa meyilli olan şəxsi yaddaşlarda qorunmuşdur. Yaddaş daima dəyişən mexanizm kimi seçmə özəlliyinə sahibdir və gərəkli olanları qoruyub saxlayır. O halda kəndlilərin qaçaqlardan bir silah kimi, mübarizə forması kimi istifadə etdiyini demək mümkündürmü? Kəndlilər hər zaman bunu başarmasalar da bəzən öz etiraz səslərini qaçaqların vasitəsiylə, yəni silahlı dirənişlə yerli idarəçilərə çatdırmışlar. Ancaq Asərbaycan örnəyində bunun tərsi olmuşdur. Belə ki, daha çox qaçaqlar öz məqsədləri üçün kəndlilərdən faydalanmışlar.

## 4.4.4. İftira

Bütün dövrlərdə dövlət adamları qaçaqlara hər cür iftira ataraq xalqın gözündə onları cinayətkar, adət-ənənəyə hörmət göstərməyən adamlar kimi təqdim etməklə gözdən salmağa çalışmışlar. Toplama zamanı iftira məsələsinə rast gəlməsək də qaçaq dastanlarında bu məsələ xüsusi olaraq qeyd edilmişdir. Eyni zamanda bu iftiralarla birlikdə dövlət məmurları qaçaqlara qarşı mübarizədə haqlı olduqlarını göstərməyə çalışırdılar. Məsələn, Qaçaq Tanrıverdi dastanında Süleyman Bəy, Tanrıverdinin onun 30 qoyununu tələf etdiyini deyir və Tanrıverdinin buna kəsgin etirazından sonra qaçaqçılıq həyatı başlayır. Hökumət adamları Qara Nəbinin quldurluğundan istifadə edərək oğurluq, adam öldürmək, soymaq kimi cinayətləri hamısını Qaçaq Nəbinin üzərinə atırlar. “Qaçaq Nəbi” dastanının Ə.Axundov variantında Əsəd Ağa Balakişinin oğurluq etdiyini deyərək onu həbs etdirir. Yenə eyni dastanda

[182] Söyləyici: Maarif Əliyev, doğum tarixi 1949, təhsili natamam-ali, Masallı rayonu Qəriblər kəndi. Toplayan: Füzuli Bayat 2013

Savad adlı biri Nəbinin qardaşı Mehdinin Təzəgül adlı qıza söz atdığını iddia edir. "Qaçaq Nəbi" dastanının Ə.Tahirov variantında Qarabağ bəyləri Kərbəlayi Baxşəlinin ölümünü Nəbinin üzərinə atırlar. "Qaçaq Kərəm" dastanının Qəmli Hüseyn variantında Namaz Kərəmin onun qoyununu oğurladığını iddia edir.

### 4.4.5. Xəyanət

Qaçaqlara xəyanət edənlər çeşidli təbəqələrdən olan insanlardır. Qaçaq folklorunun araşdırılmasından çıxarılan nəticəyə görə xəyanət edənlər əsasən, dostları və ya dəstələrində olan qaçaq yoldaşlarından biridir. Bununla yanaşı dövlətin ələ aldığı ermənilər, din adamları, kənddəki xəbərçilər (hekayətlərdə deyildiyi kimi çuğullar) və başqalarıdır. Eyni hadisədə xəyanətkarlar rəvayətlərə, dastana və variantlarına görə dəyişə bilir. Xəyanət edənlər əsasən, dövlət məmurları və yerli idarəçilər tərəfindən pulla, vəzifə ilə qandırılan insanlardır. Həm qaçaq rəvayətlərində, həm də qaçaq dastanlarında xəyanətə uğramış bəzi qaçaqlar haqqında bilgi verməklə bu mövzunu bağlamaq olar:

Məsələn, Qaçaq Nəbi dastanına (Əhlimən Axundov variantı) görə Kərbəlayi Məhəmməd Nəbini öldürmək üçün qəza pristavı və polislə razılaşır. Bir digər yerdə Nəbinin dostu olan Səfdər Şeytan Gözəməlinin sözlərinə inanaraq Nəbini və qardaşı Mehdini polislərə verir. Qaray Söyünün yerini polis rəisinə Çilingir Yosunla Seyid Qulam xəbər verirlər.

Aşıq Əsəd variantında Kərəmin illərcə çörəyini yeyən Təbrizli dostu paltar almaq bəhanəsi ilə evdən çıxaraq Təbriz valisi Zal Xana onun yerini deyir. Aşıq Ağbaba variantında Qaçaq Usufun qardaşı Öməri bir zamanlar köməklik etdiyi ləzgilər öldürürlər.

## 4.5. Nəticə

Qısaca nəticələndirmək gərəkirsə qaçaq folkloru həm də qaçaqçılıq hərəkatının bədiləşmiş, ümumiləşdirilmiş bir az da ideallaşdırılmış tarixidir. E.Hobsbawmun "tarixdən öncəki sosial hərəkat" adlandırdığı ictimai müqavimətin, sosial etirazın ilk mifləşmiş qəhrəmanları Robin Hood və Koroğlu idi ki, sonradan kənd qaçaqlarının epikləşməsində qəlib rolunu oynamışdır. Təbii ki, XIX yüzilin ortalarından Çar İmperiyasına qarşı başladılan ictimai mübarizənin qanundan kənar adlandırılan insanlarının ümumiləşdirilmiş simvolu halına gələn əsas qəhrəman da Koroğludur. Qanundan qaçaq düşən bu insanlar haqqında söylənən mahnılar, epik anlatılar, dastanlar və onların süjet xətti istər strukturuna, istər funksiyasına, istər semantikasına, istərsə də formasına görə Koroğlu dastanı örnək alınaraq yaradılmışdır.

Koroğlunun mənəvi davamçıları olan qaçaqlar, yalnız bir neçə əsas özəllikləri ilə önə çıxmışlardır. Ən böyük qaçaq hərəkatının üzvləri də mənsub olduqları yerin, coğrafiyanın, sosial qrupun ədalət anlayışından, xalq hüququndan təsirlənir və müəyyən siyasi-iqtisadi mənafelər baxımından təşkilatlanır, dağlara çəkilərək, meşələrdə, qamışlıqlarda gizlənərək mövcud idarəçilərə qarşı müqavimət göstərir, üsyana başçılıq edirdilər. Kiçik qruplar halında fəaliyyət göstən qaçaqlar da özlərinə uyğun qaydalar daxilində ədaləti saxlamağa çalışırdılar. Ona görə də qaçaqlar türk dünyasının harasında olurlarsa olsunlar bir-birilərinə bənzər şəkildə təşkilatlanıb, hərəkət etmiş, yazılmamış qaçaqlıq qaydalarına görə yaşamışlardır. Məsələn, Koroğlu gözləri çıxarılan atasının intiqamını almak üçün qaçaq düşmüş, Kara Heydəroğlu Mehmet Bəy də atasını öldürənləri qətletməklə əşkıyalığa başlamış, Dəli Həsən qardaşının intiqamını almaq üçün üsyan çıxarmış və qısa bir zamanda ətrafına topla-

dığı qüvvətlərlə böyük şöhrət qazanmıştır. Adları çəkilən qaçaqlar sonradan Koroğlu dastanının qəhrəmanlarına çevrilmiş və sonrakı qaçaqların ilham qaynağı olmuşdur. XIX yüzildə Çar idarəçilərinə qarşı ayaqlanma çıxaran Qaçaq Nəbi, Qaçaq Kərəm, Molla Nur, Qaçaq Süleyman və digərləri də həm xalq mahnılarında, həm də dastanlarda qəhrəman kimi öyülür, aynalı tüfəngli, boz atlı kimi epitetlərlə xatırlanırdılar. Anadoluda Həkimoğlu da aynalı martini ilə məşhurdur. Qaçaq mahnılarında, hekayətlərində, dastanlarında mübaliğənin, simvollaşmış deyimlərin, idelizə edilmiş ünsürlərin və s. yer alması qəhrəmanlıq dastanı ənənəsi ilə bağlıdır. Bu mənada qaçaq folklorunun əsas məqsədi qaçaqların həyat və macəralarını böyük ciddi-cəhdlə ideal bir formada təsvir və tərənnüm etməkdir. Bütün bunların başlıca səbəbi xalqın qaçaqlara münasibəti, qaçaqlarda görmək istədikləri özəlliklərə görədir.

# BEŞİNCİ FƏSİL
# FAKELOR PROBLEMİ BAXIMINDAN QAÇAQ DASTANLARI

## 5.1. Sosial-iqtisadi baxımdan qaçaq dastanlarında Koroğlu ənənəsi

Toplumun, xalqın, millətin özü tərəfindən söylənən epikləşmiş tarixi olan dastan, hətta ən yaxın tarixi hadisələrdən bəhs etmiş olsa da, tarixin faktlarla zəngin sənədi olmayıb, ruhudur, keçmişə, hətta tarix öncəsi mifik zamana ekskursdur, gələcəyə ünvanlanmış mesajdır. Qaçaq dastanları aşıq mühitində, əsasən XX yüzildə yaransa da, özündən 30-40, bəzən də 50-60 il əvvəlki hadisələri əks etdirsə də, həm şifahi tarix janrı, həm də minillik keçmişi olan dastançılıq ənənəsi üzərində formalaşdığı üçün folklordur. Folklorun bütün funksiyalarına cavab verən epik əsərdir. Qaçaq dastanları özünəməxsus icra ortamında, bəlli bir formada yarandığından həm orta çağ qəhrəmanlıq dastanlarından, həm də məhəbbət dastanlarından fərqlənir.

Qaçaqlar hökumətdən narazı olan və bu narazılığı silahlı müqavimətə çevirən insanlardır, əsasən, şəxsi intiqam hissləri ilə hərəkət edirlər, kiçik dəstələrə sahibdirlər və onların sosial tərkibi əsasən, yoxsul təbəqədir. Bu paradiqmatik təməl qaçaq dastanlarının formalaşmasında Koroğlunu örnək səviyyəsinə qaldırmışdır. Ona görə də qaçaqçılıq ənənəsində Koroğlu model olacaq ilk sosial qaçaq hesab edilir. Bir sözlə qaçaqçılığın əxlaq kodeksi Koroğlu ənənəsinə dayanır və bütün folklor nümunələri məhz Koroğludan qalma əxlaq modelinin tərənnümündən ibarətdir.

Hər halda həm Azərbaycan, həm Orta Asiya versiyasına, hətta Anadolu variantına baxaraq Koroğlunu quldur, yol-

kəsən qılıfına soxmaq imkansızdır. Koroğlunu sosial quldur hesab edib bu tip, yəni varlıdan alıb kasıba verən qaçaqlar əsasən kəndlilər tərəfindən qəhrəman, intiqamçı, ədalət savaşçısı və başqa təyinlərlə təriflənmiş yüksək əxlaqlı insanlar kimi epikləşmişlər. Koroğlu isə kəndli deyildir, o, ya qonar-köçər yaşam sürdürən ilxıçının oğludur, ya heyvandarlıqla məşğul olan türkmən tayfalarından birinin rəisinin oğludur, ya da hökmdar soyundan bir əsilzadədir. Burada Koroğlunun sosil quldur kateqoriyasına uyğun gələn tərəfi yalnız qəhrəmanlığı, intiqamçılığı, ədalət qoruyucusu olması, karvanlardan bac alması və b. digər xüsusiyyətlərə sahib olması kimi özəlliyidir[183].

Bir digər məsələ də Koroğlunu qeydsiz-şərtsiz qaçaq hesab etməyin mümkün olmamasının coğrafi amillərlə bağlı olmasıdır. Belə ki, qaçaq-quldur bir bölgənin, bir toplumun və ya ən geniş mənada bir xalqın təmsilçisi, dağlarda kiçik dəstəsi ilə gizlənən qanun qaçağıdır. Koroğlu, Dəli Həsən və başqaları Anadolu və qismən də Azərbaycan variantında dağlarda saxlansa da, padşahın və ya paşanın/bəyin zülmündən qaçsa da, atasının intiqamını almağa çalışsa da başındakı iğidlərinin sayına, Çəlibeldə qurduğu cəmiyyətə görə sadəcə qaçaq, yaxud da qaçaq-quldur olmaqdan uzaqdır. Onun Anadolu variantlarında iğidlərinin sayı 40 olduğu halda, Azərbaycan variantlarında dəlilərinin sayı 7000 və ya 7770-dür. Hətta Türkmən və Özbək variantında o, sultanlar sultanıdır. Anadolu Koroğlu dastanında konkret tarixi kimliyi bəlli olmayan Bolu bəyindən söz açılsa da, Azərbaycan variantında mübarizə yalnız Koroğlu Bolu bəyi arasında qalmayıb Osmanlı uç bəylərini, Azərbaycan və Gürcüstan bölgəsini də əhatə edir.

---

[183] Bayat Fuzuli (2009). Türk destancılık tarihi bağlamında Köroğlu destanı (Türk dünyasının Köroğlu fenomenolojisi), İstanbul: Ötüken, s.102

Qaçaqların piri səviyyəsində olan Koroğlu daha çox Azərbaycan, Anadolu və Qafqaz variantlarında karvan soyan, varlıdan alıb kasıba verən qaçaq kimi tərənnüm edilir. Başqa variantlarda, məsələn, özbək, qazax, türkmən, tacik variantlarında Koroğlu sultandır, xanlar xanıdır. Çənlibeldə ədalətlə hökm sürən padşahdır. Rəsmi sənədlərdə onun həramiliyi, bəyliyi, paşalığı, padşahlığı haqqında heç bir qeydə rastlamak mümkün deyildir. Əgər o, qaçaqdırsa özəl qaçaqdır, qaçaq deyilsə qaçaqçılığın qanununu yazan simvollaşmış mifik xalq qəhrəmanıdır. Qaçaq tarixdə yaşayan biridir. Koroğlu isə mifoloji və epik özəlliklə əhatələnmiş qəhrəmandır. Bu qarmaşıq süjet xəttində Koroğlu bir istisna təşkil edir. Belə ki, sadəcə türk xalqları arasında deyil, gürcü, erməni, kürd, ərəb, tacik, abxaz xalqları arasında da məşhurdur, sevilən xalq qəhrəmanıdır. Dövlət adamı üçün ən vacib keyfiyyət olan ədalət, haqqın tərəfdarı olmaq, onun həyat fəlsəfəsi, yaşam şəklidir. Ancaq o, varlıdan alıb yoxsula verməsi, karvan yollarını nəzarətdə saxlaması, onlardan yol bacı alması, xalqı qoruması ilə qaçaq tərifinə uyğun bir insandır.

Koroğlu bu möhtəşəm dastanın bütün versiya və variantlarında bir qayda olaraq varlı tacirlərin düşmənidir. O baxımdan Koroğlu dastanında tacir sinfinin soyulması, heç bir yerdə kəndlilərdən, yoxsullardan vergi və ya başqa bir adla pul alınmaması, dövlət siyasətində sərmayəni ələ geçirmiş erməni, yəhudi, fransız və devşirmə tacirlərin yol bacı (qaçaqçılıq qanununa görə yol vergisi) verməyə məcbur edilməsi böyük maraq doğurur. Aldığı yol bacını ehtiyacı olanlar arasında dağıtması Koroğlunun dövlətin edə bilmədiklərini reallaşdırması anlamına gəlir. Bundan başqa Koroğlu məğlub etdiyi paşaların xəzinələrini, var-dövlətlərini də həm igidləri, həm də xalqın arasında bərabər şəkildə dağıtması ilə bərabərlik, birlik göstərmiş olur. Bu özəllik qismən həm XIX əsr, həm də

XX yüzil qaçaqları üçün də keçərlidir. Digər tərəfdən sovet folklor elmi də Koroğlunu milli qəhrəman (?) səviyyəsinə qaldırmaqla, yadelli işğalına qarşı (Bu yadelli, əslində dövlətin yerlərdəki valiləri olan paşa, bəy, xan və tacirlərdir) savaşması (?) ilə özəl bir qaçaq statusuna qaldırmışdır. Hətta bəzi məqamlarda Koroğlu fəhlə sinifinin qoruyucusu kimi də təqdim edilmişdir. Təbii ki, onun davamçıları olan qaçaqlar da bu ideoloji üstqurum aspektindən dəyərləndirilmiş, nəticədə həm çarlıq, həm də sovet qaçaqları sosial ədaləti, iqtisadi tarazlığı bərpa edən qəhrəmanlar kimi təriflənmişlər.

Koroğlunun tarixi şəxsiyyət, həm də qaçaq olması görüşü əsasən Anadoluda qəbul görmüşdür. Hətta Qafqazda nəşr olunan SMOMPK jurnalının 9-cu sayında Koroğlu haqqında yazılmış bir məqalədə də o, qaçaq adlandırılır: "Məşhur qaçaq Koroğlu, Qafqaz xanlarının birinin ilxıçısının oğludur. Koroğlunun atası xana bir day seçdi. Day xanın xoşuna gəlmədiyindən ilxıçının gözlərini çıxartdırdı". Koroğlu Qıratı minib dağa çəkildikdən sonra hər tərəfdən qaçaqlar onun başına yığıldı, az müddətdə "onun başında əlli igid qaçaq oldu". Koroğlu Trialeti dağlarının başında, qalın meşələrdə, qayalar arasında özünə məskən qurdu"[184]. Behçet Mahir variantında da Koroğlu başındakı dəstə ilə dağlara çəkilmiş qaçaq kimi təqdim edilir[185].

Koroğlu dastanının həm Azərbaycan, həm də Anadolu variantlarında qaçaq termini işlədilməz, bunun yerinə ərəbcə bir söz olan hərami/harami terminінə rast gəlirik. Sözlüklərdə hərami oğru, quldur, haydut, əşkiya yolkəsən, çapovulçu kimi

---

[184] Koroğlu (1999). Vəli Xuluflu nəşri. Nəşrə hazırlayan A. Nəbiyev, tərtib edən Y.İsmayılova. Bakı: Elm, s.9

[185] Köroğlu destanı (1973). Anlatan B.Mahir. Derleyenler M.Kaplan, M.Akalın, M.Bali. Ankara: Akçağ

izah edilmişdir[186]. Şairnamələrdə də (Aşıq Ömər, Suni, Aşıq Pir Yaqub, Piroğlu, Gevhəri, Karacaoğlan və b.) Koroğlu hərami adlandırılır. Dastanın Əli Kamali variantında da həramilərin yolu kəsdiyi söylənir:

Havaludur, basəfadur hər yeri,
Gülüstandu yolu, bağİ-İrəmi,
Yeddi yerdən yolu kəsüb hərami,
Yola qoymazlar quş qona, Koroğlı[187].

Qaçaqçılıq hərəkatı bir kındli üsyanı, kəndli etirazıdır. Haqqı, hüququ əlindən alınmış, ağır vergi altında əzilən, torpaqdan məhrum edilmiş, bəylər, ağalar tərəfindən malı-mülkü əlindən alınmış kəndliləri qorumaq üçün kənddən çıxmağa məcbur olan qaçaqlar sadəcə həmkəndlilərini deyil, bütün obanın, mahalın qoruyucusu olmuşlar. Əslində ölkə daxilinə və özəlliklə də periferiyalardakı dərəbəyliyin baş alıb getməsi qaçaqların da sosial tərkibinə təsirsiz ötüşmədi. Belə ki, Azərbaycanda "Bu nədi, dərəbəylik-zattı bəyəm?" və ya Türkiyədə deyildiyi kimi "Burası dağ başıdı mı?" deyimləri qaçaq-quldurluğun yayqın olduğu və xalqın qanun tanımayan bu soyğunçulara münasibətinin deyimləşmiş formasıdır.

Sosial protestonun təmsilçiləri olan qaçaqlar dərəbəyinə, ağaya, pristava, varlıya qarşı kəndliləri qoruyan qəhrəmanlar kimi fəaliyyətə başladılar. Təbii ki, kəndlilər də onları bəsləməklə, qorumaqla, ələ verməməklə, saxlamaqla, bir sözlə lojistik dəstək verməklə borclarını yerinə yeritmiş oldular. Zamanla xalq qaçaqların gücünə, iğidliyinə qeydsiz-şərtsiz inandığından, onların öldüyünə də inanmamağa başladı, bununla

---

[186] Bax. Devellioğlu Ferit (1998). Osmanlıca-Türkçe ansiklopedik lugat. Ankara: Aydın kitabevi yayınları, s.327; Türkçe sözlük (2005). Ankara: TDK, s.845; Azərbaycan dilinin izahlı lüğəti (2011). C.II. Bakı: Şərq-Qərb, s.367

[187] Koroğlu dastanı (2015). (Əli Kamali arxivindəki variantlar. Elektron nəşr). Çapa hazırlayan Ə.Şamil. Bakı, s.300

bağlı mahnılar qoşmağa, əhvalatlar yaratmağa, ağılar söyləyib əfsanələr anlatmağa, dastanlar bağlamağa başladılar. Və beləliklə, ortaya zəngin qaçaq folkloru çıxdı. Qaçaqçılıq inkişaf etdikcə onun özünəməxsus şifahi qanunları, törələri, adət-ənənələri yarandı.

Koroğlunun mənəvi davamçıları olan qaçaqlar, yalnız bir neçə özəlliyi önə çıxarmaları ilə bilinirlər. Ən böyük qaçaq hərəkatının üzvləri ədalət anlayışından, xalq hüququndan təsirlənir və məlum bir siyasi-iqtisadi mənfəət doğrultusunda təşkilatlanır, dağlara çəkilərək mövcud yerli idarəçilərə qarşı üsyana başçılıq edirlər. Digərləri isə kiçik qruplar halında fəaliyyət göstərərək öz qanunları çərçivəsində ədaləti saxlamağa çalışırlar. Ona görə də qaçaqlar türk dünyasının harasında olurlarsa olsunlar bir-biririnə bənziyirlər. Məsələn, Koroğlu kor edilən atasının intiqamını almaq üçün öz elindən uzaqlaşır, intiqamını aldıqdan sonra da hökumətdən qaçaq düşür. Qara Heydəroğlu Mehmet Bəy də atasını öldürənləri qətl etməklə qaçaqlığa başlamışdır və qısa zamanda ətrafına topladığı qaçaqlarla böyük şöhrət qazanmışdır. XIX yüzildə Çar Rusiyası idarəçilərinə qarşı ayağa qalxan Qaçaq Nəbi də həm mahnılarda, həm də haqqında söylənən dastanda aynalı tüfəngi ilə xatırlanır, Anadoluda da Həkimoğlu aynalı martini ilə məşhurdur. Qaçaq mahnılarında, hekayətlərində, dastanlarında mübaliğə, simvolik özəlliklər, idealizə etmə sənəti və s. yer almaqdadır. Bu mənada qaçaq folklorunun əsas məqsədi qaçaqların həyat və macəra dolu mübarizələrini imkan daxilində ideal bir şəkildə təsvir və tərənnüm etməkdədir. Bütün bunların başlıca səbəbi xalqın qaçaqlara münasibətindən, qaçaqlarda görmək istədikləri özəlliklərdən ötrüdür.

Təbii ki XX yüzildə sovet rejiminə qarşı savaşan qaçaqlar haqqında oxunan mahnılar, söylənən hekayətlər də Koroğlu ənənəsi üzərində formalaşmışdır. Kommunist rejiminə qarşı

müqavimət göstərən, kolxoza, sovxoza yazılmayan, malı-mülkü əlindən alınan kəndlilər əsasən, XX yüzilin 30-cu illərində, bəziləri İkinci Cahan Savaşına qədər fəaliyyət göstərdilər ki, sayı baxımından daha çoxdurlar. Hər bölgədə kiçik gruplar halında fəaliyyət göstərən onlarla, yüzlərlə qaçaq vardı. Sovet qaçaqlarından bəziləri təkbaşına savaşdığı kimi, bəziləri də bir neçə adamla dağlarda, meşələrdə gizlənərək fəaliyyət göstərirdilər. Daha kütləvi xalq hərəkatı halını alanlar isə təriqətlə bağlılıqları olan şeyxlərin, əfəndilərin başlatdıqları üsyanlar idi. Yalnız müstəqillikdən sonra sovet qaçaqları ilə bağlı ki, bunlara qolçomaq deyilirdi, əhvalatlar, hekayətlər toplanmağa başladı. Hətta qolçomaqların da çoxunun Koroğluya bənzədilməsi, Koroğlu qəhrəmanlığının bütün zamanlarda canlı tutulduğunun isbatıdır.

Bütün bunlar özünün ifadəsini qaçaq dastanlarında tapdı. Əski və orta çağ qəhrəmanlıq ənənəsi üzərində yeni bir dastan növü qaçaq dastanları yarandı ki, onların ortaya çıxmasında Koroğlu dastanının Koroğlu epik ənənəsinin böyük rolu oldu. Həm qaçaq dastanları, həm inqilabi, həm də müharibə dastanlar bu ənənə üzərində formalaşdı. Beləliklə, tüfəng icad oldu Koroğluluq tarixə qarışdı, dövlətin güc strukturları qaçaqçılığı da məhv etdi, ancaq ədalət uğrunda, haqq yolunda mübarizə davam edir, mübarizənin şəkli dəyişir, başqa bir formaya bürünür və ortaya yeni bir ədalət qoruyucusu – yeni Koroğlu çıxır.

Sosial üsyançılar, qolçomaqlar, qanun qaçaqları, yol kəsənlər, quldur dəstələri və başqaları bu və ya digər şəkildə dövlətdən, yerli idarəçilərdən, hüquq sistemindən və sair məmnun olmayan müxaliflər müxtəlif şəkillərdə etirazlarını bildirən insan və insan qruplarıdır. Haqlarında müsbət, yaxud mənfi söyləntilər dolaşan, dövlətin idarəetmə sistemi üçün təhlükə törədən bu insanlar ümumi mənada xalqın gözündə

etibar qazanmış qaçaqlardır. Dövlətin öz vətəndaşına arxa döndüyü, dərəbəyliyin, özbaşınalığın baş alıb getdiyi bir zamanda pozulan ədaləti öz qanunları ilə nizamlamağa çalışan və iqtidara qarşı çıxan bir qrup adamlar vardır ki, onlar cəzadan qurtulmaq üçün qaçıb dağlara, meşələrə sığınmaqla dövlətdən qaçak düşdüklərindən və qalan ömürlərini qaçaqçılıqla keçirdiklərindən bu qəhrəmanlar haqqında söylənənləri qaçaq hekayələri, qaçaq dastanları adlandırmaq doğru olacaqdır. Qaçaqçılıq hərəkatının türk dünyasında nə zaman başladığı, ilk qaçaqların kimlər olduğu bilinməsə də xalqın könlündə taxt qurmuş ən böyük qaçaq Koroğludur. Koroğluluq mifoloji-epik tərəfləriylə, tarixi şəxsiyyət olma özəlliyi ilə "social bandits" nəzəriyyəsi baxımından dövlətə baş qaldıran bir qaçaq obrazı sərgiləyir.

Əvvəlan, paradiqmasında "**social bandits**" nəzəriyyəsinə görə hökumətdən narazı, intiqam alan, sürətli hərəkət edə bilən bir neçə nəfərdən bir neçə yüzə qədər dəstəyə malik qoçaq, qorxu bilməz insanların birinin liderliyində dağlara, meşələrə çəkilməsi, karvan yollarını tutması, bac alması, paşaları, valiləri qarət etməsi, qənimətin bərabər paylaşımı, yoxsul təbəqəyə sevgi, varlılardan alıb kasıblara vermək faktı və istəyi – bütün bunlar Koroğlu dastanının əsas mövzusunu təşkil edir.

Osmanlı Mühimmə Dəftərlərinin və Başbakanlıq arxivinin 1581-1588-ci illər tarixləri arasında verilmiş fərmanlarında Bolu tərəflərdə quldurluq edən Cəlalilərdən Çakaloğlu Kara Mustafa, Dəmirçioğlu, Koroğlu Ruşən kimi şəxslərin adları zikr edilir. Toplam sayı səkkiz olan Başbakanlıq Arxivi Mühimmə Dəftərlərinin[188] verdiyi məlumatlara dayanaraq onun

[188] Mühimmə Dəftərləri 1553-1915-ci illəri əhatə edir və sayıları 419-dur. Padşah fərmanları və hökmlər 1553-cü ildən 1649-cu ilə kimi bu dəftərə qeyd edilmişdir. Sonrakı illərdə yalnız dövlət işləri bu dəftərə yazılmışdır.

“1581-ci ildə Geredə də Bolu bəyinə üsyan etdiyini”[189] təspit etmək mümkündür. Osmanlı rəsmi sənədlərində və yazışmalarında bir Cəlali üsyançısı[190] kimi tanınan Koroğlu müqavi-

---

[189] Özkaya Yücel (1982). “Koroğlunun tarihi şahsiyeti”, Köroğlu semineri bildirileri. Ankara: Kültür ve Turizm Bakanlığı yayınları, s.67

[190] İlgürel M. (1993) “Celali isyanları”, TDV İslam Ansiklopedisi, C.7, İstanbul: Diyanet Vakfı neşriyat pazarlama ve ticaret A.S., s.252.

Cəlali üsyanlarının başlama səbəbi Yavuz Sultan Səlimin anti-ələvi, anti-qonar-köçər və sünniləşdirmə siyasətinə dayanır. Onun sərt və zalımcasına hökmranlığı zamanında torpağı olmayan kəndlilərin, ağır vergilərdən əzilənlərin, torpaqları əlindən alınmış əski sipahilərin, sekbanların yerli idarəçilərin zülm və ədalətsizliyinə, həmçinin iqtisadi baxımdan əzilən türkmənlərin aşağılanmasına qarşı minlərcə adamı ilə 1519-cu ildə üsyan çıxaran Bozoklu Şeyx Cəlalın başçılığı ilə Tokat tərəflərdə başladılan silahlı müqavimət eyni ildə də qanlı şəkildə basdırıldı və bu üsyana tarixdə Cəlali adı deyildi. Bozoklu Şeyx Cəlal, Mehdi olduğunu iddia edərək üsyan çıxartdı və bu üsyanda ələvilər, qonar-köçər türkmən boylarının və ağır vergi altında əzilən kəndlilərin iştirakı ilə sürətlə hər tərəfə yayıldı. Üsyan geniş bir əraziyə yayılmasına baxmayaraq qan içində basdırıdı. Bundan sonra Anadoluda ard-arda baş verən üsyanlara və etiraz dalğalarına Cəlali üsyanları adı verildi. Osmanlı dövləti bu üsyanlara “huruc ales-sultân”, yəni ölkənin qanuni hökmdarına qarşı üsyan, adını verdi. Sultan I. Əhməd zamanında Cəlali üsyanları təkrar geniş vüsət aldı.

Beləliklə, XVI-XVII yüzillərdə bütün Anadoluda IV Mehmed zamanına qədər davam edən iqtisadi, sosial, əsgəri və siyasi təməlli üstanlara cəlali üsyanı adı verildi. Bu üsyan Osmanlı idarəetməsindən narazı, şiə əqidəli türkmən kütlələrin dövlətə qarşı çıxması idi. Cəlali üsyanları, XVI və XVII yüzillərdə Osmanlı idarəsindəki Anadoluda sosial-iqtisadi vəziyyətin pozulmasından qaynaqlanan üsyanların hamısına verilən ümumi addır.

Anadolu və Ağdənizdən keçən beynəlxalq ticarət yollarının yeni kəşflərlə istiqamət dəyişdirməsi də vəziyyətin pisləşməsində böyük rol oynadı. Osmanlı Dəvləti bu ticarət yollarının torpaqlarından keçdiyi zamanlarda əldə etdiyi qazancı itirdi. Digər tərəfdən Avropa dövlətlərinin güclənməsi qarşısında fəthlərin durması ilə qənimətdən əldə edilən qazanc da kəsildi. Dövlət, lazım olan gəliri saxlaya bilmək üçün vergiləri artırdı. Yaranan bu ağır vəziyyət, vergiləri verə bilməyən kəndlilərin torpaqlarını tərk etməsinə, iş üçün qəsəbə və şəhərlərə köç etməsinə səbəb oldu. Tarixdə buna “böyük (kaçkun) qaçqın” deyilir. Dolanışıq yolu tapa biməyənlər də qaçaqçılığa başladılar, ya da qaçaqlara qatıldılar. Bütün bunların nəticəsində Osmanlının sosial-iqtisadi nizamı alt-üst oldu. İşsizlik və qazanç tapa bilməmək, mədrəsə tələbəsindən əsgərinə qədər cəmiyyətin bütün təbəqələrinə təsir etdi.

məti zamanla fərqli və daha geniş miqyas aldı. Ancaq bəzi tarixi qaynaqlara – Mühimmə dəftərlərinə, məhkəmə sicillərinə görə Koroğlu üsyan çıxaran Levənt bölük başlarından biri olub Geredə-Bolu arasında 200 nəfərlik bir qaçaq dəstəsi ilə yolkəsənliyə başlamış, daha sonra Cəlaliləri də əmri altına almışdır. Hətta bəzi tarixi qaynaqlarda (XVI-XVII yüzilin tarixçiləri və səyahətçiləri Arakel Təbrizi, Elias Muşegyan, Övliya Çələbi və başqaları) Koroğlu ilk Cəlalilərdən biri kimi qeyd edilmişdir. Tarixi qaynaqlar Koroğlu və digər qaçaqların adlarının həm Cəlalilər üsyanında (1518-ci il və sonrası), həm də 1571-1573-cü illər Təbriz üsyanları iştirakçılarının adları arasında olduğunu göstərir, Koroğlunu soyğunçu, yolkəsən, ancaq yoxsulun, əzilənin dostu olduğunu qeyd edirlər[191]. Koroğlu dastanını ilk dəfə Avropada nəşr etdirməklə tanıdan Alexander Chodzko da onu qaçaq adlandırmışdır[192]. Həm xalq

---

Digər tərəfdən Osmanlı Dövlətinin həyata keçirdiyi sünni din siyasətinin dözülməz hal alması ilə qonar-köçərləri oturaq həyata keçirib vergiyə bağlamaq siyasəti əhali arasında böyük narazılığa səbəb oldu. Anadoluda ilk böyük Cəlali hərəkatları, mədrəsə tələbələrinin hərəkatı kimi meydana gəldi. Mədrəsə tələbələri məktəbi bitirdikdən sonra iş tapa bilmədiklərindən Bursa, Konya, Bolu və Samsun tərəflərdə böyük üsyan başlatdılar. Bu üsyanlar tarixə Suxtə üsyanı adı ilə daxil oldu. Daha sonra, əsgər sinfindən ləvənt və səkbanlar ayağa qalxdılar. Bu vəziyyətdə Osmanlı dövlətinin yerli idarəçiləri güc tətbiq edərək xalqdan vergi toplamağa başladılar. Yerli idarəçilərin zülmünün mərkəzi hökumət tərəfindən qarşısı alına bilməyincə III. Murat (1574-1595), III. Mehmet (1595-1603) və I. Əhməd (1603-1617) soyğunlara, zalım idarəçilərə və dövlət məmurlarına qarşı kəndlilərin silahlı mübarizə etməsinə icazə verən fərmanlar çıxartdılar. Və qaçaqçılıq bu fərmanlarla daha da geniş vüsət aldı.

[191] Bax. Петрушевский Илья Павлович (1949 a). “Восстания ремесленников и городской бедноты в 1571—1573 гг.” Сборник статей по истории Азербайджана. Вып. 1, Баку; Петрушевский Илья Павлович (1949 b). Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - нач. XIX вв. Ленинград: Издательство Ленинградского Государственного Ордена Ленина Университета Имени А.А.Жданова

[192] Chodzko Alexander (1842). Specimens of the popular poetry of Persia as found in the adventures and improvisations of Kurroglou, the bandit-ministrel

söyləncələrində, həm də rəsmi sənədlərdə Koroğlunun o bölgənin başçılarına, qazılara, varlılara, bəylərə hücum etdiyi bildirilməkdədir. Bu da onun xalq tərəfindən tanınmasına, şöhrət qazanmasına səbəb olmuşdur[193].

Koroğlu Ruşən Osmanlı tarixçilərinə görə soyğunçu, dövlət idarəçilərinə və bəylərə qarşı mübarizə edən, ancaq aşıqlar tərəfindən adına dastan bağlanan xalq qəhrəmanı, ilk qaçaq idi. XVI yüzilin sonlarına doğru Cəlali üsyanları səngiməyə başladığı bir zamanda tarix səhnəsinə 1598-ci ildə Sivas və Maraş bölgələrində Karayazıcı adlı başqa bir qaçaq çıxdı. Sekban əsgərlərinin başçısı olan Karayazıçının dəstəsinə ordudan atılan, maaşları verilməyən sipahilər, torpaqlarını tərk edən kəndlilər, işsiz-gücsüz sekbanlar, yerli idarəetmədən narazı olan bəylər və hətta paşalar da qatıldı. Beləliklə, Karayazıçı 20 minlik bir üsyançı dəstəsinə sahib oldu və bir-birinin ardınca böyük şəhərləri ələ keçirdi. Ancaq Karayazıçı üzərinə göndərilən nizamlı Osmanlı ordusuna yenilərək 1601-ci ildə öldürüldü.

Karayazıçının ölümündən sonra üsyançılara onun qardaşı, Koroğlu dastanında dəfələrlə adı çəkilən Dəli Həsən başçılıq etdi. Dəli Həsənin qüvvətləri qarşısında gücsüz qalan Osmanlı dövləti, onunla razılaşma yolunu seçti və Dəli Həsənə paşa ünvanı verərək onu Bosna bəylərbəyi təyin etdi. Ancaq dövlətin üsyançılara bu güzəşti digər Cəlali başçılarını daha da cürətləndirdi. 1603-1607-ci illər arasında Cəlali üsyanları

---

of Northern Persia and in the songs of the people inhabiting the shores of the Caspian Sea. London: Printed for the oriental translation fund of Great Britain and Ireland, and sold by W.H. Allen

[193] 82 Numaralı Mühimme Defteri (2000). (1026-1027/1617-1618), Ankara: Devlet Arşivleri Genel Müdürlüğü Yayınları; 85 Numaralı Mühimme Defteri (2002). (1040-1041 (1042)/1630-1631 (1632)), Ankara: Devlet Arşivleri Genel Müdürlüğü Yayınları; Boratav Pertev Naili (1984). Köroğlu destanı. İstanbul: Adam yayınları; Öztürk İsa (2003). Köroğlu destanı. İstanbul: Adam yayınları

bütün Anadoluya yayıldı. Bu üsyançılardan ən məşhurları Tavil Əhməd, Canbulatoğlu və Kaləndəroğlu idilər. Bu Cəlali başçıları dövlətin nəzarətini ortadan qaldırdılar, kəndliləri incitməyə başladılar. Xalq başını götürüb dağlara sığınmak zorunda qaldı. Osmanlı tarixinə bu dövr "böyük qaçgun" illəri kimi düşdü.

Araşdırmaçıların (P.N.Boratav, F.Sümer, M.Akdağ, A.H.Avcı, M.Təhmasib, X.Koroğlu, F.Fərhadov, P.Əfəndiyev, A.Özkırımlı və b.) israrla Koroğlunu tarixi şəxsiyyət hesab etmələri də Osmanlı Mühimmə Dəftərlərinə əsaslanmaqla mümkün olmuşdur. Təbii ki, orta çağ ənənəsinə qarşı çevrilən bu üsyan və ondan sonrakı tarixi hadisələrin epik izləri Koroğlu dastanının, xüsusilə Anadolu və Azərbaycan variantlarında qorunmuşdur. Ancaq heç bir halda Cəlali Koroğlu mifoloji və epik qəhrəman tipinin prototipi ola bilməz. Bu daha öncə baş vermiş tarixi hadisələrin xalqın çox sevdiyi Koroğlu ətrafında yenidən dastanlaşmasından başqa bir şey deyildir[194]. Burada onu da qeyd etmək lazımdır ki, Şeyx Cəlalın başlatdığı üsyan yatırılsa da bundan sonra idarəçilərə qarşı üsyanlar Cəlali üsyanları adı ilə yad edilməyə başladı. Azərbaycan Koroğlusu da bu aspektdən dəyərləndirilmiş, sovet tarixçiləri də Koroğlunu Cəlali üsyanlarında iştirak etmiş üsyançı kimi tədqiq etmişlər. Sovet tarix elmində sosial quldur termini olmadığından onlar Koroğlunu kəndli hərəkatı nümayəndəsi elan etməşlərdir.

İkincisi, milli dəyərləri yüksək olan dastanlar yasaqlandığı halda, Koroğlu kimi daha "xəlqi", daha "inqilabi", daha çox "sinfi mübarizə konsepsiyasına uyğun" dastanlar yasaqlanmadı. Qaçaqlar sovet rejiminin gözündə əzilən kütlənin təmsilçiləri olub keçmişin bütün dəyərlərinə qarşı savaş açan

---

[194] Bayat Fuzuli (2009). Türk destancılık tarihi bağlamında Köroğlu destanı (Türk dünyasının Köroğlu fenomenolojisi). İstanbul: Ötüken, s.42

igidlərdir və ya belə görülmək istəyən bir qrup insanlardır. Ona görə də etalon Koroğludan başqası ola bilməzdi. Belə ki, həm Azərbaycan, həm də Türkiyə variantlarında Koroğlu qaçaq düşmüş igiddir. Özəlliklə Türkiyə variantlarında o, Osmanlı yönətiminə qarşı üsyan çıxarmış Cəlalidir. Bunu Baş Bakanlıq arxivindəki materiallar da isbatlayır. Koroğlu qərb versiyasında bütün tərəfləri ilə qaçaqdır və sonradan yaranan bütün qaçaq dastanlarının örnəyidir. Ancaq burada önəmli bir fərqi də göz ardı etmək mümkün deyildir. Koroğlu kəndli deyildir və mübarizəsi də torpaq üçün deyildir.

Qaçaqlar haqqındakı folklor materialları bütünü ilə Koroğlu ənənəsi üzərində qurulmuşdur. Belə ki, Koroğlu, XVI yüzil Türkiyəsində dərəbəyliyə qarşı çıxmış, bütün türk dünyasında məşhurlaşmış xalq qəhrəmanıdır ki, Bolu tərəflərdə karvan yollarının üzərində yerləşməklə varlıları xərac verməyə məcbur etmiş, yoxsulun, məzlumun, əzilənin tərəfdarı olmuş və öz qanunları ilə hökmlər vermişdir. Onun bu özəlliyi sonradan yaranan qaçaq dastanlarında da eyni ilə saxlanmışdır. Hətta Koroğlu şeirləri, Koroğlu ruhu qaçaq dastanlarının süjet xəttində aparıcı olmuşdur. “Qaçaq Nəbi”, “Qaçaq Kərəm”, “Səməd Ağa”, “Molla Nur”, “Qaçaq Usuf”, “Qandal Nağı” və b. bu kimi qaçaq dastanlarının formalaşmasında yuxarıda da dediyimiz kimi “Koroğlu” örnək rolunu oynamışdır. Hər bir qaçaq dastanı adını daşıdığı qəhrəmanın mübarizə apardığı tarixi kəsimdən bir qədər sonra dastanlaşsa da, bunların çoxu canlı icra ortamından toplanmışdır. Buna baxmayaraq qaçaq dastanlarında “Koroğlu” motivlərinin bənzərləri ilə qarşılaşırıq. Xüsusən, “Qaçaq Nəbi” dastanı bu cəhətdən spesifikdir. O baxımdan qaçaq dastanlarını Koroğlu epik ənənəsi modelində qurulduğunu söyləmək mümkündür. Ancaq bu fəsildə bütün qaçaq dastanlarının “Koroğlu” ilə məzmun, ruh, süjet-kompozisiya, şeir və s. baxımından əlaqəsi öyrənilməyə-

cək, bəzi dastanların nümunəsində bu sələf-xələf münasibəti araşdırılacaqdır.

Koroğlu Qaçaq Kərəmin həm özü, həm də qaçaqları üçün də canlı örnəkdir, bir qəhrəmanlıq simvoldur. Onların davranışları, hünərləri, əxlaqları "Koroğlu əxlaq kodeksi" üzrə qurulmuşdur. Belə ki, Koroğlu kimi, Qaçaq Kərəm də kasıbların, yoxsulların nicat yeridir. Məsələn qubernator bir kəndlinin qızını nişanlısı ola-ola zorla ələ keçirmək istəyəndə əli hər yerdən üzülən ata Kərəmə müraciət etməli olur. Kərəm də bu əxlaqsız hərəkətinə görə qubernatoru cəzalandırır.

"Qaçaq Kərəm"dastanında Kərəmin qaçaqlarından biri olan İsmayıl öz igidliyini, qorxubilməzliyini Koroğlunun qılınc çalmağı və vuruşmağı ilə müqayisə edir:

Vuruş meydanında mən bir balayam,
Leşi leş üstünə gərək qalayam!
Koroğlu tək indi qılınc çalayam,
Qatacam bunları daşa, vurhavur![195].

Eyni zamanda İsmayıl ölüm ayağında da Koroğlunun adını çəkir, ondan güc aldığını söyləyir:

Kərəm, azğın düşmənləri
Qıra-qıra gəlmişəm mən.
Koroğlu tək bu meydanda
Gürzü, qılınc çalmışam mən[196].

Qaçaq Kərəmin davranışında, zövqündə Koroğlu ruhu hakimdir. Yenə "Qaçaq Kərəm" dastanında qəza naçalnikinin Kərəmi şərə salmaq üçün Namaz kişini ələ aldığı səhnəni oxuyanda Hasan paşanın Keçəl Həmzənin əliylə Koroğlunun Qıratını oğurladığı səhnəni xatırlamamaq mümkün deyi. Ko-

---

[195] Yeddi dastan (1989). Toplayanı və tərtib edəni: R.Rüstəmzadə. Bakı: Azərnəşr, s.31

[196] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri. Bakı: Yurd, s.36

roğlu kimi Kərəmə də tələ qurulur. Kərəm də Koroğlu kimi tələdən sağ-salamat çıxır.

Bir gün Kərəm İrəvan tərəflərə gedir və orada Seyidəli adlı bir kişinin qonağı olur, Çuğul xəbər verir, İrəvan xanı onun evini mühasirəyə alır. Kərəm təslim olub öz qollarını bağlatdırır. Bu da Bolu bəyin Koroğlunun qollarını bağlatdığı səhnənin bir başqa varinatıdır[197].

"Qandal Nağı" dastanında qəhrəman düyüş qabağı dəstənin ən təcrübəli qaçağı olan Qoca Seyiddən soruşur:

"– 40 ildir qaçaqçılıq edirsən. De görüm, bu qaçaqlıq kimdən qalıb?

Deyir:

– Qaçaqlıq Qoç Koroğludan yadigardır"[198].

Aşıq Hüseyn Bozalqanlının "Tanrıverdi" dastanı həm strukturu, həm forması, həm də şeirləri ilə Koroğlu epik ənənəsi üzərində qurulmuşdur. Məsələn, bir şeirdə;

Səfər olur Gürcüstana
Olsun dəllərin saz gərək
Talan salın yalmaşqana
Qisası alaq tez gərək...

Tanrıverdi doyub cana
Canı çürütdü əfsana
Talan salax knyaz xana
Dəli döyranı yaz gərək[199].

Və ya başqa bir yerdə:

---

[197] Sadıq İslam (2015). Azərbaycan "Koroğlu" eposu. I kitab. Bakı: Elm və təhsil, s.22
[198] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.242
[199] Azərbaycan dastanları (1972). 5 cild. Tərtib edən: Ə.Axundov. Bakı: Elm, s.404

Çağıraram haqqı düşərəm yola
Bu hayfı knyazda ölsə qoymaram[200] -

Misraları ilə başlayan qoşma Koroğlu şeiri ilə məzmun və formaca çox yaxındır. Dastanın Aşıq Hüseyn Bozalqanlı variantında Qaçaq Tanrıverdinin Koroğlu kimi nərə çəkdiyi, düşmənləri qorxutduğu söylənir. Tanrıverdinin nərəsindən düşmənlər yerlərində donurlar, tərpənə bilmirlər. Eyni ilə Qaray Söyün də nərə çəkir. Məsələn, pristavın əmri ilə əli-qolu qandallanan Qaray Söyün bir şeirdə belə deyir:

Onda Söyün iyidliyin bildirər
Düşməni ağladıb, dostu güldürər
Nərə çəkər hamınızı öldürər
Sən gəl düşmə pis gümana nəçənnik[201].

Qaçaq dastanlarında üslub, deyim, süjet-kompozisiya, bir sözlə poetik arxitektonika "Koroğlu" dastanı üzərində qurulmuşdur. Qaçaqlarla Koroğlu və onun dəliləri arasında metonimik səviyyədə mənəvi, psixoloji, simvolik paralellərin olması da bu üzdəndir, "bütün qəhrəmanlıq dastanlarında bir-birinə oxşar səhnələrə rast gəlinməsinə təbii baxmaq lazımdır. Qəhrəmanlığı, igidliyi, mərdliyi səciyyələndirən ayrı-ayrı keyfiyyətlər bütün qəhrəmanlıq dastanlarının ruhuna, mayasına hopduğundan, bu cür oxşar səhnələrin mövcudluğu gözlənilən haldır. Bunlarda "Koroğlu"nun təsiri danılmazdır"[202]. Məsələn, "Qara Söyün" dastanında pristavla Qara Söyün arasındakı dialoqa nəzər yetirək:

"– Əyə, Qaray Söyün, özünü Koroğluya oxşadırsan. De görüm, onu tanıyırsanmı? Deyirlər, onun bu yerlərdə səngəri var.

---

[200] Azərbaycan dastanları (1972). 5 cild., s.405
[201] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.209
[202] Sadıq İslam (2015). Azərbaycan "Koroğlu" eposu. I kitab. Bakı: Elm və təhsil, s.24

– Nəçənnix, mən heç yana qaçan deyiləm, heç olmasa, ya ayağımı, ya da qollarımı açın, günün istisidi, bir nəfəs alım, üstəlik Koroğlunun səngər yerini də göstərim”[203].

Yenə başqa bir yerdə Qaray Söyünün ayaqlarındakı kəndiri açdıqdan sonra o, ucadan bir nərə çəkərək oxuyur[204].

İstər ironik səhnələr olsun, istərsə də ciddi səhnələr, qaçaq dastanlarında Koroğlu ruhu hakimdir. Qaçaqçılığın yazılmamış kodeksinin Koroğlu adı ilə bağlılığı sonrakı qaçaq dastanlarının yaranmasını da “Koroğlu” dastanının yaranma şərtlərinə yaxınlığı qaçaqların həm bir-birinə bənzər təsvirlərinin yaranmasına, həm də bənzər qəhrəmanlıq səhnələrinin ortaya çıxmasına səbəb olmuşdur.

Həm Qaçaq Nəbi, həm Qaçaq Kərəm Koroğlu kimi nərə çəkib özünü düşmən qoşununa vururlar. “Kərəm elə nərə çəkdi ki, Dilboz da səsinə səs verib tükləri ürpədən kişnərti qopardı. Yer-göy lərzəyə qəldi”[205]. Təbii ki, bu bənzərliklərlə bərabər dastanın ruhu, döyüş səhnələri, şeirləri Aşıq Avılın qoşduğu “Qaray Söyün” dastanının Koroğlu epik ənənəsi üzərində qurulduğundan xəbər verir.

Ayıq olun əzizlərim
Duraq meydanda-meydanda
Qoşun çəkən düşmənləri
Qıraq meydanda-meydanda[206].

Qaray Söyünün öz atına müraciətlə dediyi şeir Koroğlunun Qıratına dediyi şeirin başqa bir variantıdır:

Canım Göy at, gözüm Göy at
Qurtar məni bu meydandan

---

203 Yeddi dastan (1989). Toplayanı və tərtib edəni: R.Rüstəmzadə. Bakı: Azərnəşr, s.129
204 Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.210-211
205 Yeddi dastan (1989)., s.132
206 Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.213

Sənə qurban özüm Göy at
Qurtar məni bu meydandan

Heç tövlənə gələn olmaz
Əhvalını bilən olmaz
Arpa saman alan olmaz
Qurtar məni bu meydandan[207].

Atın tərifi "Qaçaq Nəbi" dastanında daha genişdir. Məsələn, Nəbinin Boz atı o zaman dillər əzbəri olmuşdur. Hətta Koroğlunun Düratı kimi Qaçaq Nəbinin Boz atını da oğurlayırlar. "Elə bil Nəbinin başından bir qazan qaynar su tökdülər. Bu zaman görək Nəbi nə dedi:

Oğurlandı yaman yerdə Boz atım,
Qırılıbdi tamam qolum-qanadım.
Boz atsız mən necə rahatca yatım?
Ürəkdən istərəm səni, Boz atım!
Sənsən mənim qolum, həm qanadım!

Qaçaq Nəbinin Boz atı ilə Koroğlunun Qıratı arasında xasiyyət oxşarlıqları var:

"...Boz at ayaqlarını yerə döyüb, ağzını şir kimi açdı. Nəbi onun belinə sıçradı, Boz at yernən-göynən gedirdi, bunu görən Nəbi dedi:

Boz atım davada pələngdi, pələng,
Qızıl quş baxışlı gözləri qəşəng,
Belimdə qılıncım, çiynimdə tüfəng.
Boz atım, yeri ha, aman günüdü,
Həcərim qalada yaman günüdü" [208].

Kərəmin və atası Molla Zaloğlu İskəndərin də atı Nəbinin atı kimi sanki dil bilir. Hətta Molla Zaloğlunun atının adı da Boz

---

[207] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.216
[208] Behcət Bəhlul (2011). Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə). Bakı: Çıraq, s.259-260

atdır. Dastanda deyilir ki, İskəndərin dəfni zamanı at baş götürüb meşəyə qaçır, amma gecələr sahibinin qəbri üstünə gəlir.

"...Zil qaranlıq bir gecədə Kərəm qaçaq yoldaşları ilə atasının qəbri üstünə gəlmişdi. O, qəbrin üstündə göz yaşı tökərək intiqam alacağına söz verirdi.

Birdən qəbirsanlığın hansı səmtindənsə bir şaqqıltı eşidildi. Balasöyün səsə diqqət kəsildi və Kərəmi dümsüklədi:

– Deyəsən, bizi izləyirlər.

Arada sakitlik oldu. Elə bu vaxt təpənin günbatan tərəfində bir qaraltı göründü. Balasöyün eyməndi. Bu, nə idi?

Onlar tez babaları Molla Zalın qəbri arxasında gizləndilər. Tüfənglər qaraltı gələn səmtə tuşlandı.

...Kərəmin qəlbini sevinc qarışıq bir kədər çuğladı.

Qəbrə yaxınlaşan iri qaraltı İskəndərin atı idi. Kişinin bütün yar-yarağı üstündə idi. Hənirti hiss eyləyən at ürkək-ürkək gəlib düz qəbrin yanında dayandı. Qəbri imsilədi, sonra da üzünü, boynunu baş daşına sürtdü. Yada Zal qızı Gülnazın məşhur bayatısı düşdü:

Boz at, səni öyən hanı?
Başındakı yüyən hanı?
Bu dünyada gün görməmiş,
Söylə igid yiyən hanı?!

Kərəm atı çağırdı. Köhlən ayaq üstə durub ona sarı gələn Kərəmi səsindən, iyindən tanıdı. Astadan kişnəyərək mehribanlıq göstərdi.

...Kərəm atasının dəstəyi sədəfli, ilandilli xəncərini yəhərdən açıb belinə bağladı, qoltuqaltısını çiyninə keçirdi. Aynalı tüfəngini əlinə alıb atın belinə qalxdı".

Bu at Qazağın məşhur atlarından olan "Dilboz"du. Dastanın bir yerində deyilir: "...İnsan kimi dil bilən Dilboz da tələsmədən daşlı-çınqıllı, kollu-koslu dar cığırı əlinə alıb döşdə-

ki çəmənliyə dırmanır və elə bil bu çəmənliyin gözəlliyini pozmamaq üçün ayaqlarını yerə asta-asta basırdı...

...Bu zaman Kərəm elə nərə çəkdi ki, "Dilboz" da səsinə səs verib tükləri ürpədən kişnərti qopardı. Yer-göy lərzəyə qəldi. Hər ikisi eyni zamanda bir-birinin üstünə şığıdı...

...Şahə qalxan "Dilboz" da sanki qabaq ayaqları ilə Gülçöhrənin köhlənini döyürdü.

Meydanda cövlan edən "Dilboz" elə coşmuşdu ki, indi yoxuş da gözünə eniş kimi görünürdü.

...Güllə açılan kimi Kərəm yəhərdən aşağı aşırıldı. Lakin bir ayağı ilişib üzəngidə qaldı, atdan sallaqlı halda xeyli "Dilboz" meydanın o başından dövrə vurub qayıdanda yerlə süründü.

Dilboz dövrə vurub geri qayıdanda Kərəm rəqibinin hələ də öz qələbəsi ilə nəşələndiyini eşidib ona çatar-çatmaz birdən atın belinə qalxıb atəş açdı... Onu ölmüş bilib heyrətə gəldi..."[209].

Digər qaçaq dastanlarında da kifayət qədər Koroğlu şeirləri, Koroğlu ruhu ilə səsləşən yerlər vardır. Qaçaq dastanları Koroğlu epik ənənəsi üzərində formalaşsa da bir-birindən bir çox özəlliyinə görə fərqlənir. Bunu "Hacı Tağı" dastanında da görmək mümkündür. Təbii ki, bütün bunlara baxmayaraq bu qaçaq dastanı da Koroğlu təsirindən kənarda deyildir. Məsələn, "Koroğlu" dastanının Azərbaycan variantında "İnan Bolu mən Koroğlu deyiləm" misrası ilə başlayan qoşma çox az fərqlə "Hacı Tağı" dastanında da təkrarlanır:

Bir dəli doluyam yoxsul qəhrində
İnan Zöhrab, mən Hacı Tağı deyiləm
Güney mahalında Şahpur şəhrində
Aman Zöhrab, mən Hacı Tağı deyiləm[210].

---

[209] Yeddi dastan (1989)., s.132

[210] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.179

## 5.2. İdeoloji və siyasi fakelorda qaçaq dastanlarının rolu

Heç şübhəsiz, aşıqların, el şairlərinin və söyləyicilərin bu igid, cəsur insanlar haqqında söylədikləri qəhrəmanlıq şeirləri, nəğmələri və rəvayətləri qaçaq dastanlarının yaranmasında və təşəkkülündə böyük rol oynamışdır. Özəlliklə Qaçaq Nəbi, Qaçaq Dəli Alı və Qaçaq Kərəm haqqında ən çox qəhrəmanlıq nəğmələri qoşulmuş və rəvayətlər, hekayətlər söylənmiş, onların silahdaşları, atları, xüsusən də Nəbinin Boz atı və xanımı Həcər geniş vəsf edilmişdir. "Aşıq məclislərində Qaçaq Nəbi, onun qəhrəmanlıq mübarizəsi, arvadı Həcərin və döyüş yoldaşlarının qoçaqlığı böyük bir məhəbbətlə vəsf edilmiş, el şairləri, xanəndələr Qaçaq Nəbi haqqında oynaq ritmli qəhrəmanlıq nəğmələri, dolğun məzmunlu rəvayətlər yaratmışlar. Zaman keçdikcə bu nümunələr peşəkar ifaçıların repertuarında yeni yaradıcılıq mərhələsi keçib dastanlaşmışdır"[211]. Hər halda XX əsrin əvvəllərində Qaçaq Nəbi, Qaçaq Kərəm obrazları Koroğludan sonra Azərbaycan folklor mühitində və qismən də aşıq yaradıcılığında ən çox yayılan qəhrəmanlardan olmuşdur.

Digər tərəfdən məşhur olan başqa qaçaqlar haqqında yaranmış nəğmələr və rəvayətlər də sonradan dastanlaşma prosesi keçirmişdir ki, bunlardan Qaçaq Tanrıverdi, Qaçaq Süleyman, Qaçaq Usuf, Qaray Söyün, Qaçaq İsaxan və digərlərini göstərmək olar. Folklorun həcmcə böyük janrı olan dastanların əsasən, çar qaçaqları haqqında yarandığını da vurğulamaq lazımdır. Xarakterik olaraq sovet rejiminə qarşı vuruşan qaçaqlar daha çox şıfahi tarixdə və ona yaxın janrlarda

---

[211] Nəbiyev Azad (2004). "Qaçaq dastanları". Azərbaycan ədəbiyyat tarixi. I cild. Bakı: Elm, s.678- 679

yaşadılmışdır. Bunun əsas səbəbi hər iki siyasi-ideoloji rejimlə və bu rejimlərin qaçaqlara baxışı ilə bağlıdır.

Azərbaycan folklorşünaslığında fakelor haqqında yazdığımız məqalədə bu terminin ortaya çıxması, mədəniyyətdəki rolu, zərərləri və hətta bəzən fayda verə biləcəyi məsələlərinə toxunulmuşdur[212]. Burada fakelor probeleminin nəzəri məsələlərini bir də təkrarlamadan qaçaq dastanlarının bir neçə istisna xaric çoxunun bir fakelor olduğu üzərində durulacaqdır. 1950-ci ildən ömrünün sonuna qədər folkloru saxtalaştıranlarla mübarizə edən R.Dorson 1950-1969-cu illərdə yazdığı məqalələri bir yerə gətirərək, nəhayət 1976-cı ildə nəşr etdirdiyi kitabında[213] fakelora belə bir tərif verdi: "Fakelor həqiqi olduqları iddia edilən saxta və uydurma əsərlərin təqdimidir. Bu materiallar ekspedisiyalarla toplanmazlar, ancaq təkrarlama zincirində əvvəlki ədəbi əsərlərdən və qəzet yazılarından faydalanılaraq yenidən yazılırlar"[214]. Təbii ki, bir çoxu fakelor məhsulu olan qaçaq dastanlarından əksəriyyətinin məlum rəvayətlər, nəğmələr əsasında yaradıldığı kimi, bəziləri də başdan sona qədər müəllif təxəyyülünün məhsuludur. Bəziləri aşıqlara sifariş verildiyi kimi (məsələn, Qaçaq Nəbi, Qaçaq Kərəm), bəziləri də toplayıcıların özləri tərəfindən (məsələn, Qatır Məmməd) qələmə alınmışdır. Fərqli süniləşdirmə üsullarına baxmayaraq qaçaq dastanlarının böyük bir qismi fakelor hadisəsidir.

Qaçaq dastanları qaçaqlar haqqında yaranan rəvayət, nəğmə, deyim və s. dən fərqli olaraq ideoloji və siyasi, bəzən

---

[212] Bayat Füzuli (2008). "Fakelor-folklor qarşıdurması və fakelorçuluq haqqında", Dədə Qorqud. 2, s.71-80

[213] Dorson R.M. (1976). Folklore and fakelore: essays toward a discipline of folk studies, Harvard University Press

[214] Sitat, Dundes Alan (2007). "Fakelor fabrikasyonu", Folklorun sahtesi: fakelore, Ankara, s.71.den alınmışdır.

də təəssübkeşlik baxımından yaranmışdır. Təbii ki, bu dastanları və ya dastana bənzər əhvalatları folklor deyil, fakelor adlandırmaq daha doğru olacaqdır. Ona görə də qaçaq dastanları bilinən klassik dastan şəklindən çox-çox uzaqdır.

Əvvəlan, bu dastanlar özlərinə geniş auditoriya tapa bilmədilər, toylarda, şənliklərdə icra edilmədilər və ya nadir halda ifa mühiti tapa bildilər.

İkincisi, qaçaq dastanları hələ tam dolğunlaşmadığından qəhrəmanlıq dastanlarının struktur-semantik özəlliyini tam şəkildə yansıtan dastan hesab etmək mümkün deyildir.

Üçüncüsü, həm dastan arxitektonikası, həm də dastan poetikası baxımından bunlar rəvayətlə şeirli anlatı, şifahi tarixlə dastan arasında yeni bir növdür və ya janrdır – deyə bilərik.

Qaçaq dastanları və onların qəhrəmanları haqqındakı araşdırmalar ideoloji folklorun, yəni fakelorun ən bariz örnəyidir. Ancaq buna baxmayaraq sənayeləşmənin, kollektivləşmənin sürətlə həyata keçirildiyi XX yüzilin 30-cu illəri həm də Stalin repressiyasının ən ağır illəridir. Qaçaq dastanlarının çoxunun məhz bu illərdə yazıya alınması, variantlarının yayqın olmaması, digər aşıqların bu dastanları bilməməsi belə bir ehtimal irəli sürməyə əsas verir ki, bu dastanlar siyasi-sosial sifarişlə qoşulmuşdur. Bundan başqa qaçaq dastanlarının struktur-semantikası bir qayda olarak Koroğlu dastanını xatırladır. Görünür aşıqlar sifarişi yerinə yetirmək üçün xalqın içində mövcud olan rəvayətləri, varsa nəğmələri, varsa qaçaq şeirlərini bir yerə gətirmiş Koroğlunun struktur-kompozisiyasına uyğun yeni bir dastan yaratmağa çalışmışlardır. Koroğlu dastanının qaçaq dastanlarının yaranmasında etalon rolunda çıxış etməsinin bir neçə səbəbi vardır.

Qaçaq dastanlarından təbii ki, Qaçaq Nəbi ən məşhur olanıdır ki, fakelore olduğu səthi oxunuşdan da aydın olur. Həm də bu dastanı toplayıb ilk dəfə nəşr edən Ə.Axundov xa-

tirələrində 1939-cu ildən Qaçaq Nəbi, Sarı Aşıq haqqında mahnıları, rəvayətləri topladığını söyləyərək dastanın əslində mövcud olmadığını, rəvayətlərdən, xatirələrdən, mahnılardan yarandığını göstərir: "1939-cu ilin avqust ayında mən Qaçaq Nəbi haqqında folklor nümunələri və xatirələr toplamaq üçün Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Sisyan, Qafan, Mığrı, Noraşen, Culfa, Naxçıvan, Ordubad, Şahbuz, Hadrud, Şuşa, İrəvan rayonlarına, Qaçaq Nəbinin döyüşlər keçirdiyi yaylaqlara və dağlara iki ay müddətinə ekspedisiyaya ezam edildim. Ekspedisiya zamanı Qaçaq Nəbinin yoldaş, dost və tanışlarından külli miqdarda nümunələr, rəvayətlər və xatirələr topladım. Bu nümunələr əsasında "Qaçaq Nəbi" kitabını tərtib edib, Süleyman Rəhimovun redaktəsi altında nəşriyyata təqdim etdim. "Qaçaq Nəbi" kitabı 1940-cı ildə böyük tirajla çapdan çıxıb satışa buraxıldı"[215].

Qaçaq Nəbidə digər qaçaq dastanlarında rast gəlmədiyimiz etnik vəsf və etnik kimliyə vurğu diqqət çəkməkdədir. Məsələn, çar məmurunun dilindən verilən "Arvadını həbs etsək bir kürd oğlu kimi qeyrəti bu işi qəbul etməyəcək, yəqin ki, özü gəlib təslim olacaq"[216]. Və ya başqa bir yerdə Səlimbəy Həcərə belə deyir: "A kürd qızı, kürdlüyünə salma, düzünü de görüm, Nəbi indi haradadır?"[217] Təbii ki Çar Rusiyası dövründən qalma kürdlük məsələsi etnik anlayışdan daha çox dağ adamı, qanun tanımayan, hələ də ənənəvi qonar-köçər həyatlarını davam etdirən insanlara deyilirdi. Dağlıq bölgədə oturaqlaşan, əkinçiliklə məşğul olan əhaliyə də kürd deyilməsi bir adət halını almışdı. Ona görə də bu gün saylarının təqri-

---

[215] Axundov Əhliman (2003). Xatirələrim, Bakı: Azərbaycan milli ensiklopediyası‖ nəşriyyat-poliqrafiya birliyi, s.70

[216] Qaçaq Nəbi (1960). Tərtib edəni H.Qasımov. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, s.21

[217] Qaçaq Nəbi (1960). s.54

bən 15-20 milyon arası olduğu deyilən kürdlər, əsasən Türkiyə, İraq, Suriya, İran və Ermənistanın dağlıq bölgələrində məskunlaşıblar. Əsasən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan kürd əhalinin sayı isə 13 min göstərilir, ancaq dağ adamı mənasında etnik baxımdan kürd olmayanlara da kürd deyilir ki, Qaçaq Nəbi də bunlardan ən məşhur olanıdır. Qaçaq Nəbinin türk oğlu olduğunu onun həmyerlisi ilahiyatçı, tarixçi, folklorçu Bəhlul Bəhcət 1930-cu illərdə yazmışdır və qəhrəmanın milli, etnik kimliyinə dair mübahisəli məsələni birdəfəlik həll etmişdir: "Aşağı və Yuxarı, hər iki Mollu türk qövmünə mənsubdur"[218].

Burada qeyd etmək lazımdır ki, Qaçaq Nəbi dastanının daha geniş və yenidən işlənmiş 2009-cu il nəşrində bu yerlər mətndən çıxarılmışdır və ya daha öncə əlavə edilənlər sonrakı nəşrə salınmamışdır. Dastanın 1960-ci il nəşrinin sifarişlə yazıldığı, bir fakelore örnəyi olduğu ermənilərin igid, dostluğa sədaqətli, fədakar göstərilmələri ilə də təsdiqini tapər. Hətta dastanın bu variantında Nəbi də ermənicə bilir və erməni ilə ermənicə danışır. Ancaq yenə də şifahi tarixdən gələn bəzi həqiqətlər az da olsa qorunmuşdur. Məsələn, dastanda qardaşı Mehdinin erməni kəndində mühasirəyə salınıb erməni tərəfindən arxadan vurulmaqla öldürüldüyü buna misal ola bilər[219].

Qaçaq Nəbidən fərqli olaraq Qaçaq Kərəm, Dəli Alı, Qandal Nağı, Qara Tanrıverdi dastanlarında milli münasibət və mənsubiyyətə, məsələn, türk oğlu, türk kəndlisi kimi deyimlərə rast gəlmək mümkün deyildir. O halda nədən bu kürdlük məsələsi Qaçaq Nəbi dastanına düşmüşdür, sorusu ağıla gəlir. Doğrudur kürd etnik adı Koroğlu dastanında da qalmışdır. Ancaq Koroğluda kürd anlamaz, dövlət tərbiyəsi

---

[218] Bəhcət Bəhlul (2011). Qaçaq Nəbinin tarixi (Vəsiqə və sənədlər üzrə)
[219] Qaçaq Nəbi (1960). s.70

görməmiş, düşmənlərin tərəfində olan adam kimi göstərilir. Xüsusən, bunu Koroğlunun Antep rəvayəti açıq şəkildə göstərir. Qaçaq dastanlarında isə milli və ya etnik kimlik məsələsi sırf aidiyyat məsələsidir. Bunlar fakelorun siyasət və təbliğat materialı kimi istifadəsindən daha təhlükəlidir[220].

Qaçaq Nəbi dastanının bəzi yerlərində "Nəbi urusları burda qoymadı" misrası onun heç də rus imperializminə qarşı mübarizə apardığı anlamına gəlməz. Digər tərəfdən onun mübarizəsi milli azadlıq mücadiləsi də deyildir. Bu tipik şəkildə zülmə dözməyib zalımın cəzasını verən və qanun qaçağı olan bir adamın kəndli hərəkatı çərçivəsində fəaliyyət göstərməsi, tez-tez yerini dəyişməklə ala biləcəyi cəzadan yayınmasıdır. Onun haqqındakı rəvayətlər, folklor xatirələri də bunu təsdiqləyir. Qaçaq Nəbi dastanında bu fərdi mübarizənin ictimailəşdirilməsi və sinfiləşdirilməsi, sovetlərin çökməsindən sonrakı redaktədə isə milliləşdirilməsi fakelor hadisəsidir, həqiqi xalq yaradıcılığı ilə əlaqəsi yoxdur.

Xalq arasında və aşıq repertuarında mövcud olmayan sovet dastanlarından biri də Qatır Məmməddir. Hətta bu dastanın fakelore olduğu açıq şəkildə etiraf edilir. "1949-cu ildən başlayaraq, 6-7 il xalq qəhrəmanı Qatır Məmməd barədə xatirələr topladım. Bu xatirələr əsasında bir dastan yazdım. Bu dastanda yüz qatara yaxın şeir vardır ki, onların da hamısını özüm yazmışam. "Qatır Məmməd" dastanı öz əsərimdir. Bu dastanı Məmməd Hüseyn Təhmasib diqqətlə redaktə etmişdir"[221]. Əhliman Axundov burada Qatır Məmməd dastanının yazılma səbəbini və M.Təhmasibin bu dastanı redaktə edib ictimaiyyətə çatdırma səbəbini izahetməsə də hər halda sovetləşmədə bu fa-

[220] Folklordan siyasət və təbliğat materialı kimi istifadə haqqında bax: Kamenetsky Ch. (1972). "Folklore as a political tool in nazi Germany", Journal of American folklore, 85

[221] Axundov Əhliman (2003). Xatirələrim, s.86

kelor nümunəsinin rolu xalq kütlələrinin inqilabi əhval-ruhiyyədə tərbiyəsində mühim rol oynamış, folklorçuların da saxta nümunələr düzəltməkdə geri qalmadıqlarını bildirmişdir. Bu etiraf və etiraf edilməyən folklor materiallrı, həm də dastanlar kifayət qədər idi.

Aşıq mühitində geniş yayılmayan dastanlardan biri də "Səttərxan" dastanıdır ki, İrandakı şah rejiminə qarşı çevrildiyindən təbliğat xarakterlidir və sifarişlə yazılmışdır.

Süjet-kompozisiya baxımından bir-birinə çox yaxın olan "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qaçaq Tanrıverdi", "Qaçaq İsaxan", "Qandal Nağı", "Molla Nur", "Qaray Söyün" və b. Sovet dövründə sosialist ideologiyasına uyğun biçimdə dastanlaşdığından şifahi tarix baxımından bir çox təhriflərə məruz qalmışdır. Əfsanə və rəvayətlərdə, bayatı və mahnılarda təhrif az olsa da burada da mətnə toplayıcı müdaxiləsi şifahi tarix janrının olduğu kimi təqdiminin qarşısını almışdır. Buna baxmayaraq ideoloji örtüyün altında türk (Azərbaycan)-rus, türk-erməni etnik qarşıdurması açıq şəkildə görünür. Azərbaycan xalqına qarşı rus siyasətinin, erməni xəyanətinin xalq yaddaşı və xalq yorumu iri həcmli əfsanə və dastanlarda ideoloji örtüyün altında, işarə xarakterlidir.

Qaçaq dastanları bir çox parametrləri ilə fakelor nümunəsi olsa onları yaradan aşıqlar dövrün tanınmış saz-söz ustalarıdır. Buna baxmayaraq bu mətnlərin müəlliflərinin bir çoxu tam dəqiqliyi ilə bizə məlum deyildir. R.Rüstəmzadənin yazdığına görə, dastanlardakı qoşmalarda və xüsusilə dastanların sonunda verilmiş duvaqqapmalarda yaradıcı aşıq öz adını çəkmişdir[222]. Məsələn, açıq demək olar ki, Azərbaycan qaçaq dastanlarının bəzilərini hansı aşığın yaratdığı bilinməsə də, bir çoxunun yaradıcı aşığı məlumdur. Bu dastanların sonunda

---

[222] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri

dastanı qoşan aşıq öz məxləsini verməklə dastanın ona aid olduğunu bildirmişdir. Altı qaçaq dastanını nəşr edən R.Rüstəmzadənin kitabında (yeddincisi "Pəhlivan İsrafil" qaçaq dastanı deyildir) adları çəkilən dastanları yaradan aşıqlar haqqında məlumat verilmişdir[223]. Geriyə qalan dastanları yaradan aşıqlar isə aşağıdakılardır:

1) "Qara Tanrıverdi" dastanını Aşıq Hüseyn Bozalqanlı,

2) "Qandal Nağı" dastanını el şairi Xəyyat Mirzə,

3) "Hacı Tağı" dastanını Eynallı Aşıq Əşrəf,

4) "Qaray Söyün" dastanını Aşıq Avıl

5) "Qaçaq Süleyman" dastanını Aşıq Səftər

6) "Qaçaq Kərəm" dastanının 3 variantı var ki, (ancaq Q.Namazov Qaçaq Kərəmlə bağlı yazdığı monoqrafiyada "Qaçaq Kərəm", "Kərəmxan sərtib", "Kərəmlə Zalıxan", "Kərəmin Gürcistan səfəri" və "Kərəmlə İsrafil ağa" adlıdastanlardan bəhs edir[224].) ən mükəmməl variantı el şairi Qəmli Hüseyn[225], digər bir variantı isə Zərzəbilli Aşıq Məhəmməd,

7) "Səməd Ağa" dastanını ÇıldırlıAşıq Şenlik, yazılı variantını isə Əli Qurban Dastançı[226], mövzusu qaçaqçılıq olmayan "Aşıq Ələsgərlə Səməd Ağa Ağbaba ellərində" dastanını el şairi Hacı Loğman

8) "Molla Nur" dastanını XaltanlıAşıq Tağı,

---

[223] Yeddi dastan (1989).

[224] Namazov Qara (2005). Xalq qəhrəmanının şöhrəti. Bakı: Orxan

[225] Rüstəmzadə Rüstəm (1984). El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik, s.135

[226] Dastançı Əli Qurban (1995). Səməd ağa dastanı, Bakı: Göytürk; Başqa bir variantın da müəllifi Hacı Loğmandır. Bax. https://es-la.facebook.com/... /posts/aşiq...səməd-ağa...dastanın...-/806319832836606/

9) “Qaçaq Nəbi” dastanının 7 variantı mövcuddur[227]. Bir variantını Aşıq Yusif digər bir variantını isə Aşıq Mevlüt İhsani,

10) “Qaçaq Dəli Alı” dastanını Aşıq Ələsgər, yazılı variantını Əli Qurban Dastançı,

11) “Qaçaq Usuf” dastanını Aşıq İsgəndər Ağbabalı[228],

12) “Mehralı Bəy” dastanını Aşıq Məhəmməd Sadaxlı,

13) “Qaçaq İsaxan” dastanını el şairi Zahid Ələmpaşalı,

14) “Qaçaq Mahmud” dastanını da el şairi Zahid Ələmpaşalı yaratmışdır[229].

Əlimizdə olan və araşdırmaya daxil edilən bu on dörd dastandan həm süjet, həm də şeiriyyət baxımından nisbətən mükəmməl olanı Ə.Axundovun 1941-ci ildə topladığı və üzərində işlədiyi, yaxud yazdığı və təkrar 1961-ci ildə nəşr etdirdiyi “Qaçaq Nəbi” dastanıdır. Bu dastanda çox sayıda qoşma, bayatı, qitə vardır. “Qaçaq Nəbi” dastanı 26 qoldan ibarətdir. Həm də Qaçaq Nəbi” dastanının 7 variantı yazıya alınmışdır ki, bunlardan 3-ü Türkiyə ərazisindən toplanmışdır. Bu da dastanın fakelor hadisəsi olmasına baxmayaraq geniş yayılmasından xəbər verir.

Azərbaycan qaçaq dastanlarının hansı icra ortamında, bəzən də kimdən yazıya alındığı haqqında məlumat verilməmişdir. Halbuki dastanı ilk qoşan aşıq, sonradan onu icra edən aşıq/və aşıqlar, dinləyici kütləsi, icra ortamına təsir edən sosial şərait və s. çox önəmlidir. Bunlar nəzərə alınmadıqda folklor materialını

[227] Qaçaq Nəbi (Əhliman Axundov variantı), Qaçaq Nəbi (Azad Nəbiyev variantı), Qaçaq Nəbi (Ə.Tahirov variantı), Qaçaq Nəbi (Hüseyn Qasımov variantı), Qaçaq Nəbi (Zeynelabidin Makas variantı), Qaçaq Nəbi (Turgut Öcal variantı), Qaçaq Nəbi (Esma Şimşek variantı)

[228] Qaçaq Usuf (1994). Toplayan: A.Ağbaba, N.Məmmədcanlı. Bakı: Yazıçı ədəbi nəşrlər evi

[229] Borçalı folklor örnəkləri (2013). II Kitab. Tərtib edən E.Məmmədli. Bakı: Elm və təhsil

anlamaq mümkün olmur. Son dövrdə yazılan bəzi qaçaq dastanları isə artıq onların icra ortamında deyil, masada yazıldığını göstərir. Məsələn, Səməd Ağa dastanını Aşıq Şenlik, digər variantını isə el şairi Əli Qurban Dastançı, "Qaçaq İsaxan" və "Qaçaq Mahmud" dastanlarını da şair Zahid Ələmpaşalı yazmışdır. Daha öncə aşıqdan yazıya alınan dastanların da üzərində söyləyici müdaxiləsi vardır. Hətta Ə.Axundov "Qaçaq Nəbi" və "Qatır Məmməd" dastanlarını yazdığını xatirələrində açıqca bildirir[230]. Qaçaq dastanları fakelor aspektindən dəyərləndirildikdə, bir çox siyasi və ideoloji problemlər ortaya çıxır ki, bu da özünü dastanların həm məzmununda, həm də struktur semantikasında göstərir.

Bu xəyanət daha çox şifahi şəkildə yaşayan tarixi materiallarda qorunmuşdur. 1960-cı ildə nəşr edilən Qaçaq Nəbi kitabı əslində nəşrə hazırlayanların özlərinin də bilmədən çap etdirdikləri şifahi tarixdir. Ancaq sovet ideologiyasının bütün qadağanları və nəşri gerçəkləşdirənlərin kommunist əxlaqı burada şifahi tarix baxımından xalqın Qaçaq Nəbisindən çox, toplayıcıların Nəbisini təqdim etmişdir. Ona görə də burada qütbləşmə – bir tərəfdə bütün varlıların pis, bütün yoxsulların isə yaxşı olduğu düşüncəsi və məntiqi vardır. Şifahi tarix üçün spesifik olan etnik qarşıdurma burada sovet ideologiyasının da təsiri ilə sinfi qarşıdurmaya çevrilmişdir. Qaçaq folklorunda sinfi qarşıdurma var, ancaq bu qaçaq folklorunun bütün struktur-kompozisiyasını, mətnin məğzini, söyləyicinin (bəzi istisna hallarını nəzərə almasaq) məqsədini təyin etməz. Qaçaqçılıq qanuna qarşı gələn, varlıdan alıb kasıblara dağıdan, milli zülmə, diskriminasiyaya qarşı mübarizə aparan bir hərəkatdır. Ancaq bu bütünlükdə varlılardan heç bir nəfər də olsun yaxşı adamın çıxmaması mənasına gəlməz. Çünki sovet rejim qaçaqlarının çoxu əslində var-dövləti

---

[230] Axundov Əhliman (2003). Xatirələrim

əlindən alınmış insanlardır. Bu eyni zamanda bütünlükdə kasıblardan, məzlumlardan heç bir nəfərin də xain, satqın, pis insan olmadığı anlamına gəlməz. Ona görə də Qaçaq Nəbi 1960-cı il nəşrində şifahi tarix baxımından Nəbinin savaşları, getdiyi yerlər, münasibətdə olduğu tarixi şəxsiyyətlər haqqında qiymətli material versə də sinfi mücadilə müstəvisi üzərinə keçirildiyindən ideolojidir və folklordan çox, fakelordur, siyasi və ideoloji qayğılarla aşıqların yaratdıqları yeni dastan tipidir.

## 5.3. Qaçaq dastanlarının (mövzu, süjet və filoloji) özəllikləri

Sovet folklorşünaslığında qaçaqlar çarizmə, onun yerli əlaltıları olan bəylərə, mülkədarlara, canişinlərə və müsavatçılara qarşı vuruşan kəndli inqilabçıları kimi yeni müstəvidə təqdim və tədqiq edilməyə başlandı. Nəzəri fikri dəstəkləyən praktik baza olaraq da yeni qaçaq dastanları yaradıldı. Bunlardan bir çoxunun aşıqlar tərəfindən elə o zaman icra edildiyi bilinsə də bəziləri də sosializmin ruporuna çevrilmiş aşıqlara sifarişlə yazdırıldı. Ancaq sözlü kültürdə heçdən bir şey yaratmaq mümkün olmadığı üçün aşıqlar xalq arasında adları bəzən hörmətlə, bəzən də ikrahla çəkilən qaçaqlar haqqında məlum anlatı və nəğmələri bir araya gətirməklə dastan ənənəsi bazasında XIX yüzilin Çarlıq Rusiyasına və təhkimçilk siyasətinə qarşı savaşan qaçaqlardan bəhs edən "Səməd Ağa", "Molla Nur", "Qaçaq İsaxan", "Qara Tanrıverdi", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Muxtar bəy", "Qandal Nağı", "Qaray Söyün", "Qaraxanlı Nəbi", "Qaçaq Tağı", "Qaçaq Dəli Alı" kimi tarixi qaçaq dastanları düzüb-qoşdular. Sadəcə adları çəkilən qaçaq dastanlarının məzmunu və yaranma səbəbləri, mətni və kontekstinin incələnməsi hər birinin özünəməxsus özəlliklərinin olduğunu üzə çıxarır. Bu qaçaq das-

tanlarını tarixi qəhrəmanlıq dastanları adlandıran bəzi alimlərə görə onların bir neçə əsas xüsusiyyəti vardır:

1. Hər bir dastanın əsasında müəyyən bir tarixi fakt durur.
2. Əsas aparıcı qəhrəman tarixi şəxsiyyətin prototipidir. Bu şəxsiyyət bilavasitə tarixdə və tarixi sənədlərdə öz əksini tapmışdır.
3. Aparıcı qəhrəmanın doğulduğu yer, mahal, ölkə, habelə, vuruş, döyüş əraziləri müəyyəndir.
4. Müxtəlif həcmə, müəyyən sücetə, kompozisiyaya və ictimai–siyasi məzmuna malikdir.
5. Epik-lirik canra mənsub olmaqla ümumi dastan canrının şərtlərinə müvafiq, nəsrlə nəzmin növbələşməsi prinsipinə əsaslanır.
6. Bu dastanların əsas qayəsi vətənə və xalqa məhəbbət hissini aşılamaqdan, insan heysiyyətini, şərəfini qorumaqdan ibarətdir. Predmeti isə, əsasən, siyasi bərabərsizliyə qarşı mübarizədir[231].

Müəllif "Tarixi qəhrəmanlıq dastanları" adı altında apardığı araşdırmasına dastanların ideya və kompozisiyasına, məzmun və formasına görə aşağıdakıları daxil edir:

1. Kəndli hərəkatı ilə bağlı dastanlar.
2. Azadlıq uğrunda mübarizə dastanları.
3. Hərbi dastanlar[232].

Qaçaq dastanları birinci qrupda tədqiq edilir. Ancaq bu təsnifat da tam deyildir. Biz qaçaq dastanlarını qəhrəmanlıq və məhəbbət dastanlarından fərqləndirən özünəməxusluqlara dayanaraq bir az fərqli şəkildə qruplaşdırmaq istədik. Beləliklə, qaçaq dastanlarının əsas özəlliklərini aşağıdakı kimi sıralamaq mümkündür:

---

[231] Rüstəmzadə Rüstəm (1998). Azərbaycan tarixi qəhrəmanlıq dastanları. Gəncə: Gəncə nəşriyyat poliqrafiya birliyi, s.28

[232] Rüstəmzadə Rüstəm (1998). Azərbaycan tarixi qəhrəmanlıq dastanları, s.30

a) XIX yüzilin sonlarından aşıq repertuarında görünməyə başlayan qaçaq dastanlarının qəhrəmanları istisnasız olaraq tarixdə yaşamış, dövlətdən qaçaq düşmüş tarixi şəxsiyyətlərdir.

b) Çarlıq Rusiyası qaçaqlarından bəhs edən qaçaq dastanlarının əksəriyyəti həm struktur-kompozisiya, həm də motiv və süjet baxımından bir-birinə yaxın olub, əsas qəhrəmanı yoxsul kəndlilərdən ibarətdir. Bunun əksinə əksəriyyəti ortabab və varlı kəndlilərdən ibarət olan rejimə qarşı mübarizə aparan sovet qaçaqları haqqında heç bir dastan yaradılmamışdır.

c) XIX yüzilin sonları XX yüzilin ortalarına doğru və daha sonralar yaranmış qaçaq dastanlarını qoşan aşıqların çoxu qaçaqlarla eyni dövrdə yaşamış, hətta onları görmüş, hadisələrə şahid olmuş aşıqlardır.

d) Qaçaq dastanlarında qəhrəmanlıq dastanları üçün spesifik olan qeyri-adi fiziki güc, təkbətək döyüş səhnələri, hiperbolik təsvir, yaxud məhəbbət dastanlarında gördüyümüz buta almaq, haqq aşığı olmaq kimi ənənəvi dastan elementləri yoxdur.

e) Bu dastanlar klassik dastan səviyyəsinə yüksəlməsələr də, dastandakı bəzi elementlərin mövcudluğu ilə, məsələn, atalar sözləri və zərb-məsəllər, lirik mahnılar, əfsanə, rəvayət, lətifə və s. dastan strukturunu təkrarlayır.

f) Qaçaq dastanları üçün tipikləşdirmə əsas şərtdir.

g) Qaçaq dastanlarının yurd yeri qısa və ya bəsitdir, şeirlər klassik dastanlardan fərqli olaraq mükəmməl deyil və bəzən də hadisələrlə tamamlanmır.

h) Süjet xətti primitivdir, motif rəngarəngliyi yoxdur, mövzu bir-birinin demək olar ki, eynidir və s.

i) Klassik dastanlardan fərqli olaraq qaçaq dastanlarında qəhrəmanın dünyaya gəlməsindən deyil, uşaqlıq və gənclik illərindən və əsasən, qaçaqçılıq fəaliyyətindən bəhs edilir.

j) Qaçaq dastanlarında qəhrəmanların mübarizəsi, döyüş səhnələri, əsir düşmələri, xəyanətə uğramaları tarixi gerçəkliklə bağdaşır.

k) Qaçaq dastanları özünəməxsus bir sonluqla, qəhrəmanlığın tərənnümü və ya daha çox mutlu sonluqla bitir.

l) Qaçaq Nəbi, Qaçaq Kərəm dastanları istisna olmaqla qaçaq dastanlarının çoxu tək variantlıdır, bəziləri isə ən yaxşı halda iki variantlıdır.

m)Sovet rejimi dönəmində məclislərdə, toylarda, qısacası, icra ortamında tələb olmadığına görə qaçaq dastanlarının aşıq mühitlərində yayılma səviyyəsi çox aşağı olmuşdur.

Burada qaçaq dastanlarının mövzu genişliyindən də söz açmaq lazımdır. Belə ki, qaçaq dastanlarının əsas mövzu dairəsi:

- İqtisadi məsələlər, xüsusən də Azərbaycanın üçdə birinin ruslar tərəfindən işğalından sonra kəskinləşən iqtisadi vəziyyət
- Ləğv edilən xanlıqların bərpası üçün işğala qarşı çevrilmiş qaçaqçılıq hadisələri
- Təhkimçilik siyasətinə qarşı yoxsullaşmış, torpaqdan məhrum edilmiş kəndlilərin hərəkatı
- Köləliyə, ədalətsizliyə, özbaşınalığa qarşı başladılan hərəkat
- Zülmə qarşı fərdi başqaldırma
- Ruslara qarşı üsyanda iştirak və hətta Osmanlı-Rus savaşında Osmanlı tərəfində döyüşdə iştirak etmək və s.

Ona görə də bugün xalqın yaddaşında, ayrı-ayrı şeir parçalarında və mahnılarda qalan qaçaq əhvalatları dastan kimi ifa edilməkdən uzaqdır. Buna baxmayaraq Qaçaq Nəbi dastanının həm sovet dövrü, həm də müstəqillik dövrü nəşrləri vardır və bu nəşrlər bir-birindən az da olsa fərqlənirlər. Ancaq bu dastan hələ Qaçaq Nəbinin sağlığında və XIX yüzildə xalq

arasında formalaşmağa başlasa da onilliklər boyu yaddaşlarda, xüsusən də aşıqların yaddaşında qorunmuş, onun dastan adlandırılan variantı XX yüzilin 30-cu illərində yazıya alınmışdır. 2000-ci illərdə isə bu dastanın yeni toplama variantı, daha sonra da üzərində işlənmiş yeni, həcmcə daha böyük başqa bir variantı ortaya çıxmışdır[233].

Təbii ki, araşdırmada qaçaq dastanlarının bütün özəllikləri deyil, bəzi mövzu, süjet-kompozisiya və ideya özəllikləri nəzərdən keçiriləcəkdir. Qaçaq Nəbi dastanının XX yüzilin 30-cu illərindən başlayaraq toplanmasını digər araşdırmaçılar da təsdiq edirlər. "Qaçaq Nəbi dastanı 30-cu illərdə toplanmağa başlanmışdır. Əvvəlcə mətbuat səhifələrində hissə-hissə çap olunmuş, 1939-ci ildə ayrıca kitabça halında buraxılmışdır. Sonralar dastanı Ə.Axundov toplamış və 1941-1961-ci illərdə iki dəfə kitab halında çap etdirmişdir. Dastanın bir variantını da H.Qasımov kitabça halında buraxmışdır. A.Nəbiyevin 1977-ci ildə çap etdirdiyi variant da maraqlıdır. Burada Nəbinin uşaqlığı, qaçaq düşməsi, Həcərlə olan məhəbbət macəraları çox maraqlı, təsirli bir dillə nağıl edilir"[234]. Həm də 1977-ci il variantında məhəbbət dastanlarında gələn bəzi motivlərə də rast gəlinir. Məsələn, Nəbi uca boylu, Allah tərəfindən gözəllikdə Yusifdən də gözəl bir gənc kimi təsvir edilir. Ə.Axundov variantından fərqli olaraq Nəbi yalnız Kərbəlayi Məhəmmədin yanında çalışır və ağa da ona öz oğlu kimi baxır. Kimdən və harada yazıya alındığı barədə məlumat verilməyən variantlarda Nəbinin həyatı, mübarizəsi, evlənmə-

---

[233] Bax. Qaçaq Nəbi (1938). Tərtib edən E.Tahirov. Bakı: Azərbaycan Sovet Yazıçılar İttifaqı nəşri; Qaçaq Nəbi (1960). Tərtib edən H.Qasımov. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı; Qaçaq Nəbi (1961). Tərtib edən Ə.Axundov. Bakı: Azərbaycan Dövlət nəşriyyatı; Qaçaq Nəbi (2001). Toplayan A.Nəbiyev. Bakı: Turan; Qaçaq Nəbi (2009). Tərtib edən Ə.Axundov, yenidən işləyəni Ə.Cəfərov. Bakı: Çıraq

[234] Əfəndiyev Paşa (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, s.367

si və nəhayət, tələyə düşürülərək öldürülməsi bir-birindən fərqli şəkildə təqdim edilmişdir.

Bu gün "Qaçaq Nəbi" dastanının 7 variantı mövcuddur ki, bunlardan 4-ü Azərbaycanda (E.Tahirov, Ə.Axundov, H.Qasımov, A.Nəbiyev), 3-ü Türkiyədə (T.Öcal, E.Şimşek, Z.Makas[235]) yazıya alınmışdır. Bu da qaçaq dastanlarından yalnız Nəbi ilə bağlı olanın iki ölkədə variantlarının olduğunu göstərir. Ancaq Türkiyədəki variantlar həm qısa, həm epizodik, həm də qəhrəmanın mübarizəsi baxımından zəifdir.

"Qaçaq Nəbi" dastanında onun silahdaşlarının çoxunun adı çəkilir, haqqında bəhs edilir. Dastanda (özəlliklə Ə.Axundov variantında) adı çəkilən silahdaşlardan Nəbinin xanımı Həcər, qardaşı Mehdi, SotlanlıMəhəmməd, İrəvanlı Hayik, Rumuslu Qarapet, Səfərəli, Tunc Vəli, Lələ, Şəmşəd, Telli Qara, Şahhüseyn, Məhəmmədhüseyn, Ağahüseyn, Misirhan, Musa, Allahverdi, Əziz, Məşədi Murad, Balakişi, İsmail, Ceyran xanım, Qənbər, Niftalı, Moses və başqalarıdır. Hətta Qaçaq Nəbi Qarabağda, Ağdamda, Tərtərdə, Bərdədə on beşgünlüyünə Əbdülkərim adlı başqa bir qaçaq dəstəsi ilə birlikdə fəaliyyət göstərir. Döyüş zamanı Nəbinin qaçaqlarının igidliyi təriflənir. "Qaçaq Nəbi" dastanının sevilən qəhrəmanlarından biri də Telli Qaradır. Nəbi və Həcərdən başqa dəstədəki qalan qaçaqların fəaliyyəti epizodik verilsə də Telli Qara haqqında rəvayətlər çoxdur. Dastanda Telli Qara haqqında geniş bilgi olmasa da ölüm səhnəsi nisbətən geniş təsvir edil-

---

[235] Öcal Turgut (1970). Iğdır folkloru ve etnografyası. Erzurum: Atatürk Üniversitesi Fen Edebiyat Fakültesi (YayımlanmamışLisans bitirme tezi); Şimşek Esma (1986). Kaçak Nebi hikâyesi üzerinde bir çalışma. Erzurum: Atatürk Üniversitesi Fen Edebiyat Fakültesi (YayımlanmamışLisans bitirme tezi); Makas Zeynelabdin (1990). "Qaçaq Nəbinin Türkiyə varyantı", Azərbaycan türkcəsinə çevirən: H.Sadıqov, Ədəbiyyat və İncəsənət, № 30 (2425); həmçinin Turhan Sibel (1990). Azerbaycan sahasıkaçak anlatmaları. İzmir: Ege Üniversitesi Sosyal Bilimler Enstitüsü (YayımlanmamışYüksek lisans tezi).

mişdir. Telli Qara haqqında əfsanələşmiş məlumatı söylənən rəvayətlərdən alırıq.

Dastanda göstərilir ki, Hacı İsmayıl Qarakilsədə pristav İsmayıl bəydən, naçalnik Cəfərqulu bəydən çoxlu qoşun alıb Camal qalasında olan Qaçaq Nəbinin dəstəsinin üzərinə yeriyir. Dastanda deyilir: "Üç gün, üç gecə atışma oldu. Hər yerə hay düşdü, söz yayıldı. Naxçıvan, İrəvan tərəfindən də qoşun gəldi. Özünə ümidi gələn kəndlilər də əllərinə tüfəng keçirib Nəbigilə köməyə getdilər, Naxçıvandan və İrəvandan da külli qoşun gəldiyini kəndlilərdən Ağaəli Tağı oğlu Nəbiyə xəbər verdi. Dağın sol tərəfində Hacı İsmayıl bir dəstə ilə köhnə bir barının dalına girmişdi. Onlardan az yuxarıda Telli Qara dayaz bir xarımı özünə səngər eləmişdi. Bu elə bir xarım idi ki, Telli kənardan tamam görünürdü. Düşmən olanda nə olar, gərək hər tərəfi deyəsən. Hacı İsmayıl bəy də çox igid adam idi. Onun gülləsindən toz da yayına bilməzdi. O, Telli Qaranı gördü. O saat tüfəngi üzünə alıb onu nişan aldı. Telli Qaranın ortasından bir güllə keçirdi. Telli Qara yerə yıxıldı, tüfəng əlindən düşdü, nə qədər çalışdı tüfəngi götürə bilmədi, bircə dəfə Nəbinin adını çəkib, canını yoldaşlarına tapşırdı. O biri tərəfdən Hacı İsmayıl özünü bir divarın dalına atdı. Ora-bura göz gəzdirdi ki, Nəbini görsün, onu da vursun. Hacı İsmayıl Nəbinin yerini öyrənmişdi. Divarın üstünə dırmanırdı ki, onu güllə ilə vursun, Mehdi Hacı İsmayılı görüb aynalını üzünə aldı, onun incəsindən bir güllə keçirdi. Hacı İsmayıl mayallaq aşıb divarın başından yerə düşdü, canını qardaşına tapşırdı. Hacı İsmayıl öldürülən kimi düşmən qoşunu geri qayıdıb qaçmağa başladı. Nəbigil düşmənləri qovub gözdən itirdilər. Çiçəklinin ayağında Nəbi Telli Qaranı görmədi. Yoldaşlarından soruşdu:

– Telli Qara harada qaldı?

Həcərin ürəyi döyünə-döyünə dedi:

– Telli Qara mənim səngərimin yaxınlığında idi. Ay aman, yəqin onu gorbagor Hacı İsmayıl vurdu!

Adamlar hərə bir tərəfə dağılıb soraq saldılar, car çəkdilər, Telli Qaranı axtarmağa başladılar. Həcər atını düz Çətəndaşa Telli Qara vurulduğu yerə sürdü. Baxıb nə gördü? Gözlər olsun görməsin. Telli öz qanına boyanıb. Atı da gəlib başının üstündə dayanıb. At Həcəri görən kimi bərkdən kişnədi. Həcər Telli Qaranın qanlı cəsədi yanında diz çökdü, gözlərinin yaşını abi-leysan kimi tökməyə başladı. Ağlaya-ağlaya Nəbini görək nə cür haraya çağırdı:

Telli Qara Çətəndaşda vurulmuş,
Axıb qanı çalalarda durulmuş,
El-obada yas məclisi qurulmuş,
Özünü tez yetir, ay Qaçaq Nəbi!
Dəstəsi yanında, ay qoçaq Nəbi!

Telli boyanıbdı qızıl qanına,
Ana, bacı yoxdu gəlsin yanına,
Düşmən qıyıb güllə vurub canına,
Özünü tez yetir, ay Qaçaq Nəbi!
Dəstəsi yanında, ay qoçaq Nəbi!

Həcər deyər, zülüm-zülüm ağlaram,
Ciyərimi düyünlərəm, dağlaram,
Başıma zil qara yaylıq bağlaram,
Özünü tez yetir, ay Qaçaq Nəbi!
Dəstəsi yanında, ay qoçaq Nəbi!

Nəbi Həcərin ağısını eşitdi, atını düz Çətəndaşa sürdü. Nə gördü? Telli Qaranı vurublar. Həcər özünü onun meyidinin üstünə salıb ağlayırdı. Nəbi Boz atın belindən yerə düşdü, Telli Qaranın başının üstündə diz çöküb onun qanlı gözlərindən öpdü, hönkürtü ilə ağlamağa başladı.

– Zalım düşmən, ürəyimi parçaladı! Can Qara! And içirəm, ölüncə düşmənlə barışmayacağam! Ax, zalım düşmən! Ax, zalım düşmən! Həcər bir ağı çəkdi:

Bu dağlar ulu dağlar,
Çeşməli, sulu dağlar,
Burda bir qərib ölüb
Göy kişnər, bulud ağlar”[236].

Telli Qara ilə bağlı bəzi şeirləri R.Rüstəmzadə nədənsə Qaçaq Nəbi adına vermişdir[237].

Qaçaq dəstələrinin sosial strukturu yoxsullaşmış kəndlilərdən, dağlıq bölgələrdə yaşayan yoxsul heyvandarlardan – tərəkəmələrdən, ayrımlardan, işsiz-gücsüz avara gənclərdən ibarətdir. Bunlar hökumətin gözündə quldur, cani kimi tanınan məşhur bir qaçağın ətrafında toplaşaraq dağlara, sıx meşələrə sığınaraq varlılara, yerli idarəçilərin özbaşınalığına qarşı mübarizə aparırdılar. Qaçaqların bəslənmə siyasəti varlılardan aldıqları mal-mülk və ya bu da olmadıqda kəndlilərin onlara verdikləri yeyəcəklər üzərində qurulmuşdur. Xalqın ideallaşdırdığı bu qəhrəmanların tarixi kimliyi ilə folklor kimliyi bir-birinə bənzəməyə bilir. Bu Qaçaq Nəbi, Qandal Nağı, Qaçaq Kərəm, Qaçaq İsaxan haqqında da keçərlidir. Araşdırmaçıların çoxu qaçaqlar haqqında məşhur olan, ilk əldən və bilavasitə, sadəcə fakelor xarakterli şifahi mədəniyyət materialları toplasalar da bunların heç biri taixi şəxsiyyəti olduğu kimi təqdim edə bilmir. Romantikləşdirmə, ideallaşdırma şifahi ənənənin təbiətidir və xarakterik özəlliyidir. Məsələn, Qaçaq Nəbi, Qaçaq Kərəm, Qandal Nağı yaxın tarixdə yaşamış insanlar olsalar da, onlar eyni adlı qaçaq dastanlarının və ya dastanlaşmağa başlamış əhvalatların qəhrəmanı kimi dastan

---

236 Qaçaq Nəbi (1961). Tərtib edən Ə.Axundov, s.87-89
237 Rüstəmzadə Rüstəm (1984). El qəhrəmanları xalq ədəbiyyatında, s.71

ənənəsindən gələn epik klişelər, davranışlar qazanmışlar. Burada tarixi şəxsiyyətdən epik qəhrəmana dönüşüm, tez dəyişən ideoloji və siyasi münasibətlərə baxmayaraq şifahi tarixin rolu məsələsi də "social bandits" nəzəriyyəsi baxımından araşdırılmalıdır. Hər halda qaçaq folkloru haqqında ən düzgün nəticəni məhz bu nəzəri baza verəcəkdir. Ancaq burada Azərbaycanın təbii şəraitini, sosial-iqtisadi vəziyyətini, işğal altında olduğunu, milli psixologiyanı və s. nəzərə almadan kortəbii tətbiqin yanlış nəticələr verə biləcəyi də yaddan çıxmamalıdır.

Azərbaycan dastançılıq ənənəsinin yeni dövr dastançılıq mərhələsi qaçaq dastanlarını və rəvayətlərini də əhatə edir. Qaçaq dastanları ənənəvi qəhrəmanlıq dastanlarından süjet-kompozisya və obrazlar sisteminə, mifoloji substratına görə xeyli fərqlənir. Burada qeyd etmək lazımdır ki, qaçaqların fəaliyyəti, yaşamları, mübarizələri, macəraları haqqında yaranan rəvayətlər, bayatılar, mahnılar, atalar sözləri, şifahi tarix və s. zamanla dastanlaşma üçün material oldu. Ancaq bir qəhrəmanlıq vəsfi olan qaçaq dastanlarının yaranmasında model rolunu türk qəhrəmanlıq dastanları oynadı. Yuxarıda da qeyd etdiyimiz kimi qaçaq dastanlarına ruhən yaxın olan Koroğlu bu baxımdan özəl bir yerə sahibdir. Qaçaq dastanlarının formalaşmasında qəhrəmanlıq dastanlarının model rolu ilə bərabər şifahi tarix də mühüm rol oynamışdır.

Bu tipli dastanlarda tarixi hadisələrin konkretliyi və tarixi şəxslərin gerçəkliyi daha çox gözlənilir. "Hər biri ayrıca tədqiqat mövzusu olan və XIX əsrin əvvəllərindən Azərbaycanın Rusiya tərəfindən işğalından sonra yaranan "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Dəli Alı", "Qaçaq Tanrıverdi" kimi qəhrəmanlıq dastanlarının da baş igidləri tarixi şəxsiyyətlər-

dir. Bu dastanlar da xalqın tarixi, azadlığı, vətən uğrundakı mübarizələri ilə formalaşmışdır"[238].

Həm də qaçaq qastanlarının yaranmasını şərtləndirən amillərdən biri onların şəxsi həyatı, şəxsi keyfiyyətləridirsə, digəri də Koroğlu kimi bir dastanın model rolunu oynamasıdır. Haqlarında dastan qoşulan məşhur qaçaqlar buna misal ola bilər. Koroğlu arxetipi qaçaqların həyatını, davranışını və savaşını el sənətkarlarının dilində epik süjet səviyyəsində qurmağa imkan verir. Beləliklə, qaçaqlar xalq arasında əfsanələşir və aşıqlar onların hünərləri, fəaliyyətləri haqqında şeirlər qoşur, rəvayətlər söyləyirlər. "Xalq arasında şöhrət qazanan və haqqında rəvayətlər, əfsanələr, nağıllar, nəğmələr yaradılan... qaçaqların dəstəsində olan yüzlərlə igid adamlar yenilməz bir ordunun cəsur sərkərdələri idilər"[239].

Qeyd etmək lazımdır ki, hələ də məşhur qaçaqlarla, hətta adları itib-batmaqda olan qaçaqlarla da bağlı toplanmamış dastan parçaları vardır. Həm müsbət qəhrəmanları, həm də anti qəhrəmanları gerçək tarixi şəxsiyyətlər, dövrün adamları olmasına görə "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Səməd Ağa", "Qaçaq Süleyman", "Qaçaq Tanrıverdi", "Qaray Söyün", "Qandal Nağı", "Qaçaq Usub" kimi dastanlar bir növü tarixi qəhrəmanlıq dastanlarıdır. Bu gün aşıq mühitində az da olsa ifa edilən bu dastanların xronotopu tarixi hadisələrlə və coğrafi məkanla üst-üstə düşür. Buna baxmayaraq aşıqvari şeirlər yazan və aşıq yaradıcılığını, dastan ənənəsini yaxşı bilən el şairlərinin yazdıqları dastanlar da vardır. Məsələn, Zahid Ələmpaşalının yazdığı dastan buna misal ola biər. Dastan ənənəvi qəhrəmanlıq və hətta qaçaq dastanlarından fərqli olaraq bəzi izahlar, tarixi məlumatlar verməklə fərqlənir. "Dəmirçihasanlının, Qarayazının,

[238] Hacıyeva Marifə (2007). Ədəbi mülahizələr. Bakı: Azərnəşr, s.22
[239] Namazov Qara (2005). Xalq qəhrəmanının şöhrəti. Bakı: Orxan, s.10-11

Borçalının, eləcə də bütün Gürcüstanın üstünü qara buludlar aldı. Eşitdilər ki, Leninin başçılıq etdiyi bolşevik kommunist partiyası qələbə çalıb və Şura höküməti bütün Rusiyanı, Orta Asiyanı, həm də Qafqazı özünə tabe edib. Qırmızı Ordunun bir generalı da Tiflisdə oturmuşdu. Varlı təbəqələr siyahıya alınaraq, var-dövlətləri əllərində alınır, dövlətə qarşı çıxanlar, partiyanı pisləyənlər güllələnir, ailələri sürgün edilirdi. Bu yeni qanunu əllərində əsas tutan bəzi şərçi şeytanlar şəxsi-qərəzliklər də edirdilər. Yeni hökumətin siyasətini həyata keçirən iki nəfər xain erməni də var idi. Birinin adı Səmi, o birisininki Ratxan idi. Xain ermənilərə qoşulmuş sapı özümüzdən olan baltalar da az qan tökmədilər”[240].

Dastanın bir çox yerində təbiət təsviri, peyzaj, pafoslu cümlələr onu aşıq dastanından fərqləndirir. Buna baxmayaraq divani və ustadnamələrlə başlayan dastan müxəmməslə də bitir:

İsaxanın haqq üsyanı
Tamam Rusetə yayıldı
Borçlıynan Qazax, Şəmkir
Xaldan, Samux, Qax ayıldı.
O Dilbozlu şair Cəfər,
Qopesli Asdan asıldı,
Alcannıdan o Mustafa
Düzlüyə hər vaxt qayıldı
Döyüşlərdə Rüstəm Zaldı
Arxamızda var İsaxan![241]

Qaçaq dastanlarında şeir parçaları çox zaman qəhrəmanların dilindən verilir. Bu dastanlar tarixi hadisələri əks etdirdiyindən bəzən dastanı qoşan aşıq öz adından şeir də söyləyir. Ancaq “Molla Nur” dastanının Xaltanlı Aşıq Tağının söylədi-

---

[240] Ələmpaşalı Zahid (2009). Qaçaq İsaxan dastanı. Bakı: Xəzər Universteti nəşriyyatı, s.20-21

[241] Ələmpaşalı Zahid (2009). Qaçaq İsaxan dastanı, s.73

yi və sonradan Qubalı aşıq Haşım Balasıyevdən 1983-cü ildə yazıya alınan və 2004-cü ildə nəşr olunan mükəmməl bir variantında[242] gedən beş şeirdən heç biri qaçaqların dilindən verilməmişdir. Məsələn, dastanda Molla Nurun toy məclisinin təsvirində belə deyilir:

Bu zaman Aşıq Tağı məclisə girir və aldı görək nə deyir

Ey ağalar, ey paşalar
Bu obada Nurdur gözəl,
Şöhrətin qopub gəlmiş
Dərbənd eli, yurdu gözəl
Taxt üstündə Nurdur gözəl.

Ağ baxtına qələm çəkən
Görməz onu ələm çəkən
Ələm çalıb, ələm çəkən,
Dərbənd eli, yurdu gözəl
Taxt üstündə Nurdur gözəl[243].

Qalan şeirlər də Aşıq Tağı tapşırması ilə bitir.

"Molla Nur" dastanının əsas özəlliklərindən biri də qəhrəmanın Şeyx Şamilin Dağıstanda başlatdığı milli-azadlıq mübarizəsi dövründə fəaliyyət göstərməsidir. Hətta dastana görə Molla Nur Şeyx Şamili mühasirədən qurtarır. Belə ki, Püşk kəndində (2004 variantında Möhüc kəndi) hökumət qoşunları Şeyx Şamili bir dəyirmanda sıxışdırırlar. Dostu Kaxarsu (2004 variantında Novruz) onu kənddən uzaqlaşdırmaq istəyir. Ancaq Molla Nur donuzluqdan dəyirmana girərək Şeyx Şamili düşmən mühasirəsindən çıxarır. Şamaxı ilə Dərbənd arasında, yəni Qubada, Şəkidə, Zaqatalada fəaliyyət göstərən Molla Nur hökumətə vurduğu zərər o qədər böyük idi ki, hət-

[242] Mirzə Ağalar (1999). Xaltanlı Tağı. Bakı: Elm, s.80
[243] Mirzə Ağalar (2004). Şirvana binə gəlləm. Bakı: Borçalınəşriyyat-poliqrafiya müəssisəsi, s.142-143

ta Quba pristavı çar qubernatoruna hər kəsin Molla Nura qoşulmasını, bütün Azərbaycanın çara qarşı qaldırmasını və bu qaçaqçılıq hərəkatının Azərbaycanın əldən getməsinə səbəb olacağını yazırdı[244].

"Qaray Söyün" dastanı Qazax mahalında XIX yüzilin sonlarından sovet hakimiyyətinin qurulmasına qədərki dönəmdə baş vermiş qaçaqçılıq hərəkatından bəhs edir. Dastanın Aşıq Avıl variantında biri ləzgi, o biri də gürcü olmaqla sayıları cəmi dörd, bəzən də beş nəfərdən ibarət olan bir qaçaq dəstəsi vardır. Buna baxmayaraq qaçaqlar az olsalar da pristavın yüz nəfərlik dəstəsini məhv edirlər. Hətta qubernatorun göndərdiyi bir alay əsgərlə şavaşırlar. Bu döyüşdə yalnız Qaray Söyünün qardaşı Ələkbərin və ləzgi Həmzətin yaralandığı bildirilir. Hadisələr çarın devrilməsi, fəhlə-kəndli hökumətinin qurulması ilə səngiyir və Azərbaycanda bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra aşığın dastan variantında Qaray Söyün kənd soveti sədri seçilir. Aşıq Avıl "Fəhlə-kəndli qohum olub, tarixi nişandı bu gün"[245] kimi misralarla sovet hökumətini öyən müxəmməs söyləyir və dastan tamamlanır.

"Qaçaq Tağı" dastanının da bəzi özünəməxsusluqları vardır. Dastanın bəzi parçalarını daha öncə Aşıq Hüseyn Bozalqanlı yaratsa da "Koroğlunu nəvələri" kitabında nəşr olunan variant el şairi Eynallı Əşrəfdən yazıya alınmışdır. Hacı Tağı isər atıcılığına görə, istər atna görə xalqın hörmətini qazanmış qaçaqlardan biridir. Bu dastanın başlıca özəlliyindən biri Tağının bir qaçaq kimi yalnız olduğudur. Buna baxmayaraq onun fəaliyyət göstərdiyi bölgə, Qazax, Naxçıvan, Qarabağ, İranın Xoy, Şahpur, Rum şəhərləri və Türkiyədir. Ancaq dastanda az da olsa Cavanşir adlı bir qaçaqla dostluq etdiyi,

---

[244] Azərbaycan dastanları (1977). Toplayan və tərtib edən: A.Nəbiyev. Bakı: Gənclik, s.150; Mirzə Ağalar (2004). Şirvana binə gəlləm, s.140-155

[245] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.224

bərabər fəaliyyət göstərdiyi nəql olunur. Dastanın bir yerində isə altı nəfərlə bərabər Ağstafaya gəldiyi deyilir[246]. Hacı Tağı daha çox təkbaşına qəhrəmanlıq göstərən qaçaqlardandır.

Yekunda qaçaq dastanlarının filoloji özəlliyi haqqında da bir neçə söz demək lazımdır. Hər şeydən öncə oğuz dastan ənənəsinə sadiq qalınaraq qaçaq dastanları da nəzmlə nəsrin əvəzələnməsi ilə yaradılmışdır. Şeirlər qəhrəmanların əhval-ruhiyyəsini, hiss və duyğularını daha poetik şəkildə vermək üçün obrazların dilindən təqdim edilmişdir. Dastanın nəsr hissəsində hadisələr təhkiyə edilir. Qaçaq dastanlarının bir qismi aşıqlar, bir qismi də el şairləri tərəfindən qoşulduğundan və ya yazıldığından dilləri danışıq dilinə yaxın deyildir. Süni ləhcələşdirmə, poetikləşdirmə üstünlük təşkil edir. Şeirlərin sayı həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarına nisbətən çox azdır. Bunun əsas səbəbi qaçaq dastanlarının uzun müddət aşıq repertuarında qalmaması, ifaçı aşıqların onlardan az istifadə etmələridir. Bəzi şeirlər nə qəhrəmanların daxili aləmi, nə də hadisə ilə səsləşir. Təbii ki, şeirlərin çoxu dörd və daha çox beş-altı misralıq olub hecanın 11-liyindədir. Hecanın 8-liyində gəraylı formasında yazılan şeirlər də az deyildir. Ancaq bəzi dastanlarda gəraylıdan istifadə edilməmişdir. Məsələn, Qaçaq Nəbi dastanında gəraylı şeir şəkli yoxdur. Bundan başqa qaçaq dastanlarında bayatılardan, qitələrdən, müxəmməslərdən, divanidən də istifadə edilmişdir.

Qaçaq dastanlarındakı hadisələr əsasən Azərbaycanda, bəzən İran, bəzən də Osmanlı torpaqlarında baş verir. Ona görə də qürbət, qəriblik kimi mövzular da qaçaq dastanlarında işlənmişdir. Aşağıda 11 qaçaq dastanındakı şeir şəkillərinin müqayisəsini verməklə dastanların süjet xətti, strukturu, arxitektonikası haqqında təsəvvür yaratmağa çalışaq:

---

[246] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.194

| Dastanlar | Qoşma | Gəraylı | Bayatı | Müxəm-məs | Qitə | Divani |
|---|---|---|---|---|---|---|
| Səməd Ağa | 1 | 0 | 0 | 0 | 2 | 0 |
| Qara Tanrıverdi | 11 | 9 | 0 | 0 | 0 | 1 |
| Hacı Tağı | 18 (de-yişmələr də daxil) | 3 | 0 | 1 | 0 | 0 |
| Qaray Söyün | 6 | 2 | 0 | 0 | 0 | 2 |
| Molla Nur | 1 | 4 | 0 | 0 | 0 | 0 |
| Qaçaq Nəbi (Ə.Axundov) | 83 | 0 | 11 | 0 | 0 | 0 |
| Qaçaq Kərəm | 14 | 7 | 0 | 2 | 0 | 0 |
| Mehralı bəy | | | | | | 1 |
| Qaçaq Süleyman | 14 | 4 | 1 | 0 | 0 | 1 |
| Qandal Nağı | 1 | 1 | 0 | 1 | 0 | 0 |
| Qaçaq Usuf | 15 | 10 | 0 | 0 | 0 | 0 |
| Cəmi | 164 | 40 | 12 | 4 | 2 | 5 |

Dastanlarında olan şeirlərin ümumi sayı

1) Toplam qoşma sayısı 164
2) Toplam gəraylı sayısı 40
3) Toplam bayatı sayısı 12
4) Toplam müxəmməs sayısı 4
5) Toplam qitə sayısı 2
6) Toplam divani sayısı 5

Toplam şeir 227

## 5.4. Qaçaq dastanlarının struktur-semantikası və ədəbi funksiyası

Qədim və orta əsrlərdən üzü bəri qəhrəmanlıq ənənəsinin sonuncu mərhələsi qaçaq dastanlarıdır. Qaçaq dastanlarının janr strukturu klassiк qəhrəmanlıq dastanlarının quruluşundan fərlənsə də, bu dastanlar yaxın keçmişdə yaşamış tarixi şəxsiyyətlər haqqında söylənsə də, bunlar qaçaq əhvalatları və nəğmələri fonunda yaransa da, struktur-semantikası və poetik arxitektonikası baxımından qəhrəmanlıq dastanıdır. Qaçaq dastanları sovet dövrü folklorşünaslığında qismən, həm də daha çox sovet ideologiyası baxımından öyrənilmişdir. Qaçaq dastanlarının araşdırılması çox az da olsa müstəqilliкdən sonrakı dövrdə də davam etdirilmişdir. Burada qaçaq dastanlarının sosial-siyasi, sosial-iqtisadi, şifahi tarix və nəhayət "social bandits" nəzəriyyəsi baxımından tədqiqindən söhbət getməsə də qaçaq dastanlarının qədim və orta əsrlər qəhrəmanlıq ənənəsi ilə əlaqəsi, həmin ənənənin qaçaq dastanlarında yaşaması, klassik qəhrəmanlık ənənəsinin qaçaq dastanlarına transformasiyası kimi xüsusiyyətlərə toxunulmuşdur.

Qaçaq dastanlarının nəğmə və əhvalat şəklində yaşayan hekayələrdən yarandığını başqa tədqiqatçılar da qeyd edirlər. "Qaçaq Nəbi" tarixi nəğmələr və el qəhrəmanının adı ilə bağlı xalq içərisində dolaşan rəvayət-əhvalatlar fonunda formalaşmış süjetli hekayətlər toplusudur. "Qaçaq Nəbi" ilə bağlı araşdırmalarda o həm nəğməli rəvayət-hekayət örnəyi kimi, həm də aşıq rəvayəti – dastan kimi təqdim edilmişdir[247]. Təbii ki, dastanlaşan qaçaq əhvalatlarının çoxu rəvayət, nəğmə qarışımından ortaya çıxmışdır. Məsələn, "Molla Nur" dastanı da bu

---

[247] Abbaslı İsrafil (2005). "Qaçaq Nəbi" dastanı və Bəhlul Bəhcətin "Qaçaq Nəbinin tarixi" araşdırması", Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVIII kitab. Bakı: Səda, s.15

yolla yaranmışdır. Məlum olduğu kimi "Molla Nur" dastanı XIX əsr Şirvan aşıqlarının icra ortamında yaranmış qaçaq dastanlarından biridir. Şöhrətli qaçaq kimi tanınan Mola Nurun Quba-Dərbənd, Şəki-Zaqatala zonalarında göstərdiyi qəhrəmanlıqlar onun barəsində yaranmış dastanın əsas qayəsini təşкil edir[248].

Digər qaçaq dastanları kimi **"Molla Nur"** dastanı da XIX yüzildə baş vermiş real hadisələri əкs etdirir. Molla Nurun qəhrəmanlığı rus yazıçısı A.A.Bestujev-Marlinsкinin də diqqətini çəkmiş və o, 1836-cı ildə "Molla Nur" povestini yazmış, onun qəhrəmanlığını tərənnüm etmişdir. "Molla Nur" povesti yazılan dövrdə Azərbaycanda qaçaq hərəкatı çox yayılmışdı. Ancaq yazıçının məhz Molla Nurla bağlı nəğmələr dinləməsi, onunla yolda təsadüfən rastlaşması A.Marlinskiyə bu əsəri yazmaqda çox kömək etmişdir[249].

Daha öncə aşıq ədəbiyyatında məşhur olan və qaçaq mövzusunda yazılan müxəmməslər (məsələn, Bozalqanlı Aşıq Hüseynin "Cin Əli", Xəyyat Mirzənin "Qandal Nağı", Aşıq Ələsgərin "Dəli Alı" və s.), müəllifi naməlum nəğmələr, mahnılar sonradan iri həcmli dastanların yaranmasına səbəb olmuşdur. Ən əsası da qaçaq rəvayətləri dastanın yurd yerinin formalaşdırmaqda mühüm rol oynamışdır. Qaçaq dastanlarının çoxu onu yaradan aşıqlardan, bir qismi də icraçı aşıqların tepertuarından (Bozalqanlı Aşıq Qədir, Aşıq Əkbər, Bozalqanlı Çopur Ələsgər, Qazaxlı Aşıq Məhəmməd, Aşıq Ədalət Nəsibov, İsa Həsənov, Aşıq Hüseyn Xaloğlu, Aşıq Məhəmməd Rzayev, Aşıq Səftər, Aşıq Nəsib, Aşıq Əli və b. icraçı aşıqlardır.) yazıya alınmışdır. Bu da qaçaq dastanlarının aşıq

---

[248] Nəbiyev Azad (2006). Azərbaycan xalq ədəbiyyatı. II hissə. Ali məktəblər üçün dərslik. Bakı: Elm, s.558

[249] Səfərəliyeva A. (2006). "Molla Nur" rus ədəbiyyatında", Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXI kitab. Bakı: Səda, s.135 (s.135-142)

icra ortamında 40-60-cı illərə kimi, bəzilərinin isə günümüzdə də ifa olunduğunu isbatlayır.

Məzmunu və mahiyyəti baxımından tarixi-sosial dəyərə malik olan bu epik əsərlərdə "... xalqın tarixi keçmişi əks olunurdu. Onlarda əməkçi kütlənin keçmişə münasibətindən, ayrı-ayrı hadisələri və şəxsləri dəyərləndirmədən söz açılırdı"[250]. Qaçaq dastanlarından hadisələr baxımından bəlkə də ən əskisi "Səməd Ağa" dastanıdır. Gürcüstanda yaşayan Azərbaycan türklərinin XIX əsrin əvvəllərində Çar Rusiyasının işğalına qarşı mübarizəsini əks etdirən bu dastanda hadisələr bir ucu Başkeçid, bir ucu Sınıqkörpü, bir ucu Calaloğlu, bir ucu Qarayazı, bir ucu da Qaraçöp olan Borçalı bölgəsində baş verir. Rus generalının ov iti ilə eyni süfrədə yemək yeməyi qəbul etməyən Səməd Ağanın iti öldürməsi üzərinə general onu ağır sözlərlə təhqir edir, Səməd Ağa bu dəfə də generalı öldürür. Məhkəmə onu 12 illiyinə Sibirə sürgünə göndərir və Səməd Ağa sürgündən qurtularaq qaçaq düşür. Səməd Ağa 18 nəfərdən ibarət dəstəsi ilə çar məmurlarına qarşı bir müddət mücadilə verdikdən sonra Türkiyəyə keçir. Ancaq Türkiyənin Çıldır bölgəsindəki kəndlilər onu və dəstəsini saxlaya bilməyəcəklərini bildirərək Səməd Ağaya Ağrı dağı tərəflərdəki varlıları soymasını məsləhət görürlər.

"Səməd Ağa" dastanı epizodik hissələri, tamamlanmamış süjet xətti, şeirlərinin azlığı, qəhrəmanın taleyinin bəlirsiz bir şəkildə bitməsi ilə hələ də tam dastanlaşa bilmədiyini göstərir.

Bir də Hacı Loğman adlı el şairinin Göyçənin Babacan kəndindən olan Aşıq Qədir Vəliyevin oğlu Vaqif Vəliyevdən əldə etdiyi və el ağsaqqallarından Səməd ağa haqqında eşitdiyi söhbətləri də bir yerə gətirərək "Aşıq Ələsgərlə Səməd Ağa

[250] Сидорова Е.Н (1966). "Исторические песни", Русское народное творчество. Москва: Высшая школа, s.218

Ağbaba ellərində" adlı dastan yaratmışdır[251]. Burada Səməd Ağa Göyçəlidir, xeyriyyəçidir, ağsaqqaldır. Hadisə aşıqla Səməd ağanın İrəvandan qayıdarkən Ağbabada bir toyda Aşıq Nəsiblə olan macərəsa üzərində qurulmuşdur. Dastanda qaçaqçılıqdan bəhs edilməməmkdədir. Qaçaq dastanlarının çoxu bir konfliktlə başlayır. Bu qaçağın atasının/qardaşının/yaxın qohumunun öldürülməsi və ya incidilməsi, sevdiyi qızın başqasına verilməsi, kəndin koxasının zalımlığı, yaxud da rus naçalnikinin özbaşınalığı və s. ola bilir. Qaçaqçılıq qəhrəmanın intiqam almaq üçün savaşması ilə başlayır və narazı olanlar da onun ətrafına toplanırlar. Məsələn, "Qaçaq Usuf" dastanında qız üstündə başlayan konflikt, Usufun qardaşının öldürülməsi və qəhrəmanın qardaşının qanını alamq üçün and içməsi ilə başlayır. Bundan sonrakı hadisələr şəxsi intiqam müstəvisindən çıxıb sosial xarakter alır. Qaçaq Usuf qardaşının intiqamını almaqla bərabər, kəndliyə zülm edən koxaya, ruslara xidmət edən satqınlara, xalqı incidən kazaklara qarşı savaşır[252]. Bununla bağlı bir az fərqli bir əhvalat da danışılır. Əhvalatı Qaçaq Usufu görmüş və ona yaxın olan yüz yaşlı Bayram kişi 1957-ci ildə danışıb:

"Bayram kişinin söylədiyinə görə, Göllülü Hacı Alı oğlu Məhəmmədin Omar, Osman və Usuf adlı üç oğlu olub. Usuf sonbeşikmiş. Özü də uşaqlıqdan bərk at minmək həvəskarı, atıb-vurmaq aşiqiymiş. Nişan almaqda, güllə ilə nişan vurmaqda yaşıdlarından seçilirmiş. Aşıq İskəndərin söylədiyi «Qaçaq Usufun Kars səfəri» dastan-rəvayəti ilə Bayram Əziz oğlunun söylədikləri üst-üstə düşür: Usuf Təpəgöydən Mirzə kişinin oğlu Musaynan dostuymuş. Usufun arvadının da Mirzə kişiyə bir az qohumluğu çatırmış. Bir gün Usuf Musagilə gəlir. Musa ev-

---

[251]https://es-la.facebook.com/.../posts/aşiq...səməd-ağa...dastanın...-/806319832836606/

[252] Qaçaq Usuf (1994)., s.5-38

də olmur. Amma arvadı Mədinə onu hörmətlə qarşılayır. Evə dəvət edir. Qaynı İrvahamın da dalınca adam göndərir. İrvaham da gəlib Usufnan çay-çörək yeyir, söhbət edir, sonra da onu hörmətlə yola salır. Axşam Musa gələndə Mədinə Usufun gəldiyini söyləyir. Bu iş Musanın xoşuna gəlmir. Arvadından şübhələnir. Atasını və qardaşlarını çağırıb məsləhətləşdikdən sonra Mədinəni bərk döyür. O vaxtdan Mədinənin gününü göy əskiyə bükürlər. Göz verirlər, işıq vermirlər. Mədinə görür bunlar sakitləşmək bilmir, Usufa xəbər göndərib başına gələnləri ona bildirir. Usuf da atını minib gəlir Mirzə kişinin qapısına. Atdan düşmədən Mirzə kişini qapıya çağırtdırıb deyir:

– Ay Mirzə dayı, bu nə işdi siz eləyifsiniz? Adam da heç kəsdiyi duz-çörəyi ayaxlayarmı?! Dostluğu düşmənçiliyə çevirərmi?! Gəlinin təmiz adını ləkələyərmi?!

Mirzə kişi Usufa ağır cavab qaytarır. Mədinə də son vaxtlar başına gətirilənləri Usufa deyir. Bundan qəzəblənən Usuf elə Mirzənin yanındaca Mədinəni alıb qoyur atın tərkinə. Atı da sürür Bavrada bığlı Osebgilə. Mirzə kişi Amasiya pristavı Paşalova şikayət edir. Pristav Göllüyə gəlib kəndin arvadlarını bir yerə topluyur. Bir-bir üzdərini açıb baxırlarmış görsünnər Mədinə hansıdı. Usufun atası pristava hirslənir, onu ölümnən hədəliyir. Deyir:

– Naməhrəm kişinin arvadlarımızın üzünə baxmağa haqqı yoxdu. Usuf Mədinəni Bavraya bığlı Osebgilə aparıb. Bacarırsan get tut”[253].

İyirmi ilə yaxın qaçaqçılıq edən Qaçaq Usuf sonunda digər qaçaqlar kimi xəyanətə qurban gedərək öldürülür. Dastandakı şeirlərin ruhunda döyüşkənlik, mübarizəyə çağırış var.

Qırın düşmənləri, əzin başını,
Namərdlər bələnsin al qana indi.

---

[253] Şamil Əli (2001). Dastanlaşan ömürlər. s.37-38

İgid döyüşünü, ər savaşını,
Aşıqlar qoy yazsın dastana indi.

Qoşun gəldi Qalaçanı bürüdü,
Üstümüzə dəstə-dəstə yeridi.
Sağ qalanlar ölənləri sürüdü,
Qaçırlar hərəsi bir yana indi.

Usuf arxa durar dosta, sirdaşa,
Namərdlər əlindən çəkərlər haşa,
Atılıb şir kimi girər savaşa,
Yağılar gəlsinlər meydana indi[254].

Dastanın struktur-semantikasında həm yurd yeri, həm də şeirlər Koroğlu ruhundadır.

"Qaçaq Kərəm" dastanı kimi "Qaçax Usuf" dastanı da müxtəlif variantlarda söylənilən aşıq rəvayətləri əsasında, el sənətkarları (Aşıq Şenlik, Heydər Xoca, Aşıq Nəsib) tərəfindən yaradılıb, daha sonralar Aşıq İskəndər tərəfindən dastan şəklinə salınmışdır". Klassik qaçaq dastanlarında olduğu kimi bu dastanda da Qaçaq Usuf el-oba təəssübünü çəkir, xalqı incidənləri cəzalandırır. O, zalimlərin qənimi, yoxsulların isə himayədarıdır[255]:

"Usuf başının dəstəsi ilə Göllüyə enmişdi. Eşitmişdi ki, kəndin kovxası orda camaatı incidir. Mırıx Həmzə xəstə olduğundan biyara gedə bilməmişdi. Kovxa da hökumətə xoş gəlsin deyin onu xəstə-xəstə atın qabağına qatıb işləməyə aparmışdı. O gündən Mırıx Həmzə düşmüşdü yorğan-döşəyə. Yönü də bəri deyildi.

Usuf kovxanı evindən çıxarıb şenniyin yığnaq yerinə gətirdi. Usufu görən camaat ürəkləndi. Kovxa kimə nə elə-

[254] Qaçaq Usuf (1994)., s.26
[255] Ağbaba Aftandil (2012). Ağbaba-Çıldır aşıq mühiti. Bakı: Elm və təhsil, s.258

mişdisə hamısını bir-bir Usufun ovcuna qoydular. Kovxa baxıb gördü ki, işlər xarabdır, Usuf onu cəzasız buraxmayaqcaq, onun ayaqlarına döşənib dedi:

– Usuf, sən Ömərin goru, keç günahımdan. Bir də belə qələt iş tutmaram.

Ömərin adını eşidən Usufun dərdi təzələndi. Bir istədi kovxanın elə oradaca başına bir güllə sıxsın. Amma and vermişdi, anddan keçə bilmədi. Usuf dedi:

– Ayə, ay qurumsaq, camaatı niyə incidirsən? Toyuq toyuqdu, o da su içəndə başını qaldırıb Allaha baxır. Niyə Allahsız iş tutursan? Mırıx Həmzənin bir bölük külfəti var. Bir qaşıq ağartı tapa bilmir, sən də bir yannan ona zülm eləyirsən.

Daşdan-qayadan səs çıxdısa, kovxadan da elə. Usuf hamının dərdinə qulaq asandan sonra üzünü kovxaya tutub dedi:

– Gedərsən, Həmzə kişinin qapısına yanıbuzovlu bir inək bağlayarsan. Bu dəfə səni bağışlayıram. Amma bir də belə iş tutsan, özünnən küs”[256]. Bu dastanın özəlliyi ondadır ki, düşmənlərimizin – ermənilərin ümumiləşdirilmiş obrazı təsvir olunur. Onların namərdliyi, hiyləgərliyi, paxıllığı və xəyanətkarlığı canlı boyalarla təqdim edilir. “Əmbə Sahak çox paxıl, namərd adamıydı, o necə deyərlər, əsil erməniydi. Qaçax Usufu tutmaxdan ötrü əldən gedirdi. Demişdilər Qaçax Usufu tutana çoxlu pul verəcəhlər. Sahak da buna çalışırdı ki, onu diri tutuf hökümətə verə, pulu alıf bığını bura. Həmi çini arta, həm xətirhörməti. Erməni bu xəyalnan bir yaxşı dəstə düzəltdi”[257].

Qacaq Usuf da başqa qaçaqlar kimi, dar gündə insanların köməyinə çatır, zalımlara, ermənilərə qənim kəsilir. Bu dastanla bağlı başqa məlumatlar da var. “Ellər kəndindən olan Aşıq İskəndər Ağbabalıdan (Gülməmmədov) Qaçaq Yusiflə bağlı iki

---

[256] Koroğlu Xalıq (1999). Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, s.24-25

[257] Qarayev S. (2013). “Kosmoqonik zəmində qadın və kişi”, Dədə Qorqud, 3. s.54-68, s.131- 132

dastan – rəvayət topladım. Aşıq bunlardan birini "Qaçaq Usufun Kars Səfəri", o birisini isə "Dəli Usufun Pənbək səfəri" adlandırmışdı. Aşıq İskəndərə: "Bu dastan-rəvayətləri hansı aşıqdan, hansı ustaddan öyrənibsən?" sualı ilə müraciət etdikdə: "Yalançı Allahın düşmanıdı. Uşaqlıqda ondan-bundan eşitdiyim söhbətlərə, bir-iki şerə bir az da mən əlavə edib danışmışam. Camaatın da xoşuna gəlib", – cavabını aldım"[258].

Qaçaq dastanlarının ən başlıca özəlliklərindən biri də bu dastanlarda qadın obrazının çox zəif işlənməsidir. Çünki qaçaqların mübarizə məkanı döyüş və qaçmaqdan ibarət olduğundan, burada sanki qadın obrazlarına yer qalmır. Əsasən tarixi hadisələrdən bəhs edən qaçaq dastanlarında qadın obrazları epizodik xarakter daşıyır və əsas süjet müstəvisindən kənarda qalır. Məsələn, "Qaçaq Usuf", "Qandal Nağı", "Qaçaq Süleyman" dastanlarında biz bunun şahidi oluruq. Hətta qaçaq folklorunun digər janrlarında da qadın obrazları yoxdur, ya da çox azdır. Buna Dəli Alı haqqında nəğmələrin heç birində qadın obrazının olmaması tipik örnəkdir. Dağda-daşda, gecə-gündüz təhlükə içində olmaq, kişilərlə birgə fəaliyyət göstərmək qadınlar üçün çətin və ağır idi. "Molla Nur", "Qaçaq Nəbi" kimi dastanlar bu baxımdan istisna təşkil edir. "Qaçaq Nəbi" dastanında Nəbi ilə bərabər, Həcər xanımın vəsfinin səbəbi də onun kişilik dəyərlərini daşıması, məhz bu dəyərlərlə süjet məkanına fəal qatıla bilməsi ilə əlaqədardır.

Nəbi bir oğlandı top qara birçək,
Aynalı yaraşır boyuna qəşəng,
Belində kəməri, çiynində tüfəng,
Deyirlər, deyirlər ay qaçaq Nəbi,
Arvadı özündən ay qoçaq Nəbi![259].

---

[258] Şamil Əli (2001). Dastanlaşan ömürlər, s.36
[259] Behcət Bəhlul (2011). Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə), s.256

Qaçaq Nəbi dastanının bir neçə variantda olması[260], onun qaçaqlar arasında simvola çevrilməsi ilə bağlıdır. Nəbinin qəhrəmanlığı və savaşları haqqındakı dastanları vaxtı ilə Əhməd Cəfəroğlu da geniş çəkildə araşdırmışdır[261]. Dastanın ilk nəşri olan Əliheydər Tahirov nəşri qəhrəmanın mübarizə apardığı dövrə yaxın bir zamanda, aşıqlardan toplanaraq yazıya keçirilmişdir və "Koroğlu" motivləri ilə yaxından səsləşməsinin əsas səbəbi də toplama-tərtib işinin ənənəvi dastan quruluşunda təqdim olunmasıdır. "Qaçaq Nəbi" dastanı struktur-semantik baxımdan qəhrəmanın mübarizəsinin, döyüş səhnələrinin çoxluğu ilə seçilir. Məsələn, Ə.Axundov variantında o, Cəfərqulu bəylə, Xocaxan kəndinin bəyləri ilə, Həcəri həbsxanadan qurtarmaq üçün çar pristavı ilə, Qubadlıda yerli polislərlə və bəylərlə, Üçtəpədə polis rəisi Knikorla, Şotlanlıda başda Cəfərqulu bəy olmaqla polislərlə və bəylərlə, Əsgəranda polislərlə və bəylərlə, Zəngibasarda Mehdi bəylə, Anzırda Kərbəlayı Heydərlə, Dülüsdə Əlıağa bəylə, Gəncə qubernatoru ilə, Kinkor bəyi öldürdükdən sonra Nahçıvan, Zəngəzur, Cəbrayıl, İrəvan, Gəncə, Qazax, Aleksandr, Novabayazid, Sürməli və Eçmiədzin polis rəisləri ilə mübarizəsi, Zəngəzurda kəndxudalarla, polis rəisləri və bəylərlə vuruşması, Qırxlarda Cəfərqulu bəylə, Vasili qardaşları ilə, Məlik Avalyanla, Nəcəfqulu bəylə, Qara Nəbi ilə və s. savaşları onun qaçaqlar içində məşhur olmasına səbəb olan amillərdir. Nəbi qaçaqçılıq etdiyi dövrdə yüzdən çox savaşa qatılır və hamısında da

---

[260] Qaçaq Nəbi (1938). Toplayan Ə.H.Tahirov. Bakı: Azərbaycan sovet yazıçıları ittifaqının nəşriyyatı; Qaçaq Nəbi dastanı (1941), Tərtib edən Ə.Axundov. Bakı; Qaçaq Nəbi dastanı (1961). Tərtib edən Ə.Axundov. Bakı; Qaçaq Nəbi dastanı (1960), Tərtib edən H.Qasımov. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı; Qaçaq Nəbi (1983). Tərtib edən A.Nəbiyev. Bakı: Gənclik; Behcət Bəhlul (2011). Qaçaq Nəbinin tarixi, Bakı: Çıraq.

[261] Caferoğlu Ahmet (1928). Azeri halk edebiyatında "Kaçak Nebi" destanı, "Azeri Türk", İstanbul: № 13, Ağustos, s.3-5; №14, s.9-10; №17, Ekim, s.7-9

qalib gəlir və bütün bu savaşlar kındlilərin haqqını almaq üçündür. Onun ən qatı düşməni Cəfərqulu bəydir.

Qaçaq Nəbinin silahları və atı da simvollaşmışdır. Dastanda Kərbəlayi Məhəmməd Nəbiyə silah və at verib deyir: “Bu elə bir tüfəngdir ki, düşməni özünə çəkər, bundan çıxan güllə hədəfdən yan keçməyib. Bir halda ki, Zəngəzur dağlarına çəkilirsən, bu “Aynalı” tüfəngi də sənə verirəm. Bir də, ay oğul, töylədə bir boz dayça var, hələ yüyənə düşməyib. Unutma ki, bu adi dayça deyil. Boz at nəslidəndir, dəryadan çıxmış madyanla çöl ayğırından törəyib. Boz at heç vaxt səni darda qoymaz”[262].

Qaçaq dastanlarında qəhrəmanların məşhur atları var və məqamı gələndə onlar da atlarla haqlı olaraq öyünür, atları da hərarətli sözlərlə tərif edirlər. Koroğlunun Qıratı, Düratı, Nəbinin Boz atı, Qaray Söyünün isə Göy atı igidlərin öyündüyü atlardır.

Qəhrəmanın öz atını öyməsi türk dastançılıq ənənəsinin geniş yayılmış motivlərindəndir. Nəbinin Bozatı barəsində qoşulan nəğmələr bu silsilədəndir:

Bozat, səni sər tövlədə saxlaram,
Ayağına qızıl-gümüş nallaram,
Məxmərə tutaram, ipək çullaram.
Bozat, məni apar uzaq ellərə,
Düşəcək tərifin bütün dillərə.

Nəbinin yolları bütün dağ-daşdı,
Əriklidən Nəbi bir günə aşdı,
Nəbinin Bozatı ona yoldaşdı.
Bozat, məni apar uzaq ellərə,
Düşəcək tərifin bütün dillərə.

---

[262] Nəbiyev Azad (2004). “Qaçaq dastanları”. Azərbaycan ədəbiyyat tarixi. I cild. Bakı: Elm, s.681- 682

Qızılquştək qonub atın belinə,
Kəməri qurşayıb qoşa belinə.
Aynalı tüfəngi alıb əlinə.
Bozat, məni apar uzaq ellərə,
Düşəcək tərifin bütün ellərə[263].

Qaçaq dastanlarının bir xüsusiyəti də qaçaqların xalq tərəfindən sevilməsi, elin tanınmış adamları ilə dost olmasıdır. Qaçaq dastanlarının bu struktur-semantik özəlliyi də "Koroğlu" dastanından və ümumiyyətlə qəhrəmanlıq dastanlarından gəlmədir. Koroğlu getdiyi şəhərlərdə və qaldığı yerlərdə həmişə özünə etibarlı dost qazanır. "Koroğlu" və qaçaq dastanlarında dostluq, dost sədaqəti, dost etibarı böyük dəyər qazanır. "Aşıq Ələsgərlə Dəli Alı dastanı"nda da Qaçaq Məşədi Yolçu Dəli Alının çoxsaylı qaçaq dostlarından biridir. Bu qaçağın Dəli Alının dəsətəsində ondan başqa qoçaq, igid qaçaq varmı, sualına Aşıq Ələsgər belə cavab verir:

İyidlikdə yox əvəzi,
Afərin dedim Aslana;
Dağıstanformu geyinib,
Təmkini qızılbaşyana;
Süzən tüfəng cingildəyir,
Patronu səyrişir qana;
Koroğlu tək nərə çəkir
Coşub girəndə meydana;
Tüf dağıdır, ordu pozur
Qüdrətin aslanı kimi[264].

"Aşıq Ələsgərlə Dəli Alı dastanı" bir çox xüsusiyyətlərinə görə digər qaçaq dastanlarından fərqlənir. Burada qaçaqların döyüş səhnələrinə, başlarından keçən əhvalatlara,

---

[263]Behcət Bəhlul (2004). Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə), s.259
[264] Aşıq Ələsgər (2004). Əsərləri. Bakı: Şərq-Qərb nəşriyyatı, s.74

atlarının, qadınlarının, yoldaşlarının igidliyinə, düşmən ünsürlərin fürsətçi olmasına, xəyanətə əl atmalarına rast gəlmək mümkün deyildir. Bunun əksinə "Aşıq Ələsgərlə Dəli Alı dastanı"nda toy məclisinin təmtərağından, Dəli Alının var-dövlətindən, səxavətindən, el arasında olan hörmətindən, toyun uzun sürməsindən və s. söhbət gedir. Hadisələrin strukturu daha çox macəra üzərində qurulmuşdur. Tanımama, özünü nişan verməmə, sınağa çəkmə və s. buna örnəkdir.

Digər xalq qəhrəmanlarından biri də Qaçaq Kərəmdir. Tədqiqatçılar Qaçaq Kərəmlə bağlı yeddi dastanın adını çəkirlər: Bunlardan "Kərəmlə Zalı xan" (müəllifi Qaraqoyunlu mahalının Polad kəndindən Qul Vəli), "Qaçaq Kərəm" (müəllifi Qıraqkəsəmənli Qəmli Hüseyn), "Kərəmxan Sərtib" (müəllifi Göyçəli Aşıq Məhəmməd), "Kərəmin İran səfəri", "Kərəmin Gürcüstan səfəri", "Kərəmlə İsrafil ağa" və s. Anca bunlardan bəziləri epizodikdir, bəziləri də bir digərinin davamı mahiyyətindədir.

"Kərəm və İsgəndər", "İsgəndərin vəsiyyəti", "Kərəmlə Güllünün hekayəti", "Kərəmin qaçaq düşməsi", "Kərəmlə İsrafil ağa", "Kərəmin Qarabağa getməsi", "Samur görüşü", "Kərəmin Şabran döyüşü", "Kərəm Şahbulaqda", "İsrafil ağanın xəyanəti", "Kərəmin ölümü" kimi qollar Qaçaq Kərəmin məhdud bir ərazidə yaşayan qaçaq deyil, bütün Azərbaycanda və Dağıstanda, Gürcüstan və Ermənistanda, eləcə də Rusiyada şöhrətli igid bir cəngavər olduğunu göstərir[265].

Dastanda əsas konflikt Kərəmlə onun uşqlıq dostu İstafil ağa arasında baş verir. Naçalnik, pristav, koxa və digər obrazlar xalqı incitdikləri, haqsızlıq etdikləri üçün Kərəmin düşmənləridir. İsrafil ağa isə onunla sanki igidlik və mövqe konf-

[265] Nəbiyev Azad (2004). "Qaçaq dastanları", s.684

liktindədir. Bir toy məclisində Qaçaq Kərəmlə İsrafil ağa üz-üzə gəlirlər.

Kərəm aşığa Koroğludan oxumasını xahiş edəndə İsrafil ağanın narazılığına səbəb olur: "Aşıq, bura "Koroğlu" yeri deyil, "Şah İsmayıl"dan danış!"– deyir.

İsrafil ağa bu replikasında metonimik üsuldan istifadə edərək, "Koroğlu"nu xalqın təmsilçisi kimi, "Şah İsmayıl"ı isə taxt-tac, hakimiyyət, var-dövlət simvolu kimi təqdim edir.

"Qaçaq Kərəm" dastanında qəhrəman bütün hallarda mərdliyi, kişiliyi əldən vermir, basdığını kəsmir, düşməni arxadan vurmur. Məsələn, dastanda deyilir ki, Qaçaq Kərəm İsrafil ağanın yaylaqda olduğunu bilib, onu öldürmək istəyir. Qaçaq Kərəm gizlicə bəyin alaçığına girib, bəyin arvadı ilə bir yerdə yatdığını görüb məqsədindən vaz keçir, balışının altına güllələr qoyur. İsrafil ağa güllələri Kərəmin qoyduğunu anlayır. Arvadı təəccüblə soruşur ki, nə əcəb səni öldürməyib? İsrafil ağa ona cavab verir ki, "elə məsələ ondadır. İgid o adama deyirəm ki, basdığını kəsməsin"[266].

Qaçaq Kərəm haqqında məlumata "Qaçaq Süleyman" dastanında da rast gəlirik. "Qaçaq Süleyman" dastanında hadisələr əsasən İran və türkiyə ərazilərində cərəyan edir. Burada qaçaqçılıq daha çox fərdi mübarizə formasındadır, yəni Süleyman yoldaşlarını həbsdən qurtarmaq üçün qaravulçuları, onu tutmağa çalışan Təbriz xanını öldürür. Uzun müddət şahın həbsxanasında yatır, burada da Kərəmdən yardım istəyir. Qaçaq Kərəm də şahdan onun buraxılmasını, İrandan çıxması şərti ilə şahdan xahiş edir. Həbsxana, qürbət həyatı bu dastanın şeirlərinə də təsir etmişdir. Ona görə də Kərəmlə şeirləşməsində qəriblik mövzusu aparıcıdır:

---

[266] Yeddi dastan (1989)., s.22

Qərib yerdə oldun pənah
Bu günümdə, bu günümdə
İnan məndə yoxdu günah
Bu günümdə, bu günümdə[267].

"Qaçaq Süleyman" dastanında çar həm İran, həm də Türkiyə hökumətinə xəbər verir ki, Qafqazdan oralara çoxlu qaçaq keçmişdir, onları tutub təhvil versinlər. Bu məlumat XIX yüzilin sonlarında və əsasən də XX yüzilin əvvəllərində güclənən qaçaqçılıq hərəkatının qonşu ölkələri narahat etdiyini göstərdiyi kimi, Çar Rusiyasının gücündən də xəbər verir. "Qaçaq Süleyman" dastanında Rusiyada baş verən inqilabdan, fəhlə-kəndli hökumətindən danışılır, qaçaqların üzə çəxması siyasi hadisələrə bağlanır.

Qaçaq dastanlarında epik qəhrəmanın strukturunu müəyyənləşdirən onun igidliyidirsə mühüm motivlərdən biri də onun atı ilə silahıdır. Məsələn, Koroğlu qəhrəmanlığını Qırat, Çənlibel, Misri qılınc tamamladığı kimi, Qaçaq Nəbi igidliyini də Boz at... "Aynalı tüfəng" və Zəngəzur dağları həmin epik vüsətə qaldırır.

"Real tarixi hadisələrlə səsləşən" qaçaq dastanları "Koroğlu" qollarının davamı kimi təsəvvür edilir[268]. Belə dastanlardan biri də yuxarıda da deyildiyi kimi Qaçaq Kərəmlə bağlı dastanlardır. Bu günə qədər onun haqqında yeddi dastan yazıya alınmışdır.

Buna baxmayaraq "Aşıq Ələsgərlə Dəli Alı dastanı"nda Dəli Alının və qaçaqlarının Rüstəm Zal qədər şanlı-şöhrətli olduğu bildirilir:

---

[267] Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri, s.154
[268] Abbasov İsrafil (1972). "Yeni dastanlar", Azərbaycan dastanları. V c. Tərtib edən Ə.Axundov. Bakı: Elm, s.13

Şəninə dastan yazıram
Rüstəmin dastanı kimi[269].

Kərəmin getdiyi hər yerdə özünə dost qazanması, İrəvanda mühasirəyə düşərkən İrəvan xanına qollarını bağlatdırması Koroğlu motivləridir. Qəhrəmanı qəhrəman edən onu atı və silahıdır. Koroğlu kimi Qaçaq Kərəm də belə bir ata və silaha sahibdir. Onun məşhur Dilboz adlı atı məhz belə bir atdır.

Həm "Koroğlu", həm də qaçaq dastanları ("Qaçaq Kərəm", "Tanrıverdi" və s.) "xalqın maddi və mənəvi varlığı ilə səsləşdiyinə, onun azadlıq meyllərini və ictimai-siyasi təfəkkürünü düzgün əks etdirdiyinə"[270] görə epik yaddaşda, aşıqların, el sənətkarlarının repertuarında uzun müddət yer tuturdu. "Türkdilli xalqların qəhrəmanlıq dastanının yaranmasında tarixi şəxsiyyətlərin – şahların, sultanların, sərkərdələrin və başqalarının mühüm rolu olmuşdur. Xalq onları vaxtilə mahnılarda tərənnüm edib dastanlaşdırmışdır"[271].

Qaçaq dastanlarından "Mehralı bəy" siyasiləşmiş qaçaqçılıq hərəkatının tərənnümü ilə seçilir. Qaçaq Mehralı fəaliyyətə tipik qaçaq kimi başlasa da zamanla fəaliyyətini siyasiləşdirmişdir. Dastandan göründüyü kimi Mehralı bəyin fəaliyyəti iki mərhələdə davam edir. Birincisində o, Gürcüstanın Azərbaycan türkləri yaşayan bölgəsində çar məmurlarına və yerli zülmkarlara qarşı qaçaqçılıq edir. İkincidə o, Osmanlı torpaqlarında ruslara qarşı alay komandiri kimi döyüşür və daha sonra Osmanlıya baş qaldıran üsyançılara qarşı mübarizə aparır. Mehralı bəyin əsas fəaliyyəti qaçaqçılıqdan çox Osmanlı-Rus müharibəsində Osmanlı tərəfində savaşmasıdır. Dastanın məzmunundan anlaşılır ki, Mehralı bəy 1877-1878-

---

[269] Aşıq Ələsgər (2004). Əsərləri. Bakı: Şərq-Qərb nəşriyyatı, s.126
[270] Abbasov İsrafil (1972). "Yeni dastanlar", s.28
[271] Cəfərova F.İ. (2011). Azərbaycan dastanlarında qəhrəman problemi. Fil.elm. nan. dis. Naxçıvan, s.11

ci illər Rus-Osmanlı müharibəsində iştirak etmişdir. O, Qars uğrundakı savaşlarda 600 nəfərlik qarapapaq dəstəsi ilə böyük qəhrəmanlıq göstərmişdir. Ancaq tarixi mənbələrdə 1877-ci il noyabr ayının 5-də rusların Qars vilayətini işğal etmələrindən sonra Mehralı bəy Osmanlı torpaqlarında qalmalı olur. Osmanlı padşahı da göstərdiyi igidliyə görə ona Sivas vilayətinin Qanqal qəzasında torpaq verir. Mehralı bəy burada qarapapaqlardan ibarət Hamidiyyə alayı təşkil edir və dövlətə baş qaldıran üsyançıları cəzalandırmaqla hökumətin nəzərində dəyərli bir komandir kimi şöhrətlənir. Qaçaq Mehralı ən çətin və ümidsiz olduğu zamanlarında Hz.Əlini köməyə şağırır:

Çağırdım adını, ya Şahi-Mərdan,
Dar günü dadıma yetiş sən mənim.
Sənsən xəlq eyləyən aləm-cahanı,
Bu darda dadıma yetiş sən mənim[272].

"Mehralı bəy" dastanında tarixi hadisələr çoxluq təşkil edir. Qaçaq Mehralının savaşdığı adamlar, görüşdüyü sənətkarlardan Aşıq Şenlik, Aşıq Sadıq, Aşıq Ruhsati, Aşıq Pünyani tarixi şəxslərdir. Bu dastanda da Koroğlunun adı çəkilir. Nəhayət dastanın duvaqqapmasında aşıq:

Köç eylədi Qoç Koroğlu,
Çənlibel oylağı qaldı.
Rüstəm öldürdü oğlunu,
Sinəsində dağı qaldı.
Nə Nəbi, nə Qaçaq Kərəm,
Nə də Qandal Nağı qaldı.
Dağladın neçə sinələr,
Nə ürəyinin yağı qaldı.
Neçələrini yola saldın,
Alosman aslanı deyim[273].

---

[272] Borçalı folklor örnəkləri (2013). II Kitab, s.295

Koroğlu istisna olmaqla XIX yüzilin adlı-sanlı qaçaqlarını xatırlamış olur.

"Mehralı bəy" dastanının əsas struktur-semantik özəlliyi dastan qəhrəmanının qaçaqçılıqla başlayan həyatının savaş qəhrəmanı kimi davam etdirilməsindədir. Aşıq da bu tarixi hadisələri epikləşdirərək qaçaq dastanının strukturuna (varlıdan alıb kasıba vermək, öz ədalət divanını qurmaq, digər qaçaqlarla münasibət, mərdlik və s.) uyğunlaşdırmışdır.

Müəllifi məlum olan və yazılı dastan özəlliyi daşıyan "Qaçaq İsaxan" və "Qaçaq Mahmud" dastanlarını Qarayazılı el şairi Zahid Ələmpaşalı yazmışdır. Z.Ələmpaşalı bu iki qaçaq haqqındakı rəvayət, əhvalat, nəğmələr əsasında iki dastan yaratmışdır[274]. Yazılı dastan olduğu üçündür ki, müəllif XX yüzilin başlarından 1930-cu illərin sonlarına qədər baş verən qaçaqçılıq hərəkatını və siyasi hadisələri bir-birinin davamı olan bu iki dastanda qələmə almışdır. Əslində sovet qaçaqları ilə bağlı dastan söylənmədiyi məlumdur. Çünki sovet aşıqları kolxoza qarşı mübarizə aparan qaçaqlar haqqında dastan qoşmağı ağıllarına da gətirməzdilər. Ona görə də Z.Ələmpaşalının müstəqillikdən sonra bu iki dastanı yazması normal qarşılanmalıdır. Ancaq hər iki dastan süjet xəttinin zəifliyi, epizodikliyi, şeirlərinin azlığı və s. ilə diqqət çəkir. "Qaçaq İsaxan" dastanı digər qaçaq dastanları kimi Koroğlu ənənəsi üzərində, hətta bir çox döyüş səhnələri "Misri" havası üzərində oxunmaq üçün yazıldığından Koroğlu ruhu açıq şəkildə sezilir. Məsələn, dastanın bir yerində "Aldı görək Koroğlunun "Misri" havası üstündə İsaxan nə dedi:

Beşaçılan gülləsi leysana dönsün
Yağdırın qoy süzsün qoşa güllələr

[273] Borçalı folklor örnəkləri (2013). II Kitab, s.326

[274] Ələmpaşalı Zahid (2009). Qaçaq İsaxan; Ələmpaşalı Zahid (2009). Qaçaq Mahmud.

Düz atın düşmənlər qana bələnsin
Amandı keçməsin boşa güllələr.

Qanla qurulubdur tarixi himi
Ölüm qorxutmayıb igid nəslimi
Yapışsın alnına bir möhür kimi
Çoxdandır bələddir başa güllələr[275].

"Qaçaq İsaxan" dastanı sözlü tarix əsasında yazılmışdır. Bu dastan sovet qaçaqları haqqında olan ilk nümunədir, ancaq aşıq repertuarında qoşulmayan, masa başında yazılmış dastandır. O dövrdə özəlliklə Gürcüstanda sovetlərə qarşı antitəbliğatın lideri – "Xozeyin" adı ilə tanınan Qurban Mustafa oğlu idi. Başda Nağı olmaqla Sovetlərlə barışmayan (daha doğrusu Sovetlərin barışmaq istəmədiyi) bir dəstə insan Türkiyəyə keçdilər. İsaxan isə aldadıldı, pusquya düşdü və qəhrəmancasına həlak oldu. Onun ölüsünü belə hökumət ailəsinə vermədi[276]. Kolxoz quruculuğuna qarşı dirənən qaçaqlardan Qarayazılı İsaxan siyasi fəallığı ilə seçilir. Həm də dastan müəllif qələmindən çıxdığı üçün epikləşmə siyasi konyukturanın qarşısında zəif görünür. "Xozeynin sürgün olunmasını eşidən İsxan qarşısına məqsəd qoydu ki, bizə yalnız qaçaqlıq kömək edəcək. Atalar demişkən: "Dustaqlıqdan qaçaqçılıq yaxşıdır. Qaçaqlıqdan ölüm yaxşıdır". İsaxan silahını, yarağını-yasağını götürüb özünü atdı Qarayazı meşəsinə.

Bunu eşidən qardaşı Astan, Sarıvəlli evindən Yasin, Qasdannı İsa, Haqqalannın Alı və qardaşı Abdulla, İmanıoğullarından İmanı Əhməd, Başıoğullarından Məhəmməd, Allahverdioğlu Sədi, Hajıoğlu Molla Mustafa, Qaraseyiddi-

---

[275] Əlǝmpaşalı Zahid (2009). Qaçaq İsaxan, s.33-34
[276] İsaxanlı Hamlet (1998). "Qafqazda sovet terroruna qarşı 1928-30-cu illər silahlı müqavimət hərəkatı haqqında", Qafqazda Sovet totalitarizmi (20-30-cu illər): Elmı konfrans. Bakı, 6-7 noyabr, 1998-ci il. Xəzər Universitəsi nəşriyyatı, s.55-58

dən Nuru, Aljannın Mustafa, Borçalıdan Sadıx Sadıxlı İsaxana qoşuldular. Onlar bir neçə dəfə milisə basqın edib, dustaqları azadlığa buraxıb, çoxlu silah, patron və milisin atlarını ələ keçirdilər. Az bir vaxtda İsaxanın adı hər tərəfə yayıldı. Hər tərəfdən İsaxanın başına qaçaqlar yığılmaqda idi"[277]. 1929-cu ilə kimi Qarayazının bəzi kəndlərində kolxoz qurulmadığından Qızıl ordu qaçaqları məhv etmək üçün hücuma keçir. Qarayazı meşəsində, Keşişdə baş verən döyüşlərdə qaçaqlar Qızıl ordunun şox sayıda əsgərlərini qırırlar. Ordunun topla silahlanması dastanda Qaçaq Nağının dilindən belə təsvir edilir:

Göy üzünü bulud alıb
Üst tərəfdən yaman gəlir
Atlar toplara qoşulub
Yönü bəri yaman gəlir.

Top atılar şimşək çaxar
Bu dərədən qanlar axar
Tufan qopar sellər yıxar
Çox pis dövran zaman gəlir[278].

Dastanda Qızıl ordunun əməliyyatına Beriya, Georqadze başçılıq edirlər. Hökumət Qaçaq İsxanı fiziki cəhətdən məhv edə bilmədiyi üçün onunla anlaşma yoluna gedir və Beriyanın adından onu yaylaq milis rəisi vəzifəsinə təyin edir. Öncə Qaçaq İsaxan, o öldürüldükdən sonra da Qaçaq Mahmudun sovet milislərinə, çekistlərinə qarşı mübarizəsi bu iki dastanda tərənnüm edilmişdir. Dastanda bu varislik məsələsi qəhrəmanın dilindən təqdim edilir: "Mahmud üzünü qaçaqlara tutub öz məramını açıqladı: "A dostlar, İsaxan kimi oğulları yüz ildə bir yetirir. Onu yəqin bilin ki, o ölməyib, sağdı.

[277] Ələmpaşalı Zahid (2009). Qaçaq İsaxan, s.22-23
[278] Ələmpaşalı Zahid (2009). Qaçaq İsaxan, s.32

Dəstəmiz həmin dəstədi, Mahmudu da İsaxan bilin"[279]. Qaçaq Mahmud sovet milislərinə qarşı savaşır, həbsxanaları açıb dustaqları azad edir, kommunistlərin yalan təbliğatını ifşa edir. Bir sözlə onun qaçaqlığı dağlara çəkilib yalnız iqtisadi mübarizə aparan qaçaqdan daha çox mübarizənin siyasi yönünə önəm verməsi ilə seçilir.

Qəhrəmanlıq dastanlarında olduğu kimi qaçaq dastanlarında da igidliklə bərabər əxlaqi-mənəvi dəyərlər ön plana çəkilir. Qaçaq dastanlarında əsasən qeyrət, mərdlik, yaxşılıq, əliaçıqlıq, sədaqət, kişilik, səxavət, ədalət və s. keyfiyyətlər qabardılır.

## 5.5. Son söz

Xalqın əxlaqi-mənəvi dəyərləri, davranış normaları, ədalət və azadlıq hissi qaçaq dastanlarının fəlsəfəsini təşkil edir. Qaçaq adlandırılan qəhrəmanların müəyyən bir situasiyada davranışları toplumun mənəvi dəyərləri ilə mütləq surətdə əlaqədar olur. O baxımdan aşıq mühitində yaranan qaçaq dastanlarında bütün müsbət keyfiyyətlər qəhrəmana aid edildiyi kimi mənfi hallar da antiqəhrəmana şamil edilməklə ideallaşdırma yoluna gedilmişdir. Bu isə sənətkarlıq cəhətdən zəif olmasına baxmayaraq qaçaq dastanlarının müəyyən bir ənənə üzərində qurulduğunu isbat edir. Qaçaq dastanlarının heç birində həcmindən asılı olmayaraq Dədə Qorqud boyları, Koroğlunun qollarında olduğu qədər bitgin süjet, bədii dəyər axtarmaq mümkün deyildir. Hələ yakut, Altay-Sayan türklərinin qəhrəmanlıq dastanlarının yanında qaçaq dastanlarında hadisələrin təsvirçiliyi, təhkiyənin qeyri-stabilliyi açıq şəkildə görünür. Aşıq mühitində çox da geniş yayılmayan, variantlaşması zəif, ümumiləşdirməsi olmayan bu dastanlar tam olaraq

---

[279] Borçalı folklor örnəkləri (2013). II Kitab, s.366

formalaşa bilməmişdir. Ancaq qaçaq dastanlarının yaranmasında heç şübhəsiz örnək bir dastan olmuşdur. Bu örnək epik model dəliləri ilə Çənlibelə çəkilib ədalət uğrunda vuruşan, varlıdan alıb yoxsula verən klassik qaçaq tipi Koroğlunu öyən dastandır. Sovet dövrü folklorşünaslığında XIX əsr qaçaq hərəkatından bəhs edən dastanlar ideoloji-siyasi baxımından araşdırılsa da qaçaq dastanlarının qədim və orta əsrlər qəhrəmanlıq ənənəsi ilə əlaqəsi, həmin ənənənin yeni dövrdə qaçaq dastanlarında yaşaması, o cümlədən klassiк ənənələrin yeni dövrə uyğunlaşma xüsusiyyətləri və s. kimi məsələlər də örnək dastanın əsasən Koroğlu olduğunu göstərir.

Azərbaycanın işğalından sonra Koroğlu motivlərinin və bütövlükdə dastanın geniş vüsət almasının səbəblərindən biri də artmaqda olan kəndli hərəkatı idi. O baxımdan XIX əsrin ikinci yarısından sonra yaranmağa başlayan qaçaq dastanlarının formalaşmasında epik etalon rolunu "Koroğlu" dastanı oynadı. Qaçaq dastanları istər motiv baxımından, istərsə ideyası, istərsə də struktur-semantikası baxımından "Koroğlu" dastanı üzərində qurulmuşdur.

Və nəhayət, qaçaq dastanlarının hadisələrin cərəyan etdiyi dövlətin, siyasi rejimin sosial-mədəni, siyasi-iqtisadi strukturunu tam yansıtmaqdan uzaq olduğunu xüsusi olaraq demək lazımdır. Bunu dastanların klassik dastanlar kimi zəngin motivə sahib olmaması, hadisələrin bir pərdəli teatr tamaşasına bənzəməsi ilə izah etmək olar. Ancaq qaçaq dastanlarında motiv səviyyəsində olmayan və süjet xəttini təşkil etməyən bəzi işarələrdən, məsələn, qəhrəmanın və ümumilikdə kəndlilərin həyat tərzləri, muzdlunun haqqını verməmə, başqasının nişanlısını zorla alma, bac alma, oğurluq, ailə münasibətləri, qohumluq əlaqələri, mükafat və cəzalar, ağır vergilər, özbaşınalıq, adət-ənənələr, toylar, əyləncələr və sairdən də dövrün sosial strukturunu öyrənmək mümkündür.

# ALTINCI FƏSİL
# SOVET İDEOLOGİYASININ QAÇAQ HƏRƏKATINA BAXIŞI

## 6.1. Məsələnin qoyuluşu

Yüz il bundan öncə siyasi rejimin dəyişməsi ilə başa çatan 1917-ci il 28 fevral (burjua-demokratik inqilabı) və daha sonra da 25 oktyabr bolşevik inqilabı (böyük oktyabr sosialist inqilabı) ideoloji, siyasi, sosial, mədəni və iqtisadi sahədə köklü dəyişikliklərə səbəb oldu. Bu qədər çox dəyişikliyin təməlində Karl Marxın da yazdığı kimi Avropanın kabusu olan kommunist rejiminin qurulmasıydı. Marxa görə sənaye çağında ən böyük güc iqtisadiyyatı əlində tutan proletariat idi. Marxın sosialit nəzəriyyəsinin və düşüncələrinin davamçısı olan Vladimir İliç Leninin ən böyük kəşfi sosializmin inkişaf etmiş kapitalist ölkəsində deyil, feodal münasibətlərin yaşandığı yarı aqrar bir ölkədə gerçəkləşdirməsi və bütün bu dəyişikliklərin yalnız yeni sovet insanının yaradılmasıyla mümkün olacağı fikrini həyata keçirtmək üçün çalışmasıydı. İnqilab həm Marxın, həm də Leninin nəzəri əsərlərində tarixin axarını dəyişən ən böyük hərəkətverici güc kimi təqdim edildi və bunun da təməli olan yeni mədəniyyətin yaranması fikri ortaya atıldı. Belə olduqda bütün sosial-bəşəri elmlər yeni mədəniyyətin yaradıcısı olacaq sovet insanını formalaşdırmaq üçün səfərbər edilmiş oldu. Geniş xalq kütləsinə müraciətin, onlarla dialoqun ən anlaşılır yolu olan folklor da kommunist ideologiyasının ən böyük köməkçisi vəziyyətinə gətirildi və az toplanmasına, az öyrənilməsinə baxmayaraq xalq arasında birliyi formalaşdıran, köhnə totalitar rejimə qarşı mübarizəni müdafiə edən qaçaqlar haqqındakı şifahi materiallar da yeni cəmiyyətin qurulmasında faydalanılan sahələrdən biri oldu.

Son hədəfi sinifsiz və millətsiz bir cəmiyyət qurmaq olan kommunizm Oktyabr İnqilabı ilə xalqlar dostluğu ideyasını ortaya atdı və bunu ayrı-ayrı xalqların arasında mövcud olan fərqi silməklə, yeni sovet insanı yetişdirməklə həyata keçirməyə çalışdı. Kommunizmin əsas ideyası, nəticədə millətsiz bir cəmiyyət qurmağın təməllərini sosial elmlərin yardımı ilə gerçəkləşdirmək idi. Humanitar elmlər, başda ədəbiyyat və folklor olmaqla son hədəfə gedən yolda kommunizm ideologiyasının ruporuna çevrildi. Bunun üçün folklorun bütün sahələri ideoloji bazada yenidən redaktə edildi. Qaçaqçılıq hərəkatı da bu baxımdan sosialist ideologiyasının tarix və folklor sahəsindəki ən əsas materialı oldu.

## 6.2. Sovet folklorşünaslığında qaçaqçılıq hərəkatına ikili ideoloji münasibət

Sovet dönəmində geniş yayılan qaçaq hekayətlərinə ideoloji-siyasi qayğılara görə ikili standartın uyğulandığı görünür. Bunun əsas səbəbi Sovetlər İttifaqında, ümumilikdə sosial elmlərin, konkret olaraq da folklorun ideoloji savaşda və özəlliklə də yeni sovet insanı yaratmaq siyasətində önəmli vasitə olması idi. Eyni ilə Hitler Almaniyasında olduğu kimi, Sovetler İttifaqında, Çində, İkinci Cahan Savaşından sonra isə sosialist cəbhəsində yer alan Avropa ölkələrində kommunist ideologiyasının və sosialist düşüncəsinin daha geniş xalq kütlələrinə çatdırılıb mənimsətilməsində folklor materiallarının böyük rolu olmuşdur. Beləliklə, aradan keçən iki yüz ilə yaxın bir zamanda, xüsusən də Fransız inqilabından sonra folklor romantik millətçilik düşüncəsindən ideoloji savaş vasitəsinə qədər uzun bir yol keçmişdir. Folklorun digər janrlarında olduğu kimi qaçaq folklorundan da ideoloji məqsədlə istifadə edildi. Sovet totalitar rejimi, bir tərəfdən xalqları milli kimlik-

dən qoparmaq üçün ziyalıları məhv etmək yolunu (1937-ci il Qızıl terroru) tutdu isə, digər tərəfdən folklordan insan şüurunu yenidən şəkilləndirməkdə yararlandı[280]. Xalqbilimi milli kimliklərin ortaya çıxmasında mədəniyyətin ən bariz və xüsusi növü olduğundan sovet idarəçiləri işə folkloru ideolojiləşdirməklə başladılar. Bir sözlə, XIX-XX yüzillərdə folklordan böyük perspektivdə xalq kütləsini istənilən tərəfə çevirmək və istənilən şəkildə idarə etmək üçün ideoloji vasitə kimi istifadə edilmişdir. Sovetlər İttifaqının həm milli, həm mədəni, həm də siyasi-iqtisadi siyasətinin həyata keçirilməsində xalq ədəbiyyatı və onun bir qolu olan qaçaq folkloru da önəmli rol oynadı.

Sovet folklorşünaslığı doğrudan da xalq ədəbiyyatının öyrənilməsində prinsipcə yeni bir mərhələ oldu. Onun əsas ideya istiqamətini və metodoloji əsaslarını marksizm-leninizm klassiklərinin folklora dialektik-materialist baxışla yazdıqları əsərləri oldu. Təbii ki, ilk öncə bu ideoloji-nəzəri bazanın qurulmasında K.Marx, F.Engels və V.İ.Leninin əsərləri, göstərişləri və mülahizələri mühim roy oynadı. Özəlliklə, sovet folklorşünaslığının metodoloji əsaslarının təyin edilməsində Vladimir İliç Leninin nəzəri əsərlərində irəli sürdüyü xalq, xalqın dünyagörüşü, xalq psixologiyası, xalq yaradıcılığı, tarixi kateqoriyalar və sosializmə qədərki hər milli mədəniyyətdə iki mədəniyyətin varlığı (feodal və ya burjua mədəniyyəti ilə kəndli-fəhlə mədəniyyəti) məsələsi yol göstərici oldu. Folklor materiallarından istifadə etməklə sosializmin təbliği kimi məsələlər də Leninin əsərlərindən çıxarılan qənaətlərə söykənirdi.

Bolşevik və ya Oktyabr inqilabına (25 Oktyabr 1917-ci il) qədərki şifahi mədəniyyətin qaçaqçılıq hərəkatı rus imperializminin yerlərdəki idarəçiliyinə, milli siyasətinə qarşı çevrildi-

---

[280] Connerton Paul (1999). Toplumlar Nasıl Anımsar? Çev. Alaeddin Şenel. İstanbul: Ayrıntı Yayınları, s.26-27

yindən sovetləşmədən dərhal sonra siyasi-ideoloji rejim bunların təbliğ və təşviq olunması siyasətini həyata keçirtdi. Əsas məsələ Çarlıq Rusiyası zamanında qaçaqların sosial tərkibinin əhalinin yoxsul qismindən çıxması və mübarizənin bəylərə, iri torpaq ağalarına və yerli idarəçilərə qarşı çevrilməsi idi. Bu üstqurum, sinfi mübarizə ideologiyası və idarəçilik siyasəti üzərində qurulan yeni cəmiyyətin tələblərini yetərincə qar-şılamaqdaydı. Belə ki, rus sovet yazıçılarının məşhur patriarxı Maksim Qorki (Aleksey Maksimoviç Peşkov 1868-1936) və folklorçu Yuriy Matveyeviç Sokolovla (1889-1941) Boris Matveyeviç Sokolov (1889-1930) qardaşları da xalqın tarixini bilməkdə və yeni cəmiyyətin təbliğində ən əsas material olduğunu qeyd etdilər. Adları çəkilənlər rəsmi partiya ideologiyasının fəhlə sinfi arasında sürətlə yayılması üçün folklorun önəmli bir vasitə olduğunu vurğulamaqdaydılar[281]. Özəlliklə, 1934-cü ildə Sovet Yazıçılarının Birinci Qurultayında ədəbiyyat kimi folklorun da kommunist təbliğatında əsas siyasi ünsürə çevrilməsi məsələsi işlənib hazırlandı. Sovet xalqbiliminin nəzəri proqramı V.İ.Leninin birbaşa "folkloru sosial-siyasi baxımdan öyrənmək lazımdır", direktiviylə bağlıdır[282]. M.Qorki Sovet Yazıçılarının I. Qurultayında "Şura ədəbiyyatının vəzifələri" mövzusunda uzun bir məruzə ilə çıxış edərək folklorun toplanmasından araştırılmasına, qorunmasından istifadəsinə, ictimai-siyasi əhəmiyyətindən tərbiyəvi funksiyasına qədər yeni kommunist münasibətin formalaşdırılmasında rolunun nədən ibarət olacağını işləyib hazırladı. Qorki belə deyirdi: "Mən, yoldaşlar, belə

[281]Qorki Maksim (1950). Ədəbiyyat haqqında. Tərcümə edən M.Rzaquluzadə. Bakı: Uşaqəncnəşr; Соколов Юрий Матвеевич (1931). "Дискуссия о значении фольклора и фольклористики в реконструктивний период". Литература и марксизм 5: с.91-114

[282] Бонч-Бруевич Владимир Дмитриевич (1963). "В.И.Ленин об устном народном творчестве". Избранные сочинения. Т.III. Moskva: Изд-во АН СССР, s.350

bir fakta diqqətinizi yenidən çəkirəm ki, daha dərin və parlaq qəhrəmanların bədii mükəmməl tipləri folklor, yəni fəhlə-kəndli sinfinin şifahi ədəbiyyatı ilə yaradılmışdır. Belə xarakterlərin kamilliyi Prometey, Herakl, Mixluqa Selyaninoviç, Svyatoqor, sonra doktor Faust, Gözəl Vasilisa, ironik bir tip olan İvan-durak və nəhayət, Petruşka doktora, keşişə, polisə, şeytana və hətta ölümə qalib gələn bütün bu obrazları harmonik şəkildə intusiya, fikir və duyum birləşdirir"[283]. M.Qorkinin ilk baxışda ədəbiyyata, sənətə, folklora qaygı kimi görünən qeydlərində də folklorun təhrif olunma direktivləri vardır: "Yenə də təkrar edirəm: söz sənətinin başlanğıcı folklordur. Folklorunuzu toplayın, ondan öyrənin, ***onun üzərində işləyin***. Folklor sizlərə də, biz şair və yazıçılara da çox material verəcəkdir. Keçmişimizi nə qədər yaxşı bilsək bu anın böyük mənasını o qədər dərin və xoşbəxt şəkildə başa düşərik"[284].

"Proletar yazıçısı" Maksim Qorki "dünyada ibrətli olmayan heç bir şey yoxdur" deməkə əslində əfsanələrdən, nağıllardan, nəğmələrdən, dastanlardan əməkçi xalqın sosialist görüşlərini öyrənməyə çalışırdı və bunu bütün İttifaq folklorşünaslarına tövsiyə edirdi. Qorki "Uşaqlıq", "Özgə qapılarında", "Mənim universitetlərim"[285] adlı avtobioqrafik əsərlərində də folklordan istifadə edərək yaradıcılığını təkmilləşdirdiyini, dərinləşdirdiyini bildirirdi. Təbii ki, onun fikir və ideyaları, tövsiyyələri digər sovet respublikalarında müsbət qarşılansa da Azərbaycanda hətta proqram sənədi kimi dəyərləndi-

---

283 Горький Максим (1953). Собрание сочинений. Т.XXVII, Москва: Гослитиздат, s.305

284 Горький Максим (1953). Собрание сочинений. Т.XXVII, Москва: Гослитиздат, s.342

285 Qorki Maksim (1952). Uşaqlıq. Povest. Tərcümə edən Ə.Məmmədxanlı. Bakı: Gənclik; Qorki Maksim (1952). Özgə qapılarında. Tərcümə edən Ə.Məmmədxanlı. Bakı: Uşaqgəncnəşr; Qorki Maksim (1952). Mənim universitetlərim. Tərcümə edən Ə.Məmmədxanlı. Bakı: Uşaqgəncnəşr

rildi. Folklorun toplanması, nəşri, tədqiqi ilə yanaşı yazıçılar da ondan öz yaradıcılıqlarında geniş istifadə etdilər. Səməd Vurğun, Süleyman Rüstəm, Mehdi Hüseyn, Süleyman Rəhimov, Rəsul Rza, Məmməd Rahim, Zeynal Xəlil və onlarla digərləri canfəşanlıqla xalq ədəbiyyatı əsasında yeni-yeni bədii-ideoloji əsərlər yazdılar.

Folklorun nəzəri əsaslarını işləyən Yuriy Sokolovun görüşlərinə görə folklorçu sadəcə yorulub-usanmadan toplayan və hər şeyi obyektiv şəkildə araşdıran biri olmaqdan daha çox, folkloru cəmiyyətin həyatından, kütləvi siyasətdən kənarda tutmayan tədqiqatçı olmalıdır. Sovet folklorçusu öz işini mədəni dəyişikliklərin bir parçası kimi görməlidir. O baxımdan toplama işi yerli komsomol, partiya işçilərinin fəal iştirakı və yardımıyla yerinə yetirilməlidir. Folklorun ateizm təbliğatının yayılmasında, inqilabın prinsiplərini xalqa çatdırmaqdakı roluna toxunan Y.Sokolov sovet folkloru və etnoqrafiyası necə olmalıdır sualına da nəzəri baxımdan cavab vermişdir[286]. Burada incə şəkildə folklorun sosializmin lehinə ideoloji baxımdan saxtalaşdırılması tövsiyə edilirdi. Bir sözlə, sovet folklorunun toplanması, nəşri və markisist metodologiya ilə araşdırlması haqqında Yuriy və Boris Sokolov qardaşlarının müddəaları o dövr üçün elmi-nəzəri baza idi.

Ədəbiyyat və folklorun ideoloji əsaslarını Vladimir İliç Lenin qoymuş olsa da, onun yeni cəmiyyətdə necə olacağını Maksim Qorki və Sokolov qardaşları işləyib hazırlasa da, sovet, özəlliklə də rus xalq ədəbiyyatının qəhrəmanı İosif Vissorionoviç Stalin oldu. Hətta Azərbaycan qaçaq hekayətlərində də Stalinin obrazına rast gəlmək mümkündür. Çar üsul-idarəsindən qaçaq düşən Stalin həm də özü kimi digər qaçaqların dostu olmuşdur. Ancaq Stalin başqalarından fərqli olaraq siyasi

[286] Соколов Юрий Матвеевич (1938). Русский фольклор. Москва: Учпедгиз

qaçaq idi, varlıdan alıb yoxsula verən, özünün ədalət anlayışı olan klassik qaçaq tipinə bənzəmirdi. Onun əsas mübarizəsi rejimi dəyişdirməkdən ibarət idi.

Belə ki, folklor materiallarının Sovetlər İttifaqı tərkibinə daxil olan bütün xalqlarda sürətli şəkildə toplanıb kitablaşdırılması və tədqiq edilməsinin əsas səbəbi də sosial elmlərin kommunist təbliğat maşınında vintçik işini yerinə yetirməsindən qaynaqlanırdı. Çünki folklor daşıdığı missiya və mədəni kodları ilə xalqı idarə etməyin ən qısa və sadə formasıdır. Təbii ki, sovetlərin sənət anlayışı və metodoloji bazası sosialist realizm idi ki, bu da cəmiyyəti inkişafda göstərmək demək idi. Bu metodologiya folklor nümunələrinin araşdırılmasında da tətbiq edildi. Sovet İttifaqı zamanında folklora çox böyük önəm verilməsinin və ondan daha çox istifadə edilməsinin səbəbi ilk öncə bu materialların sosialist realizmə daha yaxın olmasına görəydi. Bu da yeni kommunist insanını ideoloji baxımdan formalaşdırmaqda əsas qaynaq rolunu oynayırdı. Ona görə də bolşevik inqilabına qədərki qaçaqlardan bəhs edən nəğmələr, əfsanələr, nağıllar və nəhayət, qəhrəmanlıq dastanları toplanaraq (bəzən də yuxarıdan gələn sifarişlə aşıqlara yazdırılaraq) araşdırılmağa başlandı. Ciddi senzurada keçirilən bu folklor nümunələri əsl qayəsindən saptırılmış mətnlər idi.

Çar dövründəki senzuraya dayanan mətbuatın qaçaqlar haqqında dəyişik məlumatlar (müsbət və mənfi) verməsinə baxmayaraq sovet dövründə yeni kommunist insanı, yaxud sovet adamı yaratmaq planının tərkib hissəsi olan "formaca milli, məzmunca sosialist" ədəbiyyat devizi çar rejiminin yüz ildə edə bilmədiklərini 20-30 il içərisində həyata keçirtdi. Qısa bir zamanda başda Lenin olmaqla sovet ideoloqlarının düşüncə tərzi millilikdən arınmış, keçmişindən qoparılmış yeni insan formalaşdırmaq layihəsi tam da olmasa böyük mənada həyata keçdi. Qorxu, sindirmə, keçmişini bilməmə, aşağı sə-

viyyəli qan daşıyıcısı olma yeni manqurtlar nəslinin ortaya çıxmasında önəmli element oldu. Bütün bunların həyata keçirilməsində sovet rejiminin humanitar elm üzərindəki inhisar dərəcəsinə çatan senzurası mühim rol oynadı.

Həm folklor, həm tarix, həm sosiologiya, həm də elmi kommunizm Çarlıq Rusiyası zamanı toplanmış qaçaq hekayətlərini, dastan parçalarını, mahnıları sinfi aspektdən dəyərləndirərək yeni dövrün yeni qəhrəmanlarını yaratdı. Bununla bərabər bütün türk ölkələrində sovetlərə qarşı mübarizə aparan ikinci nəsil qaçaqların bir qismi unutdurulmağa çalışıldı, bir qismi də sovet rejimi tərəfindən sinfi düşmən elan edildilərək məhv edildi. Məsələn, Orta Asiya qaçaqlarına basmaçı adını verməklə onları daha sonrakı nəslin gözündə düşmən, qaniçən, zalım, köhnəliyin qalığı kimi təqdim etdilər. (Azərbaycanda da sovetlərin yerli siyasətinə qarşı mübarizə aparanlara qolçomaq adı verildi.) Əslində isə bu insanlar işğalçı sovet ordusuna ani basqın etdikdən sonra qaçaraq qurtulan qruplar idi ki, tarixdə basmaçı adı ilə bilinir. Bu hərəkat Orta Asiyada 1918-ci ildən 1942-ci ilə qədər bəzi fasilələrlə davam etdi. Bu hərəkatın iştirakçıları Orta Asiya müsəlman türkləri idi. Basmaçı hərəkatının əsas ideologiyası müstəmləkəyə qarşı İslami müqavimət hərəkatı idi. Çünki bolşevik idarəçiləri qısa bir zamanda izlədikləri siyasətlə xalqın nifrətini qazanmışdılar. Basmaçı hərəkatı 1917-ci ildə Fərqanədə başlayan ilk üsyanla gündəmə gəldi və daha sonra da bütün Orta Asiyaya yayıldı. Üsyançılar bolşeviklərin çarlık dönəminin idarəçilərindən də pis olduğunu fərq edərək (sovetlərin milli muxtariyyətləri ləğv etməsi, torpaqları kolxoz adı ilə birləşdirilməsi, dinə qarşı ateist münasibət və s.) mövcud sistemin devrilməsi üçün mübarizəyə qalxdılar. Ancaq bolşeviklərin Qızıl Ordusu ilə açıq döyüşdə məğlub olan basmaçılar qaçaqlar kimi silahlı üsyanlarını dağlara çəkil-

məklə və ani basqınlarla davam etdirdilər[287]. Sözlü ədəbiyyatda uzun zaman əsl qəhrəmanlar kimi öyülən qaçaqlar (basmaçılar) təəssüf ki, totalitar rejimin siyasətini yerinə yetirən folklorçuların diqqətindən kənarda qaldı.

Sovet qaçaqları tənqid edilib pislənirkən Çarlıq Rusiyası qaçaqlarını öyrənmək üçün hər cür şərtlər yaradıldı. Bir sözlə əski qaçaqlara tərif yağdırıldığı halda, sovet qaçaqlarına düşmən münasibət yaradılmış oldu.

Buna baxmayaraq sovet elmi Çar Rusiyasına, onun yerlərdəki məmurlarına qarşı çıxan qaçaqların öyrənilməsinə (bəzi istisnalar, məsələn, bir az milli azadlıq havasında olan, yaxud varlı olan qaçaqlardan başqa) xüsusi diqqət yetirdi. Hətta qolçomaq adı verilən rejim qaçaqlarına qarşı vuruşan bəzi yol kəsən, oğru, cani qrupları haqqında məlumat toplamaq üçün elmi ezamiyyələr təşkil edildi. Çar qaçaqları haqqında da rəvayətlər, şeirlər, mahnılar toplandı, bir çoxu barədə süni də olsa dastanlar qoşduruldu, romanlar yazıldı, filmlər çəkildi. Bir sözlə, diqqət sovet rejim qaçaqlarından çar qaçaqlarına doğru dəyişdirildi. Sovetlərin ideoloqları və sovet elmi rejim qaçaqlarını unutdurmağa çalışdıqları halda, çar qaçaqlarını öyrənmək və təbliğ etməkdə heç bir şey əsirgəmədilər.

Bu vəziyyəti konkret olaraq Qarabağdan toplanan materiallarda da görmək mümkündür: "Bolşevizmin mübarizə aparıb axırına çıxdığı və həmişə gözdən salmaq istədiyi çarizmə gəldikdə isə, burada (yəni çarizm dövrünün qaçaqlarına aid

---

[287] Chokay Mustafa (1928). "The Basmachi Movəment in Turkestan", The Asiatic Review Vol.XXIV; Paksoy Hasan B. (1991). "Basmachi": Turkish National Liberation Movəment 1916-1930", Modern Encyclopedia of Religions in Russia and the Soviet Union (FL: Academic International Press) 1991, Vol. 4, pp. 5–20; Buttino Marco (1997). "Ethnicité et politique dans la guerre civile: à propos du 'basmačestvo' au Fergana", Cahiers du monde russe et sovietique, Vol. 38, No. 1-2; Broxup Marie (1983). "The Basmachi", Central Asian Survəy, Vol. 2, No. 1, pp. 57–81

mahnılar, rəvayətlər, dastanlar qeydə alıb çap etdirməkdə) elə bir qadağa yox idi. Olsa-olsa daşnaklarla toqquşma motivi millətçilik adı altında yasaq edilə bilərdi. Qaçaq Nəbi, Qaçaq Kərəm, Dəli Alı və başqa qaçaqları "istismarçı" bəylərə və xanlara qarşı mübarizə aparan qəhrəmanlar kimi nə qədər öyürsən öy heç kim sənə (söyləyici və toplayıcıya) güldən ağır söz demirdi. X əsrin 20-30-cu illərində NKVD qüvvələri ilə vuruşmalı olan qaçaqları isə öymək nədir, onların haqqında ucadan danışmaq belə çətin idi. Haqqında ucadan danışılması sovet dövründə çətin olan bu qaçaqlar unuduldularmı, yaddan çıxdılarmı? Əlbəttə, yox. Əgər sovet dövrünün qaçaqları unudulsaydılar, yaddaşlardan silinib getmiş olsaydılar, bu gün həmin qaçaqlarla bağlı rəvayətlər Qarabağ əhalisi arasında bu qədər geniş yayılmazdı. Maraqlıdır ki, sovet dövrünün qaçaqları (Qara Məmməd, Qaçaq İldırım, Qaçaq Baba, Qaçaq Hümmət və b.) rəvayətlərdə Mircəfər Bağırovla (folklordakı əzazil padşah obrazının paradiqması ilə) kəllə-kəlləyə gələn qorxmaz adamlar kimi təqdim edilməkdən başqa, yetim-yesirin qeydinə qalan, qanı bahasına qazandığı tikəni onlarla bölməyə hazır olan insaf sahibləri kimi də təqdim edilirlər"[288].

Çar dönəmində qaçaqçılıq tipik kəndli hərəkatı idisə sovetlərin qurulması ilə qaçaqçılıq milli-azadlıq mübarizəsi zəminində baş verən üsyanlar şəklində reallaşdı. Təbii ki, sovet rejiminə qarşı baş verən üsyandan dərhal sonra qaçaq düşənlər olduğu kimi, ömrünü çar rejiminə qarşı qaçaqçılıqla keçirənlər, torpağı əlindən alınan orta təbəqə kəndlilər də vardı.

Çarlıq vaxtında başlanğıcda fərdi intiqamla dövlətdən qaçaq düşən bu insanlar zülmə, sosial ədalətsizliyə qarşı etiraz etmələri ilə sosial-iqtisadi təməlli müqavimətin əsasını

[288] Kazımoğlu Muxtar (2013). "Qarabağ folkloru: görülən işlər və çıxarılan bəzi nəticələr", 525-ci qəzet, 2 dekabr

qoymuş oldular. Sovet siyasəti də hakimiyyətin əsl sahibinin fəhlə-kəndli sinfi olduğunu elan etməklə varlı-kasıb qarşıdurmasını anlatmaqda qaçaqçılıq hərəkatından yararlandı. Sovet dönəmində sosial elmlərə və xüsusən də folklora böyük önəm verilməsində əsl məqsəd yeni sovet insanı yetişdirmək, öncə İttifaqa daxil olan xalqlara, sonra da bütün dünyaya kommunizmin üstünlüklərini göstərməkdən ibarət idi. Qaçaq hekayətləri də bu məqsədlə sosializmin təbliğində əsas vasitə rolunu oynamaqdaydı. Hər şey sovetləşdirməyə xidmət etdiyi üçün Çarlıq Rusiyasının kəndli siyasətinə qarşı çevrilmiş qaçaqçılıq hərəkatından da sovetlər yetəri qədər yararlanmağa çalışdılar. Sifarışlə yazılan folklor mətnləri ilə bərabər əskidən toplanmış mətnlər də ideoloji baxımdan senzuradan keçirilərək yenidən nəşr və tədqiq edildi. Araşdırmaçılar da müxtəlif üsullarla mükafatlandırıldılar. Ona görə də təhkimçiliyin davam etdiyi, hətta ləğv edildiyi, ancaq nəticələrinin davam etdiyi zamanın qaçaqları Səməd Ağa, Qaçaq Nəbi, Qaçaq Kərəm, Molla Nur, Qandal Nağı, Dəli Alı, Qara Tanrıverdi, Qaçaq Ramazanoğlu Rüstəm, Qaçaq Məcid Ağa, Qaçaq Məmmədqasım, Qaçaq Qəmbər, Sarı Ələkbər, Qaçaq Süleyman, Qaçaq Hacıağa, Qaçaq Şahverən və başqaları haqqında yeni materiallar toplandı, onlardan bəzilərinin fəaliyyəti dastanlaşdırılaraq bütün Şimali Azərbaycana yayıldı. Hətta qaçaq hekayətləri yazılı ədəbiyyatın mövzusuna çevrilməklə daha da yayqınlaşdırıldı. Həm toplanan və araşdırılan, həm də ədəbi növə uyğunlaşdırılan folklor mətnləri mövzu və forma baxımından dəyişikliyə məruz qalaraq sovet həyat tərzinin təbliğ və təşviqinə dönüşdürüldü. Hər şey sovet ideoloji kimliyinə bağlı olaraq yenidən formalaşdırıldı.

Halbuki bolşevik inqilabından dərhal sonra başlayan və əsas məfkurəsi sosial-iqtisadi olmaqdan çox sosial-siyasi olan ikinci qaçaqçılıq hərəkatı şifahi tarix baxımından daha zəngin

material versə də toplanıb öyrənilməsi yasaqlanmışdı. Sovet rəhbər işçilərinin məntiqinə görə bir halda ki, sosialist inqilabı ilə sinfi mübarizəyə son verilmişdir, varlı-yoxsul fərqi də qalmamışdır o halda qaçaqlar kimə qarşı mübarizə aparırdılar. Burjua, kapitalıst və mülkədarların bir sinif kimi ortadan qaldırılması ilə sinfi fərq aradan götürülmüş, o zaman ədalətsizliyə qarşı vuruşan hansı qaçaqçılıq hərəkatından söz açmaq olardı ki. Sovet hökuməti bu qaçaqların bir çoxunu Azərbaycanda qolçomaq, Orta Asiyada basmaçı adıyla damğalayaraq onlara qarşı öncə silahlı, daha sonra da siyasi savaş açdı. Sovet tarix elmi Rus İmperiyasına qarşı üsyan çıxaran qaçaqlara müsbət münasibət bəsləməsinə baxmayaraq eyni hərəkatın digər təmsilçilərinə qolçomaq damğası vuraraq onlara sərt və düşməncəsinə münasibət göstərdi və onları rejimin qatı düşmənləri hesab eməklə yox edilmələrinə siyasi zəmin hazırlamış oldu. 1917-ci il bolşevik inqilabından sonra 28 aprel 1920-ci ildə Azərbaycanda qurulan sosialist cəmiyyəti kapitalist və mülkədarlara, irticaçı adıyla din nümayəndələrinə və türkçü adıyla da əski ziyalılara qarşı mübarizəyə başladı və yeni qurulan cəmiyyətdə onlara yer olmadığını elan etdi. Bu şərtlər daxilində torpaqları, mülkləri əllərindən alınan, dini ibadət yerləri bağlanan, inancları yasaqlanan və hər cür təhqirə məruz qalan bu insanlar sovetlərin həyata keçirdikləri kollektivləşmə və ateizm siyasətinə qarşı savaş açdılar.

Biri təhkimciliyə, digəri kollektivləşməyə qarşı döyüşən və qanunla cinayət işləmiş sayılan hər iki qaçaqçılıq hərəkatı əslində torpaq uğrunda kəndli mübarizəsi idi. Hər nə qədər sovetlərin vaxtında qaçaqçılıqla bağlı mətnlər siyasi məqsədlər üçün istifadə edilsə də Çarlıq Rusiyasının qaçaqları ilə Sovetlər İttifaqının qaçaqları funksional baxımdan fərqsizdirlər. Fərq sadəcə onlara yanaşma tərzindəydi. Sovet partiya və güc orqanları qolçomaqların bir sinif kimi ləğv edilməsi siyasətinə

partiyanın dekabr 1927-ci il XV qurultayından sonra başladı. Azərbaycanda bu proses 1929-1930-cu illərdə intensiv xarakter aldı.

Qısacası, folklorçular siyasi rejimin təyin etdiyi ideoloji konjonktürə görə hərəkət etməli oldular. Humanitar elmlər, eyni zamanda folklor bir tərəfdə təşviq olunan, digər tərəfdə yasaqlanan qaçaqçılıq hərəkatı ilə qarşı qarşıya qalmış oldu. Folklorçular siyasi rejimin direktivlərindən və ideoloji çizgisindən kənara çıxmayaraq araşdırmalarını bu istiqamətdə, markisist-leninist metodologiya əsasında qurmuş oldular. Avropa və Amerika elm adamlarının fakelor adlandırdıqları saxta halk ədəbiyyatı, yaxud da Sovetlər dövrünün psevdo-folkloru bu şərtlər daxilində yaranmış oldu.

Sovetlər ölkəsində fakelor sadəcə Stalin və ya Çapayev, Lenin və ya Çiçerin, Trotski və ya Plexanov, Mikoyan və ya Beriya, Mir Cəfər Bağırov və yerli kommunistlər haqqında olmayıp kommunist ideologiyasının "xəlqiləşdirilməsində" önəmli rol oynayacaq sifarişli xalq ədəbiyyatı nümunələrində: aşıq yaradıcılığında, siyasi lətifələrdə, əhvalatlarda, memoratlarda və təbii ki, qaçaq hekayətlərində özünü göstərdi. Bayatıdan rəvayətə, aşıq şeirindən eşq dastanlarına, qaçaq hekayətlərindən nağıllara, lətifələrdən məzəli sözlərə qədər hər şey məzmunca sosialist, formaca milli olan yeni mədəniyyətin qurulmasına və sovet insanının formalaşdırılmasına xidmət üçün səfərbər edildi. Azərbaycanın sovetləşməsindən dərhal sonra üzərinə yeni insanın formalaşması və kommunist ideologiyasının geniş kütlələr tərəfindən mənimsədilməsi kimi vəzifələr yüklənən ədəbiyyat və folklor nümunələrinin böyük önəm qazanmasının əsas səbəbi kimliyi, keçmişi olmayan yeni bir cəmiyyət yaratmaqla bağlı idi.

## 6.3. Qaçaq folkloruna müstəqillikdən sonrakı münasibət

Sovetlərin sosialist istehsal forması və yeni insan planlaması İkinci Dünya savaşından sonra aradan keçən 50 il müddətində özünü doğrultmadı. Bunun arxasınca sovetlərin girdiyi soyuq savaş dövrü, kapitalist Avropasının və Amerikanın elmi-texniki inkişafı, həyat standartlarının yüksək olması kommunizmin bir xəyal, xülya olduğunu daha açıq şəkildə göstərmiş oldu. Aşkarlıq (qlasnost) və yenidənqurma (perestroyka) ilə başlayan önləmlər zehinlərdə dəyişikliyə səbəb oldu və keçmişə, dini-mənəvi dəyərlərə, milli özünüdərkə sürətli bir dönüş başladı. Dəyişən sosial, siyasi və iqtisadi üstqurum cəmiyyətin yenilənməsini vacib etdi. Nəticədə SSRİ adı altında zorla birləşdirilən respublikalar müstəqillik davasına başladılar və sovetlərin çökməsi qaçınılmaz oldu.

Müstəqilliyin qazanıldığı XX yüzilin sonlarında və XXI yüzilin başlarında kürəsəlləşən (qloballaşan) dünyanın təhlükəsinə dayana bilmək üçün ictimai və sosial elmlərə tələb və ehtiyacın daha da artdığı müşahidə edilir. **Bu tələbatı intensifləşdirən əsas amil sadəcə dünyanı qurtarmaq kimi mücərrəd bir anlayışa bağlı olaraq qalmayıb tam əksinə milli potensiyalı qoruyub saxlamaq kimi konkret faktlarla şərtlənir. Ekosistemi və mədəniyyətin coğrafyasını, həm də ekologiyasını qorumaq, dünya ilə harmonik münasibəti saxlaya bilmək üçün ictimai və humanitar elmlər, özəlliklə də folklor indiki halda bu mürəkkəb situasiyadan çıxış yollarının ən pozitiv olanıdır.** Ancaq folklora münasibətin və folklorun elmi paradiqmasının hər sosial-iqtisadi sistemdə fərqli olduğunu da vurğulamaq lazımdır. Misal vermək lazımdırsa buna ideloji sovet və faşist Almaniyası folklorunu göstərmək olar.

Folklor faşist Almaniyasında millətçi şovinist ari ideologiyasının (ali irq) formalaşdırılıb yayılmasında nasistlərin əsas silahı oldu. Hitler Almaniyası almanlardan başqa, yerdə qalan digər millətlərə və xalqlara ikinci, bəzən də üçüncü dərəcəli insan yığını kimi baxdı. Bu ideoloji-siyasi üsqrumu formalaşdırmaq, almanların beyninə yeritmək üçün də folklordan maksimum dərəcədə istifadə edildi.

Sovetlər İttifaqında isə folklorun önəmi sosial elmlərdən sənətə, sinemadan yazılı ədəbiyyata, şüarlardan karikatürlərə qədər geniş bir sahədə tətbiq edilməsi ilə ölçülür. İstər ateizmin təbliğində və yayılmasında, istər yeni sovet insanının formalaşdırılmasında, istər kommunizm xəyalının möhkəmləndirilməsində, istərsə də kapitalist dünyasına düşmən münasibətlərin yaranmasında folklor dövlət ideologiyasının olmazsa olmazlarından birinə çevrildi. Folklor elminin sürətlə, ancaq bir tərəfli inkişafı ideoloji qayğılara görəydi. 70 il davam edən bu ideologiyanın yıxılmasıyla müstəqillik əldə etmiş türksoylu respublikalar yeni bir dövrə girdilər, ancaq sovetlərdən qalma bir çox əski mirasdan asanlıqla qurtula bilmədilər. Hər nə qədər formaca milli, məzmunca sosialist lozunqlu mədəniyyət dönəmini arxada qoymuş olsaq da, bir çox məsələlərdə hələ də əski ideoloji folklor sindromundan qurtulmuş deyilik. Qısaca da olsa sovet ictimai (humanitar) elminin folklora baxışının təməl prinsiplərini aşağıdakı kimi özətləmək mümkündür:

Sovet folklorçularının (xalq bilimçilərinin) elmi-nəzəri əsərlərinə baxılırsa folklorun iki şəkildə başa düşüldüyünü görürük. Bunlardan birincisi, folklorun əsas daşıyıcıları və qoruyucularının sıravi əməkçi xalq, az savadlı və ya savadsız xalq, yəni kəndlilər, fəhlələr, qismən xırda sənətkarlar və s. olduğu düşüncəsidir. O baxımdan da bütün toplama ezamiyyələri daha şox kəndlərdə həyata keçirilmiş, toplanan materiallar ədəbiyyatla bilavasitə bağlı olduğundan folklor sanki

kəndli ədəbiyyatı xarakteri qazanmışdır. Bir sözlə, **folklorşünaslıq folkloru keçmiş Sovetlər İttifaqında və əsasən də Azərbaycanda canlı kommunikativ proses kimi deyil, ədəbiyyatşünaslığın sərhədləri daxilində ədəbi mətn kimi araşdırmış və araşdırır.** Amerikada və Avropada isə folklorşünaslıq bir elm sahəsi kimi sosial antropologiyanın, etnoqrafiyanın, sosiologiyanın, etnopsixologiyanın tədqiqat prinsipləri əsasında öyrənilir. Ona görə də folklor dünyada mədəniyyət hadisəsi, bizdə isə ədəbi hadisədir.

İnsafən demək lazımdır ki, Avropa və Amerikada da folklor uzun zaman kəndli ədəbiyyatı, xüsusən də oxuyub yaza bilməyən avam ədəbiyyatı kimi alqılanmışdır. Ancaq Avropada folklora bu münasibət siyasi-ideoloji düşüncədən deyil, soylu-kəndli, ziyalı-avam düşüncəsi əsas alınaraq formalaşdırılmışdı. Sovetlər İttifaqında isə folklor sadəcə yoxsul, əzilən təbəqənin sinfi mübarizə manifesti kimi başa düşülürdü.

Sovet folklor elminin ikinci nəzəri-metodoloji əsası sosializm dövründə inkişaf etdirilən folklorun başlanğıcının kolektiv və ya fərdi olması və onların bir-birilə münasibəti məsələsidir. Özəlliklə XX yüzilin 30-40-cı illərində geniş yayılan elmi qənaətə görə xalq ədəbiyyatının yaranmasında söyləyicinin şəxsi keyfiyyəti öndə olmuş, folkloru şairlik, yaxud da yazıçılıq qabiliyyəti olan insanlar (kənd şairləri, aşıqları, nəqqalları) yaratmışdır. Bu dövrdə söyləyici məsələsinə və mətnin sənətkarlığına, poetikliyinə diqqətin yönəldilməsi də yuxarıdakı nəzəri-metodoloji prinsiplə bağlıdır. Bunun təbii nəticəsi olaraq folklorşünaslıq uzun zaman ədəbiyyatşünaslığın bir qolu kimi fəaliyyət göstərmiş, bir çox nəzəri məsələni ədəbiyyatçılar həll etməyə çalışmış, bunun təbii nəticəsi olaraq indi də ədəbiyyatçılar folklordan bir material kimi istifadə edir, folklorla yazılı ədəbiyyat münasibətlərinə daha çox fikir verir və folklorla bağlı məqalələr yazırlar. Belə olduqda topla-

nan mətnlərinin süni şəkildə bədiləşdirilməsi, dilinin ədəbiləşdirilməsi, dini-irfani motivlərin çıxarılması o dövrün şərtlərinə görə normal qarşılanmalıdır. **Mətn ağırlıqlı araşdırma metodunu tətbiq edən və folkloru kommunikativ paradiqmadan çıxarıb bədii mətn kimi öyrənən sovet folklorçuları** metodoloji baxımdan ədəbi, estetik tələblərə cavab verməyən Çarlık Rusiyası zamanında toplanan və yazıya keçirilən qaçaq hekayətlərini də araşdırmamışlardır. O baxımdan hətta V.Leninin, M.Qorkinin, Y.Sokolovun nəzəri düşüncələri və tövsiyyələri də nəzərə alınmaqla poetik mətn yaratmaq yolu seçilmişdir. Təəssüflə demək lazımdır ki, bu anlayışdan hələ də tam qurtula bilməmişik.

Ancaq folklorun başlanğıcının fərdi yaradıcılıqdan başlaması çox keçmədən bərtəraf edildi. Belə ki, folkorun başlanğıcının kollektiv yaradıcılıq olduğu məsələsinə xüsusi əsərlər həsr olundu[289] və tezliklə kollektiv yaradıcılıq görüşləri üstünlük qazandı.

70 il davam edən rejimin nəzəri mühitində yetişən, təhsil alan ədəbiyyatçılar, folklorçular müstəqillikdən sonra yazdıqları əsərlərdə də sovet folklorşünaslığından miras qalan araşdırma texniklərindən metodologiyaya, elmi yeniliklərdən praktik əhəmiyyətə qədər bir çox məsələdən qurtula bilmədilər. Bir sözlə, folklorşünaslığın sovet dönəmindən qalma elmi yanaşma ideolodiyasının inhisarı altında olduğu hiss olunur. Hər halda folklora olan bu siyasi-ideoloji münasibət, R.Dorsonun ifadəsiylə desək, ideoloji folklor yöntəmi[290], müstəqillikdən sonra Sovetlər İttifaqına daxil olan digər xalqlarda ol-

---

289 Гусев Виктор Евгеньевич (1967). Эстетика фольклора. Ленинград: Наука; Аникин Владимир Прокопьевич (1969). Фольклор как коллективное творчество народа. Москва: Издательство МГУ
290 Dorson Richard M. (2007). Günümüz Folklor Kuramları. Çeviren S.Gürçayır, Y.Özay. Ankara: Geleneksel Yayıncılık, s.25

duğu kimi, Azərbaycanda az və ya çox dərəcədə dəyişsə də hələ ki, folklorşünaslıq istənilən səviyyəyə çatmamışdır. Hətta Rusiya Federasiyasında folklorun bir çox sahələri yenilənsə də, yeni elmi-metodologiya tətbiq edilsə də, bunu Azərbaycan folklor elmi haqqında demək mümkün deyildir. Əskidən miras qalan əsas məsələ – folkloru xalq ədəbiyyatı ilə eyniləşdirmək hələ ki, elmi dairələrdə hakim görüş olaraq qalır. O baxımdan toplama da əski üsulla, əsasən yaşlı insanlardan, həm də kəndlərdə aparılır. Kəramət motivləri üzərində qurulan mənkabələr, şifahi tarix materialları, memoratlar, qaçaq hekayətləri, şəhər folkloru, internet folkloru kifayət qədər toplanmamış, araşdırma mövzusu olmamışdır. Tədqiqiat toplamadan daha acınacaqlı vəziyyətdədir. Memoratlar, şəhər folkloru, internet folkloru və s. hər tərəfli araşdırılmaqdan uzaq olan mövzulardır. Beləliklə, folkloru xalq ədəbiyyatı kimi başa düşmənin təbii nəticəsi olaraq qaçaq hekayətlərinə münasibət də müsbət deyildir. Belə ki, bu nümunələrin bədii mətn prinsiplərinə tam cavab vermədiyi əsas səbəb kimi göstərilir.

Bütün bu neqativ mənzərəyə baxmayaraq sovet qaçaqları haqqında yaranmış mahnıların, şifahi tarix materiallarının, hekayətlərin, nağılların, qəhrəmanlıq dastanlarının az da olsa yalnız müstəqillikdən sonra toplanmağa başladığını da etiraf etmək lazımdır. Həm də toplamanın nəticəsi olaraq rəsmi tarixdən öyrənə bilmədiklərimizi toplama materiallarından öyrənmiş oluruq. Belə ki, sovet hüquq-mühafizə orqanlarının böyük qruplarla üsyan çıxaranları, dövlətdən qaçaq düşənləri məhv etdiyi və onların sovetləşmənin düşmənləri kimi tarix kitablarına salındığı halda, kiçik qruplarla dağları, meşələri və qamışlıqları məskən tutan və milis, ordu qüvvətləri ilə açıq döyüşə girməyənlər haqqında heç bir məlumat verilmədiyini də ezamiyyə çalışmalarından öyrənmiş oluruq. Buna baxmayaraq folklor mətnlərinin ən böyük payı bu unutdurulmağa,

yaddaşlardan silinməyə çalışılan qaçaqlar haqqındadır. Məsələn, Masallı bölgəsində Qaçaq İbad, Qaçaq Paşa, Qaçaq Mozu, Yardımlıda Qaçaq Sadatxan, Qaçaq Həsən, Güdələr, Lənkəranda Qaçaq Hacıağa, Qaçaq Şahverən, Qaçaq Kazım, Gədəbəydə Qaçaq Əmirastan və Azərbaycanın başqa bölgələrindəki yüzlərlə qaçağı misal kimi göstərmək olar. Bunlar kiçik dəstələrlə yeni quruluşa müqavimət göstərən qaçaqlardı. Sovet qaçaqlarının hər birinin özünəxsus həyat hekayəsi, özünəxsus mahnısı, əhvalatı, qaçaq düşmə tarixçəsi vardır.

Folklor üçün tipikləşdirmə əsasdır və bu tipikləşdirmə ənənəsi üzərində epikləşən qaçaqları bir-birinə bənzədən qəlib ifadələr, təkrarlanan struktur elementlərdir. Toplama materiallarından görünən mənzərəyə əsasən onların hər biri mahir atıcıdır (quşu gözündən vurandır), hər birinin fövqəladə özəlliyə sahib atı vardır, hər biri ədalətsizliyə əsla dözməz, hər biri sonunda xəyanətə qurban gedir (yaxın qohumları, silahdaşları tərəfindən satıldıqları üçün ya öldürülür, ya da son savaşta bir daha fəaliyyət göstərə bilməyəcək qədər zəif düşür və s.). Həm çar, həm də sovet qaçaqlarının tipikləşdirilmiş sərrast atıcılığına dair iki örnək verək. Bunlardan biri XIX yüzilin məşhur qaçağı Kərəm haqqındadır ki, burada onu qısaldaraq veririk:

"Kərəm İravana gəler. Orda Azarbaycannı bir axunun öyündə pənahlanır...Kərəmin yerini bilənnər tez xafiyyə idaralarına bildirellər ki, Kərəm filan yerdədir.

Bu dəfə də İravanda olan bütün qoşun dəsdələri axunun öyünü dört tərəfdən üzük qaşı kimi arıya alellar. Qoşunun yaranalı axunu yanına çağırtdırıb deyər ki:

– Axun, Kərəmi bizə ver, əvəzində sana min tümən pul vererəm.

– Axun deyer ki:

– Başına dönöm, mənim öyümdə qonax çıxdu...İndi gedem soruşam, əyər Kərəm addı adam varsa tutuf verrəm.

Axun öyünə geder. Hadiseyi olduğu kimi Kərəmə danışer.

Kərəm deyer:

– Əmi, sən get, de ki, Kərəm atdanıf gəler. Ancax mən gələnətən axunu öyünə burax.

Axun da gəlif Kərəmin gəldiyini Yaranala xəbər verer.

Min tümən pulu da aler. Kərəm atdanıf gəler. Yaranala salam verif, əleyk aldıxdan sonra atdan düşer. Yaranal Kərəmə deyer:

– Kərəm, tusdaxsan tüfəngi qoltuqaltıyı ver.

Kərəm tüfəngi, qoltuqaltıyı verənən sonra deyer ki;

– Yaranal, mənim bir sualım var.

Yaranal deyer ki:

– Buyurun,

Deyer:

– Bu şəhərin camahatı niyə yığılıfdı burya?

– Ona görə ki, bu gün Kərəmi tutorux, səni görməyə gəliflər.

– Onda mana icaza ver Kərəmliyimi ollara göstərem. Siz mənim tüfəngimi və üç də badrun verin. Mən Kərəmliliyimi ollara gösderem.

Yaranal razı olur.

Kərəm atına sıçrayıf...ağacdan iki papruz asdırdı. Atını bir az azaqdan papruzdara tərəf sürdü. Atın belində...əvvəlcə papruzun birini, sonra da birini vuruf yerə saldı.

Üçüncü dəfə Kərəm bir az da aralanıf yaranala dedi:

– Yaranal, düzgün atmağıma sübhən yoxdu ku?

– Yox, Kərəm, nişanı düzgün vurorsan.

Kərəm dedi:

– Onda ya mana icaza ver gedem, ya da üçüncü güllə sənin başını gözdör.

...Nə etmək olardı yaranal başında tuşdanan tüfəngi görüf heç bir çara tapa bilmədi. Birtəhər gözünnən getmək işarəsi verdi"[291].

Eyni ilə Qandal Nağı da qoşunla onun üstünə gələn Dəli Alının qulağını sərrast atışla deşir.

Qaçaqların atları da Qırat kimi bir çox özəlliyə sahibdir. Bunların içində şəninə şeirlər qoşulan Nəbinin Boz atı daha məşhurdur. Hətta digər qaçaqların atlarını da Qaçaq Nəbinin atına bənzədirlər. Məsələn, söyləyici Qaçaq Əmirastanın sovet milislərinin əlindən qurtardıqdan sonrakı halını belə təsvir edir: "Bir atı varıymış. Atını da miner, at da Qaçax Nəvinin atı kimi şeyiymiş. Atın belinə qalxannan sora yüz dənə güllə at, əməl eliyən döy. Atını miner. Ordan veşini də götürör, gəler"[292]. Başqa bir qaçaq əhvalatında da deyilir ki: "Qaçaq İbadın özü kimi qocaq Alapaça adlı atı varmış. At onun bir işarəsindən nə istədiyini anlarmış. At lazım gələndə iməkləyir, axsayır, özünü xəstələndirə bilərmiş. Keçmiş qocalar deyərdi ki, İbadın atı kimi heç at olmayıb"[293].

Qaçaqların ermənilər, həmkəndliləri, bəzən də qohumları və ya silahdaşları tərəfindən xəyanətə uğraması, bu xəyanətin sonunda dövlət adamları tərəfindən tutulması və ya tələyə düşürülərək öldürülməsi çox yayılmış motivlərdən biridir. Məsələn, sovetlərin kollektivləşmə siyasətinə qarşı Qarayazı-Borçalıda (indiki Gürcüstan ərazisi) savaşan Qaçaq İsaxan Daneliya soyadlı bir gürcü tərəfindən pusquya düşürülür və bu xəyanət qaçağın ölümünə səbəb olur. Hökumət onun ölüsünü də ailəsinə vermir. Daneliyanın özünü təmizə çıxarmaq üçün söylədikləri:

---

[291] Azərbaycan folkloru antologiyası (2012). XXI Kitab. Qazax örnəkləri. Toplayan Mürsəl Həkimov. Bakı: Nurlan, s.31-32

[292] Söyləyici: Hüseyn Əhmədov, doğum tarixi 1933, təhsili natamam orta, Şınıx kəndi Gədəbəy rayonu. Toplayan: Aynur Qəzənfərqızı

[293] Baxış Əlizaman (2010). Hacıtəpə keçmişdə və indi. Bakı, s.209-210

"O, cavan olsa da dünyagörmüş adam idi və arxasınca qapılar bağlandıqca şübhəsiz ki, məsələni başa düşmüşdü, ancaq geriyə yol yox idi. Çox qətiyyətli görünürdü, gülümsədi və "hə, sən burdasanmı, çox yaxşı oldu" deyib yarı istehza ilə və yarı sevinmiş kimi mənə baxdı (zəhmli adamdı, amma həmişə xəfifcə gülümsəyərdi). İsaxana oturmaq təklif etdilər, o sağ ayağını sol ayağının üstünə aşıraraq və kəmərdən asılmış mauzerini dizinin üstünə təraf sürüşdürərək oturdu"[294], deməsi İsaxanın qorxmazlığını, sovet çekistlərinin də insancıl davranışını göstərmək üçündür. Qaçaq İsaxan onu ələ verən gürcünün xəyanəti nəticəsində hökumət adamları və sovet milisləri ilə savaşaraq öldürülür.

Müstəqillikdən sonrakı toplama çalışmaları sadəcə sovet qaçaqlarıyla əhatəli deyildir. Toplama nəticəsində Çarlıq Rusiyasının qaçaqları haqqında hələ də yaddaşlarda yaşayan əhvalatlar olduğu təsbit edildi. Sovet dönəmində Çarlık Rusiyasının qaçaqları təşviq olunsalar da toplama istənilən səviyyədə aparılmamışdır. Ən azından toplanmış mətnlərdən bir çoxunun təhrif olunduğu məlumdur. Belə ki, sovet alimləri folkloru yalnız ədəbiyyat kimi gördüklərindən poetik arxitektonikası, bədiyyatı zəif, dili ləhçədə olan qaçaq hekayətlərini toplamaqdan vaz keçmişlər və ya yuxarıda da dediyimiz kimi təhrifə yol vermişlərdir. Müstəqillikdən sonra isə vəziyyət az da olsa dəyişmişdir.

Təbii ki, düşüncə sistemimizin ən önəmli daşıyıcılarından biri olan folklor, siyasi rejimlərdə ideoloji sahənin formalaşdırılmasında mühim rol oynamışdır. Özəlliklə müstəqilliklərini yeni elan etmiş, ancaq hələ də postsovet sosial-siyasi məkanın-

---

[294] İsaxanlı Hamlet (1998). "Qafqazda sovet terroruna qarşı 1928-30-cu illər silahlı müqavimət hərəkatı haqqında", Qafqazda Sovet totalitarizmi (20-30-cu illər) Elmı konfrans. Bakı, 6-7 noyabr, 1998-ci il. Qafqazda Sovet totalitarizmi (20-30-cu illər) Elmı konfransının materialları. Bakı: Xəzər Universitəsi nəşriyyatı, s.55-58

dan çıxa bilməyən türksoylu respublikalar yeni cəmiyyət modeli yaratmağın hakim ideologiya olan folklor mətnləri olmadan imkansız olacağını bilməkdədirlər. Düşüncə kodlarımızın "yazılı" olduğu folklor mətnləri ki, buraya qaçaq əhvalatları da daxildir, funksional baxımdan önəmli rol yerinə yetirməkdədir. Totalitar sovet rejimindən müstəqilliyə keçid zamanında folklorun və şifahi tarixin müstəqil ölkə dövrünün rəsmi ideologiyası çərçivəsində dəyərləndirilməsi və bu baxımdan kənarlaşdırılan, yadımsanan, qadağan edilən sovet qaçaq folkloruna yenidən dönməmiz lazımdır.

Müstəqillikdən sonra da qaçaq (əşkiya) folklorunun toplanması və araşdırılması işi kifayət qədər ciddiyə alınmasa da bölgələrdə müəyyən sıxıntılarla aparılan toplamalarda qeyd altına alınmış mətnlər hər kəndin, hər qəsəbənin, hər bölgənin özünəməxsus qaçağının olduğundan xəbər verir. Bu şifahi tarix materialları sosializmin 70 il boyunca asanlıqla yerləşmədiyinin, xalqın da bu quruluşu sevərək qəbul etmədiyinin sübutudur. Kiçik qruplar halında müqavimət göstərən qaçaqlarla bərabər təkbaşına mübarizə aparanlar, yalnız öz kəndində və yaxın yerlərdə bilinənlərlə bütün bir bölgədə tanınan qaçaqlar, mübarizəni kortəbii sürdürənlərlə, totalitar rejimin basqısını qəbul etməyənlərin olduğunu yenə də toplama nəticəsində əldə edilən bilgilərdən və müşahidələrdən öyrənmiş oluruq. Sovet dönəminin qadağan etdiyi rejim qaçaqlarına xalqın heyranlığı şübhə doğurmasa da söhbət zamanı əski sovet partiya fəallarının bu qaçaqlara hələ də mənfi münasibət göstərdiklərini müşahidə etmək mümkündür.

Bir örnək vermək lazımdırsa Masallı bölgəsində xalq arasında məşhur olan Qaçaq Mozu haqqında tərəfimizdən onlarca mətn yazıya alınmasına və bu mətnlərdə Mozunun bir xalq qəhrəmanı kimi təsvir edilməsinə baxmayaraq vaxtı ilə partiya işində işləmiş yaşlı bir adam onu yolkəsən, kəndlərə basqın

edən, insanları incidən, onların mal-qarasını oğurlayan mənfi bir tip kimi anlatdı. "Qaçağ Mozu olub onun haqqında onu eşitmişəm. Eşitmişəm ki, təxminən iyirminci, otuzuncu illərdə sərhəd möhkəm olmuyanda qaçağçılığ eliyib. Camahatın gəlib mal-qarasın töləsinnən, həyətinnən çıxarıb aparıb. Beş atlanı olubda qorxuzubdu, sürüb aparıb camahatın mal-qarasın, keçirdib İrana satıb pul qazanıb. Kimdə ona qarşı zad eliyibsə mane olubsa onu öldürübdü. O cümlədəm o Mozu bizim də kəndə gəlib. Eminli kəndinə gəlib, deməli girib tölə döyül e daxma kimi lığdan, qamışdan düzəldiblər mal-qaranı orda saxlıyırmışdar. Girib mal-qaranın töləsinə bunu ev sahibi görübdü. Gərək ev sahibidə ehtiyatlı ola oğrudusa silahnan çıxa çölə. Gəlib qapını bağlıyıb qışqırıb camahata, ay camahat gəlin oğrunu tutmuşam. Oğruda olubdu Mozu. Mozu demək ki, qapının börünnən qamışı kənar eliyib beş atlannan vurub onu. Kişi yıxılıb yerə, Mozu çıxıb qaçıb. Bir iki dənə də güllə atıb camahatı qorxudub. O Mozu bizim kənddə də Sərhəd adlı adam vardı, onu da vırıb öldürübdü. Elə bir xatirə mənim yadımdadı. O, məcbur idi gizzənsin ona görə də ona qaçağ deyirdilər. Onu diyəsən İranda vurublar"[295]. Və ya Yardımlı rayonunda Güdələr adı ilə bilinən qaçaqların sovet milislərinə qarşı mübarizəsi, həm arxiv sənədlərindən, həm də söylənənlərdən məlum olsa da Güdələr onların qan düşməni olan başqa bir kəndin adamlarının gözündə yolkəsən, oğurluq edən qaçaqlardır[296].

Yuxarıda da deyildiyi kimi qaçaqlar və qaçaqçılıq haqqında hekayətlər, mahnılar, başqa məzmunlu əhvalatlar və qəhrəmanlıq dastanları, həm zamanında, həm də yetərincə

[295] Söyləyici: Məmmədhüseyin Həsənov, doğum tarixi 1928-ci il, təhsili orta ixtisas, Masallı şəhəri. Toplayan: Füzuli Bayat 2013-cü il
[296] Söyləyicilər: Əli İsgəndərov, doğum tarixi 1962-ci il, təhsili ali, Yardımlı şəhəri; Təbiət Yolacaqlı, doğum tarixi 1954-cü il, təhsili orta, Yardımlı rayonu Yolacaq kəndi. Toplayan: Füzuli Bayat 2017-ci il

toplanmadığı kimi, elmi baxımdan da lazımınca araşdırılmamışdır. Aparılan toplama işi sosializmə qarşı müqavimət göstərən, üsyan çıxaran, kolektivləşməyə qarşı barışmaz mübarizə aparan qaçaqlar haqqında folklor nümunələrinin çox olduğunu və bu şifahi tarix materiallarının Azərbaycan Sovet Dönəmi Tarixinin yenidən yazılmasındakı önəmini bir daha artırmaqdadır.

Şifahi tarixin bir növü olan qaçaq və qaçaqçılıq mövzusundakı folklor materiallarının toplanıb yenidən dəyərləndirilməsi

1) milli kimliyin qurulması baxımından xalq ədəbiyyatının başqa növləriylə birlikdə tarixin qaranlıq səhfəsini aydınladacaq,

2) folkloru milli ideologiyanın əsas ünsürünə çevirəcək,

3) yeni yazılı ədəbi janrların yaranmasına yardımçı ünsür olacaqdır.

Bütün bunların nəticəsində də yeni cəmiyyətin strukturu postsovet ideoloji və elmi sahəsindən çıxaraq dünyaya öz milli mədəniyyəti və ədəbiyyatı ilə inteqrasıya olunacaqdır. Çünki folklor nümunələri ədəbi-estetik tərəfi gözdən qaçırılmadan müstəqil dövlətçilik anlayışı baxımından dəyərləndilməlidir.

## 6.4. Sonuc

Üç fərqli tarixi kəsimdə (XIX yüzildən 1920-ci ilə kimi, yəni Azərbaycan Sovet Respublikasının qurulmasına qədərki çarlıq dönəmi folkloru; 1920-1991-ci illər arasındakı sovet folkloru; müstəqillikdən sonrakı folklor) Azərbaycan folkloru üç fərqli siyasi-iqtisadi, sosial-mədəni mərhələ keçmişdir. Hər mərhələ folklora öz dönəminin ideologiyasını gətirmiş, nəticədə bir xalq ədəbiyyatı, xalq bilimi olan folklor yuxarıların siyasi-ideoloji təbliğat mexanizmasına çevrilmişdir. Bu dövrlərin üçündən ən uzun sürəni və ən çox ideolojiləşəni sovet

folkloru olmuştur ki, bunu **ideoloji folklor və ya psevdo-folklor və ya fakelor** adlandırmaq daha doğru olacaqdır. O səbəbdən sovet dönəmində folklorun üzərinə yüklənən siyasi-ideoloji funksiya həm şifahi məhsulların yazılı ədəbiyyata uyğunlaşdırılması, həm də mətnlərarası əlaqə formasında həyata keçirilmişdir. Bolşevik inqilabının gətirdiyi kommunist ideologiyası folklor (fakelor) qavramına yeni bir məna yüklədi. İdeoloji folklor Sovetlər İttifaqında bir tərəfdən sovet mədəniyyətinin layihəsi olan yeni insanın formalaşdırılmasına xidmət etdi isə, digər tərəfdən totalitar rejimə müxalif fikir yarada biləcək mətnləri səbrlə ordadan qaldırdı və ya nəşr edilməsinə izn vermədi. Sovet hakimiyyəti illərində mədəniyyət və sənətin bütün sahələri kimi, folklor da dövlətin, onun siyasi ideologiyasının ciddi nəzarəti altında idi.

Çarlık Rusiyasına qarşı vuruşan qaçaqlar və onların haqqında yaranan folklor nümunələri də bu aspektdən – ideologiyanın tələbləri və perspektivləri baxımından təşviq edildi. O dönəmin qaçaqları az qala xalq qəhrəmanları elan edildilər, ancaq sovet rejiminə müxalif olan qaçaqlar ya sürgünlə cəzalandırıldılar, ya da öldürüldülər. Sovet qaçaqları haqqında yaranan folklor nümunələri görməməzlikdən gəlindi, toplanması, araşdırılması qadağan edildi. Təbii ki, kommunist ideologiyası, qaçaq folkloru da daxil olmaqla xalq mədəniyyətinə həm sosializmə uyğunlaşdırma, həm də yeni mətnlər yaratma yolu ilə müdaxilə etdi. Bolşevik çevrilişindən sonrakı müddətdə qaçaq hekayətlərinin böyük əksəriyyəti uyğunlaşdırma xarakteri ilə yazılı ədəbiyyata yol tapmaqdaydısa, müstəqillikdən sonrakı dönəmdə sovet qaçaqları haqqında yaddaşlarda qalan mətnlər yazıya alındı. Sovet folklorunun ideoloji təzyiqləri altında qaçaq mahnıları, əhvalatları, dastanları elmi araşdırma müstəvisinə gətirildi və tədqiqat da ideoloji tərəfiylə önə çıxdı ki, bu gün də onlardan tam xilas olduğumuzu söyləmək mümkün deyildir.

# YEDDİNCİ FƏSİL
# FOLKLORLAŞAN SOVET REJİM QAÇAQLARI
# və ya QOLÇOMAQ HƏRƏKATI

## 7.1. Sovet dövrü qaçaqçılığının ümumi mənzərəsi.

İstər tarixçilər, istər folklorşünaslar, istərsə də sosioloq və filosoflar tərəfindən ən az araşdırılan məsələrdən biri də sovet dövründə fəaliyyət göstərən qaçaqlardır. Sovet dövrü qaçaqları ilk olaraq müstəqillik mübarizəsinə qalxan və 28 may 1918 – 28 aprel 1920 -ci illərdə Azərbaycan Xalq Cümhuriyyətini quran müsavatçılar və onların müasirləri idilər. Antisovet müsavat üsyanlarının yatırılmasından sonra başlayan qaçaqçılıq hərəkatı özünün siyasi yönü ilə önə çıxmaqdadır. Bununla bərabər sovet qaçaqlarının tərkibində siyasi mübarizədə iştirak etməyən və antisovet üsyanlarının mahiyyətini tam anlaya bilməyən, rejimin qolçomaq adlandırdığı ortabab kəndlilər də vardı. Qolçomaqların əksəriyyəti ortabab kəndli, ağa, bəy idi və çoxu da ağsaqqal, xeyriyyəçi, qismən oxumuş insanlardı. Öncə sıxışdırılan, sonra da düşmən adlandırılaraq öldürülən, sürgünə göndərilən qolçomaqların mübarizəsi siyasi-iqtisadi məzmunlu idi. Onların məqsədi rejimi dəyişdirmək olduğundan bütövlükdə qolçomaqları, yəni sovet qaçaqlarını siyasi motivli qaçaqlar adlandırmaq olar.

Sovet rejiminə qarşı qolçomaqlar üç formada mübarizə aparırdılar:

1) Kolxoz quruculuğuna qarşı mübarizə ilə;
2) İnsanları məlumatlandırmaq üçün təbliğat vasitəsi ilə;
3) Öz adamlarını kolxozlara yerləşdirməklə[297].

---

[297] Məhərrəmov N. (1992). Getsin gəlməsin. Bakı: Azərnəşr, s.109

Sovetlərin sərtləşdirdiyi kollektivləşmə siyasəti, qolçomaq adı ilə başlayan həbslər və sürgünlər (təkcə 1928-ci ilin mayında Qazax qəzasından 13 ailə, Kürdistan qəzasından 13 ailə, DQMV-dən 10 ailə, Naxçıvan MSSR-dən 6 ailə, Ağdamdan 18 ailə, Nuxadan 6 ailə, Lənkərandan 5, Göyçaydan 4, Qubadan 5 ailə bəy-xan adı ilə sürgün edilmişdi) kolxoza yazılmaq istəməyən ortabab kəndliləri hərəkətə keçməyə məcbur etdi və beləliklə, Qazax, Ağdam, Cəbrayıl, Quba, Şamxor və başqa yerlərdə qolçomaqların açıq çıxışları oldu[298]. İş o yerə çatdı ki, Azərbaycanda bir atı, iki öküzü olan kəndlilər də qolçomaq siyahısına salınaraq ya külləndi, ya da Qazaxıstana, Urala sürgün edildi. Sovet partiya işçiləri 1930-cu ildə Azərbaycanda ailələri ilə birlikdə 50-60 min qolçomaq aşkar etdilər. Bunun nəticəsidə Azərbaycanın demək olar ki, hər yerində (Naxçıvan, Şəki-Zaqatala, Gəncə, Şəmkir, Quba, Lənkəran, Masallı, Qarabağ və s.) qolçomaq üsyanları və ən əsası da qolçomaq adlandırılan qaçaqçılıq hərəkatı kütləvi xarakter aldı.

Son zamanlarda topladığımız və toplanan materiallardan əldə etdiyimiz biligiyə görə sovet qaçaqlarını üç başlıq altında öyrənmək mümkündür:

1. Çar Rusiyasının Azərbaycanda zülmünə qarşı vuruşan və dövlətdən qaçaq düşən, daha sonra Azərbaycanda sosialist rejiminin qurulmasının ilk illərində fəaliyyətlərini davam etdirən qaçaqlar.

2. 1918-1920-ci illərdə erməni-rus başıbozuqlarının zülmü nəticəsində əhalinin qaçaqaç adlandırdığı ikinci qaçaqçılıq dövründə ortaya çıxan qaçaqlar.

---

[298] Məmmədov Nuru (2010). “Hakimiyyət orqanlarının qolçomaqlara qarşı “düşmən” siyasəti (XX əsrin 20-30-cu illəri)” Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası №3, s.109-110

3. 1920-ci illərin sonu və 1930-cu illərdə Sovet rejiminin güclənməsindən, xüsusən də kollektivləşmədən sonra heç bir şəkildə rejimin amansızlığına boyun əyməyən, kollektiv təsərrüfata qoşulmayan qaçaqlar.

Birinci qrupa daxil olan qaçaqlar haqqında yuxarıdakı fəsillərdə danışıldığından burada onlardan bəhs edilməyəcək. Ümumi şəkildə onu demək mümkündür ki, çarlıq rejiminin sonlarına doğru qaçaqçılığa başlayanların əksəriyyəti 1917-ci il noyabrın 2-də Zaqafqaziyada ilk olaraq Bakıda hakimiyyətin fəhlə və hərbi deputatlar Soveti İcraiyyə Komitəsinin əlinə keçməsi və Stepan Şaumyanın başçılığı ilə 25 aprel 1918-ci ildə qurulan Xalq Komissarları Sovetinin Azərbaycanda sovetləşməni fəaliyyətə keçirməsi ilə silahlı müqaviməti daha da gücləndirdilər. Özəlliklə, Bakı şəhərində və ətraf yerlərdə 1918-ci il Mart soyqırımı, ermənilərin Qubada, Şamaxıda, Lənkəranda və digər bölgələrdə törətdikləri kütləvi qırğınlar qaçaqları bu hökumətin və onun quldur dəstəsinin əleyhinə mübarizə aparmağa sövq etdi. Bu dövrdə əhalinin quldur dəstələrdən qorunmaq üçün meşələrə, dağlara qaçdığı üçün tarixə qaçaqaç illəri adı altında daxil oldu. Sovet quruluşunun ilk illərində isə ortabab sinifə qarşı mübarizə aparan bolşeviklərlə barışa bilməyən qaçaqlar silahlı müqaviməti davam etdirmək məcburiyyətində qaldılar. Ancaq onu da demək lazımdır ki, bu qaçaqların bəziləri sonradan fəhlə-kəndli hökumətinin fəal üzvünə çevrildilər və sosializm quruculuğunda aktiv rol oynadılar. 1920-ci illərin sonlarından başlayaraq yeni rejimin xalqı iqtisadi, sosial və mənəvi sahədə əritmə siyasəti ilə qaçaqçılıq hərəkatı yeni vüsət aldı.

Sovet qaçaqlarının mübarizəsi İkinci Cahan Savaşına qədər davam etdi. Bəzi uçqar bölgələrdə hətta müharibədən sonra qaçaqların fəaliyyətdə olduğunu da qeyd etmək lazımdır. Çar qaçaqları özlərinin ədalət məhkəməsini qurub varlıla-

rı, rus məmurlarını, yerli kəndxudaları mühakimə edirdilərsə, sovet qaçaqları daha çox sosialist rejiminə tabe olmaq istəmir, tarixi geri döndərmək ümidi ilə mübarizə aparırdılar. Onlar da sələfləri kimi lojistik dəstəklərini kəndlərdən saxlayırdılar, ancaq çar qaçaqlarına bir kəndin, bölgənin, bəzən bütöv bir ölkənin rəğbətinin əksinə olaraq sovet qaçaqları daha dar mühitdə, daha ağır şərtlər altında fəaliyyət göstərməli oldular. Özəlliklə, hər keçən gün bir az daha güclənən rejim onları təqibdə idi. Yoxsul kəndlilər də güclü ideoloji təbliğatın müqabilində qaçaqlara ən yaxşı halda rəğbət bəsləmir, ən pis halda isə onlara qarşı silahlı mübarizəyə qalxırdılar. Sovet qaçaqlarının həm sosial tərkibi, həm də dəstək bazası ortabab kəndlilər və keçmiş bəylər idi. Kolxoz təsərrüfatında birləşən kəndlilər isə yoxsul təbəqədən (çox az halda hər şeyi əlindən alınan ortabab kəndlilər) idilər və bir çoxları da keçmiş ortababların, indiki qaçaqların muzdlu işçiləri olmuşdular. Bütün bunlar sovet qaçaqlarının çox kiçik dəstə ilə bəzən də təkbaşına mübarizə meydanında qalmasına və lojistik dəstəkdən məhrum olmasına səbəb oldu.

## 7.2. İkinci qaçaqçılıq və ya qaçaqaç illəri

Çar Rusiyasının müstəmləkə dövrü qaçaqları ilə sovet dövrü qaçaqları arasında ikinci qaçaqçılıq deyilən aralıq bir mərhələ var. Xalqın "qaçaqaç" adlandırdığı bu illərdə bolşevik rus əsgərlərinin erməni və yerli satqınlarla birlikdə Azərbaycanda əhaliyə zülm etdikləri illər kimi yaddaşlarda qalıb. İkinci qaçaqçılıq və ya qaçaqaç dövrü haqqında sovet tarix elmində demək olar ki, heç bir məlumat yoxdur. Olanlar da bolşevik rus əsgərlərinin azadlıq gətirdiyi, dirənişin yerli qolçomaqlar tərəfindən həyata keçirildiyi barədədir. Ancaq şifahi tarix bu illəri ən qanlı və ağır illər kimi tanıyır. İkinci

qaçaqçılıq illərində, xüsusən də fevral-mart (1918-ci il) aylarında baş verən qırğınlar, kəndlərin boşaldılması, soyğunçuluq, zülm kütləvi hal almışdı. Azərbaycanın şimal-qərbində, xüsusən Cənub bölgəsində, Aran rayonlarında, Şirvanda, Naxçıvanda qaçaqaç illəri ilə bağlı bir çox xatirələr qalmışdır. Özəlliklə, Lənkəran qəzasında denikinçi-daşnak qrupları 1918-1919-cu illərdə kütləvi qətl və qarətlər həyata keçirmişdilər[299]. Soyqırımın həyata keçirildiyi bütün Azərbaycan torpaqlarında olduğu kimi Cənub bölgəsində də məqsəd Azərbaycan xalqının milli-azadlıq mübarizəsinin önünü kəsmək, onun mərkəzdə və əyalətlərdəki dayaqlarını zəifləmək idi. 1917-ci ilin iyun ayından başlayaraq 1918-ci ilin may ayına qədərki müddət ərzində denikinçi komandan Şevkunovun quldur dəstəsinə rəhbərlik edən daşnak Akopyan və ermənipərəst eser Sinayev törətdikləri vəhşiliklərə belə haqq qazandırırdılar ki, guya Lənkəran qəzasını qaçaq-quldurlardan qoruyurlar. Bu məqsədlə onlar dəfələrlə şəhər və kəndləri dənizdən top atəşinə tutmuşdular. O dövrü yerli camaat qaçaqaç dövrü kimi yadda saxlayıb. Sakinlər əliyalın olduğundan, atışma başlayan kimi meşələrə üz tuturdular ki, buna da qaçaqaç deyirdilər[300]. Ancaq qaçaqaç illəri ilə bağlı şifahi tarix materialları, rəvayətlər, əhvalatlar toplanmadığından ikinci qaçaqçılıq haqqında çox şey söyləmək mümkün deyildir. Buna baxmayaraq müstəqillikdən sonra bu illərlə bağlı bəzi qaçaq əhvalatları yazıya alınmış, arxiv sənədləri üzə çıxarılmışdır.

---

[299] Nəciyev E.R. (2017). "Denikinçilərin və erməni daşnaklarinin Lənkəran qəzasında törətdiyi soyqırım". AMEA Tarix İnstitutu "Elmi Əsərlər" "XX əsrdə türk-müsəlman əhaliyə qarşi soyqırımları" mövzusunda IV Beynəlxalq elmi konfransın materialları. Xüsusi Buraxılış. № 64, 65, 66. Bakı, s.317-321

[300] Azərbaycan qəzeti (1918), 18 noyabr, №39, Bayraməlibəyov Teymurbəyovun yazısı

Şifahi və yazılı sənədlərə görə S.Şaumyanın sərəncamı və erməni milli şurasının göstərişi ilə Lənkəranda olan "Dikaya diviziya"nı tərksilah etmək üçün erməni fəhlələrindən təşkil olunan 280 nəfərlik silahlı dəstənin mövcud idi. Bolşevik-erməni ordusunu bir qismi quru yol ilə Muğana, bir qismi də dəniz yolu ilə Lənkərana göndərildi[301]. 1918-ci ilin aprel ayının 12-dən başlayaraq Lənkəran qəzasına basqın edən bu quldur dəstə, yolboyu azğınlıq etməklə müsəlman kəndlərini talayaraq, dağıdaraq yandırmış və Lənkəran əhalisinə divan tutmuşdur. Lənkəran qəzasında 40-dan çox kənd yandırılmış, yüzlərlə günahsız insan qətlə yetirilmişdi. Erməni daşnakları evlərə girib bəzən bütün ailəni məhv edirdilər. Hamilə qadınlara, qocalara belə rəhm etmirdilər.

1918-ci il noyabrın 14-də görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyov Axund Molla Əli Tağızadə və Yusif Qəribzadə ilə birlikdə İrandakı Böyük Britaniya konsulu Hevelke ilə görüşdülər. Teymur bəy Bayraməlibəyov bundan öncə (noyabrın 1-də) Bakıda türk ordusunun baş komandanı Nuri Paşa ilə də görüşmüşdü. Nümayəndələr Avetisovun başçılığı altında erməni silahlı dəstələrinin Muğanda və Lənkəranda dinc əhaliyə divan tutduğuna dair sənədləri Hevelkeyə təqdim etməklə, konsula ingilis ordularının Azərbaycana gəlişi ilə erməni silahlı dəstələrinin qəddarlığının arta biləcəyi ehtimalını söylədilər.

Beləliklə, 1918-ci ilin yanvar ayından başlamış və 1919-cu ilin avqustuna kimi davam etmiş talan və qırğında Lənkəran qəzasında ermənilərin törətdikləri zülmlərə 1919-cu ilin yayında – Camal Paşanın komandanlığı ilə türk ordusunun və Azərbaycan Milli Ordusunun Lənkəran qəzasına

---

[301] Kərimov B.B. (2012). "1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım", Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, Bakı, № 2, s.153

daxil olduğu vaxtdan son qoyuldu. Nəticədə, qəzanın milli qüvvələrin əlinə keçməsi ilə, əhali qırğından, talanlardan xilas olmuş və Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir[302].

1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına qarşı çıxan erməni və rus əsgərləri ayrı-ayrı bölgələrdə əhalini talan etməyə, yeni dövlətin təməllərini yıxmağa başladılar. Erməni, rus əsgərlərinin silahsız əhaliyə tutduğu divan o qədər büyük idi ki, onların yaxınlaşdığı xəbərini alan xalq kəndləri, şəhərləri boşaldır, ala bildiklərini götürərək dağlara çıxır, meşələrdə, qamışlıqlarda gizlənirdilər[303]. Çar dövrünün qaçaqları bu silahlı dəstələrə qarşı partizan müharibəsi aparırdılar. Bu dövrdə rus, erməni və yerli bolşeviklərə qarşı savaşan qaçaqlar haqqındakı məlumatlar əsasən yaşlı nəslin yaddaşında qaldığından və onların da sağ olmadıqlarına, çox sayılı rəvayətlərin, hekayətlərin, nəğmələrin toplanıb nəşr edilmədiyinə görə əlimizdə əsaslı bilgi yoxdur. Ancaq toplanan materiallarda qaçaqaç illərinin faciəsinə həsr edilmiş çoxlu hekayətlərə rast gəlmək mümkündür. Bunlardan birində, məsələn Masallının Muğan adlanan kəndlərinin birində baş vermiş qaçaqçılıq hərəkatı haqqında deyilir ki, "Prişibdən (indiki Göytəpə) Malağana (indiki Kalinovka) gedən yolun Taxtaçayın üstündən keçən yerində 12-15 nəfər rus-erməni soyğunçu əsgəri çay kənarında oturub istirahət edirlərmiş. Sən demə Qaçaq İbad onları izləyirmiş. Bir anın

---

[302] Bax. Abışov V.Ş. (2007). Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan, s.73

[303] Soyqırımlar haqqında bax. İsgəndərov A.C. (2005). "1918-1920-ci illərdə türk-müsəlman soyqırımları". Azərbaycan qəzeti, 1-2 aprel; Abışov V.Ş. (2007). Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan; Kərimov B.B. (2012). "1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım". Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, Bakı, № 2, s.151-160; Talışlı M., Əhədov E. (2015). "1918-ci il Lənkəran faciəsi". Respublika qəzeti, 13 mart, № 57

içində qırğı kimi alır onların başının üstünü. Heç nəfəslərini də çəkə bilmirlər. Hamısını tərkisilah edir, tüfənglərini bağlayır öz atının yəhərinə. Özlərinin də əllərini bir-birnə bağlatdırıb qatır qabağına. Üz tutur kəndə tərəf. Camaat bir də baxıb görür ki, budu ha, İbad gəlir qabağında da onlara divan tutan 15-ə yaxın soyğunçu əsgər. Hamı İbadın bu qoçaqlığına afərin deyir.

Qaçaq İbad Sovet hakimiyyəti illərində də öz işi ilə məşğul olur. Lakin sovet dövlətinin hüquq-mühafizə orqanları onu ələ keçirə bilir və naməlum şəraitdə mühakimə edirlər. Taleyi haqqında heç bir məlumat yoxdur. Onu axırıncı görən kənd sakini Əziz İsgəndər oğlu olub. Əziz müəllim deyirdi: "Prişibdə (indiki Cöytəpə) seminariya adlanan məktəbdə oxuyurdum. 12-13 yasım olardı. Məktəb yolun kənarında idi. Bir də eşitdik ki, yolla qaçaq aparırlar. Hamı kimi mən də yola qaçdım. Qaçaq görmək bizim üçün çox maraqlı idi. Gördüm ki, qabağında və arxasında əsgərlər gedən arabada bir nəfər oturub. Sifəti mənə tanış gəldi. Yaxınlaşdım, bu bizim qonşumuz İbad idi. O, ayağından yaralanmışdı. Arabanın banına dirsəklənərək o biri əlində nəsə tutub yeyirdi. Mən istər-istəməz arabaya yaxınlaşıb qışqırdım:

– İbad baba, İbad baba!

O, mənə tərəf çevrilib üzümə diqqətlə baxdı. Tanıyıb, yanına çağırdı. Dedi:

– Əziz, oğul, sən burda nə edirsən?

Mən oxuduğumu dedim. O:

– Get, Teymura de ki, məni tutub dama salacaqlar, yaralıyam, görmək istəsə, divanxanaya gəlsin. Məndən hamıya salam de!

Ondan sonra Qaçaq İbad bir daha görünmədi" [304].

---

[304] Baxış Əlizaman (2010). Hacıtəpə keçmişdə və indi, s.209-210

Sovet sosialist rejiminin ilk illərindən istər elat camaatı, istərsə də əkinçi əhali arasından qaçaqlar çıxmağa başladı. Bunların çoxu qaçaqaç illərinin məşhur qaçaqlarıdır. 1917-1920-ci illəri əhatə edən qaçaqaç illəri 1918-1919-cu illərdə daha intensiv şəkil almışdır. Toplanan qaçaq əhvalatları da məhz bunun doğruluğunu göstərir.

Qaçaqaç dövrü hətta Cənub bölgəsinin ən ucqar kəndində də hiss olunub. Məsələn, Masallı rayonunun uçqar kəndlərindən biri olan Xırmandalıda əhali rusların və ermənilərin o yerlərə gəldiyi xəbərini eşidib gecəni qamışlıqda keçirirmişlər ki, kəndə ani bir basqında canlarını qurtara bilsinlər. "Bala, o vaxt mən uçaq olardım qaçaqaç illəri idi. Bi dəfə dedilər ki Prişib tərəfdən gəlillər. Camaatın arasına vəlvələ düşdü. Hamı ayləsini, uşağını, pulunu, qızılını götürüb dəəzə qaçdı, qamışlıqda gizləndi. Sora bildik ki, gələn-filan yoxdu. Qayıtdıq evlərimizə. Bu bir neçə kərə oldu. Birində gəldilər kəndi çapıb taladılar. Ancaq ölən olmadı"[305].

Söyləyicilərin dedikləri tarixi faktlarla da təsdiqlənir. Onların dediklərini tarixi bilgilərlə tamamlayaraq qaçaqaç illərinin mənzərəsini yaratmaq mümkündür. Belə ki, denikinçi-erməni dəstələri iki rus əsgərini öldürməkdə günahlandırılan Xırmandalı kəndi üzərinə hücuma keçdilər. Dəstənin komandiri kəndi yandırmaq və talan etmək əmri vermişdi. Buna baxmayaraq Xırmandalılar da silahlanaraq Hacıtəpə kəndinin günçıxanında "Çandıq" adlanan ərazidə özünümüdafiə mövqeyi qurmuşdular. Qalan əhali qaçaraq qamışlıqda gizlənmişdi. Denikinçi-rus və erməni silahlı dəstələri ilə Xırmandalıların arasında ilk toqquşma yaşlı nəslin də dediyi kimi Çandıq ətrafında baş verdi. Ancaq Xırmandalılar itki verərək geri çə-

[305] Söyləyici: Gülzar Həsənova, doğum tarixi 1913, təhsili yoxdur. Xırmandalı kəndi Masallı rayonu. Toplayan: Füzuli Bayat 1993

kildilər və Rza kişinin başçılığı altında Xudaverdi quyusu deyilən yerdə toplandılar. Malakandan və Prişibdən əlavə rus əsgərləriköməyə gəldikdən sonra isə vəziyyət daha da ağırlaşdı. Rus əsgərləri Bayandur təpəsinə qoyduqları topdan atəş açaraq müdafiəçiləri darmadağın etdilər. O biri tərəfdən də sahil kəndlərini top atəşinə tutan rus gəmisinin Qızılağaca çatdığı haqqında xəbərlər də müdafiəçiləri ruhdan saldı. Danışıq aparmaq üçün rus komandirinin yanına gedən xırmandalılar həbs edilib Prişibə aparıldılar. Rus-erməni silahlı dəstələri Xırmandalıya girdi. Əsgərlər kənddə bir çox evi yandırdılar, ələ keçirdikləri ərzağı və taxılı daşıyıb apardılar[306].

Qaçaqaç illəri Azərbaycan tarixinin ən ağır və çətin illərdir ki, bu dönəmdə Çar Rusiyası qaçaqları müəyyən işlər görsələr də bütövlükdə əhalini erməni-rus əsgərlərindən qoruya bilmədilər.

## 7.3. Antisovet üsyanları və sürətlə artan narazılıq

Çarlıq dövründə baş verən kəndli hərəkatı və bu hərəkatdan doğan və ya onunla paralel inkişaf edən qaçaqçılıq hərəkatının üzvləri üsyan və etiraz dalğalarının gücləndiyi vaxtda hər zaman əzilənin yanında olmuşdur. Bu narazılıq və üsyanlar sovetlərin qurulmasından sonra da davam etdi. Sovet rejiminə qarşı başladılan üsyanlar daha çox siyasiləşmiş olması ilə önə çıxmışdır. Yoxsa həm Çarlıq Rusiyasinda, həm də Sovetlər İttifaqında baş verən kəndli üsyanları mahiyyətcə eyni idi.

---

[306] Söyləyici: Paşa Gözəlov, doğum tarixi 1897, təhsili yoxdur; Gülzar Həsənova, doğum tarixi 1913, təhsili yoxdur. Xırmandalı kəndi Masallı rayonu. Toplayan: Füzuli Bayat 1982, 1993; Abbasov Mürvət. "Lənkəranda qırğınlar", genocide.preslib.az/az_a2-12.html

Çar üsul-idarəsinin çökməsi ilə Azərbayanda Müsavat hökuməti quruldu. Ancaq xarici və daxili təzyiqlərə davam gətirə bilməyən bu hökumət 23 ay yaşaya bildi və hakimiyyəti bolşeviklərə təhvil verməli oldu. Rusiya imperiyasının keçmiş əyalətlərinin hamısında olduğu kimi Azərbaycanda da sovet rejimi quruldu. Yeni fəhlə-kəndli hökuməti rejimin tələblərinə cavab verə bilməyənləri, varlıları, bəyləri, savadlı din nümayəndələrini, şair və yazıçıları, elm adamlarını və Müsavat partiyasının üzvlərini təqib etməyə başladı. Qısa bir zamanda bolşevik-kommunist ideologiyasına, onun idarəetmə mexanizminə qarşı öncə narazılıqlar başladı, sonra kiçik üsyanlar baş verdı və nəhayət, müqavimət hərəkatı yarandı. Gəncə, Lənkəran (o zaman Lənkəran qəzasına Masallı rayonu da daxil idi.), Zaqatala, Qarabağ, Naxçıvan və b. yerlərdə silahlı üsyanlar baş verdi. Sovet idarəsinə qarşı başladılan ilk üsyan azərbaycanlı hərbiçilərin Gəncədə başlatdığı silahlı qiyam oldu. Rejim özünün ilk bir ilində, yəni 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna qədər olan vaxtda 48000 adamı öldürdü. Bunların da çoxu Azərbaycan Xalq Cümhuriyyətinin keçmiş əsgər və zabitləri idi.

Gəncə üsyanında general Məhəmməd Mirzə Qacar, general-mayor Cavad bəy Şıxlinski, diviziya komandiri Teymur bəy Novruzov, polkovnik Cahangir bəy Kazımbəyov və başqaları ilə birlikdə Qaçaq Qəmbər, Sarı Ələkbər, Qaçaq Qasım, Qaçaq Mikayıl və başqaları da öz dəstələri ilə iştirak edirdilər[307]. Üsyan yatırılandan sonra erməni və ruslar üç gün ərzində Gəncədə qanı su yerinə axıtdılar. Qeyri-rəsmi məlumatlara görə bu qarşı əməliyyatda 20 min nəfərdən artıq dinc əhali qətlə yetirildi. Qətliamlar sonrakı günlərdə də davam

[307] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (2004). I cild. Bakı: Lider, s.396

etdi. İyun-avqust aylarında üsyanda iştirak etməkdə və ya onlara yardımda şübhəli bilinən 13 min adam məhkəməsiz güllələndi[308]. Gəncə və digər yerlərdə baş verən qiyam Sovet idarəçilərini bəzi addımlarını geri atmağa məcbur etdi. Belə ki, din nümayəndələrinə qarşı antitəbliğat, dinə qarşı hörmətsizlik, pulunu ödəmədən aparılan müsadirələr müvəqqəti də olsa təxirə salındı, xalqın adət-ənənəsinə hörmətlə yanaşıldı və s.

Antisovet üsyanlarından biri də dini zəmində baş verən Qarabağ üsyanı idi. Bu üsyanın başında Nuri Paşa dururdu. Bundan başqa Qarabağda başqa bir böyük üsyan da baş verdi ki, onun da başında Nuri Paşa vardı. Panislamçıların əksəriyyəti kimi onun da bolşeviklərə bağladığı ümidlər tamamilə boşa çıxmışdı. Üsyançılar Şuşanı ələ keçirdilər. Burada Azərbaycanın piyada alayı onların tərəfinə keçdi, ancaq sonradan bu qüvvələr hərbi hava qüvvələri eskadronunun dəstəklədiyi qırmızı ordu süvari diviziyası ilə üz-üzə gəldilər. Qırmızı ordu dəsətələri Zaqatalada yeni bir üsyan təhükəsi gözləndiyinə baxmayaraq, iyunun 15-də asanlıqla Şuşanı yenidən ələ keçirdilər. Bundan sonra, çox keçmədən Nuri Paşanın qüvvələri parçalandı və ordunun qalıqları İran sərhədlərinə, Xiyabaninin Azadistanına tərəf çəkildilər[309]. Kiçik qələbələr əldə etmələrinə baxmayaraq Qarabağ üsyanı da XI Qızıl ordu birlikləri tərəfindən dağıdıldı. İndi də Qarabağın bir çox yerində bu üsyanla bağlı şifahi tarix danışılmaqdadır. Eyni ilə Zaqatala və digər yerlərdə də üsyanlar baş verdi, ancaq bunların da aqibəti əvvəlkilər kimi oldu. Çünki üsyançılar arasında birlik yox idi, məqsəd aydın deyildi, insanlar nə uğrunda vuruşduqlarını dəqiq bilmirdilər, üsyanların çoxu

[308] az.wikipedia.org/wiki/Gəncə_üsyanı_(1920)
[309] Ömərov Vahid (2012). "Azərbaycan SSR-də bolşevik rejiminə qarşı silahlı üsyanlar (1920-1930-cu illər)", Səs qəzeti, 27.11.2012

müstəqil dövlət qurmaq fikrindən uzaq olub, daha çox dini zəminə oturdulmuşdu. Ancaq üsyanlarda iştirak edən kəndlilərin bir çoxu sonradan mübarizənin qaçaq formasını mənimsədilər ki, bu da sovet qaçaqlarının ortaya çıxmasına səbəb oldu.

Sovet hökumətinə qarşı irimiqyaslı Gəncə üsyanının ardınca Qubada, Qaradanlı və Qarabulaqda da iri həcmli qiyamlar baş verdi. Qaradanlı üsyanına Xan Şirvanski başçılıq edirdi. 1920-ci ilin noyabrında Namaz adlı birisinin başçılıq etdiyi böyük bir dəstə Zəyəm çayı vadisindəki dağ yollarını ələ keçirməklə, qırmızı ordu qüvvələrini həftələrlə əl-qol açmağa qoymadı. Lənkəran qəzasında da türk zabiti Camal Paşanın başçılığı ilə üsyan başladı. Yusif Camal bəy (xalq arasında Camal Paşa) 1918-ci il mart qırğınlarında Lənkəran qəzasına gəlmiş, rus-erməni vəhşiliklərinin qarşısını almaq üçün yerli silahdaşları ilə birgə düşmənlərə qarşı vuruşmuşdur. Ancaq 1920-ci ildə Sovet hökuməti qurulduqdan sonra həbs edilərək Bakıya aparılmış, qısa bir zamanda həbsdən çıxaraq təkrar Lənkərana geri qayıtmış və mübarizəsini davam etdirmişdir. 1920-ci ilin sonlarında Astara ərazisində şəhid edilmişdir. Camal Paşanın başlatdığı qiyam dənizdən və qurudan olan hücumlar nəticəsində yatırıldı. Ancaq 1920-ci ildə Ermənistanın, 1921-ci ilin martında isə Gürcüstanın kommunistləşməsi ilə Azərbaycana qızıl ordunun yolu açıldı, ümidlər tükəndi. Buna baxmayaraq silahlı dəstələr 1920-ci illərin sonlarına qədər müqvimət göstərə bildilər. “1922-ci ilin ortalarında Qubadlı qəzasında baş verən xalq üsyanı 1923-cü ilin əvvəllərində daha da genişləndi. Üsyana ruhanilər başçılıq edirdilər. Sovet hakimiyyətinə qarşı cahad elan olunmuşdu. 1923-cü ilin fevralında Kürdəmir və Göyçay bölgələrində, 1924-cü ildə Gülmalı xanın başçılığı ilə Qarabağda və Zəngəzurda sovet hakimiyyətinə qarşı üsyan etmiş xalq silahlı

partizan dəstələri yaradaraq mübarizəni davam etdirirdi. 1925-ci ilədək Azərbaycan SSR-də istilaçı orduya, bolşevik rejiminə qarşı 54 silahlı üsyan baş vermişdi”[310]. Bir digər rəsmi məlumata görə 1923-cü ilə qədər Azərbaycanda Sovet Rusiyasına qarşı 53, 1941-ci ilə qədər 200-ə qədər irili-xırdalı üsyan, silahlı çıxış olmuşdu. Bu üsyanların ilk illərində ikinci qaçaqçılıq (qaçaqaç) dönəminin də payı vardır. Sağ qalan üsyançıların çoxu sonradan qaçaq dəstələrinə qoşuldular və ya qaçaq dəstəsi yaratdılar. Hətta bəzi üsyanlara qaçaqların başçılıq etdiyi də məlumdur.

Bir diğər üsyan da Zaqatalada başlamışdı. Bu bölgədəki qiyamın əsas səbəbi yerli revkomun əhalinin tərksilah olunması haqqında verdiyi əmrlə bağlı idi, ancaq bu qiyamın dini motivlərlə qızışdırıldığını göstərən əlamətlər də vardı. Qiyamın başçısı min nəfər kəndlini və piyada batalyonu öz ətrafında toplamış din xadimi Hafız Əfəndiyev idi. On gün sonra üsyan uğursuzluğa düçar oldu və üsyan iştirakçıları pərən-pərən düşdülər. Onların bəziləri Gürcüstanla Azərbaycanın arasında olan dağlara qaçdılar. Bu üsyanların İslami xarakter daşıması yüzlərlə ittihadçının həbs olunması və qaran keçən illərdə İttihad partiyasının antimilli və bəzi hallarda bolşevikpərəst mövqe tutmasına baxmayaraq, onun fəaliyyətinin qadağan olunması üçün bəhanə oldu[311].

Qaçaqçılıq tarixində yeni bir dalğa kimi qiymətləndirilən və 1930-cu ildə başlayan 200 nəfərdən çox adamın iştirak etdiyi Şəki üsyanı sadəcə Şəkidə deyil, eyni zamanda Qax, Zaqatala, Balakən və Oğuzda Sovet hakimiyyətinə qarşı çevrilmiş silahlı qiyam idi. Üsyanın ümumi rəhbəri Şəkinin keç-

[310] Ömərov Vahid (2012). “Azərbaycan SSR-də bolşevik rejiminə qarşı silahlı üsyanlar (1920-1930-cu illər)”, Səs qəzeti, 27.11.2012
[311] Ömərov Vahid (2012). “Azərbaycan SSR-də bolşevik rejiminə qarşı silahlı üsyanlar (1920-1930-cu illər)”, Səs qəzeti, 27.11.2012

miş bəyi Mustafa bəy Əlicanbəyov, hərbi rəhbəri Bəhram bəy Nəbibəyov, üsyanın ideoloji-mənəvi rəhbəri Molla Mustafa Şeyxzadə idi. Şəki üsyanında keçmiş qaçaqların da iştirak etdiyi məlumdur.

XX əsrin 20-ci illərin sonu və 30-cu illlərin əvvəlində Gürcüstan və Ermənistan ərazilərində ki, əhalinin əksəriyyəti Azərbaycan türkü idi, sovet rejiminə qarşı silahlı üsyan başladı. Üsyana başçılıq etmiş qaçaqlardan biri də qısa ömür sürmüş Qaçaq İsaxan idi. Qaçaq İsaxan elat camaatı arasından çıxmasına baxmayaraq ümumi halda kollektivləşməyə qarşı çıxan qaçaqlar dəstəsinə daxil idi. Qaçaq İsaxan on ilə yaxın qaçaqçılığı dövründə sovet milislərinə, hətta silahlı qüvvələrinə böyük itkilər vermişdir. Bolşeviklər onu ələ almaq üçün tədbirlər görmüş, milis rəsisliyinə təyin etmiş, sonra da pusquya salaraq öldürmüşdülər. Onun qəhrəmanlığı haqqında çoxlu rəvayətlər anlatılmış, mübarizəsi və xüsusən də ölümü dəyişik əhvalatların yaranmasına səbəb olmuşdur. Qaçaq İsaxan haqqında aşıqlar mahnılar qoşmuş, dastan yaratmış, şairlər ona şeirlər həsr etmişdir.

Sovet tarix elmi bu silahlı üsyanları, müqavimət hərəkatını qolçomaq üsyanları adı ilə xalqa qarşı çevrilmiş silahlı bir çevriliş kimi öyrəndi. Humanitar elm rejimi gücləndirmək üçün saxtakarlıq və satqınlıq yolunu tutdu. Formaca milli, məzmunca sosialist ədəbiyyatın nümayəndələri də milli keçmişindən qopmuş yeni bir mədəniyyət və bu mədəniyyətin daşıyıcısı olan yeni sovet insanı yaratmağa başladılar. Ona görə də xalq üsyanları haqqında yayılan əhvalatlar toplanmadı, toplananlar da bəlli əməliyyatdan keçirilərək tərs üzə yatırıldı. Son dövrdə apardığımız toplama nəticəsində sovet qaçaqları haqqında müxtəlif məzmunlu və hətta müxtəlif janrlı materiallar qeydə alınmışdır.

Sovetləşmənin ilk illərindən bolşevik rejiminə qarşı başladılan xalq üsyanları ən çox özünü Azərbaycanda göstərdi. Təbii ki, yeni yaranan bolşevik iqtidarına qarşı iki siyasi müqavimət hərəkatı fəaliyyət göstərirdi ki, bunlardan biri Tiflisdə Fətəli Xan Xoyskinin başçılığı ilə müsavatın kommunistlərdən qaçan üzvlərinin yaratdığı Azərbaycanın Qurtuluş Komitəsi, digəri də Azərbaycanın Müstəqilliyi Təşkilatı idi ki, qurucuları Mirzəbala Məmmədzadə, Əbdülvahab Yurdsevər və Cəfər Cabbarlı idi. Ancaq məqsədləri bir olan bu iki siyasi təşkilat həm birləşə, həm də mübarizə aparacaq şəkildə təşkilatlana bilmədilər. Buna baxmayaraq Sovet dövlətinin tətbiq etdiyi hərbi kommunizm üsul-idarəsinə qarşı baş verən müqavimət hərəkatı əsasən, xalq narazılığı formasında ortaya çıxdı[312]. Digər tərəfdən rus əsgərlərinin, əzilmiş fəhlə və kənlilərdən, cahil təbəqədən, nökər və qaravaşlardan təşkil edilmiş idarəçilərin keyfi yönətimi, özbaşınalığı, intiqamçılığı, əxlaqsızlıqları qısa bir zamanda xalqı, xüsusən də haqları əllərindən alınmış ortabab və varlı kəndlilərin silahlı direnişinə, daha çox da qaçaq hərəkatına səbəb oldu.

Bu müqavimət sovet rejiminin ilk illərində daha da fəal şəkil aldı, çünki o zamanlarda sovet üsul-idarəsi hələ tam möhkəmlənməmişdi, bundan yararlanan qaçaq quldurlar (ki onlara talançılar, soyğunçular deyirdilər) olduğu kimi yerli bolşeviklərin zülmündən qaçaq düşənlər də çox idi. Rejim əleyhinə çıxan əsl qaçaqlar qaçaqçılıq adına ləkə sürən belələrinə qarşı da savaşmaq zorunda qalırdılar. “Akif Poladxan oğlu Məmmədzadə atasından eşitdiklərini nağıl edir. O deyir: “Atam Poladxan danışardı ki, Gülü oglu Məmməd çox varlı,

[312] Ömərov Vahid (2012). “Azərbaycan SSR-də bolşevik rejiminə qarşı silahlı üsyanlar (1920-1930-cu illər)” Səs qəzeti, 27.11.2012

dövlətli olub. Sürülərlə mal-qarası, xeyli əkin sahələri və otlaqları vardı.

Bir dəfə yaz əkini vaxtı idi. Hər tərəf yaşıl otlara bürünmüşdü. Yazın, necə deyərlər, oğlan vaxtı idi. Otlaqlar yaşıl otlarla, güllərlə elə bəzənmişdi ki, bəzəkli xalını xatırladırdı. Gürgür çayı ətrafındakı torpağımızda əkin işi gedirdi. Sovet hökumətinin ilk illəri idi. Hökumət hələ möhkəmlənmədiyi üçün qaçaq-quldur sərbəst şəkildə hərəkət edir, tez-tez kəndlərə, sürülərə hücum edirdilər. Onların içərisində quldurluq edəni də var idi, hökumətin zülmündən qaçaq düşəni də”[313].

Burada önəmli olan bir məsələ də qaçaqçılıq hərəkatı ilə bolşevik zülmünə qarşı baş verən silahlı üsyanların bir çox halda bir-biri ilə qarışmasıdır. Böyük dəstələrlə vuruşan qaçaqlar eyni zamanda həm də üsyan çıxaran, ancaq məqsədlərinə çata bilməyən igid insanlar idi. Təbii ki, Müsavat partiyasının üsyanları bir az fərqli mövqedən dəyərləndirilməlidir. Belə ki, bu üsyanlar Azərbaycanda bolşevik üsul-idarəsinə qarşı çevrilmişdi və əsas məqsəd Azərbaycan Cümhuriyətini bərpa etmək idi. Ancaq bütövlükdə üsyanı çıxaranların siyasi kimliyindən asılı olmayaraq mövcud rejimin qanunlarına tabe olmaq istəməmələri, NKVD-dən gizlənmələri, qaçaq düşmələri, bu üsyana şərti olaraq qaçaqçılıq hərəkatı deməyə əsas verir. Digər tərəfdən həm məğlubiyyətə uğrayan üsyandan sonra qaçaq düşənlər, həm də üsyandan əvvəl qaçaqçılıq edən və üsyana qoşulanlar da vardı.

Antisovet üsyanlarının bir qismi də kollektivləşməyə qarşı çevrilmişdi. Xüsusən, rayon və kənd yerlərində baş verən üsyanların əksəriyyəti kollektivləşmə əleyhinə idi ki,

---

[313] Söyləyici: Ağababa Abbasov, doğum tarixi 1926, təhsili orta, Təklə kəndi Masallı rayonu, 2012-ci il. Toplayan Füzuli Bayat

bunlardan biri də 1930-cu ildə Şahbuz rayonunun Keçili kəndində baş vermişdi. Keçili üsyanına keçmiş müsavatçı Qasımalı Dünyamalıyev rəhbərlik edirdi. Bu üsyan 1932-ci ilə kimi sürdü və yalnız xəyanət nəticəsində yatırıldı. Hökumət ölməyib sağ qalan və əsir düşən üsyançıları güllələdi[314].

Təbii ki, XX yüzildə sovet totalitar rejiminə qarşı etiraz edən qaçaqlar haqqında söylənən mahnılar, hekayətlər daha öncəki dövrlərdə mövcud olan qaçaqçılıq əənəsi üzərində formalaşmışdır. Kommunist rejiminə qarşı müqavimət göstərən, kolxoza, sovxoza yazılmayan, malı-mülkü əlindən alınan ortabab kəndlilər, qaçaqçılığa başladılar və XX əsrin 30-cu illərinin əvvəllərindən İkinci Cahan Savaşına qədər fəaliyyət göstərdilər ki, sayları baxımından daha çox olduqları toplanan materiallardan da görünür. Belə ki, hər bölgədə kiçik qruplar halında fəaliyyət göstərən onlarla, yüzlərlə qaçaq dəstələri vardı. Sovet qaçaqlarından bəziləri təkbaşına savaştığı kimi, bəziləri də bir neçə adamla dağlara, meşələrə, qamışlıqlara sığınaraq fəaliyyət göstərirdi. Daha kütləvi xalq hərəkatı halı alanlar isə dinlə, təriqətlə bağlılıqları olan şeyxlərin, əfəndilərin başlatdıqları üsyanlarla kollektivləşməyə qarşı çevrilmiş üsyanlar idi. Yalnız müstəqillikdən sonra sovet qaçaqları ilə bağlı anlatılar dərlənməyə başlandı. Bu qaçaqların çoxunun daha öncəki qaçaqlara, əsasən də Koroğluya bənzədilməsi qaçaqçılıq ənənəsinin bütün zamanlarda canlı tutulduğunun sübutudur.

[314] Cəlilova Aynur (2019). "1930-cu il Keçili xalq hərəkatına baxış". Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Folklor milli kimlik kontekstində" beynəlxalq elmi konfransın materialları. 30 iyun 2018-ci il İsmayıllı rayonu Lahıc qəsəbəsi. Bakı: Elm və təhsil, s.465-467

## 7.4. Müqavimətin və mübarizənin kəndli-qolçomaq forması

Geniş mənada qaçaqçılıq dediyimiz sovet rejim düşmənlərini (bunlara qısaca rejim, yaxud sovet qaçaqları demək mümkündür) iki qrupa ayırmaq mümkündür. Bunlardan birincisini Azərbaycan kəndlərində baş verən qolçomaq hərəkatı və ikincisini də şəhərlərdə, rayon mərkəzlərində yaranan antisovet üsyanları şəklində təsnif etmək mümkündür. Doğrudur hər iki üsyan və müqavimət bir-birini tamamlamaqda idisə də sovet rejimi özünü qorumaq, hədəfi yayındırmaq məqsədi ilə şəhəri kəndə, fəhləni kəndliyə qarşı qoymaq üçün cəhdlər göstərmişdir. Bu siyasət Azərbaycanda əhalisinin böyük əksəriyyəti şiə olan insanlar arsında sünni-şiə davası şəklində davam etdirilmək istənsə də nəticəsiz qalmışdır. Qaçaqçılığın yeni forması olan qolçomaq hərəkatının və silahlı ayaqlanmaların əsas səbəbi Azərbaycan kəndlərində kollektiv təsərrüfatın yaradılması, zorla kollektivləşmə siyasətinin yürüdülməsi oldu. Kollektivləşmə nəticəsində Azərbaycanın hər tərəfini antisovet hərəkatı bürüdü.

Burada məqsəd yeni yaranmaqda olan kolxoz və sovxozlar adı ilə insanların torpaqlarını, iri və xırda baş mallarının əllərindən alıb fermalara doldurmaq və torpaq kimi mal-qaranın da kollektivləşdirilməsi idi. Torpaqların kollektiv təsərrüfat tipi olan kolxozlar, sonradan sovxozlar şəklində birləşdirilməsinə qarşı yaranmış etirazlar sovetlərin ilk günlərindən başlamış oldu. Kollektivləşməni alqışlayanlar isə torpağı olmayan, başqalarının torpağında işləməklə yaşamını sürdürən muzdur kənlilər idi. Torpaqları əllərindən alınan iri və orta torpaq sahibləri kollektivləşmə siyasətinə qarşı çıxdılar və bunların bir çoxu üsyanlarla nəticələndi. Azərbaycan sovet tarix elmində kollektivləşmə sosialist inqilabından sonra kənd

təsərrüfatında istehsal münasibətlərinin dəyişdirilməsinin əsas optimal yolu kimi qiymətləndirilmişdir. Hətta bunu sovet hakimiyyətinin inkişaf qanunauyğunluğundan irəli gəldiyini deyənlər də vardı[315].

Sovet rejimi hakimiyyət fəhlə-kəndlilərindir desə də, əslində kəndli adı altında daha çox yoxsul və ya heç bir şeyi olmayan, muzdla onun-bunun qapısında işləyənləri nəzərdə tuturdu. Sovet partiya və hökumət orqanlarında, əsasən muzdurlar yüksək vəzifələrə gətirilmişdi. Yoxsul kəndlilərin əllərində olanları almaqla onlardan da muzdlu kəndlilər kimi istifadə etdilər. Bir sözlə, rejim özünün sosial dayağını məhz bu muzdurlarla çox yoxsul kəndlilər üzərində qurdu. Zamanla muzdurların övladları oxuyaraq daha yüksək yerlərə gəldilər. Beləliklə, Sovetlərin sənaye şəhrlərindəki lümpen proletariatının[316] gördüklərini kəndlərdə muzdur kəndlilər yerinə yetirdilər. Qolçomaqların ləğv, qaçaqların məhv edildiyi zamandan qısa bir sürə sonra kommunist rejiminin lümpen proletariat və muzdur nəslindən yeni elitar təbəqəsi ortaya çıxdı. 37-ci il qızıl terrorundan məqsəd bəy, ağa, ortabab və oxumuş təbəqəni məhv etməklə aşağı qan daşıyıcılarından ibarət yeni elitar təbəqə yaratmaq idi.

Beləliklə, kollektivləşməyə etiraz edənlər qolçomaq, quldur və qaçaq adı ilə damğalanaraq, sovet tarix elminin də canfəşanlığı sonunda düşmən ünsürlər kimi göstərildilər. Kollektivləşmə o zamankı sahibkarlıq fəaliyyətini ləğv etmək, böyük, orta və hətta kiçik torpaq sahiblərinə qarşı sərt mübarizə forması idi. Hətta bu barədə sovetlərin ilk illərində – 1920-ci il mayın 5-6-da Ümumbakı partiya konfransının sənədlərində deyilirdi ki, "Azərbaycanda sovet çevrilişindən sonra parti-

---

[315] Şıxlinski Z.B. (1975). Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər). Bakı, Elm, s.152

[316] Sosial mənşəyi bilinməyən, sinif şüuru olmayan, başıboş sərsərilər qrupu

yanın ən mühüm vəzifəsi…bəylərin, xanların və ağaların torpaqlarını müsadirə etməkdən" ibarətdir[317]. Bəzi tarixi faktlar da qolçomaq adı altında rejimin öncə iri təsərrüfatları, sonra da orta təsərrüfatları ləğv etməyi planladığını göstərir, çünki rejimin ilk illərində qolçomaq adı altında nəzərdə tutulan təsərrüfat əkin sahəsinin ümumi payında o qədər də böyük yer tutmurdu. Məsələn, 1927/28-ci illərdə respublikada yoxsul təsərrüfatları 41,8 faiz, ortabab təsərrüfatları 51,4 faiz, qolçomaq təsərrüfatları 6,8 faiz idi[318].

Ancaq XIX yüzildən fərqli olaraq istər mərkəzi, istərsə də yerli mətbu orqanlarda rejim qaçaqları haqqında çox az və ya heç bir məlumatın verilməməsi diqqət çəkməkdəydi. Verilən məlumatlar da bir tərəfli, mücərrəd xarakter daşıyırdı. Xalqların həbsxanası adlandırılan çar rejimində az da olsa demokratik qüvvələr monarxist üsul-idarənin siyasəti və ideologiyası ilə üst-üstə düşməyən fikirlərini o zamanın jurnal və qəzetlərində bildirə bilirdilər. Hətta bəzi yazıçılar monarxiyaya və işğala qarşı vuruşan xalq qəhrəmanları haqqında hekayə, povest, dram əsərləri də yazırdılar. Birtərəfli düşüncənin hakim olduğu sovet dövründə ideoloji basqı o qədər güclü idi ki, heç kim icazə verilməyən mövzudan yaza bilməzdi. Humanitar elm və bədii ədəbiyyat heç bir zaman olmadığı qədər rejimin köləsinə çevrilmişdi. Bunun əsas səbəblərindən biri fikir və hərəkətlərində az da olsa müstəqil olan elm və ədəbiyyat xadimlərinə qarşı aparlan kütləvi repressiya, elit təbəqənin fiziki məhvindən sonra boşalan yerlərə nökər, xidmətçi təbəqənin övladlarının gətirilməsi idi.

---

317 Azərbaycan Kommunist Partiyasının qurultayları (1987), konfransları və MK plenumlarının qətnamə və qərarları. 2 cilddə, I c. Bakı: Azərnəşr, s.18

318 20 лет Азербайджанской Советской Социалистической Республики (1940). Ваку: Наука, Азернешр, с.46

Burada önəmli olan bir məsələ də Azərbaycanda varlı kəndlilərə qarşı mübarizənin SSRI-nin digər bölgələrindən daha erkən, yəni 1928-ci ildə başlamasıdır. Bu tədbirin nəticəsində kəndlərdə varlı təsərrüfatların sayı azalmağa başladı. Əgər 1929-1930-cu illərdə Azərbaycanda 7954 qolçomaq təsərrüfatı var idisə, 1931-cü ilin fevralında onların sayı 5309-a enmişdi. 1931-ci il yeni vergi qanununa görə varlı təsərrüfatlar gəlirlərinin 70 faizini, qolçomaq təsərrüfatları isə 100 faizni vergi kimi verirdilər. Sonradan varlı təsərrüfatlara qoyulan vergilər daha da artırıldı[319]. 1930-cu ilin fevralında "Qoçomaq təsərrüfatlarının özbaşına köçməsinin və onların əmlakının satılmasının qadağan edilməsi haqqında" qərar qəbul olundu. Bu qərara görə əmlakını satan qolçomaqların əmlakı dərhal müsadirə edilməyə başlandı. Buna görə də əhali öz mal-qarasını gizli şəkildə kəsərək satmağa başladı. 1933-cü ildə görülmüş əlavə sərt tədbirlər nəticəsində bunun da qarşısı alındı[320]. Beləliklə, kollektivləşmə nəticəsində kəndin inkişafında mühüm rol oynayan fərdi təsərrüfatçılar sıradan çıxarıldı, orta təbəqə bir sinif kimi ləğv edildi. Geriyə düşmən elan edilən varlı təbəqə və torpağı olmayıb icarə işləyən yoxsul təbəqə qaldı. **Rejim qaçaqları da əsasən ləğv edilən bu orta təbəqənin nümayəndələri idilər.**

O baxımdan ümumkənd təsərrüfatının 51,4 faizini təşkil edən orta təbəqənin ləğvi xalq arasında kollektivləşmə siyasətinə etiraza səbəb oldu və bu etiraz hərəkatı bütün Azərbaycanda geniş vüsət aldı. 1930-cu ilin əvvəllərində əhalisinin çoxu azərbaycanlı olan Ermənistanda mütəşəkkil silahlı üsyan Kərbəlayı İsmayılın başçılığı ilə Vedibasar rayonunda baş

---

319 Əlmirzəyev X.O. (1963). Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, Azərnəşr, s.63

320 Şıxlinski Z.B. (1975). Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər). Bakı, Elm, s.209

vermişdi. Bu üsyan tipik qaçaqçılıq hərəkatı idi və uzun zaman sovetlərin o bölgədə fəaliyyətini əngəlləmişdi. Azərbaycanın başqa bölgələrində də məsələn, Lənkəran ətrafinda sərhəd qoşunları və milis qüvvələri ilə gərgin döyüşlər aparan dəstələrə orta təbəqə kəndli olan Həsən İsa oğlu və Cankişi adlı qaçaqlar başçılıq edirdilər. 1928/30-cu illərdə Qarabağda, Quba, Nuxa, Göyçay, Zaqatala, Gəncə kimi yerlərdə silahlı kəndli müqavimət hərəkatının ardı-araşı kəsilmirdi. Bununla bərabər Gəncədə və Gəncəbasarda Məmməd Qasım, Hacı Axund və Rüstəmin qaçaq dəstələri hələ də döyüşürdülər. Gürcüstanın Qarayazı mahalında başlayan və Ermənistanın azərbaycanlıların yaşadığı bir çox yerlərini də əhatə edən silahlı üsyana isə Qaçaq İsaxan adı ilə tanınmış İsaxan Hacıbayramlı başçılıq etmişdir[321].

Azərbaycanda sovet rejiminə qarşı milli müqavimət hərəkatının əsas formalarmdan biri olan kəndli hərəkatı əslində tipik qaçaqçılıq hərəkatı idi. Bu tip mübarizə forması bütün Azərbaycanda vardı. Məsələn, Lerikdə Şahsevən Əskər oğlu, Astarada Fəttah Rəsulov və Hüseyn Ramazanov, Qarabağda Gülmalı xan, Goranboyda Qaçaq Musa, Nəbiağalıda Məmmədqasım Pirməmməd oğlu, Rüstəm və Təhməz Ramazanoğulları, Qandal Nağı, Dəli Alı, Şəki-Zaqatala bölgəsində Molla Mustafa Şeyxzadə, polkovnik Bəhram bəy Nəbibəyov, qaxlı Sadıq bəy Balacayev, Lahıclı Qaçaq Cümşüd, Gədəbəydə Qaçaq Əmirastan və başqaları bu hərəkatın başçıları idilər. Bundan başqa, Naxçıvanm Keçili kəndində, Xızı dairəsinin Ağdərə kəndində, Ağdamda, Gəncə dairəsinin Bitdili kəndində, Ağdaşın Piraza kəndində, Göyçayın Mollakənd kəndində də qaçaqlar fəaliyyət göstərirdilər[322]. Son dövrdə folklor ör-

[321] https://az.wikipedia.org/wiki/Qaçaq_İsaxan
[322] az.wikibooks.org/wiki/XX_əsrdə_Azərbaycanda_milli_azadlıq_hərəkatı

nəklərinin toplanmasından aydın olur ki, sovet rejim qaçaqları hər bölgədə, hər rayonda, hətta hər kənddə varmış. Sadəcə olaraq bu günə qədər şifahi tarixə önəm verilmədiyindən, folklorun isə ədəbiyyatın bir qolu kimi anlaşılması yanlışlığı nəticəsində bu qaçaqlar haqqında toplama işi aparılmamış, qolşomaq (qaçaqçılıq) hərəkatı öyrənilməmişdir. Çünki qaçaq hekayətləri sovet folklor anlayışının janr bölgüsünün heç birinə uyğun gəlmirdi. Buraya təbii ki, sovet rejiminin qadağalarını və Azərbaycan humanitar elminin sovet rejimi qarşısında canfəşanlığını da əlavə etmək lazımdır.

1928-ci ildən başlayan və kuliminasiya nöqtəsinə 1930-cu illərdə çatan və kollektivləşmə adı ilə həyata keçirilən kolxozlaşmada zorla kolxoza üzv yazma, kəndlilərin, mülkədarların torpaqlarının əllərindən alınması, siyasi-mənəvi basqı, dini bayramların, Məhərrəmliyin qadağan edilməsi, ziyarət yerlərinin bağlanması, məscidlərin anbara, tövləyə çevrilməsi bir trəfədən əhalidə böyük narazılıqlara səbəb oldusa, digər tərfədə rejimin daha sərt cəza tədbirlərinə əl atmasını şərtləndirdi. Nəticədə, buraxılan bu ciddi xətalara boyun əymək istəməyən sadə kəndlilər və hətta bəzi partiya üzvləri də iri torpaq mülkədarlarının tərəfinə keçdilər. O baxımdan 1930-cu il Azərbaycan kəndlərində kollektivləşməyə qarşı mübarizənin ən yayqın olduğu il hesab olunur. Azərbaycanın müxtəlif yerlərində qolçomaq adlandırılan orta təbəqənin fəallığı yüksəldi və artan narazılıq və dirənişlər təbii ki, bir çox yerlərdə qaçaqçılıq hərəkatının silahlı üsyanları formasında özünü göstərdi.

Qolşomaq və ya kəndli hərəkatı "Azərbaycanın bütün qərb vilayətləri olan Zaqatala, Şəki, Qazax, Gəncə; cənub vilayətlərini təşkil edən Naxçıvan, Qarabağ, Muğan, Şirvan, Salyan və Lənkəran, şimal vilayətlərindən Göyçay, Ağdaş, Şirvan və Quba vilayətlərini əhatə etdi. Üsyançılar dəfələrlə

Şuşa, Ağdaş, Şəki kimi şəhərləri işgal etdilər, qanlar axıtdılar, qurbanlar verdilər. Bu üsyanların təzyiqi altında Azərbaycan və xüsusən də Qafqaz kommunist firqə təşkilatları, onların rəhbərləri, Azərbaycanda olan türk, gürcü, erməni, rus ordu hissələri iki-üç dəfə dəyişdi, yerli əsgərlər qismən üsyançılara iltihak, qismən üsyançılara qarşı getməkdən imtina etdilər[323].

Beləliklə, XX yüzilin çar və daha sonra sovet rejiminə qarşı çevrilən kəndli üsyanları və onun doğurduğu qaçaqçılıq hərəkatı, xüsusən 1929-1932-ci illərdə daha da genişləndi və Azərbaycanın hər tərəfinə yayıldı.

Qaçaqlar sadəcə kollektivləşməyə qarşı çıxmır, eyni zamanda bəzi təxribatlar törətməklə rusların Azərbaycanın uçqar yerlərinə yayılmasına mane də olurdular. Bunlardan Masallı-Yardımlı yolunun çəkilməsinə əngəl olan Yardımlının Güdələr (Qaçaq Xankişi ilə onun qardaşı Qaçaq Cankişi) adlanan qaçaq dəstəsini göstərmək olar. Doğrudur söyləyici ali təhsilli müəllim olduğundan bu əhvalatı kəndlərində olmuş Kişi bəyi tərifləmək üçün anlatsa da, bu sözlü tarix materialı qaçaqların icraatları baxımından önəm daşıyır:

"Deməli, bu Masallı-Yardımlı yolunu çəkəndə, heç cür eliyə bilmillər. Bırda bı Güdələr kəndi olub, orda Xankişi və Cankişi qardaşları olub. Olar çox mahir gülləatan olublar. Olar Sovet hökümətinə qarşı çox cəsarətnən və amansızcasına vırışıblar. Bı Ərkivannan Qəriblər arası o vaxtı qarqatikannığ olub. Qocalar danışıllar ki, ordan iydən keçməy olmurdu. O qədər rus, Qızıl ordunun əsgərini öldürürdülər ki bılar. Götürə bilmirdilər meyiddəri, qalırdı iylənirdi.

Olar uzun müddət müqavimət göstərillər sovet hökümətinə qarşı, sora da qaçağçılığ elədilər. Həmin bu iki qardaş

---

[323] Məmmədzadə Mirzəbala (2007). Köylü hərəkatı, Lenin milli siyasəti. Hazırlayan Ə.Həsən oğlu. Bakı, s.19

dediyim kimi Masallı-Yardımlı yolunun çəkilməsinə imkan vermillər. Niyə? Yol çəkilsə, rus ordusu gedəcəkdi qabağa, ona görə. Bir də görürdün məsələn, iki qardaş cıxdılar meşədən, biri o yannan, biri bu yannan, yolçəkənnəri vırdılar, qalannarı da qaşdı. Nə qədər eliyillər, mümkün olmur. Əsgər aparıllar, görüllər olmur, milis aparıllar gorüllər olmur. Axırda gəlillər Kişi bəyin yanına ki, bəs bizə kömək elə. Biz yol çəkmək istiyirik amma imkan vermillər. Kişi bəy deyir ki yaxşı. Səhər tüfəngini atır çiyninə, deyir ki, siz işivizi davam eliyin.

Geceynən qardaşlar Kişi bəyin yanına adam göndərillər ki, Kişi bəy, eləmə, aramıza nifaq salma, sən qarışma. Bı da onlara xəbər göndərir ki, onlar artıq mənim qapımdan giriblər. Mən daha geri çəkilə bilmərəm. Əgər istəmirsizsə ki, aramızda düşmançılığ olsun, buna maneçiliy eləmiyin. Olar da onnan sora hec nə eləmillər”[324].

1930-cu ildə Gəncə qəzasında, Qazax və Şamxor rayonlarında ümumi sayı 100 nəfər olan 5 qaçaq dəstəsi fəaliyyət göstərirdi. Bundan başqa həmin ildə Samuxda, Naxçıvanda, Goranboyda, Şirvanda, Şamxorda, Lənkəran, Masallı və Yardımlıda da qaçaq dəstələri sovet rejiminə qarşı çıxdılar. Lənkəranda, Yardımlıda, Masallıda, Cəlilabadda, Neftçalada və digər yerlərdə kiçik dəstələrlə dağlara, meşələrə çəkilərək yerli bolşeviklərə, milis orqanlarına qarşı mübarizə aparan çox sayda qaçaqlar vardı. Onlardan məşhur olanları Masallıda Qaçaq Mozu, Qaçaq İbad, Yardımlıda Güdələr adı ilə məşhur olan Qaçaq Xankişi-Cankişi qardaşları, Neftçalada Qaçaq Pşa və başqalarını göstərmək olar.

---

[324] Əli Əliyev, doğum tarixi 1945, təhsili ali, Qodman kəndi Masallı rayonu. Toplayan: Vüsalə Kərimova 2013

## 7.5. Nəticə

Keçmiş Sovetlər İttifaqında yaşayan türk xalqlarının XIX yüzildən başlayaraq zorla Rus İmperiyasının tərkibinə qatılmasından sonra yeni bir anlam qazanan qaçaqçılıq hərəkatı böyük bir artış göstərməyə başladı. Ancaq sovet dövrü tarixçiləri və folklorçuları qaçaqlarla bağlı söylənən hekayətləri və hətta qaçaq dastanlarını daha çox sovet ideologiyası baxımından tədqiq etmiş, özəlliklə qaçaqlara sinfi don geyindirməklə, onların guya sovet quruculuğundakı fəaliyyətlərini vurğulamışlardı. Sovet bolşevik rejimi ilə barışmayanlar, malını-mülkünü kollektiv təsərrüfata vermək istəməyənlər də rejimdən qaçaq düşmüş, qolçomaq adı ilə partiya və sovet orqanları tərəfindən xalq düşməni adlandırılmış, hər zaman **iqtidar yanlısı olan rəsmi tarix elmi də onları qolçomaq, quldur adı ilə damğalamış,** haqqlarında yaranmış sözlü ədəbiyyatın öyrənilməsinə yasaq qoymuşdur. Xalqsa uzun zaman sovet qaçaqları haqqındakı rəvayətləri yaddaşında canlı tutmaqla günümüzə qədər yaşatmış və beləliklə, şifahi tarix vasitəsilə qaçaq folklorunun bir qismini bugünə ulaşdıra bilmişdir.

Qaçaqçılıq hərəkatının siyasi məzmunu (rejimə tabe olmamaq, kollektivləşməyə qarşı çıxmaq, dini və mənəvi dəyərlərə etinasızlığa, təhqirə dözməmək və s.) sadəcə sovet dövrü qaçaqlarına aid edilə bilər ki, burada yenə də sosial mahiyyətin aparıcı olduğu gürünür. Bu hərəkatın sosial-iqtisadi məzmununda ayrı-ayrı kəndlərdə, qəsəbələrdə baş verən özbaşınalıq, yerli idarəetmə orqanlarının mərkəzə yaslanaraq qanunsuz hərəkətləri, sovet dövründə, xüsusən də 20-40-cı illər arasında kütləvi kommunistləşdirmə, ateistləşdirmə, kollektivləşdirmə, milli-mənəvi dəyərlərin aşağılanması, iqtisadi çətinliklər, yoxsulluğun artması, müflisləşmə, damğalama, mal-mül-

kün müsadirəsi, həbslər, sürgün və s. vardır. 70-80-ci illərdə başlayan yumşama siyasəti özü ilə bərabər yenidənqurma siyasətini də gətirdi və nəhayətində sərt və dağılmaqda olan rejimin yerini müstəqilliyə can atan milli özünüdərk düşüncəsi aldı. Müstəqillikdən sonra qaçaq folklorunun toplanmasına, öyrənilməsinə yasaq qoyulmasa da nəzəri bazası hələ də sovet ideoloji sistemindən tam qopa bilməyən folklor elminin buna hazır olmadığı ortaya çıxdı. Buna baxmayaraq sovet qaçaqları ilə bağlı bəzi toplama işinin görüldüyünü də qeyd etmək lazımdır.

# QAYNAQLAR

## Azərbaycan və Anadolu türkcələrində


82 Numaralı Mühimme Defteri (2000). (1026-1027/1617-1618), Ankara: Devlet Arşivleri Genel Müdürlüğü Yayınları

85 Numaralı Mühimme Defteri (2002). (1040-1041 (1042)/1630-1631 (1632)), Ankara: Devlet Arşivleri Genel Müdürlüğü Yayınları

Abbaslı İsrafil (2005). "Qaçaq Nəbi" dastanı və Bəhlul Bəhcətin "Qaçaq Nəbinin tarixi" araşdırması", Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XVIII kitab. Bakı: Səda

Abbaslı İsrafil, Cəfərov Nizami (2004). "Koroğlu" dastanı". Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Elm

Abbasov İsrafil (1972). "Yeni dastanlar", Azərbaycan dastanları. V c. Tərtib edən Ə.Axundov. Bakı: Elm

Abbasov Mürvət. "Lənkəranda qırğınlar", genocide.preslib.az/az_a2-12.html

Abışov V.Ş. (2007). Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan

Ağbaba Aftandil (2012). Ağbaba-Çıldır aşıq mühiti. Bakı: Elm və təhsil

Akdağ Mustafa (2009). Türk Halkının Dirlik ve Düzenlik Kavgası: Celali İsyanları. İstanbul: Yapı Kredi Yayınları

Araslı Həmid (1960). Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat

Armağan Mustafa (2004). Osmanlı: İnsanlığın Son Adası. İstanbul: Ufuk Kitap

Aşıq Ələsgər (2004). Əsərləri. Bakı: Şərq-Qərb nəşriyyatı

Avcı Ali Haydar (2004). Zeybeklik ve Zeybekler Tarihi. İstanbul: E Yayınları

Axundov Əhliman (2003). Xatirələrim, Bakı: Azərbaycan milli ensiklopediyası‖ nəşriyyat-poliqrafiya birliyi

Azərbaycan dastanları (1977). Toplayıb tərtib edən: A.Nəbiyev. Bakı: Gənclik

Azərbaycan dastanları (1972) V c. Tərtib edən: Ə.Axundov. Bakı: Elm nəşriyyatı

Azərbaycan dilinin izahlı lüğəti (2011). C.II. Bakı: Şərq-Qərb

Azərbaycan folkloru antologiyası (1994). Naxçıvan Folkloru. I Kitab. Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı. Bakı: Sabah

Azərbaycan folkloru antologiyası (2002). VII Kitab. Qaraqoyunlu folkloru. Toplayanlar: H.İsmayılov, Q.Süleymanov. Bakı: Səda

Azərbaycan folkloru antologiyası (2006). XV Kitab. Dərələyəz folkloru. Toplayanlar: H.Mirzəyev, H.İmayılov, Ə.Ələkbərli. Bakı: Səda

Azərbaycan folkloru antologiyasi (2012). XXI Kitab. Qazax örnəkləri. Toplayan M.Həkimov. Bakı: Elm və təhsil

Azərbaycan Kommunist Partiyasının qurultayları (1987), konfransları və MK plenumlarının qətnamə və qərarları. I c. Bakı: Azərnəşr

Azərbaycan qəzeti (1918), 18 noyabr, № 39, Bayraməlibəyov Teymurbəyovun yazısı

Azərbaycan tarixi (2007). IV c. Bakı: Elm

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (2004). I cild. Bakı: Lider

Barkey Karen (1999). Eşkiyalar ve devlet. Osmanlı tarzı devlet merkezileşmesi. İstanbul: Tarih Vakfı Yurt Yayınları

Başbakanlık Osmanlı Arşivi Mühimme Defteri № 6, № 27, № 30

Baxış Əlizaman (2010). Hacıtəpə. Keçmişdə və indi. Bakı

Bayat Fuzuli (2009). Türk destancılık tarihi bağlamında Köroğlu destanı (Türk dünyasının Köroğlu fenomenolojisi). İstanbul: Ötüken

Bayat Füzuli (2008). “Fakelor-folklor qarşıdurması və fakelorçuluq haqqında”, Dədə Qorqud, 2

Bayat Füzuli (2010). Folklor haqqında yazılar (Nəzəri məsələlər), Bakı: Elm ve təhsil

Bayat Füzuli (2012). Folklor dərsləri. Bakı: Elm və təhsil

Baykara Hüseyin (1975). Azerbaycan İstiklal Mücadelesi Tarihi. İstanbul

Baykara Hüseyn (1992). Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr

Bayrak Mehmet (1994). "Eşkiyalık ve türküleri", Folklor/edebiyat, S.27, Aralık

Bayrak Şaban (1998). XVIII. Yüzyılın ilk yarısında Anadolu'da eşkiyalık olayları. Malatya: İnönü Üniversitesi sosyal bilimler enstitüsü tarih eğitimi anabilim dalı (Yayımlanmamış doktora tezi)

Behcət Bəhlul (2011). Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə). Bakı: Çıraq

Boratav Pertev Naili (1984). Köroğlu Destanı. İstanbul: Adam yayınları

Borçalı folklor örnəkləri (2013). II Kitab (Dastanlar). Tərtib edən: E.Məmmədli. Bakı: Elm və təhsil

Caferoğlu Ahmet (1928). "Azeri halk edebiyatında "Kaçak Nebi" destanı", Azeri Türk, İstanbul: № 13, s.3-5; № 14, s.9-10; № 17, s.7-9

Caferoğlu Ahmet (1932). Azeri edebiyyatında istiklal mücadelesi. İstanbul: Bürhaneddin Matbası

Cəfərov Nizami (1999). Eposdan kitaba. Bakı: Maarif

Cəfərova F.İ. (2010). Azərbaycan dastanlarında qəhrəman problemi. Fil.elm. nam. dis. Naxçıvan

Cəfərova X. (2010). Nənəmin nağılları. Bakı

Cəfərzadə Əzizə (1970). "Aşıq şeri tərzində ictimai motivlər". Azərbaycan jurnalı, №8

Connerton Paul (1999). Toplumlar nasıl anımsar? Çev. Alaeddin Şenel. İstanbul: Ayrıntı Yayınları

Dastançı Əli Qurban (1995). Səməd ağa dastanı, Bakı: Göytürk

Dastançı Əli Qurban (2003). Dəli Alı dastanı. Bakı: İsmayıl nəşriyyat-poligrafiya müəssisəsi

Devellioğlu Ferit (1998). Osmanlıca-Türkçe ansiklopedik lugat. Ankara: Aydın kitabevi yayınları

Dorson Richard M. (2007). Günümüz folklor kuramları. Çeviren S.Gürçayır, Y.Özay. Ankara: Geleneksel yayıncılık

Dundes Alan (2006). "Halk kimdir?" çeviren M.Ekici. Halk biliminde kuramlar ve yaklaşımlar 1. Hazırlayanlar M.Ö.Oğuz, M.Ekici, N.Özdemir, G.Ö.Eker, S.Gürçayır. Ankara: Geleneksel yayıncılık

Dundes Alan (2007). "Fakelor fabrikasyonu", Folklorun sahtesi: fakelore, Ankara

Əfəndiyev Paşa (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif

Ələmpaşalı Zahid (2009). Qaçaq İsaxan dastanı. Bakı: Xəzər Universteti nəşriyyatı

Ələmpaşalı Zahid (2009). Qaçaq Mahmud. Bakı: Xəzər Uviversiteti nəşriyyatı

Əlmirzəyev X.O. (1963). Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, Azərnəşr

Əlmirzəyev X.O., Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı, Azərnəşr, 1963, s.63

Əsədov Firudin, Kərimova Sevil (1993). Çarizmi Azərbaycana gətirənlər. Bakı: Elm

Əsgərov Şəmistan (1991). Haçadağ. Bakı: Gençlik

Eyvazlı Fərman (1986). Qaçaq Kərəm (Birinci hissə). Bakı: Yazıçı

Eyvazlı Fərman (2000). Qaçaq Kərəm (İkinci hissə). Bakı: Əbilov, Zeynalov və oğulları mətbəəsi

Fərəcov Ş.F. (2010). "Azərbaycanda partizan hərəkatını doğuran səbəblər və qaçaq hərəkatı", Bakı Universitetinin Xəbərləri, № 2, Humanitar Elmlər Seriyası

Grsiworld J. William (2002). Anadolu'da Büyük İsyan 1591-1611. İstanbul: Tarih Vakfı Yurt Yayınları

Hacıyeva Marifə (2007). Ədəbi mülahizələr. Bakı: Azərnəşr

Hacıyeva Məhbubə (2015). Məhəmməd bəy Kavaler. Bakı: "Uni-Print" nəşriyyatı

Hobsbawm Eric J. (1990). “Toplumsal eşkiyalık nedir?”. Çevirenler: O.Akalın, A.K.Saysel. Folklora doğru, Dans-müzik-kültür-çeviri-araştırma dergisi. S.59

Hobsbawm Eric J. (1990). Haydutlar. Çeviren: F.Taşkent. İstanbul: Logos yayınları

Hobsbawm Eric J. (1995). Sosyal isyancılar. Çeviren: N.Doğru. İstanbul: Sarmal yayınları

Hobsbawm Eric J. (1997). Eşkıyalar. Çeviren: O.Akalın ve N.Hasgül. İstanbul: Avesta yayınları

Hobsbawm Eric J. (2011). Eşkiyalar. Çeviren O.Akınhay. İstanbul: Agora kitaplığı

Hobsbawm Eric J. (2016). İlkel asiler. Çeviren: U.Kasapoğlu. İstanbul: İletişim yayınları

Honko Lauri (2000). “Halk anlatısıaraştırma metodları, bu metodların durumu ve geleceği”. Çeviren: İ.Görkem. Milli Folklor, S.45

İbrahimoğlu Vilayəddin (2017). Qaçaq Gülüsüm və Stalin. Bakı: Yek produstion çap evi

İlgürel M. (1993). “Celali İsyanları”, TDV İslam Ansiklopedisi, C.7, İstanbul: Diyanet Vakfı neşriyat pazarlama ve ticaret A.S.

İsaxanlı Hamlet (1998). “Qafqazda sovet terroruna qarşı 1928-30-cu illər silahlı müqavimət hərəkatı haqqında”, Qafqazda Sovet totalitarizmi (20-30-cu illər) Elmı konfrans. Bakı, 6-7 noyabr, 1998-ci il. Materialları. Bakı: Xəzər Universitəsi nəşriyyatı, s.55-58

İsgəndərov A.C. (2005). “1918-1920-ci illərdə türk-müsəlman soyqırımları”. Azərbaycan qəzeti, 1-2 aprel

Kazımoğlu Muxtar (2013).” Qarabağ folkloru: görülən işlər və çıxarılan bəzi nəticələr, 525-ci qəzet, 2 dekabr

Kərimov B.B. (2012). “1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım”, Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, Bakı, № 2, s.151-160

Kərimov B.B. (2012). “1918-1919-cu illərdə Lənkəran qəzasında ermənilərin törətdikləri soyqırım”, Bakı Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, Bakı, № 2, s.151-160

Koroğlu (1990). Vəli Xuluflu nəşri. Nəşrə hazırlayan A. Nəbiyev, tərtib edən Y.İsmayılova. Bakı: Elm

Koroğlu dastanı (2015). (Əli Kamali arxivindəki variantlar. Elektron nəşr. Çapa hazırlayan Ə.Şamil. Bakı

Koroğlu Xalıq (1999). Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd

Köroğlu Destanı (1973). Anlatan B.Mahir. Derleyenler M.Kaplan, M.Akalın, M.Bali. Ankara: Akçağ

Ləmbəli Vəli (1999). Dağlarda kişnərti. Bakı: Yurd

Makas Zeynelabdin (1990). "Qaçaq Nəbinin Türkiyə variantı", Azərbaycan türkcəsinə çevirən: H.Sadıqov, Ədəbiyyat və İncəsənət, № 30 (2425)

Masallı folklor örnəkləri (2013). I Kitab. Toplayıb tərtib edən F.Bayat, Bakı: Elm və Təhsil

Məhərrəmov N. (1992). Getsin gəlməsin. Bakı: Azərnəşr

Məmmədov Nuru (2010). "Hakimiyyət orqanlarının qolçomaqlara qarşı "düşmən" siyasəti (XX əsrin 20-30-cu illəri)" Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası №3

Məmmədzadə Mirzəbala (2007). Köylü hərəkatı Lenin milli siyasəti. Hazırlayan Ə.Həsən oğlu. Bakı

Mirzə Ağalar (1999). Xaltanlı Tağı. Bakı: Elm

Mirzə Ağalar (2004). Şirvana binə gələm. Bakı: Borçalı-nəşriyyat-poliqrafiya müəssisəsi

Mirzəzadə Vüqar (2014). Xasay nəslinin salnaməsi, Bakı: MBM

Moran Berna (2011). "İnce Memed ve Eşkıya Öykülerinin Yapısı". Türk Romanına Eleştirel Bir Bakış 2, İstanbul: İletişim Yayınları

Mümtaz Salman (1936). El şairləri. II c. Bakı: Azərnəşr

Namazov Qara (2005). Xalq qəhrəmanının şöhrəti. Bakı: Orxan, 2005

Nəbi Ceyhun. "Qafqaziyyə şeytanı yox, Qafqaziyyə qartalı Dəli Alı "www.teleqraf.az/index.php/koshe/5810-ali.html

Nəbiyev Azad (2004). "Qaçaq dastanları", Azərbaycan ədəbiyyat tarixi. I cild. Bakı: Elm

Nəbiyev Azad (2006). Azərbaycan xalq ədəbiyyatı. II hissə. Ali məktəblər üçün dərslik. Bakı: Elm

Nəciyev E.R. (2017). "Denikinçilərin və erməni daşnaklarının Lənkəran qəzasında törətdiyi soyqırım" AMEA Tarix İnstitutu "Elmi Əsərlər" "XX əsrdə türk-müsəlman əhaliyə qarşi soyqırımları" mövzusunda IV Beynəlxalq elmi konfransın materialları. Xüsusi Buraxılış. № 64, 65, 66, s.317-321

Nərimanoğlu Hacı (1989). "Yaddaş", Gənclik jurnalı, may

Nurlu İbrahim (1997). XXI əsrin astanasında Neftçala. I kitab. Bakı: Araz nəşriyyatı

Orucoğlu Hüseynbala (2003). Düşmən qardaşlar. Poema. Bakı: Şirvannəşr

Öcal Turgut (1970). Iğdır folkloru ve etnografyası. Erzurum: Atatürk Üniversitesi Fen Edebiyat Fakültesi (Yayımlanmamış Lisans bitirme tezi).

Ömərov Vahid (2012). "Azərbaycan SSR-də bolşevik rejiminə qarşı silahlı üsyanlar (1920-1930-cu illər)", Səs qəzeti, 27.11.

Özcan Abdülkadir (1994). "Deli", TDV İslam Ansiklopedisi, Cilt 9. İstanbul: Diyanet Vakfı neşriyat pazarlama ve ticaret A.S.

Özkaya Yücel (1982). "Koroğlunun tarihi şahsiyeti", Köroğlu semineri bildirileri. Ankara: Kültür ve Turizm bakanlığı yayınları

Öztürk İsa (2003). Köroğlu Destanı. İstanbul: Adam yayınları

Pakalın Mehmet Zeki (1993). Osmanlı Tarih Deyimleri ve Terimleri Sözlüğü. Cilt 1, İstanbul: MEB yayınları, s.420

Qaçaq Nəbi (1938). Toplayan Ə.H.Tahirov. Bakı: Azərbaycan sovet yazıçıları ittifaqının nəşriyyatı

Qaçaq Nəbi (1960). Tərtib edən H.Qasımov. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı

Qaçaq Nəbi (1983). Tərtib edən A.Nəbiyev. Bakı: Gənclik

Qaçaq Nəbi (2001). Toplayan A.Nəbiyev. Bakı: Turan

Qaçaq Nəbi (2009). Tərtib edən Ə.Axundov, yenidən işləyəni Ə.Cəfərov. Bakı: Çıraq

Qaçaq Nəbi dastanı (1941). Tərtib edən Ə.Axundov. Bakı

Qaçaq Nəbi dastanı (1961). Tərtib edən Ə.Axundov. Bakı: Azərbaycan Dövlət nəşriyyatı

Qaçaq Usuf (1994). Toplayan: A.Ağbaba, N.Məmməd-canlı. Bakı: "Yazıçı" Ədəbi nəşrlər evi

Qarayev S. (2013). "Kosmoqonik zəmində qadın və kişi", Dədə Qorqud, 3. s.54-68

Qasımov. (). Qafqazda qaçaqlara qarşı mübarizə, Bakı

Qorki Maksim (1935). Şura ədəbiyyatının vəzifələri. Tərcümə edən M.Arif. Bakı: Azərnəşr

Qorki Maksim (1950). Ədəbiyyat haqqında. Tərcümə edən M.Rzaquluzadə. Bakı: Uşaqəncnəşr

Qorki Maksim (1952). Mənim universitetlərim. Tərcümə edən Ə.Məmmədxanlı. Bakı: Uşaqgəncnəşr

Qorki Maksim (1952). Özgə qapılarında. Tərcümə edən Ə.Məmmədxanlı. Bakı: Uşaqgəncnəşr

Qorki Maksim (1952). Uşaqlıq. Povest. Tərcümə edən Ə.Məmmədxanlı. Bakı: Gənclik

Rahim Məmməd (1988). Seçilmiş əsərləri. II cild, Bakı: Azərnəşr

Refik Selim (1933). "Azeri Halk Edebiyatında "Deli Alı" destanı", Azerbaycan Yurt Bilgisi, yıl 2, sayı 23, İstanbul

Rəhimov Süleyman (2005). Seçilmiş əsərləri. II cild, Bakı: Şərq-qərb

Rüstəm Süleyman (2005). Seçilmiş əsərləri. III cild. Bakı: Şərq-qərb

Rüstəmzadə Rüstəm (1984). El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik

Rüstəmzadə Rüstəm (1998). Azərbaycan tarixi qəhrəman-lıq dastanları. Gəncə: Gəncə nəşriyyat poliqrafiya birliyi

Rüstəmzadə Rüstəm (2007). Koroğlunun nəvələri. Bakı: Yurd

Sadıq İslam (2015). Azərbaycan "Koroğlu" eposu. I kitab. Bakı: Elm və təhsil

Salmanlı Rəhman (2013). "Ramazan oğulları", Azərbay-can qəzeti. 12 yanvar

Savadov Cəlal (1958). Boz Atın belində. Qaçaq Nəbi. Bakı: Gənclik, 1958

Səfərəliyeva A. (2006). "Molla Nur" rus ədəbiyyatında", Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXI kitab. Bakı, s.135-142

Səlimzadə Əkrəm, Nurəliyev Rzabala (1989). İz itmir. Bakı: Yazıçı

Şamil Əli (2001). Dastanlaşmış ömürlər. Bakı: Səda nəşriyyatı

Şeyxzamanlı Nağı bəy (2004). Xatirələr, Bakı: Xan nəşriyyatı

Şıxlinski Z.B. (1975). Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər). Bakı: Elm

Şimşek Esma (1986). Kaçak Nebi hikâyesi üzerinde bir çalışma. Erzurum: Atatürk Üniversitesi Fen Edebiyat Fakültesi (YayımlanmamışLisans bitirme tezi).

Şimşek Esma (1989). "Kaçak Nebi hikâyesindeki motif-lerin diğer halk hikâyeleri ile benzerlikleri". Azerbaycan Türk kültür dergisi, S. 267, 1989

Talışlı M., Əhədov E. (2015). "1918-ci il Lənkəran faciəsi". Respublika qəzeti, 13 mart, № 57;

Talışlı M., Əhədov E. (2015). "1918-ci il Lənkəran faciəsi". Respublika qəzeti, 13 mart, № 57

Turhan Sibel (1990). Azerbaycan sahasıkaçak anlatmaları. İzmir: Ege Üniversitesi Sosyal Bilimler Enstitüsü (YayımlanmamışYüksek lisans tezi).

Türkçe sözlük (2005). Ankara: TDK

Uluçay Çağatay M. (1958). "Üç eşkiya türküsü", TM, XIII, s.87-90

Uluçay Çağatay M. (1968). Atçalı Kel Mehmed. İstanbul: As Matbaası

Uzun E. (2006). "Osmanlı örneklemi üzerinden sosial eşkiyalıba bir bakış", TSA, yıl, 10, sayı 3, Aralık

Vəliyev Vagif (1980). Azərbaycan qəhrəmanlıq dastanları. Bakı: S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Nəşri

Vəzirov Nəcəf Bəy (2005). Əsərləri. Bakı: Şərq-qərb

Xaçınçaylı Qələndər (2011). "Təbriz inqilabına dəstək verən Qaçaq Süleyman", Həftə içi, 16 sentyabr

Yeddi dastan (1989). Toplayanı və tərtib edəni: R.Rüstəmzadə. Bakı: Azərnəşr

Yetkin Sabri (2003). Ege'de eşkıyalar. İstanbul: Tarih Vakfı Yurt Yayınları

Yurdsevər Almaz (2015). "Xalq qəhrəmanı Qaçaq Kərəm haqqında dəyərli mənbə", 525-ci qəzet. 20 fevral

## Söyləyicilər

Söyləyici: Ağababa Abbasov, doğum tarixi 1926, təhsili orta, Masallı rayonu Təklə kəndi. Toplayan: Füzuli Bayat 2013

Söyləyici: Bəşir Həsənov, doğum tarixi 1927, təhsili yoxdur, Gədəbəy rayonu Mormor kəndi. Toplayan: Aynur Qəzənfərqızı 2017

Söyləyici: Ədalət Orucov, doğum tarixi 1960, təhsili orta ixtisas, Neftçala rayonu Qaçaqkənd kəndi

Söyləyici: Əli Əliyev, doğum tarixi 1945, təhsili ali, Masallı rayonu Qodman kəndi. Toplayan: Vüsalə Kərimova 2013

Söyləyici: Əli İsgəndərov, doğum tarixi 1962-ci il, təhsili ali, Yardımlı şəhəri. Toplayan: Füzuli Bayat 2017-ci il

Söyləyici: Əziz Nağıyev, doğum tarixi 1928, təhsilsiz, Gədəbəy rayonu Arabaçı kəndi. Toplayan: Aynur Qəzənfərqızı 2017

Söyləyici: Firudin Nəbiyev, doğum tarixi 1932, təhsili natamam orta, Gədəbəy rayonu Arabaçı kəndi. Toplayan: Aynur Qəzənfərqızı 2017

Söyləyici: Gülzar Həsənova, doğum tarixi 1913, təhsili yoxdur. Masallı rayonu Xırmandalı kəndi. Toplayan: Füzuli Bayat 1993

Söyləyici: Hüseyn Əhmədov, doğum tarixi 1933, təhsili natamam orta, Gədəbəy rayonu Şınıx kəndi. Toplayan: Aynur Qəzənfərqızı 2017

Söyləyici: Hüseyn Əhmədov, doğum tarixi 1933, təhsili yoxdur, Gədəbəy rayonu Şınıx kəndi. Toplayan: Aynur Qəzənfərqızı 2017

Söyləyici: İman Quliyev, doğum tarixi 1947, təhsili orta, Gədəbəy rayonu Arabaçı kəndi. Toplayan: Aynur Qəzənfərqızı 2017

Söyləyici: Qüdrət Əzizov, doğum tarixi 1925, təhsili alı, Neftçala rayonu Xolqaraqaşlı kəndi. Toplayan: Təbiət Abdullayeva

Söyləyici: Leyla Babayeva, doğum tarixi 1939, təhsili orta, Arbatan kəndi Salyan rayonu

Söyləyici: Maarif Əliyev, doğum tarixi 1949, təhsili natamam-ali, Masallı rayonu Qəriblər kəndi. Toplayan: Füzuli Bayat 2014

Söyləyici: Mədinə Həsənova, doğum tarixi 1941, təhsili natamam orta, Masallı rayonu Xırmandalı kəndi. Toplayan: Füzuli Bayat 2013

Söyləyici: Məmmədhüseyin Həsənov, doğum tarixi 1928-ci il, təhsili orta ixtisas, Masallı şəhəri. Toplayan: Füzuli Bayat 2013-cü il

Söyləyici: Paşa Gözəlov, doğum tarixi 1897, təhsili yoxdur. Toplayan: Füzuli Bayat 1982

Söyləyici: Şirvan Əbilov, doğum tarix 1932, təhsili ali, Mahmudavar kəndi Masallı rayonu. Toplayan: Füzuli Bayat 2012

Söyləyici: Təbiət Yolacaqlı, doğum tarixi 1954-cü il, təhsili orta, Yardımlı rayonu Yolacaq kəndi. Toplayan: Füzuli Bayat 2017-ci il

Söyləyici: Vasif Alışov, doğum tarixi 1953, təhsili orta, Masallı rayonu Həsənli kəndi. Toplayan: Füzuli Bayat 2013

Söyləyici: Yavər Əkbərov, doğum tarixi 1940, təhsili ali, Masallı rayonu Sığdaş kəndi. Toplayan: Vüsalə Kərimova 2013

## İngilis və fransız dillərində

Billy J. (1978). Chandler, the bandit king: Lampiao of Brazil. College Station, TX: Texas A&M Press

Blok A. (1972). “The peasant and the brigand: Social banditry reconsidered,” Comparative studies in society and history, 14, 4 septebr

Broxup Marie (1983). “The Basmachi”, Central Asian Survey, Vol. 2, № 1, pp. 57-81

Buttino Marco (1997). "Ethnicité et politique dans la guerre civile: à propos du “basmačestvo” au Fergana", Cahiers du monde russe et sovietique, Vol. 38, № 1-2

Cassia Paul Sant (1993). “Banditry, myth, and terror in Cyprus and other Mediterranean Societies.” Comparative studies in society and history 35, № 4, October

Chodzko Alexander (1842). Specimens of the popular poetry of Persia as found in the adventures and improvisations of Kurroglou, the bandit-ministrel of Northern Persia and in the songs of the people inhabiting the shores of the Caspian Sea. London: Printed for the oriental translation fund of Great Britain and Ireland, and sold by W.H. Allen

Chokay Mustafa (1928). "The Basmachi movement in Turkestan", The Asiatic Review Vol.XXIV

Dorson Richard M. (1976). Folklore and fakelore: essays toward a discipline of folk studies, Harvard University Press

Hobsbawm Eric J. (1959). Primitive rebels: Studies in archaic forms of social movement in the 19th and 20th centuries. London: Manchester University Press

Hobsbawm Eric J. (1969). Bandits. London: Weidenfeld & Nicolson

Kamenetsky Ch. (1972). “Folklore as a political tool in nazi Germany”, Journal of American folklore, 85

Lewin Linda (1979). “The oligarchical limitations of social banditry in Brazil: The Case of the 'good' thief Antônio Silvino”. Past and present, 82 Febryry, pp.116-46

O'Malley P. (1979). “Social bandits, modern capitalism and the traditional peasantry: A critique of Hobsbawm,” Journal of peasant studies 6, 4 july

Paksoy Hasan B. (1991). "Basmachi": Turkish National Liberation Movement 1916-1930”, Modern Encyclopedia of Religions in Russia and the Soviet Union (FL: Academic International Press) 1991, Vol. 4, pp. 5-20

Paul J. (1982). Vanderwood, ed., “Social banditry and Spanish American independence”. Special issue of Bibliotheca Americana, 1, 2 Noveber

Schwartz Rosalie (1989). Lawless liberators: Political banditry and Cuban independence. Durham: Duke University Press

Singelmann Peter (1975). “Political structure and social banditry in Northeast Brazil,” Journal of Latin American Studies, 7, 1. May, pp.59-83

Slatta R.W. (1991). “Bandits and rural society history: A comment on Joseph,” Latin American research review, 26: 1

Wilks J.M. (2001). “The Persianization of Köroglu banditry and royalty in three versions of the Köroglu destan”, Asian folklore studies, Vol. LX, № 2

**Rus dilində**

20 лет Азербайджанской Советской Социалистической Республики (1940). Ваку: Наука, Азернешр

Аникин Владимир Прокопьевич (1969). Фольклор как коллективное творчество народа. Москва: Издательство МГУ

Аристов Николай Яковлевич (1875). Об историческом значении русских разбойничьих песен. Воронеж: Типография Н.Д.Гольдштейна

Болгарская народная поэзия (1953). Избранные произведения. Перевод с болгарского. А.Зобкович. Москва

Бонч-Бруевич Владимир Дмитриевич (1963). “В.И.Ленин об устном народном творчестве”. Избранные сочинения. Т.III. Москва: Изд-во АН СССР

Востриков П. (1912). Музыка и песня у адербейджанских татар. СМОМПК. XLII , выпуск, I отдел, Тифлис: Управление Кавказского учебного округа, s.37-39

Горький Максим (1896). “Разбой на Кавказе”, Нижегородский листок, 8 ноября 1896, № 309, 314, 324, 325, 327

Горький Максим (1953). Собрание сочинений. Т.XXVII, Москва: Гослитиздат

Грибушин И.И. (1976). “Уральская сказочная параллель к стихотворению Ф. Н. Глинки “Услуга от медведей”, Фольклор урала. Сборник статей. Народная проза Раздел III. Свердловск

Гусев Виктор Евгеньевич (1967). Эстетика фольклора. Ленинград: Наука

Гусейнов Рагим (1926). Очерки революционного движения в азербайджане. Баку: Издание Общества Обследования и Изучения Азербайджана

Данилова Л.В. (1970). “К вопросу о причинах утверждения крепостничества в России”. Ежегодник по аграрной истории Восточной Европы за 1965 г. Москва

История народов Северного Кавказа конца XVIII в.-1917 г. (1988). Москва: Наука

Кавказ (1885). Вестн. Закавк. комиссариата, 11 июня, № 181, Тифлис

Кавказ (1885). Вестн. Закавк. комиссариата, 28 октября, № 2, Тифлис

Кавтарадзе Г.А. (1969). “К истории крестьянского самосознания периода реформы 1861 г.”. Вестник Ленинградского унта. Серия История, язык, литература, № 14, вып. 3. Ленинград

Казаковский П.В. (1913). Разбои на Кавказе. Владикавказ, 1913

Калашев А., Иоакимов А. (1894). Татарские тексты. Песни, загадки, пословицы, СМОМПК. XVIII- выпуск, II отдел, Тифлис: Управление Кавказского учебного округа, с.29-31

Козловский Денис (1903). “Качак Керим”, Каспий: Ежедн. обществ.-лит. и полит. газ., № 56, 62, 65, 69, 73, 77

Литвинов М. А. (1897). История крепостного права в России. Москва: Тип. Вильде

Макиавелли Николо (1990). Государь. Пер. Г.Муравьева. Москва: Планета

Ожегов Сергей Иванович, Шведова Наталия Юльевна (2006). Толковый словарь русского языка. Москва: Москва:

Российская Академия Наук, Институт русского языка им. В В Виноградова

Петрушевский Илья Павлович (1949 a). “Восстания ремесленников и городской бедноты в 1571—1573 гг.” Сборник статей по истории Азербайджана. Вып. 1, Баку

Петрушевский Илья Павлович (1949 b). Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI нач. XIX вв. Ленинград: Издательство Ленинградского Государственного Ордена Ленина Университета Имени А.А.Жданова

Сербский эпос, редактор Н.Кравцов. Москва-Ленинград, 1933

Сидорова Е.Н (1966). “Исторические песни”, Русское народное творчество. Москва: Высшая школа

Соколов Юрий Матвеевич (1931). “Дискуссия о значении фольклора и фольклористики в реконструктивний период”. Литература и марксизм 5: с.91-114

Соколов Юрий Матвеевич (1938). Русский фольклор. Москва: Учпедгиз

Сумцов Николай Федорович (1907). “Разбойничьи песни”, Энциклопедический словарь Брокгауза и Ефрона. Т. 86. СПб

Филиппов Сергей Никитич (1887). Поволжье, Дон и Кавказ: Путевые эскизы и силуэты. Москва: К.Ф. Одарченко и К...ий

Шептунов И.М. (1951). “Болгарские хайдутские песни”. Славянский фольклор. Материалы и исследования по истории народной поэзии славян. Москва: Акад. наук СССР. Труды Ин-та этнографии им. Миклухи-Маклая

Шептунов И.М. (1976). “Историзм хайдутского фольклора народов восточной Европы”. Фольклор и историческая действительность (Тезисы докладов). Махачкала

## İnternet materialları


az.wikibooks.org/wiki/XX_əsrdə_Azərbaycanda_milli_azadlıq_hərəkatı

az.wikibooks.org/wiki/XX_əsrdə_Azərbaycanda_milli_azadlıq_hərəkatı

az.wikipedia.org/wiki/Gəncə_üsyanı_(1920)

az.wikipedia.org/wiki/Gəncə_üsyanı_(1920)

https://az.wikibooks.org/wiki/XX_əsrdə_Azərbaycanda_milli_azadlıq_hərəkatı

https://az.wikipedia.org/wiki/Azərbaycanda_qaçaq_hərəkatı

https://az.wikipedia.org/wiki/Gəncə_üsyanı_(1920)

https://az.wikipedia.org/wiki/Qaçaq_İsaxan

https://az.wikipedia.org/wiki/Qaçaq_Rəşid

https://az.wikisource.org/wiki/Aşıq_Ələsgərlə_Dəli_Alı

https://ok.ru/cehalet/topic/64819047631632

https://publika.az/news/qirmizi/114219.html

https://news.milli.az/society/391776.html

https://ru.wikipedia.org/wiki/Разбойничьи_песни

www.qafqazinfo.az/.../serdar-celalogludan-bir-daha-semed-v..

https://idrisheyderli.livejournal.com/53398.html

https://news.milli.az/society/391776.html

https://es-la.facebook.com/.../posts/aşiq...səməd-ağa...dastanın...-/806319832836606/

modern.az/az/news/18447/

modern.az/az/news/18577

portal.azertag.az/node/376

tolpress.az/.../132-l-nk-ran-g-zasinda-gadzagdzilig-h-r-kati

www.xalqcebhesi.az/news.php?id=14961

www.rasulzade.org

en.wikipedia.org/wiki/Social bandits

ganca.org/index.php?option...id...qacaq...aslan

**Füzuli Bayat.**
**Qaçaq folkloru sosial-iqtisadi və siyasi-mədəni kontekstdə.**
Bakı, Elm və təhsil, 2019.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/ 16
Mətbəə kağızı: №1
Həcmi: 304 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.